

*Haqq-ədalət bizim tərəfimizdədir,*
*beynəlxalq hüquq bizim tərəfimizdədir,*
*biz heç kimdən qorxmuruq və bunu göstərmişik,*
*həm döyüş meydanında, həm siyasi müstəvidə.*

**İLHAM ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:
## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2023**
**3 (83)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2023**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Namiq Əliyev, Ziyafət Həbibova, Hikmət Məmmədov, Elçin Əhmədov, İsaxan Vəliyev, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Elvin Əzizbəyov, Sevil Məmmədova, Firdovsiyyə Əhmədova, Yusif Ağayev***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2023, №3(83).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2023, 272s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2023*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2023
3 (83)

ACADEMY OF PUBLIC ADMINISTRATION

BAKU – 2023

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Namiq Aliyev, Ziyafet Habibova, Hikmat Mammadov, Elchin Ahmadov, Isakhan Valiyev, Khatira Huseynova, Gulnara Gurbanova, Elvin Azizbayov, Sevil Mammadova, Firdovsiyya Ahmadova, Yusif Agayev***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2023, №3(83)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2023, 272p.*

*© Academy of Public Administration, 2023*

DOI: 10.30546/2309-1347.83.2023.7

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

### *İyul - avqust - sentyabr 2023-cü il*

### *İyul*

**3 iyul**
- Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydeni təbrik etmişdir.

**5 iyul**
- Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda keçirilən nazirlər görüşündə çıxış etmişdir.
- İraq Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Fuad Hüsseyni qəbul etmişdir.
- Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul etmişdir.
- İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanı qəbul etmişdir.
- Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidovu qəbul etmişdir.
- Monteneqronun Baş naziri və xarici işlər naziri vəzifəsini icra edən Dritan Abazoviçi qəbul etmişdir.
- Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikini qəbul etmişdir.

**6 iyul**
- Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Əhməd Attafı qəbul etmişdir.
- Nepal Federativ Demokratik Respublikasının xarici işlər naziri Narayan Prakaş Saudu qəbul etmişdir.
- BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovayanı qəbul etmişdir.

**7 iyul**
- Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasına rəsmi səfərə gələn Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə təkbətək görüşü keçirilmişdir.
- Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə geniş tərkibdə görüşü olmuşdur.
- Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Onun və Birinci xanım Mehriban Əliyevanın adından Albaniya Respublikasının Prezidenti Bayram Beqayın və onun Birinci xanımı Armanda Beqayın şərəfinə verilmiş rəsmi lançda iştirak etmişdir.

**8 iyul**
- Ölkəsinin milli bayramı münasibətilə Monqolustan Prezidenti Uxnaaqiyn Xurelsuxu təbrik etmişdir.

**10 iyul**
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edərək, onu Özbəkistanda keçirilən növbədənkənar prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etmiş, fəaliyyətində uğurlar arzulamışdır.

**11 iyul**
- Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyinin dövlət naziri Tobias Lindneri qəbul etmişdir.
- Onun sədrliyi ilə keçirilən 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə çıxış etmişdir.

**12 iyul**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakıda, Mərkəzi Nəbatat Bağının ərazisində aparılan abadlıq, yenidənqurma və tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Türkiyədə 15 İyul hadisələrinin yeddinci ildönümündə dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edərək, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı vermişdir.

**13 iyul**
- İsrail Dövlətinin müdafiə naziri Yoav Qallantı qəbul etmişdir.

**14 iyul**
- Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığına işgüzar səfərə gəlmişdir.
- Avropa İttifaqı Şurasının mənzil-qərargahında, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşü olmuşdur.

**15 iyul**
- Brüsseldə, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə üçtərəfli görüşü olmuşdur.
- Belçika Krallığına işgüzar səfəri başa çatmışdır.

**18 iyul**
- Azərbaycan Respublikasında işgüzar səfərdə olan İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə təkbətək görüşü olmuşdur.
- Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Belçikalıların Kralı Əlahəzrət Filipi təbrik etmişdir.

**19 iyul**
- Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovu qəbul etmişdir.

**20 iyul**
- Cəlilabad rayonunda olmuşdur.
- Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak etmişdir.
- Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.
- Füzuli rayonunda olmuşdur.
- 1-ci texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Füzuli Beynəlxalq Hava Limanına qədər olan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olmuşdur.
- Xocalı rayonunun işğaldan azad edilmiş Çanaqçı və Sığnaq kəndlərində olmuşdur.
- Çinin "China Media Group" media korporasiyasına müsahibə vermişdir.
- Ölkəsinin milli bayramı – İnqilab Günü münasibətilə Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisini təbrik etmişdir.

**21 iyul**
- Şuşa rayonunun Daşaltı kəndinin yenidən qurulması ilə bağlı görüləcək işlərlə tanış olmuş, burada özəl investisiya hesabına inşa ediləcək yeni yaşayış kompleksinin və turizm obyektlərinin təməlini qoymuşdur.
- 90 çarpayılıq Şuşa şəhər xəstəxanasının binasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Şuşa şəhərində 1 nömrəli tam orta məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda keçirilən Şuşa Qlobal Media Forumun açılış mərasimində iştirak etmiş və sualları cavablandırmışdır.

**22 iyul**
- Şuşada "Euronews" televiziyasına müsahibə vermişdir.

**24 iyul**
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona Özbəkistanın inkişafı naminə fəaliyyətində yeni uğurlar, möhkəm cansağlığı arzulamışdır.

**25 iyul**
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Peru Respublikasının Prezidenti xanım Dina Ersilia Boluarte Zeqarranı təbrik etmişdir

**26 iyul**
- Bakıda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Şimal" Elektrik Stansiyasının yeni estakadasının, su nasos stansiyalarının və "Şimal" Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak etmişdir.
- Syerra-Leone Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Prezident Culius Maada Bionu təbrik etmişdir.

**27 iyul**
- Ölkəsinin milli bayramı münasibətilə Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədi təbrik etmişdir.

**29 iyul**
- Ölkəsinin milli bayramı münasibətilə İsveçrə Konfederasiyasının Prezidenti Alan Berseni təbrik etmişdir.

## *Avqust*

**3 avqust**
- İtaliyanın "Leonardo" şirkətinin direktorlar şurasının sədri Stefano Pontekorvonu qəbul etmişdir.
- ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul etmişdir.

**7 avqust**
- Qazax rayonuna səfər etmişdir.
- Ümummilli Lider Heydər Əliyevin Qazax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.
- Qazax rayonunda yenidən qurulan Qarapapaq-Çaylı avtomobil yolunun açılışında iştirak etmişdir.
- Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Qazax" Əlahiddə Sərhəd Diviziyasının qarnizon kompleksində yaradılan şəraitlə tanış olmuşdur.
- Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.
- Qazax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində iştirak etmişdir.
- Qazaxda "Venzana" mebel fabrikinin açılışında iştirak etmişdir.
- "Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolunun Gəncə-Qazax-Gürcüstan ilə dövlət sərhədi (130,15 km) hissəsinin 4 zolağa genişləndirilməsi layihəsi" çərçivəsində yenidən qurulan, ümumi uzunluğu 102 kilometr olan Gəncə-Qazaxbəyli hissəsinin açılışında iştirak etmişdir.
- Şəmkir rayonuna səfər etmişdir.
- Ümummilli Lider Heydər Əliyevin Şəmkir şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.
- Şəmkir şəhəri Məhəmməd Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyin yeni binasının açılışında iştirak etmişdir.
- Samux rayonuna səfər etmişdir.
- Ümummilli Lider Heydər Əliyevin Samux şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.
- Samux Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında iştirak etmişdir.
- Samuxda Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi çərçivəsində inşa olunan Sərkar kənd uşaq musiqi məktəbinin yeni binasının açılışında iştirak etmişdir.

- Bərdə rayonuna səfər etmişdir.
- Ümummilli Lider Heydər Əliyevin Bərdə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.
- Bərdədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Qarabağ Regional DOST Mərkəzinin və Qarabağ Regional Peşə Hazırlığı Mərkəzinin açılışında iştirak etmişdir.
- Qarabağ Regional Peşə Hazırlığı Mərkəzi ilə də tanış olmuşdur.

**8 avqust**
- Xalq artisti Rasim Balayevə "İstiqlal" ordenini təqdim etmişdir.

**10 avqust**
- Rusiya Federasiyasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimovun etimadnaməsini qəbul etmişdir.

**14 avqust**
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə İndoneziya Respublikasının Prezidenti Coko Vidodonu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Qabon Respublikasının Prezidenti Ali Bonqo Ondimbanı təbrik etmişdir.

**15 avqust**
- Bakının Pirallahı rayonunda "Diamed" dərman istehsalı zavodunun açılışında iştirak etmişdir.

**18 avqust**
- Kolumbiya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luis Fernando Kuartas Ayalanın etimadnaməsini qəbul etmişdir.
- Tacikistan Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İlxom Abduraxmonun etimadnaməsini qəbul etmişdir.
- Koreya Xalq Demokratik Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sin Xon Çxolun etimadnaməsini qəbul etmişdir.

**20 avqust**
- Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə Budapeştə işgüzar səfərə gəlmişdir.
- Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban ilə görüşü olmuşdur.
- Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü xanım Jelka Tsviyanoviç və Serb Respublikasının Prezidenti Milorad Dodik ilə görüşü olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva və Macarıstanın Baş naziri Viktor Orban ilə birlikdə Macarıstanın paytaxtı Budapeştdəki Milli Atletika Mərkəzində keçirilən atletika üzrə dünya çempionatının kişilər arasında 100 metr məsafəyə qaçış yarışının finalını izləmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Budapeştdə Macarıstanın Milli bayramı – Müqəddəs Stefan Günü münasibətilə verilən ziyafətdə iştirak etmişdir.

**21 avqust**
- Macarıstana işgüzar səfəri başa çatmişdir.
- Paraqvay Respublikasının Prezidenti kimi fəaliyyətə başlaması münasibətilə Prezident Santyaqo Penyanı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Ukraynanın Prezidenti Volodimir Zelenskini təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Moldova Respublikasının Prezidenti xanım Maya Sandunu təbrik etmişdir.

**22 avqust**
- Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasına dövlət səfərinə gələn Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə təkbətək görüşü olmuşdur.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə geniş tərkibdə görüşü keçirilmişdir.
- Geniş tərkibdə görüş başa çatdıqdan sonra Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Müqavilə"ni imzalamışdır.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- "Gülüstan" sarayında onun və birinci xanım Mehriban Əliyevanın adından Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin və xanımı Ziroatxon Mirziyoyevanın şərəfinə verilmiş dövlət ziyafətində iştirak etmişdir.

**23 avqust**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi və xanımı Ziroatxon Mirziyoyevanı Füzuli rayonunda qarşılamışdır.
- Birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva ilə birlikdə Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva ilə birlikdə yeni dərs ilində bu məktəbdə təhsilə başlayacaq şagirdlərlə və burada işləyəcək müəllimlərlə görüşüb söhbət etmişdir.
- Birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva ilə birlikdə Füzuli şəhərində MİDA yaşayış kompleksində yeni evlərə köçürülmüş sakinlərlə görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva ilə birlikdə Füzuli şəhərinin Baş planı ilə tanış olmuşdur.

- Birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva ilə birlikdə Şuşa şəhərinə səfər etmişdir.
- Birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva ilə əvvəlcə Saatlı məscidində olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva ilə birlikdə Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisinə baxmışdır.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva ilə birlikdə Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin işğal dövründə Şuşada ermənilər tərəfindən güllələbaran edilmiş heykəllərinə baxmışdır.
- Birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva ilə birlikdə Cıdır düzündə olmuşdur.

**25 avqust**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Kəlbəcər rayonuna səfər etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 5,3 MVA gücündə olan "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Kəlbəcər rayonunda "İstisu" mineral sudoldurma zavodunun tikintisi və "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlər ilə tanış olmuşdur.
- Kəlbəcər rayonunda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik stansiyalarının açılışında iştirak etmiş və həmin stansiyaları işə salmışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Kəlbəcər rayonunun Zar kəndinin təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Laçın rayonuna səfər etmişdir.
- Laçın rayonunda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Mişni" və "Alxaslı" Kiçik Su Elektrik stansiyalarının açılışında iştirak etmiş və həmin stansiyaları işə salmışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Laçın Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Kəlbəcər–Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində görülən işlərlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Laçın şəhərinə yaxın ərazidə inşa ediləcək mehmanxana kompleksinin təməlqoyma mərasimində iştirak etmiş və həmin kompleksin təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Laçın rayonunun sənaye zonasında mebel fabrikinin açılışında iştirak etmiş, prefabrik modul evlərin istehsalı müəssisəsinin və xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinin fəaliyyəti ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Laçın rayonunda "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Laçın rayon 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Laçın rayonunda "Həkəri Balıq Təsərrüfatı"nın açılışında iştirak etmişdir.

**26 avqust**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Laçın rayonunun Zabux kəndində görülmüş işlərlə tanış olmuş və burada kənd sakinləri ilə görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində Mənzərəli terrasda və Bayraq Meydanının qarşısında keçirilən "Laçın Şəhəri Günü" bayram şənliklərində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə "Laçın Şəhəri Günü" bayram şənliklərində təşkil olunan sərgilərlə tanış olmuş, sənətkarlıq nümunələrinə baxmış, tamaşalar izləmiş, tədbir iştirakçıları ilə söhbət etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində iştirak və çıxış etmişdir.
- Sonra tədbirin konsert proqramını izləmişdir.
- Konsertdən sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə tədbir iştirakçıları ilə söhbət etmişdir.

**27 avqust**

- Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul etmişdir.

**28 avqust**

- Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Metin Gürakı qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Qırğız Respublikasının Prezidenti Sadır Japarovu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Malayziyanın XVI Ali Başçısı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billahı təbrik etmişdir

**29 avqust**

- Qardaş Özbəkistan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevi təbrik etmişdir.

- Ölkəsinin milli bayramı – Konstitusiya Günü münasibətilə Slovakiya Respublikasının Prezidenti xanım Zuzana Çaputovanı təbrik etmişdir

**30 avqust**
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Vyetnam Sosialist Respublikasının Prezidenti Vo Van Txıonqı təbrik etmişdir

**31 avqust**
- "Total Energies" şirkətinin baş icraçı direktoru Patrik Puyanneni qəbul etmişdir.
- San-Marinonun milli bayramı – Respublika Günü münasibətilə San-Marino Respublikasının Regent Kapitanları cənab Alessandro Skarano və xanım Adele Tonninini təbrik etmişdir.

## *Sentyabr*

**4 sentyabr**
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Braziliya Federativ Respublikasının Prezidenti Luiz İnasio Lula da Silvanı təbrik etmişdir.

**5 sentyabr**
- Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul etmişdir.
- Slovakiya parlamentinin sədri Boris Kolların rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Şimali Makedoniya Respublikasının Prezidenti Stevo Pendarovskini təbrik etmişdir.

**6 sentyabr**
- Ölkəsinin milli bayramı - Müstəqillik Günü münasibətilə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonu təbrik etmişdir.

**7 sentyabr**
- Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin iştirakçıları – Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev, Türkiyənin daxili işlər naziri Əli Yerlikaya, Qazaxıstanın fövqəladə hallar naziri Sırım Şaripxanov, Qırğızıstanın fövqəladə hallar naziri Boobek Ajikeev, Özbəkistanın fövqəladə hallar naziri Abdulla Kuldaşev və Şimali Kiprin daxili işlər naziri Dursun Oğuzu qəbul etmişdir.
- Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Yurgen Riqterinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**11 sentyabr**
- Azərbaycan Respublikasında səfərdə olan İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Avi Dixteri videokonfrans formatında qəbul etmişdir.

**12 sentyabr**
- İki min şagird yerlik Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak etmişdir.
- Yeni təhsil ocağının məktəbəqədər hazırlıq, ibtidai sinif otaqlarında, biologiya kabinetində, çağırışaqədər hərbi hazırlıq otağında, STEAM Mərkəzində, fizika kabinetində, kimya laboratoriyasında, informatika otağında, idman zalında və yeməkxanada yaradılan şəraitlə tanış olmuşdur.
- Qarşıdan gələn yəhudi yeni ili – Roş ha-Şana bayramı münasibətilə İsrail Dövlətinin Prezidenti İsxak Hersoqu təbrik etmişdir.

**14 sentyabr**
- Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə fəxri qonaq qismində iştirak etmək üçün Tacikistana səfərə gəlmişdir.
- Düşənbədə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olmuşdur.
- Düşənbədə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə fəxri qonaq qismində iştirak və çıxış etmişdir
- Tacikistanın paytaxtı Düşənbə şəhərində Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə iştirak edən prezidentlər ilə birlikdə "Dostluq Axşamı" konsert proqramına baxmışdır.
- Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə iştirak edən digər prezidentlər ilə birlikdə Düşənbədəki "EKSPO Mərkəzi Asiya 2023" sərgisi ilə tanış olmuşdur.
- Düşənbədə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun adından Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə iştirak edən prezidentlərin şərəfinə verilmiş rəsmi qəbulda iştirak etmişdir.
- Sonra digər dövlət başçıları ilə birlikdə Tacikistanın təbii sərvətlərinin nümayiş olunduğu sərgiyə baxmışdır.
- Daha sonra Məşvərət görüşündə iştirak edən prezidentlər ilə çay süfrəsi arxasında söhbət etmişdir.
- Müstəqil Dövlətlər Birliyinin iştirakçı dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 33-cü iclasının iştirakçılarını təbrik etmişdir.
- İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin baş prokurorlarının 4-cü iclasının iştirakçılarını təbrik etmişdir.

**15 sentyabr**
- Tacikistan Respublikasına səfəri başa çatmışdır.
- "Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktiki konfransın iştirakçılarını təbrik etmişdir.

**18 sentyabr**
- "İtkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması üçün milli və beynəlxalq səylərin artırılması" mövzusunda beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.

- Bəstəkar Arif Məlikovun 90 illik yubileyi və Milli Musiqi Günü münasibətilə Azərbaycan musiqi ictimaiyyətini təbrik etmişdir

**20 sentyabr**

- Xalqa müraciət etmişdir.
- Sosial şəbəkə hesablarında paylaşım etmiş, paylaşımda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkürünü bildirmişdir.
- BP şirkətinin İdarə Heyətinin sədri Helqe Landı qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Krallıq elan edilməsi Günü münasibətilə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səudu təbrik etmişdir

**22 sentyabr**

- Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Roland Praysı qəbul etmişdir.

**23 sentyabr**

- Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir.

**25 sentyabr**

- Naxçıvanda rəsmi qarşılanma mərasimindən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasimində iştirak etmiş, həmin qaz kəmərinin təməlini qoymuşdur.
- Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimində iştirak etmiş, “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu”nu imzalamışdır.
- Sənədlərin imzalanması mərasimindən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışında iştirak etmişdir.
- Onun adından Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın şərəfinə verilmiş rəsmi naharda iştirak etmişdir.
- Azərbaycan Respublikasına rəsmi səfəri başa çatan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı yola salmışdır.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədovu təbrik etmişdir.

**27 sentyabr**

- 27 sentyabr - Anım Günü ilə əlaqədar sosial şəbəkə hesablarında “27 Sentyabr - Anım Günü” sözlərinin yazıldığı paylaşım etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakıda inşası davam etdirilən Zəfər parkında olmuş, parkın girişində xatirə daşının önünə gül dəstələri qoymuşdur.
- BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Maimuna Mohd Şərifi qəbul etmişdir.
- ABŞ Prezidentinin xüsusi nümayəndəsi, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbəri Samanta Paueri, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Yuri Kimi və ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul etmişdir.

**28 sentyabr**

- Cəbrayıl rayonuna səfər etmişdir.
- Cəbrayıl şəhərində inzibati binanın təməlini qoymuşdur.
- Cəbrayıl şəhərində Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən inşa edilən ilk yaşayış məhəlləsi – Cəbrayıl Yaşayış Kompleksində aparılan tikinti işləri ilə tanış olmuşdur.
- “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin açılışını etmişdir.
- Zəngilan rayonunda olmuşdur.
- Alıbəyli kəndinin təməlini qoymuşdur.
- Zəngilan Konqres Mərkəzi Kompleksinin açılışını etmişdir.
- “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin “Cahangirbəyli” Su Elektrik Stansiyasının açılışında iştirak etmişdir.
- Zəngilan rayonunda Zəngilan kəndinin təməlini qoymuşdur.
- Zəngilan şəhərində 2-ci yaşayış kompleksinin təməlini qoymuşdur.
- Heydər Əliyev Fondu tərəfindən inşa edilən Zəngilan şəhər məscidində görülən işlərlə tanış olmuşdur.
- Zəngilan şəhərində 3-cü yaşayış kompleksinin təməlini qoymuşdur.
- Zəngilan şəhərində 4-cü yaşayış kompleksinin təməlini qoymuşdur.
- Zəngilan şəhərində 160 yerlik uşaq bağçasının təməlini qoymuşdur.

**29 sentyabr**

- BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən “Şəhərsalma Həftəsi 2023” tədbirləri çərçivəsində Zəngilanda “Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi” mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimində iştirak və çıxış etmişdir.

**30 sentyabr**

- Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Kley Mourini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Çin Xalq Respublikasının Sədri Si Cinpini təbrik etmişdir.
- 3 Oktyabr – Alman Birliyi Günü münasibətilə Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayeri təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Koreya Respublikasının Prezidenti Yun Sok Yolu təbrik etmişdir.

DOI: 10.30546/2309-1347.83.2023.13

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

### *İraq Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Fuad Hüsseynin qəbulu*

İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İraq Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Fuad Hüsseyni qəbul edib.

Dövlətimizin başçısı bu ilin martında Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü zamanı İraq Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşünü məmnunluqla xatırladı, həmin görüş zamanı Azərbaycan-İraq əlaqələrinə dair geniş fikir mübadiləsinin aparıldığını qeyd etdi.

Fuad Hüsseyn İraqın Prezidenti Əbdüllətif Camal Rəşidin və Baş naziri Şiya əs-Sudaninin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İraqın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

İraqın Baş nazirinin müavini, xarici işlər naziri ölkələrimiz və xalqlarımız arasında tarixi əlaqələrin olduğunu vurğuladı.

Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlarda, o cümlədən Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, OPEC+ formatı çərçivəsində uğurla əməkdaşlıq etdikləri bildirildi.

Fuad Hüsseyn İraqın Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini daim dəstəklədiyini bildirdi, ölkəmizin Hərəkata uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Görüşdə münasibətlərimizin müxtəlif istiqamətlərdə inkişaf perspektivləri, o cümlədən enerji və turizm sahələrində əməkdaşlıq, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. Xüsusilə turizm sahəsində əlaqələrin COVID-19-dan əvvəlki dövrdəki uğurlu dinamikaya uyğun olaraq genişləndirilməsi, İraqın və Azərbaycanın müxtəlif şəhərləri arasında birbaşa hava reyslərinin açılması, sərmayələr, kənd təsərrüfatı sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu. Həmçinin rəsmi və biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi qeyd edildi.

### *İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın qəbulu*

İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanı qəbul edib.

İranın xarici işlər naziri onu qəbul etdiyinə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi.

Hüseyn Əmir Abdullahiyan İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə Azərbaycanı təbrik edən İranın xarici işlər naziri ölkəmizin sədrliyi dövründə Hərəkatın davamlı və dinamik surətdə inkişaf etdiyini vurğuladı.

Hüseyn Əmir Abdullahiyan Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının nazirlər görüşünün açılış mərasimindəki çıxışında çox vacib məqamlara toxunduğunu deyərək bu tədbirin əhəmiyyətini qeyd etdi, onun gündəliyindəki çox vacib məsələlərin müzakirə olunduğunu vurğuladı.

İranlı nazir ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafında müsbət dinamikanın olduğunu dedi, Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsində Azərbaycanla İranın mühüm rol oynadığını diqqətə çatdırdı.

Azərbaycan səfirliyinə qarşı törədilmiş terror aktının İranın məhkəmə və hüquq-mühafizə orqanları tərəfindən çox ciddi şəkildə araşdırıldığını bildirən nazir Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyətinin tezliklə bərpa olunacağına ümidvarlığını ifadə etdi.

Prezident İlham Əliyev öz növbəsində Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilən terror aktında müqəssir olan şəxslərin layiqli cəzasını alacaqlarına ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatında rolundan və onun təsisatlanması istiqamətində həyata keçirdiyi işlərdən danışdı.

Söhbət zamanı iqtisadi-ticari əlaqələrin son dövrlərdə artan dinamikası məmnunluqla qeyd edildi, Şimal-Cənub nəqliyyat dəhlizinin, həmçinin bu marşrutla bərabər, Şərqi Zəngəzur iqtisadi rayonu ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında kommunikasiya bağlantılarının icrasının inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Hər iki ölkənin aidiyyəti nümayəndə heyətlərinin yaxın vaxtlarda görüşünün keçiriləcəyi müsbət hal kimi qeyd olundu.

### *Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanın qəbulu*

İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib.

Hakan Fidanı Türkiyənin xarici işlər naziri təyin edilməsi münasibətilə təbrik edən Prezident İlham Əliyev ona fəaliyyətində uğurlar arzuladı. Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın seçkilərdən sonra Azərbaycana dövlət səfərini ölkələrimiz arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin nümunəsi kimi qiymətləndirdi.

Təbrikə görə minnətdarlığını bildirən Hakan Fidan həm çalışdığı əvvəlki vəzifələrdə, həm də hazırda xarici işlər naziri kimi Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq və dostluq münasibətlərinin inkişafını daim rəhbər tutduğunu qeyd etdi, Türkiyənin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünə dəvət olunmasına görə təşəkkürünü bildirdi.

Türkiyənin xarici işlər naziri Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə dövlətimizin başçısını təbrik etdi və bununla da ölkəmizin çox önəmli prosesə rəhbərlik etdiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının təsisatlanması prosesində ölkəmizin gördüyü işlər, həmçinin sədrlik prosesi barədə məlumat verdi.

Söhbət zamanı regional məsələlərə dair fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində gedən proseslər barədə danışdı.

Görüşdə Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin strateji müttəfiqlik zəminində, "bir millət, iki dövlət" prinsipi əsasında bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin daim bir-birinin yanında olduqları qeyd edildi.

### *Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidovun qəbulu*

İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidovu qəbul edib.

Baxtiyor Saidov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin əziz dostu və qardaşı Prezident İlham Əliyevə salamlarını çatdırıb.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.

Baxtiyor Saidov Azərbaycanın Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrliyi və nazirlər görüşünün uğurla keçirilməsi münasibətilə təbriklərini ifadə etdi. O, Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri çərçivəsində iki ölkə başçısının müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq fəaliyyətin davam etdirildiyini və qarşıya qoyulmuş bütün məqsədlərin diqqətdə saxlanıldığını vurğuladı.

Prezident İlham Əliyev öz növbəsində Özbəkistana dövlət səfərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərdə Özbəkistan tərəfindən məktəb tikintisi layihəsinin xüsusi önəm daşıdığını bildirdi, Prezident Şavkat Mirziyoyevin tezliklə Azərbaycana səfərinin gözlənildiyini qeyd etdi.

Söhbət zamanı Azərbaycanın və Özbəkistanın Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq etdikləri diqqətə çatdırıldı, ikitərəfli gündəlikdə duran məsələlərə dair fikir mübadiləsi aparıldı.

### *Monteneqronun Baş naziri və xarici işlər naziri vəzifəsini icra edən Dritan Abazoviçin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Monteneqronun Baş naziri və xarici işlər naziri vəzifəsini icra edən Dritan Abazoviçi qəbul edib.

Dritan Abazoviç Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünə dəvətə görə təşəkkürünü bildirdi və Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı Prezident İlham Əliyevin və Baş nazir Dritan Abazoviçin bu il Davosda keçirilmiş görüşü məmnunluqla xatırlandı.

Görüşdə Monteneqronun Azərbaycan ilə enerji, turizm, investisiyalar və digər sahələrdə əməkdaşlığın inkişafında maraqlı olduğu qeyd edildi, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinə dəstəyi vurğulandı.

### *Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikinin qəbulu*

İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikini qəbul edib.

Riad Əl-Maliki Azərbaycanın Fələstində diplomatik nümayəndəliyinin açılması ilə bağlı təşəkkürünü bildirdi. O, Azərbaycanın xarici işlər nazirinin Fələstinə səfərinin önəmini vurğuladı, bu addımların Azərbaycanla Fələstin arasında ikitərəfli əlaqələrin inkişafına ciddi təkan verəcəyinə əminliyini ifadə etdi.

Fələstinin xarici işlər naziri Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. O, Azərbaycanın Fələstinə göstərdiyi daimi humanitar yardımın və dəstəyin Fələstin xalqı tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı.

Riad Əl-Maliki Azərbaycanı öz torpaqlarını işğaldan azad etməsi münasibətilə təbrik etdi.

Azərbaycan Prezidenti Fələstin Dövlətinin Baş naziri Mohammed Ştayyeh ilə görüşünü məmnunluqla xatırladı. Dövlətimizin başçısı bu görüş əsnasında Fələstində Azərbaycan tərəfindən məktəbin tikilməsi layihəsi barədə müraciətin olduğunu qeyd edərək, buna müsbət münasibətin bildirildiyini və tezliklə bu layihənin icra olunacağını dedi. Dövlətimizin başçısı Azərbaycanın Fələstində diplomatik nümayəndəliyinin açılmasını müsbət addım kimi dəyərləndirdi.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

### *Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Əhməd Attafının qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Əhməd Attafı qəbul edib.

Əhməd Attaf Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunun salamlarını dövlətimizin başçısına çatdırdı, Prezident İlham Əliyevin onun dəvəti ilə Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında xüsusi qonaq qismində iştirakına görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev salamlara və Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında iştiraka dəvətə görə Əlcəzair Prezidentinə təşəkkürünü bildirdi və onun da salamlarını Abdelmacid Tebbuna çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı, həmçinin Əlcəzair Prezidentini ölkəmizə rəsmi səfərə dəvət etdi.

Əhməd Attaf Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyinə, Hərəkatın təsisatlanması istiqamətində həyata keçirdiyi işlərə görə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı ölkələrimiz arasında tarixi əlaqələrin olduğunu qeyd etdi, Sovetlər Birliyi dövründə çox sayda azərbaycanlı mütəxəssisin Əlcəzairdə fəaliyyət göstərdiyini, bu ölkənin inkişafına öz töhfələrini verdiyini vurğuladı, eyni zamanda, həmin dövrdə Əlcəzairdən olan çox sayda tələbənin də Azərbaycanda təhsil aldığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatının təsisatlanması çərçivəsində həyata keçirdiyi işlərdən danışdı, ölkəmizin təşəbbüsü ilə bu Hərəkatın gənclər təşkilatının və parlament şəbəkəsinin yaradıldığını dedi, Azərbaycanın, eyni zamanda, Qoşulmama Hərəkatı çərçivəsində qadın platformasının yaradılması təşəbbüsü ilə çıxış etdiyini, sədrlik dövründə bu istiqamətdə də müvafiq tədbirləri həyata keçirəcəyini vurğuladı.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatına Azərbaycanın sədrliyinin uğurla həyata keçirilməsində göstərdiyi dəstəyə görə Əlcəzair tərəfinə təşəkkürünü bildirdi.

Görüşdə Azərbaycan ilə Əlcəzair arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, beynəlxalq təşkilatlar çərçivəsində, həmçinin OPEC+ formatında əməkdaşlıq məsələləri müzakirə olundu.

### *Nepal Federativ Demokratik Respublikasının xarici işlər naziri Narayan Prakaş Saudun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Nepal Federativ Demokratik Respublikasının xarici işlər naziri Narayan Prakaş Saudu qəbul edib.

Bakının gözəlliyinin onu valeh etdiyini deyən Narayan Prakaş Saud Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qısa müddət ərzində böyük nailiyyətlər əldə etdiyini vurğuladı, Azərbaycanın

inkişaf etməkdə olan ölkələr üçün nümunə olduğunu dedi. Nepalın xarici işlər naziri ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Nepallı tələbələrin Azərbaycanın təqdim etdiyi təqaüd proqramları çərçivəsində təhsil aldıqlarını deyən qonaq buna görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Nepalın beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığını qeyd etdi, ölkələrimiz arasında münasibətlərin həmişə yaxşı olduğunu, lakin əlaqələri daha da genişləndirmək üçün böyük imkanların mövcudluğunu vurğuladı.

Dövlətimizin başçısı ölkəmizin təşəbbüsü ilə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradıldığını dedi, hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində iş aparıldığını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uğurla həyata keçirilməsində göstərdiyi dəstəyə görə Nepala təşəkkürünü bildirdi.

Görüşdə ölkələrimiz arasında biznesin, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi, bu xüsusda nümayəndə heyətlərinin mübadiləsi məsələləri müzakirə olundu.

### *BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovayanın qəbulu*

İyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovayanı qəbul edib.

Tatyana Valovaya Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə BMT-ni təmsil etdiyinə görə məmnunluğunu bildirdi və Azərbaycanın Hərəkatda uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. O, BMT-nin Cenevrə ofisi və Cenevrədə ixtisaslaşmış BMT təşkilatları ilə ölkəmiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı.

Tatyana Valovaya BMT-nin Qadınlar Davamlı İnkişaf Məqsədi üzrə təşəbbüsünün inkişaf etdirilməsində Azərbaycanın verdiyi dəstəyi yüksək qiymətləndirdi, Prezident İlham Əliyevin minaların təmizlənməsi üzrə yeni Dayanıqlı İnkişaf Məqsədinin yaradılması təşəbbüsünün çox dəyərli və vacib olduğunu vurğuladı. O, BMT çərçivəsində üzv dövlətlərlə birgə bu istiqamətdə müzakirə aparılmasının mümkünlüyünü və önəmini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi təşkilatın təsisatlanmasına və ölkəmizin multilateralizmə daim böyük əhəmiyyət verdiyini bildirdi, Hərəkatın təsisatlanması istiqamətində ölkəmiz tərəfindən aparılan işlərin, xüsusilə də Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması təşəbbüslərini qeyd etdi. Prezident İlham Əliyev, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində qadın platformasının yaradılması istiqamətində təşəbbüslə çıxış etdiyini vurğuladı. Azərbaycanın Ermənistan işğalından azad edilmiş torpaqlarımızın minalarla çirkləndirilməsi problemi ilə üzləşdiyini qeyd edən dövlətimizin başçısı minaların təmizlənməsinin də Dayanıqlı İnkişaf Məqsədi kimi təsbit olunmasının vacibliyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təşəbbüsü ilə çıxış etdiyini və ölkəmizin humanitar minatəmizləmə sahəsində müasir texnologiyalardan səmərəli şəkildə istifadə etdiyini bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, 2020-ci il noyabrın 10-dan sonra 300-dən çox azərbaycanlı mina partlaması nəticəsində həlak olub və ya ağır yaralanıb.

Görüşdə BMT sistemində çalışan Azərbaycan vətəndaşlarının mövcud kvotalara uyğun olaraq sayının artırılması məsələsinin vacibliyi də müzakirə edildi.

### *Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolini qəbul edib.

Prezident İlham Əliyev münasibətlərimizin dərinləşdirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd edərək, özünün 2020-ci ildə Vatikana səfərini və Pietro Parolin ilə görüşünü, həmçinin Roma Papası Fransiskin ölkəmizə səfərini məmnunluqla xatırladı.

Dövlətimizin başçısı kardinal Pietro Parolinin səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyinə əminliyi vurğuladı.

Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu ifadə edən kardinal Pietro Parolin Roma Papası Fransiskin salamlarını və ən xoş arzularını, həmçinin ölkəmizdə katolik icmaya göstərilən diqqətə görə təşəkkürünü dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papasına çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Azərbaycanın Müqəddəs Taxt-Tacda səfirliyinin açılmasını qeyd etdi.

Kardinal Pietro Parolin səfirliyin açılmasına görə təşəkkürünü bildirdi, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi.

Kardinal Pietro Parolin ölkəmizdə dini abidələrin bərpası istiqamətində görülən işləri vurğuladı, katolik kilsəsində aparılan bərpa işlərinə görə Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirdi.

***Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyinin dövlət naziri Tobias Lindnerin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyinin dövlət naziri Tobias Lindneri qəbul edib.

Görüşdə ikitərəfli münasibətlərin inkişaf dinamikasının artdığı qeyd edildi, Prezident İlham Əliyevin bu ilin mart ayında Almaniyaya səfərindən sonra ölkələrimiz arasında əlaqələrdə yeni səhifənin açıldığı məmnunluqla vurğulandı.

Söhbət zamanı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi və sülhün əldə edilməsi istiqamətində ölkəmiz tərəfindən göstərilən səylərdən danışıldı.

Enerji sahəsində əməkdaşlıq və bu əməkdaşlığın gücləndirilməsi, həmçinin Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində imzalanmış Anlaşma Memorandumu ilə bağlı fikir mübadiləsi aparıldı.

***Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşun qəbulu***

İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu qəbul edib.

Numan Kurtulmuş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Türkiyədə keçirilmiş prezident və parlament seçkilərində qələbə münasibətilə bir daha təbriklərini çatdırdı.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası sahədə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. Numan Kurtulmuşun səfərinin əlaqələrimizin inkişafına töhfə verəcəyi qeyd olundu.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsinin, bu təşkilat və TÜRKPA formatında əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyi vurğulandı.

***İsrail Dövlətinin müdafiə naziri Yoav Qallantın qəbulu***

İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrail Dövlətinin müdafiə naziri Yoav Qallantı qəbul edib.

Yoav Qallant İsrailin Baş naziri Benyamin Netanyahunun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İsrailin Baş nazirinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı dövlətimizin başçısı ilə İsrailin müdafiə naziri arasında bu il Münxendə keçirilən görüş xatırlandı.

Bildirildi ki, hazırda Lənkəran Peşə Liseyi, Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi üçün binalar tikilir. Mingəçevir Peşə Təhsil Mərkəzinin binasının tikintisi isə başlamaq üzrədir. Eləcə də Füzuli Peşə Liseyi, Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi, Tovuz, Qax və Quba Peşə liseylərinin binalarının layihələndirilməsi aparılır. Qarabağda Kəlbəcər və Laçın peşə məktəblərinin tikintisi planlaşdırılır. Böyük Qayıdış Proqramı çərçivəsində ümumilikdə 8 peşə təhsil müəssisəsi tikilib istifadəyə veriləcək.

Dövlətimizin başçısı Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində yaradılan şəraitlə tanış oldu.

Ən müasir infrastruktur, maddi-texniki baza ilə təchiz olunan Mərkəzin ərazisində 25 sinif otağı, 3 laboratoriya, 13 emalatxana, informatika kabineti, STEAM Mərkəzi, praktiki məşğələ otağı, kitabxana, 252 yerlik akt zalı, 128 yerlik yeməkxana, idman zalları və meydançaları, avtotəmir binası, maldarlıq ferması və digər köməkçi binalar yerləşir.

Peşə Təhsil Mərkəzində qənnadıçı, şirniyyatçı, dərzi, kompüterlərin təmiri və xidməti üzrə texnik, mühasibat uçotu, qrafik dizayner, veb-dizayn və proqram təminatı, çilingər-santexnik, geniş profilli traktorçu-maşinist, elektrik montyoru, bərbər-vizajist-manikürçü, avtomobillərin təmiri çilingəri, avtomobil

sürücüsü, mebel ustası istiqamətləri üzrə mütəxəssis hazırlığı aparılacaq.

Eyni zamanda, kənd təsərrüfatı mütəxəssislərinə artan tələbatı nəzərə alaraq bu sahə üzrə tədrisə xüsusi diqqət yetirilib. Müəssisədə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə fermer, bitkiçilik, heyvandarlıq və baytarlıq üzrə mütəxəssislər də hazırlanacaq.

Qeyd edək ki, son illərdə Azərbaycanda peşə təhsilinin inkişafı istiqamətində əhəmiyyətli addımlar atılıb. Prezident İlham Əliyevin 2016-cı il 20 aprel tarixli Fərmanına əsasən, Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması, peşə təhsilinin yeni çağırışlara uyğunlaşdırılması, peşə təhsil müəssisələrinin rolunun və statusunun yüksəldilməsi bu sahəyə xüsusi diqqətin təzahürüdür.

Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin istifadəyə verilməsi bölgələrdə gənclərin yeni tələblərə uyğun bilik və bacarıqlara yiyələnməsinə, eləcə də məşğulluq məsələlərinin həllinə xidmət edəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Füzuli rayonunda olub.

Dövlətimizin başçısı 1-ci texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Füzuli Beynəlxalq Hava Limanına qədər olan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi sürətlə davam etdirilir. Mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yolun Tuğ dairəsinədək olan 48 kilometrlik hissəsi altı, 33,7 kilometrlik hissəsi isə dörd hərəkət zolağından ibarət olacaq.

Yolun baxış keçirilən 27 kilometrlik hissəsində əsas infrastruktur işləri tam icra olunub. Ümumilikdə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 50 faizi tamamlanıb. Yolboyu müxtəlif diametrli 137 suötürücü boru, 30 yeraltı keçid, 8 körpü, 7 tunel və 9 viaduk inşa edilir. Körpülərin ümumi uzunluğu 984, viadukların uzunluğu isə 2090 metrdir.

Məlumat verildi ki, layihə üzrə tikintisi nəzərdə tutulmuş doqquz viadukun səkkizində hazırda inşaat işləri davam etdirilir. Viadukların üçünün tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilir. Bundan başqa, Zəfər yolunun Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoluna birləşən hissəsində yol qovşağının tikintisi işləri də uğurla icra olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Xocalı rayonunun işğaldan azad edilmiş Çanaqçı və Sığnaq kəndlərində olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Şuşa rayonunun Daşaltı kəndinin yenidən qurulması ilə bağlı görüləcək işlərlə tanış olub, burada özəl investisiya hesabına inşa ediləcək yeni yaşayış kompleksinin və turizm obyektlərinin təməlini qoyub.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Şuşa şəhəri üçün strateji əhəmiyyət daşıyan Daşaltı kəndinin bərpası qarşıya qoyulan əsas məqsədlərdəndir. Kəndin inkişafı, burada məskunlaşacaq əhali üçün rahat və sağlam yaşayış mühitinin yaradılması, sakinlərin məşğulluq sahələri və istirahət əraziləri ilə təmin edilməsi prioritetlər arasındadır. Bunu nəzərə alaraq yenidənqurma üzrə təqdim olunan konsepsiya ərazinin təbii landşaftını qorumaqla Daşaltı kəndinin müasir tələblərə cavab verən yenilənəcək simasını nümayiş etdirir. Kənddə ictimai və yaşayış mərkəzlərinin, mədəniyyət və təhsil ocaqlarının qurulması, sosial və ictimai obyektlərin inşası, turizm sahələrinin yaradılması, nəqliyyat və kommunikasiya xətlərinin çəkilməsi, ərazinin yaşıllaşdırılması, kəndin ekoloji təmiz enerji ilə qidalandırılması üçün infrastrukturun təmin olunması nəzərdə tutulur.

Qeyd olundu ki, görüləcək işlər 65 hektara yaxın ərazini əhatə edir. Buraya 220 ailənin köçürülməsi planlaşdırılır. Məskunlaşdırılması nəzərdə tutulan əhalinin ümumi sayı isə 1100 nəfər olacaq. Sakinlərin yaşayışı üçün ümumilikdə 228 ev – ikimərtəbəli çoxmənzilli 9 bina, ikimərtəbəli bloklaşdırılmış ("townhouse" tipli) 66 ev və 153 ikimərtəbəli fərdi ev tikiləcək. Kənddə, həmçinin məscid, Bayraq meydanı, informasiya mərkəzi, qonaq evi, xalq sənətkarlığı emalatxanaları, qida məhsullarının satış köşkləri, ictimai-iaşə və ticarət obyektləri, sərgi salonu, uşaq bağçası, inzibati bina, tibb məntəqəsi, poçt şöbəsi, klub-icma mərkəzi, otel və istirahət mərkəzi, aktiv turizm və istirahət zonalarının yaradılması planlaşdırılır.

Bildirildi ki, ikimərtəbəli bloklaşdırılmış ("townhouse" tipli) evlər konsepsiyası kənd ərazisində şəhərin praktikliyini təmin etmək məqsədi daşıyır. Bir-birindən ortaq divarla ayrılan üçotaqlı və dördotaqlı yaşayış blokları optimal quruluşuna görə az sahədə bir neçə ailənin yaşamasına imkan yaradır və eyni zamanda, onların hər birini şəxsi həyət və terras ilə təmin edir. Həmçinin azmərtəbəli çoxmənzilli tikililər ərazidə yüksək sıxlıq yaratmamaqla əhalini kiçik sahədə yerləşdirmək imkanı verdiyinə görə kəndin planlaşdırılmasında ən optimal həll hesab olunur. Binaların ətrafında sakinlər üçün ümumi istirahət sahələri, yaşıllıqlar, avtomobil dayanacaqları nəzərdə tutulub.

Qeyd edildi ki, Daşaltı kəndində özəl sektor üçün investisiya zonasında nəzərdə tutulan evlərin və turizm obyektlərinin tikintisi "PMD Group" MMC tərəfindən yerinə yetirilir. Daşaltıda 2,4 hektar ərazidə kənd otel və istirahət mərkəzi tikiləcək. Otel kompleksi ikimərtəbəli 10 binadan ibarət olacaq. Ümumilikdə 48 nöm-

rədən ibarət olacaq otel kompleksində restoran, əyləncə və idman-sağlamlıq mərkəzləri, uşaqlar üçün oyun meydançası, istirahət parkı yaradılacaq.

İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 90 çarpayılıq Şuşa şəhər xəstəxanasının binasında tikinti işlərinin gedişi ilə tanış olub.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Xatırladaq ki, Şuşa şəhər xəstəxanasının təməli 2021-ci il noyabrın 7-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Məlumat verildi ki, 3,7 hektara yaxın sahədə inşa edilən xəstəxana binasının tikinti işlərinə bu ilin yanvarında başlanılıb. Xəstəxana binası 4-ü dördmərtəbəli, 2-si isə birmərtəbəli olmaqla 6 korpusdan ibarətdir. Binanın zirzəmi hissəsindən stasionar tibbi xidmət və sığınacaq kimi istifadə olunacaq, zərurət yarandıqda hərbi hospital kimi fəaliyyət göstərəcək. Stasionar xidmət sahəsində qəbul, terapiya, pediatriya, cərrahiyyə, doğuş, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya–reanimasiya, hemodializ şöbələri fəaliyyət göstərəcək.

Ambulator xidmət sahəsində isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin klinik diaqnostik laboratoriya yaradılacaq.

Xəstəxananın Təcili Tibbi Yardım Stansiyası müasir standartlara cavab verən və böyük vəsait tələb edən tibbi avadanlıqlar – 1.5 TL maqnit-rezonans tomoqrafiya və 32 kəsikli kompüter tomoqrafiya aparatları ilə təchiz olunacaq. Stansiyada hər növbədə dörd briqada fəaliyyət göstərəcək.

Şuşa şəhər xəstəxanasının ərazisində, eyni zamanda, Gigiyena və Epidemiologiya Mərkəzi, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, yoluxucu xəstəliklər və hemodializ korpusları inşa olunacaq.

Qeyd edək ki, əhalinin sağlamlığı daim başçısının diqqət mərkəzindədir. Bu baxımdan işğaldan azad edilən ərazilərdə də tibb və səhiyyə xidmətlərinin təşkili və həyata keçirilməsi üçün qısa bir müddətdə genişmiqyaslı işlər həyata keçirilir. Təməli qoyulan Şuşa şəhər xəstəxanası burada yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində Prezident İlham Əliyevin birbaşa göstərişi və rəhbərliyi ilə icra olunan infrastruktur layihələrindən biridir. Bu, həm də onu göstərir ki, azad edilmiş digər ərazilərdə olduğu kimi, Şuşada da səhiyyə ocaqlarının inşası dövlətimiz üçün prioritet məsələlərdəndir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Şuşa şəhərində 1 nömrəli tam orta məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olub.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Şuşa şəhər 1 nömrəli tam orta məktəbin 960 şagird yerlik üçmərtəbəli binasında tədrisin təşkili üçün hər cür şərait yaradılıb. Məktəbdə hər biri 24 nəfərlik 40 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 texnologiya, 2 informatika otağı, 1 STEAM mərkəzi, kitabxana və oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, tibb otağı, müayinə otağı, yeməkxana, həmçinin akt və idman zalları, inzibati heyət üçün iş otaqları var. Məktəb üçün ayrılan bir hektar ərazidə futbol meydançası, transformator, fərdi qazanxana, su hovuzu və digər zəruri yardımçı binaların inşası da yekunlaşıb.

Qeyd edək ki, ölkəmizin mədəniyyət paytaxtı Şuşa Azərbaycanın ictimai-siyasi həyatında da özünəməxsus rol oynayıb. Azərbaycanın ictimai-siyasi fikir tarixində mühüm yer tutan bir sıra görkəmli şəxsiyyətlər, maarifçi ziyalılar məhz Şuşada doğulub boya-başa çatıblar. Həmin şəxslər Şuşada fəaliyyət göstərən, dövrün qabaqcıl təhsil müəssisələrinin yetirmələri idilər. Belə ki, Şuşada fəaliyyət göstərən xəttatlıq, teatr, musiqi, vokal, eləcə də ilk qızlar, rus-tatar məktəbləri, qızlar seminariyası, realnı məktəb yerli əhalinin intellektual səviyyəsini, dünyagörüşünü inkişaf etdirməyə, şəhərin ziyalı səviyyəsini qoruyub saxlamağa imkan verib. Şuşada 1 saylı tam orta məktəb binasının inşası məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Belə ki, məktəb binasının inşası bu qədim şəhərin təhsil mərkəzi şöhrətinin qaytarılması missiyasına xidmət edən növbəti addımdır.

İyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib və sualları cavablandırıb.

Mərasimdə çıxış edən Prezident İlham Əliyev dedi:

– Hörmətli qonaqlar, xanımlar və cənablar, Qarabağa, Şuşaya xoş gəlmisiniz.

Mən çox şadam ki, sizi bu gün burada görürəm, çox sağ olun bizim dəvətimizi qəbul etmisiniz və Şuşa Qlobal Media Forumunda iştirak edirsiniz. Bu, bizim ölkəmiz üçün və əlbəttə, Qarabağ bölgəsi üçün çox möhtəşəm bir tədbirdir.

Şuşa rəsmi olaraq Azərbaycanın mədəniyyət paytaxtıdır, eyni zamanda, Şuşa bizim Qələbəmizin rəmzidir, sülhün rəmzidir. Çünki Şuşa azad olunduqdan sonra İkinci Qarabağ müharibəsi başa çatdı. Siz buraya gələrkən azad olunmuş ərazilərdən keçdiniz. Siz Füzuli Hava Limanından Şuşaya elə bir yolla gəlmisiniz ki, biz onu Zəfər yolu adlandırmışıq. Bu yol nə sovet dövründə, nə də ki, işğal dövründə mövcud deyildi. Bu yol bizim qəhrəmanlarımızın cəsarəti və ruhu sayəsində açılıbdır. Biz buraya məhz bu şəkildə gəlmişik, şəhərlərimizi və kəndlərimizi azad edə-edə gəlmişik. Bu şəhər həm də bizim cəsarətimizin rəmzidir. Şuşada artıq bir neçə beynəlxalq tədbir keçirilibdir. Bu şəhərdə "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri, bir neçə beynəlxalq idman tədbiri keçirilib və nəhayət bu gün Qlobal Media Forumu keçirilir. Yəni, bu şəhər öz

kimliyini qoruya bilmişdir. Baxmayaraq ki, işğal dövründə o, məqsədli şəkildə, qəsdən dağıdılmışdır.

Mən hesab edirəm ki, uzun nitq söyləməyim, birbaşa müzakirələrə keçək və sizi maraqlandıran suallara cavab verəcəyəm. Mən burada nitqimi dayandırıram və sözü moderatora verirəm.

**Moderator:** Zati-aliləri, icazə verin, əvvəlcə, Sizə təşəkkür edim ki, bu gün bizimlə bir yerdəsiniz. Xanımlar və cənablar, cənab Prezident qeyd etdiyi kimi, müxtəlif fikir mübadiləsi aparmaq üçün buradayıq.

Cənab Prezident, icazənizlə biz iştirakçılardan suallar qəbul edəcəyik. Məlumat vermək istəyirəm ki, bəzi iştirakçılar öz suallarını artıq əvvəlcədən təqdim ediblər ki, vaxta qənaət edək. Mən onları bir-bir səsləndirəcəyəm. Ancaq iştirakçılardan xahiş edirik ki, sualları olduqca onu cənab Prezidentə təqdim etsinlər.

Cənab Prezident, icazənizlə başlaya bilərikmi?

TRT World, Türkiyə – Bora Bayraktar, buyurun.

**Bora Bayraktar:** Cənab Prezident, dəvətə görə təşəkkür edirəm. Mənim sualım Qarabağ Zəfəri ilə bağlıdır. Bilirik ki, ölkələrimiz arasında əlaqələr yüksək səviyyədədir. Əlbəttə, bu əlaqələrdə liderlərin şəxsi münasibətləri müstəsna əhəmiyyətə malikdir. Biz bilirik ki, Zati-alinizin Türkiyə Prezidenti cənab Ərdoğanla çox gözəl münasibəti var və bu xüsusi münasibətin Qarabağın azad olunmasında xüsusi rolu olmuşdur.

Cənab Prezident, Türkiyə Prezidenti artıq növbəti beş illiyə prezident seçilibdir. Bu, o deməkdir ki, Siz növbəti beş il ərzində də bir yerdə çalışacaqsınız. Zənnimcə, bu, çox gözəl bir fürsətdir. Cənab Prezident bu növbəti beş ildə Sizin prioritetləriniz nədən ibarət olacaqdır? Yəni, zənninizcə, biz bir yerdə nələri etməliyik, Türkiyə ilə əməkdaşlıq baxımından ən aktual məsələlər hansılardır?

**Prezident İlham Əliyev:** Tamamilə haqlısınız, bizim Prezident Ərdoğanla şəxsi dostluğumuz təkcə regionda deyil, dünyada məlum bir faktdır. Bu, regional inkişaf və sabitlik baxımından çox mühüm amildir. Eyni zamanda, Türkiyə və Azərbaycan xalqları arasında da münasibətlər, əlbəttə ki, uzunmüddətli dostluq və qardaşlıq əlaqələri üzərində qurulubdur. Bu, çox gözəl təməldir və bizim ölkələrimiz məhz bu təməl üzərində inkişaf edir, bir-birini dəstəkləyir. Mən deyərdim ki, İkinci Qarabağ müharibəsi zamanı Türkiyə, onun rəhbərliyi və xalqı ilk gündən, ilk saatlardan bizimlə çiyin-çiyinə dayanmışdı. O zaman Prezident Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi “Azərbaycan yalnız deyil!” bəyanatı, bizim üçün çox böyük bir dəstək idi. Bütün 44 gün ərzində biz həmin o mənəvi dəstəyi qardaşlarımızdan hiss etdik. Prezident Ərdoğan bir neçə dəfə ictimai şəkildə Türkiyənin mövqeyini bəyan etdi və digər dövlət rəsmiləri də bu məsələ ilə bağlı fikirlərini bildirdilər. Bu, bizim üçün çox böyük mənəvi və siyasi dəstək idi.

İkinci Qarabağ müharibəsində Qələbədən sonra Azərbaycan və Türkiyə de-fakto mövcud olan münasibətlərini rəsmiləşdirdi və biz bunu məşhur Şuşa Bəyannaməsini imzalayaraq müttəfiqlik səviyyəsinə qaldırdıq. Həmin Bəyannamə bu mehmanxanadan bir neçə yüz metr kənarda imzalanıb və münasibətlərimizi müttəfiqlik səviyyəsinə qaldırıb. Bu, bizim xalqlarımız və ölkələrimiz üçün çox böyük sərvətdir. Bu Bəyannamə qarşımızda yeni üfüqlər açır. Baxmayaraq ki, bundan öncə də Azərbaycan və Türkiyə bir çox sahədə birlik, həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirib. Əməkdaşlığımızın geniş gündəliyinə nəzər salsaq, siyasət, enerji, ticarət, nəqliyyat, müdafiə, müdafiə sənayesi və bir çox sahədə əməkdaşlığın olduğunu görərik. Yəni, əməkdaşlığın yüksək səviyyədə olmadığı sahəni tapmaq çətindir. Qardaşım Prezident Ərdoğanın yenidən seçiləcəyinə mənim şübhəm yox idi. Çünki onun hakimiyyətdə olduğu 20 il ərzində Türkiyə üçün etdiyi öz xalqına və ölkəsinə sadiqliyin təzahürüdür. Bu gün Türkiyə qlobal liderlərdəndir. Türkiyənin beynəlxalq nüfuzu ildən-ilə artır. Əlbəttə, Azərbaycanda elə bir adam tapmaq çətin olar ki, seçkilərin nəticəsindən məmnun olmasın. Əlbəttə ki, növbəti beş il ərzində biz sıx tərəfdaşlığımızı davam etdirəcəyik, dünya dəyişir, regionda vəziyyət dəyişir. Biz Cənubi Qafqazda vəziyyəti sabitləşdirməliyik, dayanıqlı sülhə nail olmalıyıq, gələcək üçün təhlükəsizlik təmin edilməlidir. Həm qlobal məsələlərdə və xüsusilə bizim regionda Türkiyənin rolu çox önəmli və vacibdir, o, sabitləşdirici rol oynayır. Türkiyənin siyasəti regional təhlükəsizliyi və regional inkişafı təmin etməkdir və o rol həm Azərbaycanda, həm onun hüdudlarından kənarda çox yüksək qiymətləndirilir.

Bildiyiniz kimi, Prezident Ərdoğan seçkilərdən sonra ilk dövlət səfərini Azərbaycana edibdir. Bu, ənənədir. Mən də yenidən seçilərkən ilk səfərimi Türkiyəyə etmişdim. Bundan əlavə, bildiyiniz kimi, mən Prezident Ərdoğanın inauqurasiya mərasimində iştirak etdim və orada da biz gələcək əməkdaşlıq məsələlərini müzakirə etdik. Əlbəttə, mən bütün məsələləri açıqlamaq istəməzdim, ancaq bu, məlumdur ki, qarşıdan gələn illərdə Türkiyə və Azərbaycan regionda daha önəmli rol oynayacaqdır. Əlbəttə ki, bu potensialdan istifadə edəcəyik ki, ölkələrimizi daha da yaxınlaşdıraq.

**Moderator:** ABŞ-dan olan jurnalist Ceyms Flu.

**Ceyms Flu:** Təşəkkür edirəm cənab Prezident, mənim sualım Azərbaycana qarşı olan təhlükələrlə bağlıdır. Siz ölkənizlə bağlı ən əsas təhlükələri nədə görürsünüz?

**Prezident İlham Əliyev:** Bilirsiniz, torpaqlarımızı azad edəndən sonra biz ölkəmizə qarşı potensial təhlükə görmürük. Birincisi, daxildə hər hansı bir təhlükə yoxdur, ölkə sabitdir, cəmiyyətdə həmrəyliyin səviyyəsi heç vaxt olmadığı qədər yüksəkdir, ölkənin iqtisadi inkişafı olduqca təsirlidir. Mən rəqəmlərə varmaq istəməzdim, ancaq maraqlansanız görərsiniz ki, Azərbaycanın iqtisadiyyatı özünü təmin edir, biz öz

resurslarımızla özümüzü təmin edirik və yaxşı idarəçilik həyata keçiririk. Bu baxımdan keçmişdə bizə olan təhlükə məhz Ermənistan və onun işğalı ilə bağlı idi. Həmin təhlükə 30 il ərzində məhz buradan qaynaqlanırdı və artıq biz bu təhlükənin öhdəsindən gəlmişik. Ancaq, əlbəttə, biz ayıq olmalıyıq, biz keçmişimizi unutmamalıyıq. Biz unutmamalıyıq ki, qonşularımız tərəfindən kürəyimizə bıçaq sancıldı, gözlənilmədiyi anda qonşularımız kürəyimizə bıçaq sancdı və o zaman Azərbaycanda olan xaosdan istifadə edərək ərazilərimizi işğal etdi. Eyni zamanda, biz unutmamalıyıq ki, İkinci Qarabağ müharibəsinin nəticələrinə baxmayaraq, bu gün Ermənistan cəmiyyətinin, hətta hökumətinin tərkibində müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayır və onlar bunu gizlətmirlər. Ona görə biz hər hansı bir ssenariyə hazır olmalıyıq. Bu məqsədlə biz İkinci Qarabağ müharibəsi bitən kimi, möhtəşəm Zəfərimizi nümayiş etdirən kimi dərhal yenidən müdafiə sahəsində dərin islahatlar həyata keçirməyə başlamışıq. Mən artıq bunu ictimai şəkildə bəyan etmişəm. Bu gün ordumuz üç il əvvəlki ordudan daha güclüdür. Buna, əlbəttə ki, ehtiyac var. O da bizim tariximizdən qaynaqlanır və biz görürük ki, bu gün beynəlxalq hüquq normaları kobud şəkildə pozulur. Biz görürük ki, beynəlxalq hüquq selektiv tətbiq edilir. Biz uzun illər bu yanaşmaya məruz qalmışıq. Biz səsimizi ucaldırdıq və deyirdik BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib ki, Ermənistan qoşunları dərhal və qeyd-şərtsiz Azərbaycanın ərazisindən çıxarılmalıdır. Ancaq o qətnamələrə riayət edilmirdi və bu gün həmin o tendensiya davam edir. Beynəlxalq hüquq işləməyəndə, imza o qədər də əhəmiyyətə malik olmayanda sülhün təminatı yalnız gücdür. Bunu deyərkən, əlbəttə, biz gələcəkdə yarana biləcək təhlükələri istisna etməməliyik, çünki dünya və bizim regionumuz bu gün çətin proqnozlaşdırılır. Ancaq hazırda xaricdən qaynaqlanan təhlükə səviyyəsi o qədər də yüksək deyil. Yəqin, bu, ona görədir ki, biz həmin təhlükənin öhdəsindən gələ bilirik.

**Mixail Qusman:** İcazənizlə sual vermək istəyirəm. Adım Mixail Qusmandır. Mən TASS agentliyini təmsil edirəm.

Hörmətli cənab Prezident, bir ildən bir az çox müddət əvvəl – fevralın 23-də biz TASS agentliyində həmkarlarımızla birlikdə Sizi salamlamaq şərəfinə nail olmuşduq, indi onların bir neçəsi Rusiya KİV-lərinin rəhbərləri ilə birgə bu zaldadır. Bu, Sizin Rusiya Prezidenti ilə Moskva Bəyannaməsini imzalamanızdan sonra ertəsi gün olmuşdu. Bir ildən artıq vaxt keçib. Dünya daha çox turbulent vəziyyətindədir. Azərbaycan qalib olduğu 44 günlük müharibədən sonra ardıcıl iş aparır, lakin hələ ki, Ermənistanla sülh bağlamaq mümkün olmur. Rusiya xüsusi hərbi əməliyyat aparır. Hər halda, Siz imzaladığınız bu Memorandumun inkişafını necə qiymətləndirirsiniz? O, necə yerinə yetirilir? Onun perspektivləri necədir? Fevralın 22-də Moskvada imzalanan bu Memorandumun reallaşdırılmasında problemlər varmı?

Mənim daha bir sualım olacaq. Sağ olun.

**Prezident İlham Əliyev:** Zənnimcə, ötən ilin fevralında imzalanan Bəyannamə Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafında bir mərhələdir. Bəyannamə özündə müstəqilliyin ayrı-ayrı dövrlərində müxtəlif cür inkişaf edən, lakin hər iki ölkənin uzun illər ərzində bəyan etdikləri kimi strateji tərəfdaşlıq səviyyəsinə yüksələn bu münasibətlərin inkişafı tarixini ehtiva edir. Bu, həqiqətən də belə olub, çünki iki ölkə tərəfindən görülən işin həcminə nəzər salsaq, görmək olar ki, hər iki tərəf əlaqələrin möhkəmlənməsini və konkret nəticələrə əsaslanan əməkdaşlığı hədəf götürüb.

Biz sizinlə bu münasibətlərin dərinliyini yaxşı bilirik və qarşılıqlı fəaliyyətimizin sahəsi kifayət qədər genişdir. Uzun illər Rusiyanın vasitəçi qismində mühüm rol oynadığı, həmçinin hərbi əməliyyatların dayandırılmasında mühüm rol oynadığı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin, məhz Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması bu sahələrdən biri olub.

Biz o günləri yaxşı xatırlayırıq. Məhz Rusiya tərəfi Ermənistan və Azərbaycan arasında, - mən rəhbərlik arasında nəzərdə tuturam, – 2020-ci il noyabrın 9-da, Üçtərəfli Bəyanatın razılaşdırılmasının getdiyi bir vaxtda həmin birləşdirici rolu oynamışdı. Bu səbəbdən də Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin imzalanması möhkəm təmələ malik idi.

İmzalanmadan sonrakı dövrə gəlincə, bu dövr sülh üçün, regionumuz üçün, o cümlədən Rusiya və bizim üçün tamamilə yeni dövrdür. Lakin buna və geosiyasi vəziyyətin bu cür ciddi dəyişikliyinə baxmayaraq, Bəyannamə imzalanan andan bəri Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafı kifayət qədər uğurlu olub. Yüksək səviyyədə xeyli təmaslar olub, hökumət başçıları, xarici siyasət qurumları və digər hökumət və ictimai strukturların təmsilçiləri səviyyəsində təmaslar olub. Buna görə də mən əminliklə deyə bilərəm ki, Bəyannamənin maddələri yerinə yetirilir. Başlıcası odur ki, rəhbərliklər səviyyəsində siyasi iradə mövcuddur. Burada media nümayəndələrinin təmsil olunmasından və sizin sabah və birigün həm əməkdaşlığı, həm də problemli məsələləri müzakirə edəcəyinizlə bağlı fürsətdən istifadə edərək demək istəyirəm ki, Rusiya kütləvi informasiya vasitələrində Azərbaycana münasibətdə və Azərbaycan kütləvi informasiya vasitələrində Rusiyaya münasibətdə gördüyümüz o kiçik nahamarlıqlar Azərbaycan və Rusiyanın siyasətinə heç bir təsir göstərmir.

Biz bunu dəqiq bilirik. Lakin bu, həmçinin necə deyərlər, media nümayəndələrinin öz qiymətləndirmələrində tam sərbəst olduqları zamanla bağlı məsələdir. Dünyada Rusiya-Ukrayna müharibəsinin başlanmasından, o cümlədən İkinci Qarabağ müharibəsindən sonra vəziyyət bizim regionda dramatik şəkildə

dəyişdiyi üçün, əlbəttə, müxtəlif qiymətləndirmələr, müxtəlif təhlillər və müxtəlif rəylər qaçılmazdır. Lakin yenə də imkandan istifadə edərək demək istəyirəm ki, hər halda, belə məqamlar Azərbaycan rəhbərliyinin siyasi iradəsinə təsir etmir. Ona görə düşünürəm ki, münasibətlərimizin gələcəyi də ötən illərdə olduğu kimi, belə müsbət və uğurlu olacaqdır. Sizin sualınıza Azərbaycan dilində başladığınızı nəzərə alaraq, düşünürəm ki, Siz ikinci sualınızı da dərhal indi verə bilərsiniz. Yoxsa, növbə çatmaya bilər.

**Mixail Qusman:** Təşəkkür edirəm, cənab Prezident. Mən sualımdan əvvəl böyük minnətdarlıq ifadə etmək istərdim, şəxsən Sizə və bu Forumun təşkilatçılarına. Çünki mən iki il bundan əvvəl azad olunmuş Şuşaya səfər etdim, bu xoşbəxtlik mənə qismət oldu. Şuşa da həqiqətən möhtəşəm şəkildə dəyişir və Forum da müstəsna səviyyədə təşkil olunmuşdur. İkinci sualım, son illər ərzində Azərbaycan Qoşulmama Hərəkatına uğurla rəhbərlik edir və bir ay bundan əvvəl Sizin sələfiniz Uqanda Prezidenti Museveni ilə təmasda oldum, söhbət etdim və Azərbaycanın illər boyunca Qoşulmama Hərəkatına uğurla rəhbərliyi haqqında danışdı, ona yeni nəfəs qatdığını xüsusi vurğuladı. Mənim bununla bağlı iki sualım var. Bu hərəkatın sonrakı təşəkkülünü hansı istiqamətdə görürsünüz? İkincisi, Azərbaycan Hərəkata sədrlik etdiyi dövrdə burada qadınlar forumu, gənclər forumu yaradılıb. Burada medianı da nəzərə alırıq. Necə bilirsiniz, Qoşulmama Hərəkatında media forumu təşkil olunmasını Azərbaycanda necə görürsünüz? Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun, çox yaxşı ideyadır. Zənnimcə, o, tərəfimizdən tam qəbul ediləcək. Bizim o qədər də çox vaxtımız qalmayıb, çünki bizim sədrliyimiz növbəti ilin əvvəlində başa çatır. Bu səbəbdən bunu etməyə nail olmaq üçün, yəqin ki, biz birlikdə çalışmalıyıq. Bildiyiniz kimi, təşəbbüs "cəzalandırılır", ona görə də sizi də bu tədbirin hazırlanmasında fəal iştirak etməyə dəvət edirəm. Xüsusilə, siz də qeyd etdiyiniz kimi, Qoşulmama Hərəkatının, mübaliğəsiz şəkildə deyə bilərəm ki, Azərbaycanın sədrliyi dövründə yeni nəfəs almasını nəzərə alsaq, bu, çox faydalı olacaq. Sirr deyil ki, son zamanlarda Hərəkat tədricən deqradasiyaya uğramışdı və o, praktik olaraq xüsusi davamı olmayan müəyyən məsələlərin müzakirə platformasına çevrilmişdi. Biz, bütün işlərdə olduğu kimi, həmçinin bu işimizə də böyük məsuliyyətlə yanaşdıq və institusional inkişaf istiqamətində addım-addım irəliləməyə başladıq. Düşünürəm ki, Azərbaycanın sədrliyinin yekdilliklə daha bir il müddətinə uzadılması faktı, – amma faktiki olaraq ilyarım müddətinə, – onu deməyə əsas verir ki, bizim fəaliyyətimiz qiymətləndirilib və ona ehtiyac var. Mən Sizin qeyd etdiyiniz formatlara əlavə olaraq, parlament platformasını da əlavə edərdim, bu, həmçinin institusional inkişaf baxımından çox mühüm elementdir. Hesab edirik ki, Hərəkat məhz bu yolla getməlidir. Şübhəsiz ki, biz bir neçə aydan sonra öz səlahiyyətlərimizi Uqandaya təhvil verdikdən sonra Uqandanın sədrlik edəcəyi müəyyən müddətdə hələ üçlükdə olacağıq və təbii ki, səylərin birləşdirilməsində, Hərəkatın fəaliyyətində konkret nəticələr əldə olunması işində fəal iştirak edəcəyik.

Deməliyəm ki, COVID-19 pandemiyası zamanı biz dünya ictimaiyyətinin bu problemə diqqətinin cəlb olunmasında liderlik nümayiş etdirdik. Azərbaycan sədr kimi, vaksin milliyyətçiliyinə qarşı fəal çıxış edən ölkələrdən biri olub. Biz heç kimdən çəkinməyərək, ölkələri öz adları ilə adlandırırdıq – onlar özlərinə lazım olduğundan beş dəfə artıq vaksin alırdılar, baxmayaraq ki, eyni zamanda, bir çox yoxsul ölkələr müdafiə olunmamış qalırdılar. Yəni, bu, digərləri ilə yanaşı, sadəcə olaraq, vicdansızlıqdır. Bizim təşəbbüsümüz ilə Hərəkat ölkələrində məlumat bazası yaradılıb, bu bazadan Ümumdünya Səhiyyə Təşkilatı da istifadə edib. Bundan başqa, biz humanitar və maliyyə yardımı məqsədilə 10 milyon ABŞ dolları ayırmışıq və bir çox ölkələrə vaksinlərlə yardım etmişik. Yəni, Hərəkat ölkələri gördülər ki, bu struktur, təşkilat olmasa da, öz məqsədlərinə nail ola bilərlər.

Bakıda keçirilən Sammitdə sədrliyi qəbul edərkən mən dedim ki, biz beynəlxalq hüququ, ədaləti və üzv ölkələrin legitim maraqlarını müdafiə edəcəyik. Düşünürəm ki, biz bu məsələnin öhdəsindən uğurla gəldik. İnanmaq istəyirəm ki, biz sədrlik səlahiyyətlərini təhvil verəndən sonra müsbət dinamika davam edəcək. Hər halda, biz bunun üçün əlimizdən gələni edəcəyik.

**Moderator:** "Real" Təhlil və İnformasiya Mərkəzi, Mirşahin Ağayev.

**Mirşahin Ağayev:** Cənab Prezident, 29 ildən sonra Şuşada Azərbaycan Respublikasının Prezidentinə sual vermək bəxtəvərliyini bizə nəsib etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Nəzərə alaq ki, sabah Milli Mətbuat Günüdür, bu, bizim hamımızın bayramıdır və bu bayramı ikiqat möhtəşəm etdiyinizə görə dövlət başçısı, Müzəffər Ali Baş Komandan olaraq bütün mediamızın adından minnətdarlığımı qəbul etməyinizi xahiş edirəm.

Sualım Sizin əlinizin işarəsi ilə bağlıdır. Bu, belə də olur, əl uzadırsınız və belə də olur "Dəmir yumruq". Bu bəyanatı biz Şuşada çox eşitmişik və hər dəfə də bu bəyanatın real əks-sədasını, təsirini görmüşük. Sualım bu gün Şuşadan bir az da üzüaşağıdır, Xankəndi tərəfədir. Bilirsiniz ki, separatçı qüvvələrin tör-töküntüləri orada müəyyən hadisələr törədirlər, dezinformasiyalarla məşğuldurlar. Guya ki, Azərbaycan kimlərisə, nələrisə blokadada saxlayır. Baxmayaraq ki, bu yaxınlarda mən Laçın yolunda "Mirşahinin vaxtı"nın xüsusi buraxılışını hazırladım və orada da hər şeyi gördülər ki, "Qırmızı Xaç" maşınları necə gəlib keçir oradan, insanlara münasibət nə qədər ılıqdır, mülayimdir. Bunlar öz yerində.

"4-cü Sənaye İnqilabı dövründə Yeni Media"nın qarşısında duran vəzifələr sırasında məhz bu tipli dezinformasiyalarla mübarizədən ötrü Siz bizdən nə tələb edirsiniz? Çünki Siz bizi Qələbəyə gətirmisiniz. Bizim media mübarizəmizdə də önümüzdə Siz oldunuz və Azərbaycanın informasiya blokadasının yarılmasında əsas açar şəxs Siz oldunuz. Biz Sizin ardınızca getdik. Ona görə də Sizdən bu məsələdə tövsiyə istəyirəm. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun. Mən hesab edirəm ki, bu gün Azərbaycan mediası bu istiqamətdə çox böyük işlər görür. Təbii ki, ümumi istiqamət onsuz da bəlli idi. İşğal dövründə biz hamımız, tutduğu vəzifədən asılı olmayaraq hər bir vətənpərvər azərbaycanlı bir məqsədə doğru yorulmadan gedirdi. Mən işğal dövründə öz çıxışlarımda dəfələrlə deyirdim ki, o gün gələcək, azadlıq günü gələcək, hər birimiz bu günü hər an yaxınlaşdırmalıyıq, yaxınlaşdırırdıq və yaxınlaşdırdıq. Bu, bizim ümumxalq Qələbəmizdir. Yəni, Azərbaycan xalqı bu Qələbəyə layiq idi.

Təbii ki, beynəlxalq hüququn, ərazi bütövlüyümüzün bərpası, bütün bunlar fundamental hüquqlardır və biz bu hüququ döyüş meydanında qazandıq, qan tökərək, şəhidlər verərək. Amma, eyni zamanda, Azərbaycan mediasının bu sahədəki fəaliyyəti, o cümlədən ona görə qiymətlidir ki, dünya ictimaiyyətinə təkcə beynəlxalq hüquq prizmasından yox, ümumi insani prizmadan üzləşdiyimiz problemi çatdırmaq üçün bizim birinci vasitəmiz media olmuşdur. Ona görə mən media nümayəndələri ilə əvvəlki dövrlərdə, yəni işğal dövründə görüşlər əsnasında hər zaman bunu qeyd edirdim. Qeyd edirdim ki, biz daha çox beynəlxalq auditoriyaya çıxmalıyıq.

Siz də yəqin ki, razılaşarsınız ki, əvvəlki dövrdə daha çox biz deyirdik, biz də eşidirdik. Sanki biz özümüz-özümüzə nəyisə sübut etməyə çalışırdıq. Bu, vacib idi. Vacib idi, məsələni gündəlikdə saxlamaq üçün, gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək üçün. Şuşanı və o vaxt işğal altında olan digər torpaqları azad edən məhz o oğullar idi ki, onların mütləq əksəriyyəti heç vaxt nə Şuşanı, nə Ağdamı, nə işğal altında olan başqa torpağı görməmişdilər. Yəni, evdəki, evlərdəki tərbiyə, məktəblərdəki tərbiyə və media tərəfindən bu məsələnin daim gündəlikdə saxlanması daxili birliyi böyük dərəcədə möhkəmləndirdi. Təbii ki, dövlət siyasəti başda olmaq şərtilə. Ancaq sonrakı mərhələdə biz daha çox beynəlxalq auditoriyaya çıxış etməyə başladıq. Yəni, bu imkanlar da bizdə yarandı və müxtəlif dillərdə bizim bir çox media resurslarımızın nəşrləri də, internet saytları da, digər elektron vasitələri də mövcuddur. Bu gün isə biz yenə də öz həqiqətlərimizi sübut etməyə məhkumuq. Çünki bizə qarşı bu gün yenə də kampaniya davam edir. Bizim Qələbəmizi həzm edə bilməyən, uğurlarımıza qısqanclıqla yanaşan, bizə qarşı açıq informasiya savaşına çıxanlara biz tutarlı, real arqumentlərlə cavab verməliyik və veririk. Məhz bunun nəticəsidir ki, bu gün bütün bu iftiralara, böhtanlara, yalanlara baxmayaraq, Azərbaycanın sözü, Azərbaycan xalqının, dövlətinin haqlı səsi eşidilir və bunun əsas aləti bizim media resurslarımızdır. Ona görə cəmiyyətdə mövcud olan həmrəylik və birlik, bax, bu üstünlüyü bizə təmin edir.

O ki qaldı, tövsiyələrə, sözün düzü, mən bundan bir qədər uzağam. Çünki Azərbaycan mediasının müstəqilliyi bizim cəmiyyətimizin inkişafı üçün başlıca şərtlərdən biridir, bu, birincisi. İkincisi, siz özünüz hər şeyi yaxşı bilirsiniz və mən çox şadam ki, bizim mediamızda sağlamlaşma prosesi uğurla gedir və xalqın maraqlarına zidd, dövlət maraqlarına zərbə vura biləcək yazılar artıq çox nadir hallarda üzə çıxır. Yəni, bu, yenə də media nümayəndələrinin məsuliyyətindən xəbər verən amildir. Ona görə media nümayəndələrinə mənim tövsiyəm budur ki, ancaq belə də davam edin.

**Moderator:** Cənab Prezident, əslində iştirakçılardan bizə daxil olan suallar artır və kifayət qədər fəal iştirak görürük. Ümid edirik ki, sualları səsləndirmək üçün vaxtımız olacaqdır. Birləşmiş Krallıqdan Cordan Morqan.

**Cordan Morqan:** Cənab Prezident, qonaqpərvərliyə görə təşəkkür edirəm. Adım Cordandır, Birləşmiş Krallıqdanam. Suallarım ondan ibarətdir ki, Siz Azərbaycan üçün və Qərbi Asiya regionu üçün hansı imkanları görürsünüz? Çünki bildiyiniz kimi, Çin və Səudiyyə Ərəbistanı yaxınlaşır və bu baxımdan Azərbaycan üçün hansı perspektivlər var?

**Prezident İlham Əliyev:** Bizim Asiya ölkələri üçün münasibətlər baxımından? Düz başa düşdüm?

**Cordan Morqan:** Yox, bütün region üçün perspektivlər baxımından.

**Prezident İlham Əliyev:** Bilirsiniz, əslində regional inkişaf, – Cənubi Qafqazı nəzərdə tuturam, – əsasən Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılıdır. Hazırda bir sıra beynəlxalq təşkilatlar bizə qarşılıqlı qəbul olunacaq həlli tapmaqda yardım etməyə çalışırlar. Əlbəttə, bu günə kimi gördüklərimiz odur ki, bütün beynəlxalq təşkilatlar başa düşür ki, bu həllər beynəlxalq hüquqa əsaslanmalıdır. İkinci Qarabağ müharibəsi başa çatandan bu günədək təxminən üç il keçib, biz getdikcə daha çox sayda birbaşa bəyanatlar eşidirik ki, Qarabağ Azərbaycanın ərazisidir. İşğal dövründə belə bəyanatlar olsaydı, çox güman ki, İkinci Qarabağ müharibəsi başlamazdı. Təəssüf ki, uzun illər - 28 il ərzində Minsk qrupu çərçivəsində gedən danışıqlar heç bir nəticə vermədi. Ümumiyyətlə, həll üçün hər hansı düstur ortaya qoyulmadı. O dövrdə çox ziddiyyətli, çox mücərrəd bəyanatlar verilirdi, bundan məqsəd münaqişənin dondurulması idi və bu, Azərbaycan üçün məqbul deyildi. Bəziləri çalışırdılar ki, bu münaqişəni dondursunlar, danışıqları sonsuz etsinlər və ictimai diplomatiya təşəbbüsləri ilə Azərbaycana müəyyən bir əməkdaşlıq təlqin olunsun. Beləliklə, biz Ermənistanla biznes

qurmağa, münasibətlərin yaxşılaşmasına məcbur olaq və guya ki, münaqişə gələcək nəsillər tərəfindən həll edilməlidir.

Mən işğal dövründə dəfələrlə ictimaiyyət və beynəlxalq təşkilatlar qarşısında Ermənistana qarşı sanksiyaların tətbiq olunmasının vacibliyini bildirmişəm və bu da sözsüz ki, beynəlxalq təşkilatların bəyannamələrinə və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurasının qətnamələri, Avropa Şurasının, həmçinin Avropa Şurası Parlament Assambleyasının qərarları, hətta Avropa Parlamentinin, - baxmayaraq ki, hazırda kifayət qədər ermənipərəst mövqedədir, onun da qəbul etdiyi qətnamə var idi ki, reallığı əks etdirirdi, - lakin bu sanksiyalar baş vermədi, bunlar Ermənistana qarşı tətbiq olunmadı. Çünki geosiyasi gündəlik tamamilə fərqli idi.

Odur ki, özümüz bunun öhdəsindən gəlməli olduq. Biz BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri döyüş meydanında icra etməli olduq və hazırda vəziyyət dəyişib. Qeyd edim ki, həmin dövrlərdə beynəlxalq aktorların heç biri, yəni, bu gün "Qarabağ Azərbaycandır!" deyən beynəlxalq aktorlar heç vaxt bu ifadəni dilə gətirmirdilər. Postsovet məkanındakı digər münaqişələrlə bağlı belə ifadələr istifadə olunurdu. Azərbaycana gəldikdə isə deyirdilər ki, razılığa gəlməlisiniz. Deyirdilər ki, öz müqəddəratını təyinetmə və ərazi bütövlüyünü inteqrasiya etməlisiniz. Onlar bilirdilər ki, bu, mümkün deyil, bunun mümkünsüzlüyünü bilirdilər. Beynəlxalq hüququn fundamental prinsipləri var, ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etməsi bu prinsiplərdir. Lakin öz müqəddəratının təyin olunması ərazi bütövlüyü prinsipini kölgədə qoymur və nəzərə alsaq ki, Ermənistan artıq müstəqil dövlət kimi mövcuddur.

Lakin hazırda vəziyyət fərqlidir və beynəlxalq vasitəçilər, belə deyim, öz mövqelərini ifadə edirlər və onlar daha real bir nöqteyi-nəzərdən çıxış edirlər. Bilirsiniz, mən dəfələrlə eşitmişəm, xüsusilə, işğal dövründə eşitmişəm, deyirdilər ki, Azərbaycan reallığı qəbul etməlidir, daha doğrusu nəzərə almalıdır. Mən deyirəm ki, razıyam. Hazırda hamı yeni reallığı nəzərə almalıdır. Çünki 30 illik işğal dövrünü, dağıntılar dövrünü, həmçinin İkinci Qarabağ müharibəsinin reallıqlarını qəbul etmədən həlli düşünmək mümkün deyil. Lakin hazırda beynəlxalq vasitəçilərin səyləri kifayət deyil. Hazırda üç beynəlxalq tərəf var ki, bu prosesdə dəstək olurlar – ABŞ, Rusiya və Avropa İttifaqı. Azərbaycan üç istiqamət üzrə tam səmimiyyətlə bu prosesə qatılıb və nəticəyönümlü yanaşma ortaya qoyur. Lakin indiyədək bir nəticə yoxdur. Çünki düşünürəm ki, Ermənistan son addımını atmalıdır. Onlar artıq müharibədən sonra bir sıra addımlar atıblar və mən deməzdim ki, bu addımlar könüllü olaraq atılıb. Son iki il yarım ərzində bir neçə məqam oldu və onlar birbaşa Ermənistana nümayiş etdirdi ki, bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nə məna daşıdığı onlara kifayət qədər aydındır. Onlar artıq qəbul ediblər ki, Qarabağ Azərbaycandır. Bunu açıq şəkildə bəyan ediblər və artıq sənədə imza atmaq mərhələsidir. Bu, sonuncu mühüm məqamdır. Əgər bu addım atılsa, – danışıqlar heyəti və xarici işlər nazirləri səviyyəsində danışıqlar gedir, bilirsiniz ki, növbəti danışıqlar yaxın günlərdə Moskvada baş tutacaq, – Ermənistan bu bəndlə razılaşsa və Azərbaycana qarşı hər hansı ərazi iddialarından imtina etsə, bu sazişin ilin sonunadək imzalanması kifayət qədər mümkündür. Lakin bu olmasa, biz onları məcbur edə bilmərik. Biz 28 il onları məcbur edə bilməmişik ki, beynəlxalq hüquqa riayət etsinlər. Yalnız bunu güc hesabına məcbur etdik. Lakin bu halda sülh olmayacaq. Bu, bölgə üçün heç də yaxşı ssenari deyil, sabitliklə, təhlükəsizliklə nəticələnməyəcək. Lakin, eyni zamanda, çox həssas geosiyasi vəziyyəti nəzərə alsaq, gələcəkdə də çətinliklər yaradacaq. Beləliklə, bildiyiniz kimi, üç vasitəçi var. Bunların hər biri kifayət qədər beynəlxalq səviyyədə mexanizmlərdən istifadə edə bilər ki, müstəqil olaraq fəaliyyət göstərsin. Biz ümid edirik ki, bu üçündən birində təkamülü, irəliləyişi görəcəyik.

**Moderator:** Növbəti sual İtaliya nümayəndəsi cənab Maurisio Geri.

**Maurisio Geri:** Təşəkkür edirəm, cənab Prezident, artıq ikinci dəfədir Şuşadayam. Bizi qəbul etdiyinizə görə təşəkkür edirəm. Sualım son iki həftə ilə bağlıdır. Mən iki həftə ərzində ADA Universitetində Yay Enerji Məktəbində iştirak etmişəm. Mən Azərbaycanın Avropa və Mərkəzi Asiya arasında körpü rolu haqqında soruşmaq istəyirəm. Əlalxüsus, qaz və digər enerjinin Çin və Rusiya kimi ölkələrdən tam istehlakı ilə əlaqədar. Mən bilirəm ki, Türkmənistanla layihələr var, - əgər Türkmənistan razılaşsa, bilirəm ki, siz də bu layihənin tərəfdaşısınız, - Avropa və yaxud İtaliya hansı dəstəyi verməlidir ki, bu proses inkişaf etsin?

**Prezident İlham Əliyev:** Transxəzər Qaz Boru Kəməri ilə əlaqədar mən artıq bir neçə dəfə mövqeyimi bildirmişəm. Bir daha təkrar etmək istəyirəm ki, bu, Azərbaycanın təşəbbüsü ilə başlayacaq bir layihə deyil. Çünki Azərbaycanın təşəbbüskarı olduğu layihələr həmin o layihələrdir ki, bu, ölkələrin resurslarına əsaslansın. Məsələn, Cənub Qaz Dəhlizi. Biz o layihənin təşəbbüskarıyıq, əsas səhmdarlarından biriyik və əslində biz o layihənin bütün dövlətlərarası, hökumətlərarası sazişlərinin də əlaqələndiricisi kimi çıxış edirik. Bildiyiniz kimi, bu layihə müvəffəqiyyətlə icra olunmuşdur və artıq iki ildir ki, Azərbaycan Avropaya əhəmiyyətli qaz tədarükçüsünə çevrilmişdir və Avropa Komissiyasının Prezidenti Azərbaycanı etibarlı tərəfdaş adlandırır. Avropa İttifaqının enerji komissarı Azərbaycanı panAvropa qaz tədarükçüsü adlandırır. Bizim sözsüz ki, Avropaya qaz tədarükümüzün coğrafiyası genişlənir və ümidvaram ki, ilin sonuna qədər əlavə iki Avropa ölkəsi Azərbaycan qazının alıcısına çevriləcək.

O ki qaldı, Transxəzər layihəsinə, bu layihə bir ideya olaraq Türkmənistanın qaz ehtiyatlarına əsaslanır. Odur ki, bu təşəbbüsün irəli sürülməsi və yaxud ona sərmayə yatırılması bizdən asılı deyil. Biz nə edə bilərik? Biz tərəfimizdən mövcud infrastrukturumuzu təklif edə bilərik və yaxud müəyyən ərazi təklif edə bilərik ki, yeni infrastruktur inşa edilsin. Lakin, eyni zamanda, onu unutmamalıyıq ki, bu gün Azərbaycan üç il əvvəl inşa edilən boru kəmərinin genişləndirilməsi ilə məşğuldur. Nəyə görə? Çünki tələbat artır. TAP boru kəməri 10 milyard kubmetrə hesablanmışdısa, 20 milyard kubmetrə qaldırılmalıdır. TANAP 16-dan 32-yə qaldırılmalıdır. Bu, əvvəllər bizdən gözlənilmirdi. Lakin indi gözlənilir və vəziyyət dəyişib. Odur ki, biz genişlənmə haqqında niyə danışırıq? Azərbaycan daha çox qaz istehsal edəcək və hər yeni il əvvəlki ildən daha çox istehsal edir. Məsələn, 2021-ci ildə biz 19 milyard kubmetr ixrac edirdik, keçən il artıq 22-yə qalxmışdır və cari ildə 24 olacaq. Sizinlə görüşmədiyimiz bu aylarda biz ən azı 300 milyard kubmetr ehtiyatı olan “Abşeron” qaz yatağının kəşfini elan etmişik və artıq ilk quyu “Şahdəniz”dəki bütün quyulardan daha məhsuldardır. Odur ki, bizim boru kəmərləri sisteminin genişlənməsi öz resurslarımızın artması ilə bağlıdır. Xəzər dənizinin Şərq sahillərindən əlavə qaz ehtiyatlarına gəldikdə, bunun üçün Transxəzər sualtı qaz boru kəməri inşa edilməlidir və ikincisi, Bakıdan Avropa istiqamətində Cənub Qaz Dəhlizi kimi yeni infrastruktur lazımdır. Sual yaranır ki, bu mühüm layihəni kim maliyyələşdirəcək? Bu sualın hələlik cavabı yoxdur. Bu suala cavab tapana qədər layihənin icrası və yaxud da bu məsələ haqqında düşünmək bir o qədər real olmayacaq. Eyni zamanda, biz bilirik ki, Avropa bankları mədən yanacağı ilə əlaqədar layihələri maliyyələşdirmir. Odur ki, bu layihə üçün ciddi vəsait cəlb etmək çətin olacaq. Məsələn, Cənub Qaz Dəhlizini inşa edəndə biz korporativ maliyyə ilə bərabər, həmçinin Avropa Yenidənqurma və İnkişaf Bankından, Avropa İnvestisiya Bankından, həmçinin Asiya İnkişaf Bankından və Asiya İnfrastruktur İnvestisiya Bankından vəsait cəlb etmişdik. Lakin indi isə bunlardan ikisi – Avropa institutları mədən yanacağı ilə əlaqədar layihələri hazırda maliyyələşdirmir. Onlar yaşıl keçid layihələrini maliyyələşdirirlər. Bu da sözsüz ki, vəziyyəti daha çətinləşdirir. Avropada qaz qiymətlərinin dəyişkənliyi də yeni-yeni suallar ortaya qoyur. Həmçinin qiymətə qoyulan məhdudiyyət, – mən düşünürəm ki, bu, qəbulolunmazdır, istehlakçılar həmin yuxarı həddi təyin edir, - bu da istənilən bazar iqtisadiyyatı prinsiplərinə ziddir. Avropa ölkələri illərlə bazar iqtisadiyyatı prinsiplərinin tərəfdarı olub. Beləliklə, real baxışdan bu, çox ciddi bir problemdir. Lakin kimsə Transxəzər boru kəmərini inşa etmək istəsə biz şad olarıq. Nəticədə bizə əlavə tranzit rüsumları ödəniləcək və yeni əməkdaşlıq imkanları yaranacaq.

**Vüsalə Mahirqızı, “APA Group”un icraçı direktoru:** Cənab Prezident, qayıdışla bağlı soruşmaq istəyirəm. Hazırda Böyük Qayıdış Proqramı üzrə əhali Laçına köçürülür. Növbəti hansı rayonumuzun sakinləri öz rayonlarında qarşılanacaq? İkinci sualım isə Sizə bir az bəlkə şəxsi görünə bilər. Qarabağ azad olunanda buraya Ordumuzun ardınca ilk Siz gəldiniz. Sonra çox tez-tez Qarabağa səfərlər edirsiniz, hər dəfə gələndə biz izləyirik, yeni layihələr, yeni yerlər açılır. O, Sizdə necə bir hiss yaradır? Tamamilə dağılmış bir yer və hər dəfə onu daşbadaş tikmək. Necə hiss edirsiniz? Ümumiyyətlə, qalib Prezident olmaq necə bir hissdir?

**Prezident İlham Əliyev:** Bilirsiniz, mənim hiss etdiyim duyğular Azərbaycan xalqının hiss etdiyi duyğulardan heç də fərqlənmir. Sadəcə olaraq, fərq ondadır ki, mən bu yerləri, necə deyərlər, tez-tez görürəm. İnsanların əksəriyyəti bunu televiziya vasitəsilə görür. Ancaq, eyni zamanda, bildiyiniz kimi, azad edilmiş bölgələrə indi turlar da təşkil edilir və qeyd etdiyiniz kimi, vətəndaşlar da sürətlə azad edilmiş torpaqlara qayıdırlar.

Əlbəttə, ilk növbədə, qürur hissi duyuram. Hər dəfə Qarabağa və Şərqi Zəngəzura gələndə, ilk növbədə, hiss etdiyim qürur hissidir. Çünki xalqımla, Ordumuzla, qəhrəmanlarımızla fəxr etməmək mümkün deyil. Mən bilirəm, həmçinin siz də bilirsiniz ki, Şuşaya çatmaq üçün bizim qəhrəman əsgərlərimiz və zabitlərimiz Zəfər yolunu necə keçiblər, yüngül silahlarla, qarşılarında topla, tankla, artilleriya ilə silahlanmış düşmənlə üz-üzə, bəzi hallarda əlbəyaxa döyüşlərdə ölümə necə gediblər. Azərbaycan xalqının ruhu necə də yüksəkdir. Yəni, bütün bunlar xalqımızı hər birimizə bir daha tanıtdı. Azərbaycan insanının necə yüksək mənəvi keyfiyyətlərə malik olmasını bir daha hər birimizə, ilk növbədə, bütün dünyaya göstərdi.

Dağılmış şəhərləri, kəndləri görmək hər birimiz üçün çox ağırdır. Bu ağrı ilə biz barışa bilmirik. Baxmayaraq ki, mən artıq son üç ilə yaxın dövrdə azad edilmiş ərazilərdə bəlkə yüz dəfədən çox olmuşam. Hər dəfə dağıntıları görəndə ürəyim ağrıyır, hər dəfə özümə sual verirəm: nə üçün bizim qonşu saydığımız insanlar bu barbarlığa əl atıblar? Axı, biz onlara nə etmişdik? Özü də Birinci Qarabağ müharibəsində məğlub olan tərəf biz idik. Biz onların şəhərlərini dağıtmırdıq, biz onların qəbirlərini dağıtmırdıq, onların ölülərinin sümüklərini çıxarmırdıq. Nə üçün bunu ediblər? Bu insanların ürəyində bizə qarşı nə qədər nifrət var idi ki, insanlığa sığmayan bu əməlləri etsinlər. Yəni, bunu mən bu günə qədər anlaya bilmirəm və yəqin ki, heç vaxt normal insan bunu anlaya bilməz.

Eyni zamanda, hər dəfə yeni bir inkişaf layihəsini görəndə, yaxud da ki, təməl mərasimində iştirak edəndə sanki, necə deyərlər, damarıma qan vurulur, yəni, o qədər müsbət enerji verir ki, bu müsbət mənəvi enerji insanı fiziki cəhətdən də gücləndirir. Təkcə, bax, bu bölgənin havası deyil, – mən əminəm, siz də eyni hissləri keçirirsiniz, – özümüzü Şuşada yaxşı hiss edirik, yaxud da ki, Zəngilanda, Laçında. Təkcə havaya görə

deyil, daxildən gələn xoşbəxtlikdir. Xoşbəxtlik nədir, bir çoxları özünə sual verir. Amma hər dəfə bu inkişafı görəndə mən özümə deyirəm, yəqin ki, xoşbəxtlik, bax, budur.

O ki qaldı, Böyük Qayıdış Proqramına, biz 30-dan çox şəhər və kəndin Baş planını təsdiqlədik, bir çox kəndlərin təməli də qoyuldu və artıq bu rəqəmlər səsləndirilmişdir. Həm Qarabağ, həm Şərqi Zəngəzur rayonları üzrə təxminən növbəti üç il ərzində 150 mindən çox insanı qaytaracağıq. İndi biz, necə deyərlər, işin ibtidai mərhələsindəyik. Çünki layihələndirmə, tender prosedurları çox vaxt aparır. Biz istəyirik ki, hər şey qayda ilə, qanunla olsun, tam şəffaf olsun və bu da vaxt aparır. Əminəm ki, keçmiş köçkünlər bunu anlayışla qarşılayırlar. Amma təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Ümid edirəm ki, Şuşa şəhərinə gələn il ilk sakinlər gələcək, yerləşəcəklər. İndi siz də yəqin ki, bu gün hələ vaxtınız olmayıb, ya axşam, ya sabah gəzəcəksiniz, görəcəksiniz ki, bir neçə yerdə artıq inşaat layihələrinin, yəni, yaşayış binalarının tikintisi gedir.

Təbii ki, minatəmizləmə prosesi ən böyük əngəldir. Çünki bu iki il yarım ərzində gördüyümüz işlər təkcə onu göstərmir ki, bizim maliyyə imkanlarımız var. Onu göstərir ki, bizim çox ciddi təcrübəmiz və peşəkar kadrlarımız var. Bu miqyasda layihələri iki il yarım ərzində həyata keçirmək, məncə, heç kimin ağlına gəlməzdi. Heç kim təsəvvür edə bilməzdi ki, cəmi iki il yarım ərzində bu qədər genişmiqyaslı işlər görüləcək, özü də böyük ərazidə - 10 min kvadratkilometri əhatə edən ərazidə durmadan gecə-gündüz işlər gedir. Azərbaycan ictimaiyyəti də vaxtaşırı məlumatlandırılır, həm planlar haqqında, həm də görülmüş işlər haqqında. Şəhərlərin Baş planları təsdiq olunanda həmin şəhərlərdə yaşamış insanların rəyi də nəzərə alınmışdır. Şəhərlərin bərpasının təməlqoyma mərasimini də mən keçmiş köçkünlərlə birlikdə həyata keçirmişəm. Yəni, biz çox istəyirik ki, otuz il ərzində mənəvi və fiziki əzablar çəkmiş insanlar ən yaxşı şəraitlə təmin olunsunlar və buna doğru gedirik və gedəcəyik.

**Moderator:** Növbəti sual, Misirdən olan Məcid Şalki.

**Məcid Şalki:** Cənab Prezident, mən Yaxın Şərq Xəbər Agentliyindənəm. Cənab Prezident, Siz ölkənizə qarşı olan təhlükələrdən və müharibədən sonrakı səyləriniz haqqında danışdınız. Siz minaları qeyd etdiniz. Minalar insanların gündəlik həyatına necə təsir edir? Bu, həm də inkişaf layihələrinə necə mane olur? Bunun öhdəsindən necə gəlirsiniz? Çünki minatəmizləmə çox bahalı prosesdir.

Bizim digər sahələrdəki vəzifələrlə bağlı deyə bilərəm ki, xüsusilə son vaxtlar nəqliyyat sektorunun əhəmiyyəti daha da artır. Çünki bəzi məhdudlaşdırıcı tədbirlər yeni nəqliyyat marşrutlarının açılmasına gətirib çıxarır və Azərbaycanın əlverişli coğrafi vəziyyəti, əlbəttə ki, bizim üçün əlavə imkanlar yaradır. Bildiyiniz kimi, biz nəqliyyat sektorunun inkişafı ilə bağlı uzun illər ardıcıl siyasət aparırıq və öz ərazimizdə infrastrukturu demək olar ki, əvvəlki dövrün tələbatına uyğun olaraq tam modernləşdirmişik. Amma bu gün tələbat daha da artır. Çünki yüklər artır, nəqliyyat marşrutları, qeyd etdiyim kimi məhdudlaşır. Həm Şimaldan Cənuba və əks istiqamətdə, həm də Şərqdən Qərbə və əks istiqamətdə yükdaşımaların artması göz önündədir. Burada da Azərbaycan çox etibarlı tərəfdaş kimi çıxış edir və öz qonşuları ilə sıx təmasdadır, qonşuların nəqliyyat problemlərinin həlli üçün öz köməyini də əsirgəmir. Eyni zamanda, bu sahə bizim üçün prioritet sahələrdən biridir. Mən bir neçə dəfə demişəm, bir daha demək istəyirəm, bizim istəyimiz təkcə böyük yükləri aşıran tranzit ölkə olmaq deyil. Bizim istəyimiz odur ki, bu nəqliyyat marşrutları üzərində istehsal sahələri yaradılsın, biznes imkanları yaradılsın, sərmayə qoyulsun. Biz öz işlərimizi bu istiqamətdə aparmalıyıq, o cümlədən qonşu ölkələrlə təmaslar əsnasında. Hüquqi baza var, sənaye zonaları artıq uzun illərdir ki, fəaliyyət göstərir. Ələt Azad İqtisadi Zonasının rəsmi açılışı oldu və dövlət tərəfindən qoyulan sərmayə artıq nəticə verməyə başlamışdır. Özəl investorlar da artıq cəlb edilib və biz bunun nəticələrini görürük.

Yəni, bir sözlə, biz gərək nəqliyyat dəhlizlərinin biznesə olan təsiri haqqında özümüz üçün konseptual qaydada bir araşdırma aparaq və özümüz üçün bir hədəf müəyyənləşdirək ki, biz nə istəyirik. Ölkə ərazisində Cənubdan Şimala və Şərqdən Qərbə gedən yollar demək olar ki, rayonlarımızın əksəriyyətini əhatə edir. Deməli, hər bir istiqamət üzrə spesifikaya görə, iqlimə görə, ixtisaslaşmaya görə xüsusi bir biznes imkanları olmalıdır. Hökumət üzvləri bu məsələ ilə bağlı öz təkliflərini hazırlasınlar. Bizim ümumi biznesin inkişafı konsepsiyamız var, müxtəlif alətlər var, o cümlədən güzəştli kreditlər və digər alətlər. Yəni, bunu indi nəqliyyat marşrutları prizmasından da təhlil etsək, məncə yaxşı olar.

Onu da bildirməliyəm ki, bu yaxınlarda biz öz nəqliyyat imkanlarımızı hüdudlarımızın kənarına da çıxara bildik, ilk növbədə, Qara dənizdə. Üç böyük tanker alınmışdır, hərəsi 115 min tonluq. Bu, ilk dəfədir Azərbaycan tarixində, mənim göstərişimlə həll olunub. Tankerlərə də “Şuşa”, “Qarabağ” və “Zəngəzur” adları verilib.

Azərbaycan mallarının Azərbaycan şirkəti tərəfindən daşınması bizə əlavə gəlir gətirəcək və biz artıq Qara dənizdə də varıq. Biz onsuz da var idik. Bizim kiçik həcmli gəmilərimiz var idi. Amma bu gün bizim “Aframax” tipli ən böyük tankerlərimizdən üçü artıq Qara dənizdə işləyir. Lazım olarsa, onların sayını biz artıra bilərik.

Bizim Xəzərdəki gəmiqayırma imkanlarımıza da yenidən baxmalıyıq. Çünki qonşu ölkələrdən sifarişlər gəlir. Bizim gəmiqayırma zavodumuz mövcud daşıma imkanlarımıza hesablanmışdır. Eyni zamanda, uzun illər fəaliyyət göstərən gəmilərin sıradan çıxmasını da nəzərə alırıq. Çünki onlar sıradan çıxır, təzələnməlidir. Amma indi daha böyük tələbat var – həm bizim, həm də ki, qonşu ölkələrin. Beləliklə, istisna deyil ki, biz nə vaxtsa gəmiqayırma zavodunun istehsalat sahələrinin genişləndirilməsinə də başlaya bilərik. Yəni, siz bunu diqqətdə saxlayın. Hər halda xaricdən gələn sifarişlər, – biz artıq ilkin danışıqlara başlamışıq, – çox müsbət haldır və bu, bir daha göstərir ki, biz hər şeyi vaxtında edirik.

Əgər bu gün bizdə gəmiqayırma zavodu olmasaydı, biz tankerləri, gəmiləri haradan alacaqdıq? İndi sual ritorikdir. Biz əvvəllər haradan alırdıq, indi oradan heç kim ala bilmir. Ona görə bu, vaxtında atılmış strateji bir addım idi. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarının genişləndirilməsi də. Bu göstərişi də mən vermişdim, biz bunu da etməliyik. Çünki bizim aşırma qabiliyyətimiz 15 milyon tona hesablanıb. Əvvəlki dövr üçün bu, kifayət idi. Bir-iki ildən sonra bu, çatmaya bilər, çünki yenə də mən əvvəlcədən nəyi isə demək istəmirəm. Amma qonşu ölkələrlə və tərəfdaş ölkələrlə aparılan danışıqlar göstərir ki, Azərbaycan ərazisindən bir neçə dəfə çox yüklərin daşınması mümkün olacaqdır.

Bir məsələyə də mən toxunmaq istərdim. Bu da ekoloji tarazlıqla bağlı olan məsələdir. Qarabağ və Şərqi Zəngəzur ekoloji fəlakət zonasına çox yaxın idi. Çünki Ermənistan həm Ermənistandakı müəssisələrin fəaliyyəti nəticəsində, eyni zamanda, o vaxt işğal edilmiş torpaqlarda – Qarabağda və Şərqi Zəngəzurda təbii resurslarımızın vəhşicəsinə istismarı nəticəsində təbiətimizə böyük zərbə vurub. Təkcə onu demək kifayətdir ki, 60 min hektardan çox meşə fondu ermənilər tərəfindən dağıdılıb, talan edilib, çıxarılıb, satılıb, yaxud parket düzəldiblər və satıblar. Yəni, bütün bu peyk görüntüləri bizdə var. İndi transsərhəd təhlükələri mütləq nəzərə alınmalıdır və Azərbaycanın burada sərgilədiyi mövqeyi yenə də beynəlxalq təcrübəyə, beynəlxalq konvensiyalara əsaslanır, o cümlədən Espo Konvensiyasına, bunu hər kəs internetdə açıb baxa bilər. O göstərir ki, transsərhəd çayların çirkləndirilməsi və ölkələrin sərhədlərinə yaxın müəssisələrin, ekoloji təhlükə mənbəyi sayıla biləcək müəssisələrin yaradılması qonşu ölkələrlə mütləq razılaşdırılmalıdır və biz bunu Ermənistandan tələb edirik. Bu gün Azərbaycan ictimaiyyəti, qeyri-hökumət təşkilatları artıq bu məsələ ilə bağlı Ermənistanın rəsmi orqanlarına müraciət ünvanlayıblar və ekologiya sahəsində fəaliyyət göstərən beynəlxalq ekspertlər və qeyri-hökumət təşkilatlarının nümayəndələri də bu müraciətə qoşulublar. Ona görə mən hesab edirəm ki, Azərbaycan Hökuməti də burada kənarda qalmamalıdır. Bizim vətəndaş cəmiyyətimiz bu addımı atır, çox yaxşı, amma baxmaq lazımdır, rəsmi xətlə, yəni, dövlət xətti ilə hansı təşkilatlara hansı müraciətlər ünvanlanmalıdır ki, Ermənistan bu təhlükəli praktikadan əl çəksin. Əgər onlar hansısa müəssisə yaratmaq istəyirlərsə, bizim buna, əlbəttə ki, münasibətimiz ola bilməz. Onların daxili işidir. Amma əgər bu müəssisə bizim sərhədimizin 500 metrliyində yerləşirsə, orada təhlükəli maddələrdən istifadə ediləcəksə və bu maddələr yenə də Araz çayına, Oxçu çayına töküləcəksə, bu, bizim məsələmizdir. Biz buna necə imkan verə bilərik? Əlbəttə ki, biz bu məsələləri qanun çərçivəsində, beynəlxalq konvensiyalar çərçivəsində, diplomatiya çərçivəsində mütləq diqqətdə saxlamalıyıq. Ona görə bu tapşırığı verirəm, siz baxın, hansı hüquqi yollar var ki, Ermənistan bu təhlükəli praktikadan əl çəksin.

Bununla əlaqədar deyə bilərəm ki, bu yaxınlarda Naxçıvan Muxtar Respublikasının gələcək inkişafı ilə bağlı mənim göstərişimlə dövlət proqramı qəbul edilmişdir. Proqram mətbuatda dərc edilib, hər kəs götürüb oxuya bilər. Bu, Naxçıvanın uğurlu sosial-iqtisadi inkişafını qısa müddət ərzində təmin edə biləcək proqramdır və əminəm ki, tam icra ediləcək. Çünki bu proqram bizim öz resurslarımıza əsaslanıbdır. O cümlədən mən nə üçün bunu indi dilə gətirirəm, orada Naxçıvanın da Qarabağ və Şərqi Zəngəzur kimi “yaşıl enerji” zonasına çevrilməsi məsələsi mənim tərəfimdən qoyulmuşdur. Naxçıvan Muxtar Respublikasında elektrik enerjisinin böyük hissəsi indi su elektrik stansiyaları vasitəsilə istehsal olunur. Orada günəş və külək elektrik stansiyalarının inşası da nəzərdə tutulur - ola bilər 1000 meqavat, ola bilər 1500 meqavat. Biz həm muxtar respublikanın bütün tələbatını “yaşıl enerji” ilə təmin edəcəyik, həm də qonşu ölkələrə də “yaşıl enerji”ni ixrac edəcəyik. Bütün bunları qeyd edərkən görürük ki, ölkəmizin böyük hissəsi artıq rəsmən “yaşıl enerji” zonası elan edilib və bunun fonunda Gədəbəy rayonunda baş vermiş hadisə tamamilə qəbuledilməzdir. Mən hesab edirəm ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ən azı səhlənkarlığa yol verib, nəzarətsizlik nümayiş etdirib, passiv müşahidəçi kimi çıxış edib və bunun nəticəsində xarici investor bizim təbiətimizi zəhərləyib. İnsanlar haqlı olaraq öz etiraz səsini ucaldıblar, amma onların səsinə baxan olub? Yox! Bir gün, iki gün, üç gün, beş gün, hara baxırdı Ekologiya və Təbii Sərvətlər Nazirliyi? Bilmirdimi ki, belə problem var? Ya bilirdi gözünü yumurdu, ya da bilmirdi. Hər ikisi qəbul edilən deyil. Düzdür, vətəndaşların bir hissəsi təxribatçıların fitnəsinə uyaraq ədəbsiz hərəkətlər ediblər, qanunsuz hərəkətlər ediblər və bu da dözülməzdir, qəbuledilməzdir. O təxribatçıların bəziləri Azərbaycanda, bəziləri xaricdə gizlənir. Azərbaycandakılar artıq müəyyən edildi və bir neçəsi məsuliyyətə cəlb olunmuşdur. Xaricdəkiləri də biz məsuliyyətə cəlb edəcəyik. Heç kim, necə deyərlər, fikirləşməsin ki, biz bunu unutmuşuq. Azərbaycanda xaos, özbaşınalıq, təxribat xarakterli addımlar 1993-cü ildə başa çatıb. Əgər kimsə unudubsa, biz xatırlada bilərik. Ona görə vətəndaşlar da həm mədəniyyət göstərməlidirlər, necə deyərlər, mərifət göstərməlidirlər, qanuna tabe olmalıdırlar, polisə daş atmamalıdırlar, polisə daş atmaq heç kimə şərəf gətirən hərəkət deyil. Bu, birincisi. İkincisi, bu, cinayətdir. Əgər Azərbaycan polisi dözümlülük göstərirsə, o demək deyil ki, kim istəyir polisə daş ata bilər. Bu, qətiyyən mümkün deyil. Mən hər kəsə deyirəm, burada biz kiminsə nazı ilə oynayası deyilik, necə lazımdır, əgər lazım bilsək, kimi lazımdır, elə cəzalandırarıq ki, peşman olar.

Ancaq, eyni zamanda, bu hadisənin təbii səbəbi var idi. O da ondan ibarətdir ki, xarici şirkət buraya pul qazanmağa gəlib. Biz etiraz eləmirik, investisiya qoyubdur, iş yerləri yaradıbdır. Əlbəttə, onlar gəlib

burada xeyriyyəçiliklə məşğul olmurlar ki, pul qazanmağa gəliblər. Amma bu o demək deyil ki, bizim təbiətimiz məhv olsun. O demək deyil ki, insanların örüş, otlaq sahələri zəbt edilsin. O demək deyil ki, heç kimdən icazə almadan ikinci tullantı gölü qursun. Kim onlara icazə verib? Görünür, ya Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə sövdələşiblər, ya da ki, onu özbaşına ediblər, ona görə ciddi araşdırılmalıdır. Prokurorluğa, digər aidiyyəti qurumlara bütün göstərişlər verilmişdir. Mən xəbər tutandan sonra zəng edib Baş nazirə dedim ki, mütləq komissiya yarat və göndər hadisə yerinə getsin. Yaxşı, bunu mən deməli idim? Ekologiya naziri özü bilmirdi ki, oraya getməlidir. Mən demişəm, gedin orada camaatla danışın, o torpağın, havanın nümunələrini götürün, beynəlxalq ekspertləri cəlb edin ki, - çünki nazirlik bir halda bu hadisənin səbəbkarı olub, ola bilər ki, işi malalasın, - onlar rəy versinlər, bu yataqların istismarı nə dərəcədə insanların sağlamlığına, təbiətə zərərlidir, ya zərərli deyil? Bu günə qədər cavab yoxdur. Bəli, Nazirlər Kabinetində müşavirə keçirilib, orada açıqlama verilib. O açıqlamanı oxuyan heç nə başa düşə bilməz ki, orada nə deyilib və o açıqlamanın məqsədi nə idi? İşi malalamaq, yaxud da ki, hansısa belə ümumi sözlərlə bu məsələyə diqqət yetirmək. Mən konkret tapşırıq vermişdim, konkret. Hanı ekspertizanın nəticələri? Nə qədər vaxt keçib? Bir aya yaxın vaxt keçib. Heç kim mənə məruzə etmir - Nazirlər Kabineti etmir, Ekologiya və Təbii Sərvətlər Nazirliyi etmir. Hesab edirlər ki, mən bunu unutmuşam. Yox, mən heç nə unutmuram. İndi yenə də deyirəm, polisə daş atan utanmalıdır - öz ailəsi qabağında, uşaqları qabağında, ailə üzvləri qabağında, ictimaiyyət qabağında. Çünki o eybəcər mənzərəni ictimaiyyət görüb. Ona görə mən tapşırıram, bir həftə vaxt verirəm, həm mənə, həm ictimaiyyətə məlumat verilməlidir və məsələ araşdırılmalıdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi nə üçün bu məsələyə diqqət yetirməyib, biganə qalıb və mən tapşırıq verəndən sonra gediblər, gəliblər, nəticə haqqında heç bir məlumat yoxdur.

Burada işləyən xarici şirkətlər və yerli şirkətlər Azərbaycan qanunlarına hörmət etməlidirlər. Hörmət etməyəcəklərsə, onların fəaliyyəti burada mümkünsüz olacaq. Baxmayaraq ki, pay bölgüsü haqqında saziş əsasında xarici investor Gədəbəydəki qızıl yataqlarını istismar edir, baxmayaraq ki, uzun illər burada çalışır, Azərbaycan qanunlarına, ekoloji tarazlığa - bütün bunlara hörmət edilməlidir. Onu da bildirməliyəm ki, bizim dövlət şirkətimiz "AzerGold" da qızıl yataqları istismar edir. Amma mənə verilən məlumata görə, o sahədə bütün ekoloji normalara riayət edilir. O cümlədən yerli icmalarla təmaslar qurulub, müxtəlif humanitar aksiyalar keçirilir, insanlar kütləvi surətdə işə cəlb olunub. Bax, bu yanaşma Azərbaycan şirkəti tərəfindən göstərilən yanaşmadır. O yanaşma isə xarici şirkət tərəfindən göstərilən yanaşmadır. Bu, dözülməzdir. Xarici şirkətin nümayəndələri də dəvət edilməlidirlər. Əgər bu günə qədər dəvət edilməyiblərsə, Nazirlər Kabinetinə onlar izahat verməlidirlər. Yenə də deyirəm, bir həftə ərzində mənə və ictimaiyyətə məlumat verilməlidir. Orada təbiətə, insanların sağlamlığına zərrə qədər təhlükə varsa, o fəaliyyət dayandırılmalıdır. Vəssalam!

Bu gün dünyada ekologiyanı korlayan şirkətlər müflisləşir. Onlar öz ölkələrində belə hərəkət edə bilərdilərmi, gedib göl qursunlar, oraya zibil, zəhər töksünlər. Onları orada ayaqlarından asardılar. Elə iş verərdilər ki, ömürlərinin sonuna qədər həbsxanada yatardılar. Amma burada hesab edir ki, nə istəyir onu da edir. Çünki gedib kiməsə görüb, kiməsə salam verib, gedib kiməsə nəsə pay verib. Bunun başqa izahatı ola bilməz. Dözülməz haldır - bütövlükdə həm oradakı təxribatçıların hərəkətləri, həm xarici şirkətin fəaliyyəti, həm də bizim nazirliyimizin fəaliyyəti. Yeganə olaraq burada özünü ləyaqətlə aparan Azərbaycan polisi idi. Onu hər kəs bilməlidir. İndi bəziləri ağızlarını büzürlər. Gedin, açın gözünüzü baxın, Amerika polisi ildə neçə nəfəri öldürür - 1000 nəfəri. Fransa polisi neçə nəfəri öldürür və nəyə görə öldürür? Bu yaxınlarda Fransa polisinin əməllərini bütün dünya gördü. Mən onlara bəraət qazandırmıram, o dözülməzdir. Əfsuslar olsun ki, insanları öldürən o polisin mütləq əksəriyyəti məsuliyyətdən yayınır. Bir müddətdən sonra onları ya ümumiyyətlə məhkəmədə buraxırlar, ya da ki, şərti iş verirlər. Bizim polis gecə-gündüz soyuqda, istidə, dağda asayişi qoruyur. Bizim Daxili Qoşunlarımız Qarabağda müharibə zamanı şəhid verib. İndi kimsə gəlsin, polisə ləkə vursun. Mən buna imkan verməyəcəyəm və hər kəs bunu bilsin – təxribatçılar, o təxribatlara uyanlar və bütün ictimaiyyət.

Bir məsələni də qeyd etməliyəm. Bu da bu günlərdə "Abşeron" qaz-kondensat yatağından çıxarılan ilkin qazın əhəmiyyəti ilə bağlıdır. Bu, doğrudan da çox əhəmiyyətli hadisədir. Çünki bu günə qədər bizim ixracla bağlı əsas qaz resursumuz "Şahdəniz" qaz-kondensat yatağı idi. Bu gün bizim artıq iki böyük qaz-kondensat yatağımız var. "Abşeron" qaz yatağı ilə bağlı bizim ümidlərimiz böyük idi. Bilirdik ki, "Abşeron" qaz-kondensat yatağı böyük ehtiyatları özündə ehtiva edir. Bir neçə gün bundan əvvəl mənə məlumat verildi ki, ilkin qaz hasil edildi, debitlər də çox yaxşıdır. Hətta bir quyudan "Şahdəniz" qaz yatağından da daha çox qaz və kondensat hasil edilir. Əlbəttə, "Şahdəniz" qaz yatağından "Abşeron" yatağı ehtiyat nöqteyi-nəzərindən daha kiçikdir, ilkin hesablamalara görə təqribən üç yüz milyard kubmetrdir. Amma mən tam əminəm ki, daha çox olacaq. İndidən demək, əlbəttə ki, düzgün deyil. Ona görə bu, bizim həm enerji təhlükəsizliyimizi daha yüksək səviyyədə təmin edəcək, həm də ixraca gedən qazın həcmi ildən-ilə artacaq - təkcə "Şahdəniz" yatağı hesabına deyil, o cümlədən "Abşeron" yatağı hesabına.

"Abşeron"un birinci fazası artıq icra edilir və yəqin ki, SOCAR öz xarici tərəfdaşları ilə bu yatağın ikinci fazasının işlənməsi ilə bağlı tezliklə daha fəal

danışıqlara başlamalıdır. Yenə də deyirəm, biz gözləyirdik ki, kəşfiyyat olacaq, amma sözün düzü, bu qədər gözəl nəticələri gözləmirdik. Bu, çox gözəl bir xoş xəbər oldu və Azərbaycanın enerji potensialına kölgə salmağa çalışan bəzi dırnaqarası ekspertlərə də çox yaxşı, tutarlı cavab olmuşdur. Ona görə bundan sonra bizim qaz ixrac planlarımız daha tez bir zamanda və daha böyük həcmdə təmin ediləcək.

DOI: 10.30546/2309-1347.83.2023.89

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çinin "China Media Group" media korporasiyasına müsahibəsi*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Çinin "China Media Group" media korporasiyasına müsahibə verib. Dövlətimizin başçısının müsahibəsi iyulun 22-də "China Global Television Network" televiziya kanalında yayımlanıb.

**Müxbir:** Müsahibəyə görə minnətdarıq. Biz yalnız üç gündür Bakıdayıq. Ölkənizin və şəhərin nə dərəcədə müasir olması bizdə dərin təəssürat yaratdı və getdiyimiz hər yerdə bir Azərbaycan elementi var.

**Prezident İlham Əliyev:** Düzdür. İlk öncə, Azərbaycana xoş gəlmisiniz. Gəldiyinizə və ölkəmizə diqqət yetirdiyinizə görə sağ olun. Çox şadam ki, siz Azərbaycanda bir neçə gün olacaqsınız və bu, ölkəmizi və xalqımızı daha yaxından tanımaq üçün yaxşı fürsət olacaqdır. Tamamilə haqlısınız ki, biz şəhərlərimizin əsl orijinallığını, nailiyyətlərini qoruyub saxlayırıq. Eyni zamanda, biz ölkəmizi müasirləşdiririk. Bakıda gördükləriniz müasirliklə ənənələrin qovuşmasıdır və hesab edirəm ki, onlar bir-birinə qarşı çıxmır, bir-birinə zidd deyil. Bu, məqsədyönlü şəkildə edilib, çünki Bakı kimi tarixi şəhərdə ilk məqsəd tariximizi və memarlıq abidələrini qorumaqdır. Eyni zamanda, şəhərə inkişaf etmək imkanı verilməlidir. Bakıda hər iki məqamı duya bilərsiniz. Zənnimcə, bu, həqiqətən mühüm nailiyyətdir və bunu qeyd etdiyinizə görə sağ olun.

**Müxbir:** Sizin qədər olmasa da, biz də bir sıra şəhərlərdə olmuşuq. Ancaq Bakı mənim səfər etdiyim heç bir şəhərə bənzəmir.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Müxbir:** Cənab Prezident, müsahibəmizin əvvəlində bildirmək istəyirəm ki, bu il mərhum atanız Ümummilli Lider Heydər Əliyevin 100 illiyi qeyd olunur. O, təkcə Ulu Öndər və müasir Azərbaycanın qurucusu deyil, Çin-Azərbaycan dostluğunun təməlini qoyan şəxs olub. Ona görə bir daha onun xatirəsinə ehtiramımızı ifadə edirik.

Prezident İlham Əliyev: Çox təşəkkür edirəm. Tamamilə haqlısınız ki, Heydər Əliyev Azərbaycanın dövlətçiliyini quran, ölkəni inkişaf yoluna yönləndirən, vətəndaş müharibəsinin qarşısını alan, 1990-cı illərin əvvəlində hökm sürən qarışıqlıq və xaos vəziyyətinə son qoyan şəxs idi. O, həmçinin bu gün də rəhbər tutduğumuz daxili və xarici siyasət prioritetlərini müəyyən etdi. Əlbəttə, 30 il ərzində dünya dəyişib, lakin bizim başlıca məqsədlərimiz dəyişməz olaraq qalıb – dövlətçiliyimizin möhkəmləndirilməsi, qabaqlayıcı tədbirlər görməklə milli maraqlarımıza əsaslanan fəal xarici siyasətin yürüdülməsi və Azərbaycanın iqtisadi, siyasi inkişafı. Buraya olduqca fəal regional siyasətin həyata keçirilməsini də əlavə etmək olar. Əlbəttə, müstəqilliyimizin ilk günlərindən əsas məqsədlərdən biri ölkəmizin ərazi bütövlüyünün bərpası idi. Buna da iki ildən bir az artıq əvvəl nail olunub.

Tamamilə haqlısınız ki, o, Azərbaycan-Çin münasibətlərinin inkişafında çox vacib rol oynayıb. Onun Çinə səfərləri və Çinin rəhbərləri ilə görüşləri əməkdaşlığımızın çərçivəsini yaratdı. O vaxtlar dünyada Azərbaycan o qədər də tanınmırdı. Bunun təməli məhz o vaxt qoyulub və bu gün mən olduqca şadam ki, ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir və daha çox sahələri əhatə edir. Əməkdaşlığın gündəliyi 30 il əvvəlkindən daha genişdir. Bu münasibətlər qarşılıqlı hörmət və dostluq üzərində qurulub.

**Müxbir:** Bir çox çinli izləyici diqqət yetirib ki, atanız Çinə rəsmi səfərləri zamanı rəsmi proqramdan əlavə o, sadə çinli ailələrlə görüşüb və onların həyatı ilə maraqlanıb. Çinli məktəblilərlə görüşüb və bölgələrə səfərlər edib. Buraya biz fotoları gətirmişik və Sizdən xahiş edək ki, bunlarla bağlı əlavə məlumat verəsiniz. Məsələn, bu şəkil 1990-cı illərdə çəkilib. Burada o və çinli ailədir.

**Prezident İlham Əliyev:** Bəli, düzdür.

**Müxbir:** Gözəl şəkildir.

**Prezident İlham Əliyev:** Bəli. Bu, bir daha onu nümayiş etdirir ki, sizin dediyiniz kimi, o, yalnız rəsmi təmaslarla kifayətlənmirdi və xalqlar arasında münasibətlər qurmağa çalışırdı. Bu foto da məhz onu nümayiş etdirir.

**Müxbir:** Bu fotoda isə o, məktəblilərlə söhbət edir.

**Prezident İlham Əliyev:** Bəli.

**Müxbir:** Onlara hədiyyə verir. Xoşunuz gəlirmi?

**Prezident İlham Əliyev:** Bəli, bu, sizin dediklərinizin aydın təzahürüdür. Sağ olun.

**Müxbir:** Burada isə Çin səddinə, "Qadağan olunmuş şəhər"ə və digər tarixi yerlərə səfərlər var.

**Prezident İlham Əliyev:** Bəli.

**Müxbir:** Atanız Çini və oraya səfərlərini Sizə necə təsvir edirdi? Çin onun üçün nə demək idi və Siz nəsildən-nəslə ötürülmüş bu dostluğun davamını necə görürsünüz?

**Prezident İlham Əliyev:** Əslində, Çin onun üçün tanımadığı ölkə deyildi. O, müxtəlif dövrlərdə Çinin inkişafı ilə bağlı yaxşı məlumatlı idi. Vaxtilə o, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışıb və Çin nümayəndələri ilə bir çox görüşlər keçirib. O, ölkənizin dinamikası və inkişafından yaxşı xəbərdar idi. Müstəqil Azərbaycanın Prezidenti seçiləndən sonra isə onun əsas xarici siyasət prioritetlərindən biri Çinlə ikitərəfli münasibətlər qurmaq idi. Xatırlayıram ki, o, Çinə rəsmi səfərdən böyük təəssüratla qayıtmışdı. Heydər Əliyev Çinin artmaqda olan gücünü, həmrəy cəmiyyətini və aydın məqsədlərə malik ölkəni gördü – bunlar təxminən 30 il öncə baş vermişdi.

Sıravi insanlarla görüşlər isə onun təbiəti ilə bağlı idi. O, burada - Azərbaycanda da hər zaman çalışırdı ki, cəmiyyətin nəbzini tutsun, insanların necə yaşadığını, nə fikirləşdiyini, hansı problemlərlə üzləşdiyini və hansı arzulara malik olduğunu bilsin. Təbii ki, o, Çində, həmçinin sadə insanların həyat tərzi ilə maraqlanırdı.

Beləliklə, bizim ikitərəfli münasibətlərimizin təməli həmin tarixi səfər nəticəsində qoyuldu və həmin vaxtdan onların dinamik inkişafı üçün mühüm potensial vardır.

**Müxbir:** Biz Bakının müxtəlif yerlərində atanızın heykəllərini gördük və onun adını daşıyan prospektlər, memoriallar var. Zənnimcə, burada Sizin atanıza olan ehtiram və məhəbbətin daha dərin mənası var. Şəxsən Sizin üçün atanız kim olub?

**Prezident İlham Əliyev:** Xüsusilə Azərbaycan cəmiyyətində hər bir övlad üçün onun valideynləri çox əzizdir. Azərbaycan cəmiyyəti ənənəvi dəyərlər, ailə dəyərləri üzərində qurulub. Bu ənənələr dərin köklərə malikdir. Vacib haldır ki, 30 il müstəqil ölkə olaraq qlobal mühitdə yaşamağımıza baxmayaraq, bu ailə dəyərlərimizi və böyüklərə hörməti qoruya bilmişik. Bu, bizim cəmiyyətimizin təməlidir. Hər bir azərbaycanlı kimi, mənim üçün də atam əziz insan olub. O insan ki, ona bənzəməyə çalışırsan, xüsusilə ata ilə fəxr edə biləndə. Bu belə olur. Mənim üçün bu, böyük xoşbəxtlikdir, çünki mən həm şəxsən onun üçün, həm də Azərbaycan xalqı üçün ən çətin vaxtlarda atamın yanında olmuşam.

Xüsusilə 1990-cı ilin 20 yanvarında sovet ordusu Azərbaycana hücum edərkən, o, həmin qanlı hücuma qarşı etiraz səsini ucaldan və bu hadisəni pisləyən bəlkə də yeganə şəxs idi. O, yaxşı dərk edirdi ki, bu, ona baha başa gələ bilər. Biz Sovet İttifaqında yaşayırdıq, ölkənin dağılmasına hələ iki il qalırdı və 1990-cı ilin yanvarında bunu hələ heç kəs təsəvvür edə bilməzdi. Yüzdən artıq günahsız insanın, mülki vətəndaşın həyatına son qoyan bu zorakı və qanlı hücumu pisləmək böyük cəsarət və xalqa sevgi tələb edirdi.

Bununla yanaşı, o, sovet hökumətinin anti-Azərbaycan mövqeyi səbəbindən kommunist partiyasını tərk etdi. Bunun özü də çox cəsarətli addım idi, çünki sovet hökuməti və sistemi hələ də çox güclü və qəddar idi. O, bunları nəzərə almalı idi, lakin onun üçün Azərbaycan xalqının milli maraqları, milli qüruru və ədalət şəxsi amillərdən üstün idi. Bu, onun üçün və bizim üçün mürəkkəb dövr idi, lakin ailəmiz bir yerdə idi.

Eyni vəziyyət Azərbaycanda vətəndaş qarşıdurması zamanı qarışıqlıq, çaşqınlıq və xaosun hökm sürdüyü dövrdə idi. Azərbaycan xalqı vəziyyətdən xilas yolunu yalnız Heydər Əliyevdə gördü və ən çətin vaxtda onu dəvət etdi. O, gənc deyildi, onun artıq 70 yaşı var idi. Onun 1993-cü ildə Azərbaycanda rəhbərliyi öz üzərinə götürməsi həqiqətən çox cəsur addım idi. Bu, onun Azərbaycan xalqına məhəbbətini və sadiqliyini bir daha nümayiş etdirdi. Azərbaycanlıların onu müasir Azərbaycanın qurucusu hesab etməsi tamamilə doğrudur. Ona olan ehtiram təkcə bir meyarla bağlı deyil, burada müxtəlif səviyyələr var. O, bütün həyatını bu işə həsr etdi. Ən mürəkkəb dövrdə ölkəyə rəhbərlik etmək, ən münasib həll yollarını müəyyənləşdirmək, eyni vaxtda müdriklik və cəsarət nümayiş etdirmək – bütün bunlar siyasətçiyə xas olan nadir keyfiyyətlərdir.

Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan böyük ölkə deyil. O vaxt artıq Azərbaycanın bir hissəsi Ermənistan tərəfindən işğal edilmişdi və biz nəhəng iqtisadi çətinliklərlə üzləşmişdik. İnflyasiya 1000 faizdən artıq idi. İşsizlik və yoxsulluq hökm sürürdü. Ordu demək olar ki, mövcud deyildi. Belə bir vəziyyətdə ölkəni parçalanmaqdan qorumağa, onu inkişaf yoluna çıxarmağa və bugünkü səviyyəyə çatdırmağa müvəffəq olmağı yalnız böyük şəxsiyyət edə bilərdi.

Bizim və şəxsən mənim hədəfim isə dünyanın və Azərbaycanın dəyişməkdə olduğunu nəzərə alaraq Heydər Əliyev siyasətini davam etdirmək, ölkəni müasirləşdirmək, bir də heç vaxt digərlərinin hökmranlığı altında yaşamamaq üçün müstəqilliyimizi möhkəmləndirmək, özünü təmin edən güclü iqtisadiyyat qurmaq və insanların daha yaxşı yaşamasına şərait yaratmaqdır.

Beləliklə, təkcə 100 illiyini qeyd etdiyimiz üçün deyil, ümumiyyətlə, müasir Azərbaycan haqqında danışarkən faktdır ki, təməl Heydər Əliyev tərəfindən qoyulub və 1990-cı illərin mürəkkəb dövründə onun liderliyi olmasaydı, bugünkü Azərbaycan başqa vəziyyətdə olacaqdı. Hansı problem və çətinliklərlə üzləşəcəyini heç təsəvvür etmək belə olmazdı.

**Müxbir:** Dünyanın dəyişməkdə olan geosiyasi mənzərəsi fonunda Azərbaycan həssas rol oynayaraq böyük nailiyyətlər əldə edə, iqtisadi və sosial baxımdan özü üçün nadir inkişaf yolu yarada bilib. İcazənizlə, Çin-Azərbaycan əlaqələrindən danışaq. Bu yaxınlarda Siz bu münasibətləri əla adlandırdınız. Hazırda vəziyyət nə yerdədir və Sizcə bu əlaqələri növbəti səviyyəyə qaldırmaq üçün nə edilməlidir?

**Prezident İlham Əliyev:** Bəli, bunu bir daha təsdiq edə bilərəm ki, münasibətlər əla səviyyədədir və bu təhlil, bu ifadə ikitərəfli əlaqələrin geniş gündəliyini və

əməkdaşlığın çox aydın perspektivlərini əhatə edir. Hesab edirəm ki, ikitərəfli əlaqələrdə əldə etdiyimiz nailiyyətlər çox uzun bir yolun başlanğıcıdır. Ümid edirəm ki, bu, strateji əməkdaşlıq yolunun başlanğıcıdır. Çünki bu gün regionun siyasi, habelə nəqliyyat marşrutları xəritəsinə nəzər saldıqda görürük ki, ölkələrimiz bir-biri ilə nə dərəcədə eyni mövqedən çıxış edir. Beynəlxalq gündəliyə aid təməl məsələləri götürsək görərik ki, bizim mövqelərimiz suverenlik, müstəqillik, ərazi bütövlüyü, digərlərinin daxili işlərinə qarışmamaq məsələlərində üst-üstə düşür. İqtisadi əməkdaşlıq məsələlərində mövqelərimiz üst-üstə düşür. Biz qarşılıqlı ticarətin həcminin artmasını görürük və böyük potensial xüsusilə göz qabağındadır. Biz ölkələrimizi gələcəkdə daha da birləşdirəcək meydana gələn yeni nəqliyyat marşrutlarını görürük. Bunun özü də regional təhlükəsizliyə və sabitliyə böyük töhfə olacaqdır. Çünki ölkələr qarşılıqlı faydalı əməkdaşlıq formatı çərçivəsində birləşirsə, bu, regionun sabitliyini, proqnozlaşdırılmasını, firavanlığını və inkişafını gücləndirir.

Beləliklə, xarici siyasət prioritetlərinə və gündəliyə gəldikdə, mən Azərbaycanın və Çinin siyasətləri arasında və istənilən digər istiqamətdə bir çox oxşarlıqlar görürəm. Son zamanlar bizim münasibətlərimiz daha da intensivləşib və əlbəttə, mənim cənab Si Cinpinlə görüşlərim istiqamətlərin təyin edilməsində və inkişaf üçün aydın hədəflərin müəyyən olunmasında vacib rol oynayır. Eyni zamanda, daha aşağı səviyyədə, dövlət rəsmiləri və deputatlar səviyyəsində, cəmiyyətin müxtəlif nümayəndələri və partiyalarımız arasında olan təmaslar da xüsusi əməkdaşlıq formatını yaradır. Bu səbəbdən, uzun bir yolun başlanğıcında olduğumuzu deyəndə, buraya məhz bu məsələlər daxildir. İkitərəfli əlaqələrin gələcəyinə gəldikdə isə bizim Azərbaycan və Çin arasında yekdil siyasətimiz var. Bir daha təsdiq edirəm ki, münasibətlər əladır və bundan da yaxşı səviyyəyə qalxacaqdır.

**Müxbir:** Siz bir neçə dəfə Prezident Si Cinpinlə görüşlərinizə toxundunuz. Sizin onun bir lider kimi haqqında fikriniz nədir, o, Sizdə necə təəssürat yaradır?

**Prezident İlham Əliyev:** Mənim Prezident Si Cinpinlə həm Çində, həm də beynəlxalq tədbirlər çərçivəsində dəfələrlə görüşmək imkanım olub. Ona dərin ehtiramım var. Onun uzaqgörənliyi, zəkası, səmimiliyi və ikitərəfli münasibətlərimiz barəsində geniş məlumatlı olması məndə hər zaman dərin təəssürat yaradıb. Çünki qlobal bir güc olaraq Çinin çox geniş xarici siyasət gündəliyi var və həmin gündəlik təbii olaraq Azərbaycanın gündəliyindən daha genişdir.

Buna baxmayaraq, bizim əməkdaşlığımızın mahiyyəti və perspektivləri barədə dərindən məlumatlı olması göstərir ki, cənab Si Cinpin olduqca məsuliyyətli şəxsdir və çox uğurlu xarici siyasət bunun nəticəsidir. Bilirsiniz ki, dünyada Çinin dostlarının sayı ildən-ilə artır və bu, məhz həmin müdrik siyasətin nəticəsidir. Biz onun ölkəsinin inkişafını və yardıma ehtiyacı olanlara dəstək istiqamətindəki fəaliyyətini yalnız alqışlaya bilərik. Hesab edirəm ki, bu, dünyada nadir hallardan biridir. Bu, xüsusilə indi aktual məsələdir. Vaxtında və digər mənbələrdən yardım ala bilməyən ölkələrə kömək edilir. Sizə Azərbaycanla bağlı nümunə deyə bilərəm. COVID-19 başlayanda biz peyvəndlərin olmaması səbəbindən böyük çətinliklərlə üzləşdik və bu məsələdə bizə yardım edən yeganə ölkə Çin oldu. Mən Prezident Si Cinpinə yardım ilə bağlı məktub yazdım, məsələyə dərhal cavab verildi və peyvəndlərin ilk həcmi – bir milyon doza təqdim edildi. Biz vaksinasiyaya yanvar ayının ortalarında, dünyada ilk sıralarda başladıq. Bu isə onun yardım göstərmək siyasətindən qaynaqlanırdı. Biz bunu necə unuda bilərik?!

Bununla yanaşı, deyə bilərəm ki, yəqin sizin də məlumatınız var, bəzi Qərb dövlətləri lazım olduğundan 5 dəfə artıq həcmdə peyvənd tədarük edirdilər və bununla da peyvənd istehsal etməyən, buna çıxışı olmayan ölkələri vaksinasiyadan məhrum etdilər. Onlar peyvənd millətçiliyi nümayiş etdirdilər. Onu da qeyd edim ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri olaraq peyvənd millətçiliyinə qarşı ictimai şəkildə mübarizə aparan ölkələrdən biri idi. Demək istədiyim odur ki, bu nümunə Çinin Azərbaycanla bağlı siyasətini nümayiş etdirir. Əminəm ki, bu siyasət yardıma ehtiyac olan zaman hər bir ölkəyə şamil edilir.

Beləliklə, dediyim kimi, mənim Prezident Si Cinpinlə çoxsaylı görüşlərim olub. İnsan olaraq o, çox mehriban, hörmətcil və səmimi adamdır və şəxsən mən onunla təmasdan çox razıyam.

**Müxbir:** Bağlantı və infrastruktur layihələri haqqında danışarkən, qeyd edək ki, Azərbaycan bir rekorda imza atıb – bu, “Bir kəmər, bir yol” layihəsində iştirak edən ölkələr arasında 307 günə infrastruktur layihəsinin icrasıdır. Bu, ən qısa müddətdə icra deməkdir. Söhbət nəhəng infrastruktur layihəsindən gedir. Azərbaycan buna necə nail olub və “Bir kəmər, bir yol” layihəsinin faydasını necə görürsünüz?

**Prezident İlham Əliyev:** İnkişafımızın hədəflərindən biri regional bağlantı mərkəzinə çevrilmək idi. Çünki xəritəyə baxsanız, Azərbaycanın coğrafi üstünlüklərini görərsiniz. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları üzərində yerləşir. Lakin nəqliyyat infrastrukturunun olmaması elə bir vəziyyət yaratmışdı ki, bizim coğrafiyadan istifadə edilmirdi. Mən tam əmin idim ki, biz bu vəziyyəti yaxşılaşdıra bilərik. Biz nəqliyyat infrastrukturuna böyük sərmayə qoyuluşuna 15 il əvvəl başladıq. İlk olaraq yerli infrastrukturu inkişaf etdirmək üçün biz bu sahəyə böyük sərmayə yatırmağa başladıq. Eyni zamanda, qonşularımızla da bağlantı körpüləri qurmağa başladıq. Biz mühüm tranzit ölkəsi olmaq arzusundaydıq, ancaq bunun üçün təkcə coğrafiya kifayət etmir. Hətta infrastruktur da kifayət deyil, burada digər məsələyə ehtiyac var. Bu isə qonşularla yaxşı münasibətlərdir. Qonşularla əməkdaşlıq olmadan tranzit ölkəyə

çevrilmək olmaz. Bu isə bizim xarici siyasətimizin tərkib hissəsi idi. Prioritet qonşu ölkələrlə qarşılıqlı maraq üzərində daha güclü münasibətlər qurmaq idi.

Beləliklə, "Bir kəmər, bir yol" layihəsinə qoşularkən bizim artıq hazır infrastrukturumuz var idi. Hazırda isə biz, nə ilə məşğuluq? İndi biz, sadəcə, texniki imkanları artırırıq. Məsələn, biz ticarət limanımızı genişləndiririk, çünki Şərqdən-Qərbə daşınan yüklərin həcminin artması yükaşırma baxımından problemlər yaradacaq. Bizim dəniz ticarət limanımız bir neçə il əvvəl açıldı. Onun ovaxtkı yükaşırma qabiliyyəti 15 milyon ton idi. Hazırda isə biz onun imkanlarını 25 milyon tona qədər çatdırırıq. Biz Xəzər dənizində daha çox gəmi tikirik. Xəzəryanı dövlətlər arasında Xəzər dənizində ən böyük ticarət donanmasına sahib olduğumuza baxmayaraq, biz yeni tanker və yük gəmiləri inşa edirik ki, daha çox yük daşıya bilək. İndi biz gəmiqayırma zavodumuzu genişləndirməyi planlaşdırırıq ki, ildə 6-8 deyil, 10-20 gəmi inşa edə bilək. Həm Azərbaycanda, həm də Xəzər dənizində buna tələbat artmaqdadır.

Biz hazırda mövcud dəmir yolunu müasirləşdiririk ki, qatarların sürəti artırılsın və daha çox yüklər nəql edilsin. Biz böyük yük axınına daha yaxşı hazır olmaq üçün çox işlər görürük. Azərbaycan vasitəsilə daşınan yüklərin həcmi ildən-ilə artır. Lakin mən hesab edirəm ki, bu rəqəm bir neçə dəfə artıq ola bilər. Biz bu istiqamətdə, həmçinin çinli tərəfdaşlarımız və qonşularımızla həmin infrastruktur bağlantısının yaradılması üçün fəal işləyirik. Burada inzibati bağlantı da olmalıdır. Burada tariflərlə bağlı vahid siyasət olmalıdır. Gömrük qaydaları sahəsində daha geniş qarşılıqlı əlaqələndirmə olmalıdır ki, necə deyərlər, bu qapını daha da geniş aça bilək. Yəni, gələcəkdə ölkələrimiz arasındakı münasibətlər Azərbaycan vasitəsilə daha çox yüklərin daşınmasında vacib rol oynayacaqdır. Sizin də qeyd etdiyiniz kimi, biz bütün işləri vaxtında və qısa zamanda icra etdik. Bu gün Azərbaycanın nəqliyyat infrastrukturu artıq yüksək beynəlxalq standartlara cavab verir.

**Müxbir:** Məlumdur ki, Azərbaycan "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" layihəsinin təşəbbüskarıdır. Bu, nə dərəcədə əhəmiyyətlidir?

**Prezident İlham Əliyev:** Əslində, bu, "Bir kəmər, bir yol" layihəsinin bir hissəsidir. Çünki bizə məlumdur ki, hazırkı geosiyasi vəziyyətdə Transxəzər marşrutu Mərkəzi Asiya ölkələri üçün ən əhəmiyyətli marşruta çevrilib. Dediyim kimi, xəritəyə baxanda aydın olur ki, Avropaya və əks-istiqamətdə yüklərin daşınması üçün Mərkəzi Asiya ölkələrinin seçimi o qədər də geniş deyil.

**Müxbir:** Dəniz yolu və Transsibir marşrutu da var, ancaq o, vaxt baxımından daha uzundur.

**Prezident İlham Əliyev:** Bəli, bu bir səbəbdir, həmin nəqliyyat marşrutu ilə əlaqədar digər səbəb isə geosiyasi dəyişikliklər, məhdudiyyətlər və sanksiyalardır. Bu, həmin tranzit marşrutunu mürəkkəbləşdirir. Beləliklə, sual yaranır - Xəzər dənizi vasitəsilə olmasa, bəs, haradan olsun? Mərkəzi Asiya ölkələri inkişaf edir və ixracyönümlü daha çox məhsul istehsal edir. Həmçinin daha çox məhsul alır və bu baxımdan Xəzər dənizi marşrutu həyati əhəmiyyət kəsb edir. Xoşbəxtlikdən biz illər əvvəl ev tapşırığımızı yerinə yetirmişik və hər bir şey hazırdır. İndi isə bu infrastrukturu genişləndirmək asan olacaq. Həmçinin nəqliyyat infrastrukturunun genişləndirilməsinə yatırılacaq vəsait təxmin edilən yük həcminə uyğun olacaq.

Mən ötən il və bu il bütün Mərkəzi Asiya ölkələrinə səfər etmişəm və bu ölkələrin rəhbərləri Azərbaycana səfər ediblər. Bu gün bizim ikitərəfli münasibətlərimizdə daha çox dinamizm var. Birincisi, biz buna ehtiyacın olduğunu görürük. Digər tərəfdən isə bizim hər zaman gözəl münasibətlərimiz olub. Eyni zamanda, daşımalar marşrutları mövzusu daha fəal əməkdaşlığı diktə edir. Beləliklə, əminəm ki, Xəzər dənizi ilə yükdaşımalarının illik statistikasına nəzər saldıqca biz rəqəmlərin artacağının şahidi olacağıq.

**Müxbir:** Məndə çox maraqlı məlumatlar var ki, Sizinlə bölüşmək istərdim. Oradan görünür ki, Çindən Avropaya göndərilən mallar dənizlə orta hesabla 36 gün çəkir, əgər siyasi məsələlər olmasa, Transsibir marşrutu ilə 20 gün çəkir və Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə edərək, Orta Dəhlizlə isə cəmi 12 gün çəkir.

**Prezident İlham Əliyev:** Elədir, bəli, bu, həqiqətdir. Yeri gəlmişkən, biz bu səbəbdən bu marşrutun qurulmasına və çəkilməsinə başladıq, çünki o, mövcud deyildi. Bu, Azərbaycanın irəli sürdüyü və Türkiyə ilə Gürcüstandakı tərəfdaşlarımızın fəal dəstəyini almış yeni daşımalar yoludur, bağlantıdır və infrastrukturdur. 2017-ci ildə burada - Bakıda həmin layihənin rəsmi açılışı baş tutdu. Həmin vaxt Orta Dəhlizlə daşımalar hələ ki, prioritetlərdən biri hesab edilmirdi. Buna görə, biz lazım olduğu qədər yüklərin daşınma həcminə sərmayələr yatırdıq. Lakin hazırda biz nə ilə məşğuluq? Biz həmin yolun təkmilləşdirilməsi işlərinə artıq bir neçə ay bundan əvvəl başladıq və nəticədə, həmin marşrutla əvvəlcə nəzərdə tutulduğundan beş dəfə artıq yüklər daşına biləcək.

Biz Azərbaycandan Türkiyə və Avropa istiqamətində gedən əlavə yol olacaq Zəngəzur dəhlizi üzərində çox fəal şəkildə çalışırıq. Azərbaycan ərazisində tikinti işlərinin təxminən 70 faizi artıq başa çatdırılıb. Beləliklə, Azərbaycan ərazisindən təkcə Bakı-Tbilisi-Qars kimi bir yol keçməyəcək, o cümlədən Zəngəzur dəhlizi işə salınacaq. Bir sözlə, bütün bunlar əlavə yüklər üçün digər imkanlar açacaq. Eyni zamanda, Azərbaycan ərazisindən daşımalar, həmçinin Gürcüstanın dəniz limanından keçəcək. Biz bu sahədə müəyyən sərmayə imkanlarına böyük maraqla baxırıq. Həqiqətən, daşımalarda əməkdaşlıq bütün ölkələr üçün çox faydalı olacaq və eyni zamanda, o da vacibdir ki, bu işlər ölkələr arasında əlaqələri gücləndirəcək. Ölkələr bir-biri ilə daha sıx bağlı olacaq, inteqrasiya olacaq. Biz dəhliz

boyunca bir çox istehsal sahələrini yaratmağı planlaşdırırıq və sadəcə, tranzit ölkə olmaq istəmirik. Geosiyasi baxımdan, bu, yaxşı haldır, yəni, əlavə gəlir əldə etmək olar, biz Azərbaycanda böyük sənaye zonalarını yaratmaq istəyirik. Əslində, bu istiqamətdə irəliləyirik. Hesab edirəm ki, bu ay açılmış və artıq fəaliyyətə başlamış Ələt Azad İqtisadi Zonamızda istehsalatla məşğul olmaq, həmçinin Çin şirkətləri üçün cəlbedici ola bilər. Əslində, təsəvvür etdiyinizdən də geniş fürsətdir.

**Müxbir:** Siz bağlantıların, "Bir kəmər, bir yol" təşəbbüsünün mədəni aspekti haqqında danışdınız. Biz iki gün əvvəl "Muğam Klub" restoranında olduq. Gördüklərimiz mənə böyük təəssürat bağışladı. Əlbəttə ki, qədim Karvansaranı ziyarət etdik. Orada qədim İpək Yolu ilə tanış olduq. Orada sanki zaman yenidən göz qabağına gəlir və siz tarixi, insanları, ticarəti və mədəniyyətləri, ənənələri seyr edə bilirsiniz. Çin tərəfinin "Bir kəmər, bir yol" təşəbbüsünün mədəni dəyərini necə görürsünüz? Bilirəm ki, ölkənizdə qədim İpək Yolunun bərpasına hələ 1990-cı illərdən çalışırsınız.

**Prezident İlham Əliyev:** Əlbəttə ki, birmənalı olaraq, bu, dostluğa əlavə təkan və töhfə verəcək. Qarşılıqlı fəaliyyət yaranacaq, çünki qədim İpək Yolunda yerləşən ölkələrin xüsusiyyəti, bəlkə də, oxşarlığı ondan ibarətdir ki, onlar cəmiyyətlərinin müxtəlifliyi, çoxetnik və çoxkonfessiyalı xarakteri ilə seçilir. Azərbaycan həmin müsbət ssenarinin bir hissəsidir. Buna görə, Azərbaycanın mədəni irsi, gördüyünüz kimi, dövlətimiz tərəfindən lazımınca qorunur. Bu, bizim üçün qorunmalı, saxlanılmalı və yeni nəsillərə ötürülməli sərvətdir ki, onlar da eyni münasibət bəsləsinlər. Biz mədəni irsimizi əsrlər boyu qoruyub saxlamışıq. Baxmayaraq ki, Azərbaycan uzun müddət öz dövlətçiliyindən məhrum idi. Biz müstəqil ölkə deyildik. Lakin, eyni zamanda, biz milli özünəməxsusluğumuzu, dilimizi, ədəbiyyatımızı, musiqimizi və ənənələrimizi, mədəni irsimizi qoruyub saxlamışıq. Hətta müstəqil olmadığımız vaxtlarda, bunu bacarmışıq. Beləliklə, dünya irsinin bir hissəsi olan mədəni irsimizin qorunmasını birmənalı olaraq davam etdirəcəyik. Eyni zamanda, tərəfdaşlarla bağlantı yaradan bir çox layihələr daha çox səfərlərlə, turistlərlə, ticarətlə, qarşılıqlı fəaliyyətlə nəticələnəcək. Bunun sayəsində mədəniyyətlərimiz və cəmiyyətlərimiz daha da zənginləşəcək. Bir sözlə, biz həmin məsələyə belə nöqteyi-nəzərdən baxırıq. Bəxtimiz çox gətirib ki, Azərbaycan əsrlər boyu və xüsusən də, müstəqillik dövründə, sözün əsl mənasında, etnik və dini dözümlülüyün, birgəyaşayışın yüksək standartlarını nümayiş etdirir. Azərbaycanda bütün etnik qruplar bir ailə kimi yaşayır və bu, bizim ən böyük sərvətlərimizdən biridir. Biz bunları qorumağa çalışırıq və əminəm ki, bu işin öhdəsindən gələcəyik.

**Müxbir:** Atalar sözü var: Ticarət dayananda, müharibələr başlayır.

**Prezident İlham Əliyev:** Elədir.

**Müxbir:** Ticarət nə qədər çox olarsa, ölkə əhalisi üçün daha çox fürsətlər açılır.

**Prezident İlham Əliyev:** Tamamilə doğrudur. O, sabitliyi, təhlükəsizliyi möhkəmləndirir və müəyyən dərəcədə, sözün yaxşı mənasında, qarşılıqlı bağlılığı artırır. İnsanlar, ölkələr üçün daha çox fayda olur. Bu şəraitdə, əlbəttə, sabitlik bərqərar olur.

**Müxbir:** Prezident Əliyev, Sizə deməliyəm ki, iki il əvvəl BBC-nin jurnalistinə verdiyiniz müsahibədən sonra Çində kifayət qədər məşhurlaşdınız. Bir çox insanlar deyirdilər ki, Qərbə münasibətdə maraqların tarazlaşdırılması üçün ölkə rəhbəri məhz bu cür addım ata bilərdi. Bu, necə baş verdi?

**Prezident İlham Əliyev:** Bilirsiniz, 44 günlük Vətən müharibəsi zamanı mən çox sayda müsahibələr verdim. Bu, əsasən, Qərb jurnalistlərinə verilən müsahibələr idi. Onların əksəriyyəti, deyərdim ki, çox aqressiv idi və çalışırdılar Azərbaycanı təcavüzkar kimi təsvir etsinlər. Bilirsiniz, öz ərazilərimizi azad etdikdə, ərazi bütövlüyümüz uğrunda vuruşduqda, biz digər ölkənin ərazisinə addım da atmadıq. Biz, sadəcə, üzləşdiyimiz 30 illik işğalın və etnik təmizləmənin nəticələrini aradan qaldırırdıq. Əlbəttə, əmin idim ki, videoreportaj hazırlamaq məqsədilə Azərbaycana gəlmiş və mənimlə görüşmək istəyən Qərb jurnalistləri yaxşıca hazırlaşmışlar. Münaqişənin tarixi, kimin təcavüzkar, kimin isə təcavüz qurbanı olması, nəyin baş verdiyi barədə onların bilməməsini təsəvvür etmək sadəlövhlük olardı. Lakin, eyni zamanda, onlar nəinki görüşümüz zamanı vəziyyəti təqdim etməyə çalışırdılar, – çünki Azərbaycanda olarkən çoxlu reportajlar hazırlamışdılar, – onlar çalışırdılar ki, Azərbaycanı təcavüzkar kimi qələmə versinlər. Əlbəttə, bu, tamamilə qəbuledilməz idi. Bütün bunlar Qərb mətbuatının qərəzli, qeyri-tarazlı və anti-Azərbaycan yanaşmasını nümayiş etdirdi və biz həmin reallıqda 30 il idi ki, yaşayırdıq. Bu, həqiqətdir.

**Müxbir:** Bir çox insan hesab etdi ki, Culian Assanj tezisi böyük əks zərbə oldu. Bu necə fikrinizə gəldi?

**Prezident İlham Əliyev:** Əslində, əgər siz kimisə nəyinsə pozulmasında ittiham etmək istəyirsinizsə, birinci, güzgüdə özünüzə baxıb görməlisiniz, sizin üzünüzdə qüsurlar varmı? Culian Assanjın başına gələnlər, tamamilə qəbuledilməzdir. Bu, söz azadlığının kobud şəkildə pozulması deməkdir. Həmin insan səfirliklərin birində illər boyu işgəncəyə məruz qalıb. Hazırda o, işgəncədədir. Mən burada mənəvi işgəncəni nəzərdə tuturam. Onun fiziki işgəncəyə məruz qalmasını bilmirəm. Bilmədiyim məsələni deyə bilmərəm. Lakin, insan bəzi mənbələrdən əldə etdiyi müəyyən məlumatı açıqladığına görə əzab-əziyyətlərlə üzləşib. Bəlkə də, o, səhv edib, yaxud qaydaları pozub. Bununla belə, Qərbdəki insanlar vəziyyəti elə təsvir edirlər ki, jurnalistlər istədiklərini edə bilər və onların hər hansı cinayət təqibindən toxunulmazlığı var və əgər siz

jurnalisti həbs edirsiniz, deməli, siz diktatorsunuz. Ona görə dedim, baxın Culian Assanjın məsələsinə, görün həmin insanla siz nə etdiniz? Onda, siz kimisə bu məsələdə necə ittiham edə bilərsiniz? Həmin hadisə sizin tarixinizdə ən qara səhifədir. Siz də qeyd etdiyiniz kimi, iki ildən çox vaxt keçir və hazırda Culian Assanj haradadır? O, hələ də həbsxanadadır. Hələ də, həbsxanadadır. Kimsə onun haqqında danışır? Yox.

**Müxbir:** Mən özüm səkkiz il Vaşinqtonda müxbir işləmişəm və hər iki istiqamətdə çox şeyi öyrəndim. Azərbaycan, Çin kimi qeyri-Qərb ölkələrin Qərb mətbuatında qərəzli təsviri haqqında danışdıqda, əlbəttə, Siz hesab edirsiniz ki, onlar bu ölkələrə ədalətli yanaşmırlar. Sizcə, bu, niyə baş verir? Səhv təsvirin verilməsinin arxasında duran meyarlar nədir? Yəni, qeyri-Qərb aləmini, o cümlədən Çini səhv təsvir etməyin səbəbi nədir?

**Prezident İlham Əliyev:** Eyni üsulu Çinə qarşı tətbiq etmələrinin səbəbini söyləmək mənim üçün çətindir. Çox güman ki, bunun səbəbləri var. Amma, Azərbaycana gəldikdə, amillər müxtəlifdir. Əsas olmasa da, həmin amillərdən biri Birləşmiş Ştatlarda, Fransada və bəzi digər Qərb ölkələrində erməni lobbisinin böyük infrastruktura malik olmasıdır. Onlar dövri olaraq Azərbaycana hücum çəkirlər, siyasətçiləri ələ alırlar, onların cəmiyyətinə, parlamentinə, mətbuatına və hökumət orqanlarına yol tapırlar. Bütün oxları Azərbaycana tuşlayırlar və bir növ, Azərbaycanofobiya mühitini yaradırlar. Lakin, bu, yeganə səbəb deyil. Düşünürəm, əsas səbəb ondan ibarətdir ki, Azərbaycan öz milli maraqlarına əsaslanan müstəqil siyasət yürüdür. Bəzi ölkələrdən fərqli olaraq, Azərbaycan prioritetlərimizə və milli maraqlarımıza cavab verməyən hər hansı işə qoşulmur. Başqa sözlə desək, biz müstəqil davranırıq və siyasətimiz müstəqildir. Biz əlimizdə olan bütün vasitələrlə özünəməxsusluğumuzu və ləyaqətimizi müdafiə edəcəyik. Fikrimcə, bu, əsas səbəbdir ki, Azərbaycan davamlı olaraq mətbuatın hədəfindədir, dırnaqarası müstəqil QHT-lərin hücumuna məruz qalır. Hamımız bilirik ki, onlar müstəqil deyil. Kim deyə bilər ki, "Human Rights Watch", "Amnesty International" və "Freedom House" müstəqildirlər. Baxın, onlar kimdən pul alırlar və kim musiqini sifariş edir. Onda görəcəksiniz ki, onlar tamamilə asılıdırlar.

**Müxbir:** Karneqi Beynəlxalq Sülh Fondu...

**Prezident İlham Əliyev:** Elədir ki, var. Onlar tam asılıdır və yiyələri ilə razılaşdırmadan bir addım belə sağa, yaxud sola ata bilməzlər. Lakin, bilirsiniz, biz bu mühitdə yaşamağa öyrəşmişik. Mənim üçün Qərb mətbuatının Azərbaycan haqqında yazdığı deyil, Azərbaycan xalqının hökumətimizin siyasəti barədə düşündüyü vacibdir. İnsanlarla söhbət apardıqda, görə bilərsiniz ki, onlar hökumətimiz barədə nə düşünür, gördüyümüz işlər düzdür, yoxsa səhvdir!

Cəmiyyətimiz həmrəy olması və güclü ictimai dəstək, əlbəttə, əsasən bizim siyasətimiz, əvvəlcə işğal altında olmuş ərazilərin azad edilməsi sayəsində formalaşır. Lakin, həmçinin bu, anti-Azərbaycan təşviqatına olan reaksiyadır. Əgər Qərbdə kimsə düşünür ki, hökumət rəsmilərini təhqir etməklə, böhtan və şayiələr yaymaqla Azərbaycanda ictimai rəyə təsir göstərə bilər, bilsin: ola bilər, o, haqlıdır, lakin həmin təsir onların görmək istədiyi istiqamətdə olmayacaq. Əksinə, cəmiyyət daha da həmrəy olur, çünki biz görürük ki, bu, ədalətli deyil. Biz 30 il işğala məruz qalmışıq və Ermənistan işğalını orada pisləyən olmadı.

**Müxbir:** Onlar yalnız dinc yolla nizamlamanı qeyd etdilər.

**Prezident İlham Əliyev:** Düzdür. Yalnız dinc yolla nizamlama, ərazi bütövlüyünü dilə gətirmirdilər.

**Müxbir:** Bu, ikili standartların jarqonudur.

**Prezident İlham Əliyev:** Elədir! Bunlar ikili standartlardır və cəmiyyətimiz bunları çox yaxşı anlayır. Həmçinin bilmək vacibdir ki, söhbət təkcə bəzi jurnalistlərin müsahibəsindən getmir. Bu halda hökumətlər də var. Hazırda biz Fransa hökumətinin, əgər belə demək olarsa, çox əsassız hücumları ilə üzləşirik. Təsəvvür edirsinizmi, Fransa Ermənistanın ən böyük vəkilinə çevrilib. Yaxşı, bu, onların işidir, lakin onlar Avropada ən iri anti-Azərbaycan mənbəyinə çevriliblər. Onlar bizə hər istiqamətdə hücum çəkirlər. Onların xarici siyasi bəyanatları və rəsmilərin bəyanatları hər cür siyasi etikadan kənara çıxır. Onlar müharibə zamanı bizi elə məsələlərdə ittiham etdilər ki, biz bunları heç vaxt etməmişik və bununla bağlı, üzr belə istəmədilər. İndi isə onlar bizi öz ərazimizdə gördüyümüz işlərə görə ittiham edirlər. Baxın hələ bunu kim edir? O ölkə ki, Korsika dilinə qadağa qoyur, Korsikada öz müqəddəratını təyin etmək hərəkatını qəddarcasına boğur. Onlar Qarabağda ermənilərin "öz müqəddəratını təyin etmələrini" təşviq edirlər. Bu, necə ola bilər? Müharibə zamanı siyasi təcavüz bütün sərhədləri aşanda, dedim ki, əgər onlar "Dağlıq Qarabağ respublikasını" haradasa qurmaq istəsələr, qoy öz ərazisində qursunlar. Məsələn, çoxlu ermənin yaşadığı Marsel şəhərinin ətrafında qurub, "Dağlıq Qarabağ respublikasını" orada elan etsinlər, biz də tanıyaq. Bu ölkə hələ də öz müstəmləkəçilik siyasətini davam etdirir. Baxın Mayot adasına, Fransanın müstəmləkəsi. Yeni Kaledoniya, Fransanın müstəmləkəsi. Onlar hələ də insan hüquqları haqqında danışır!? Bu, siyasi riyakarlıqdır. İndi söylədiklərimi biz deyəndə isə, siz görürsünüz ki, onlar bütün mətbuatı dərhal işə salır, Azərbaycanı, onun rəhbərlərini və siyasətini təhqir etməyə, hücum çəkməyə, şayiə yaymağa başlayırlar.

**Müxbir:** Ərazi bütövlüyü haqqında danışdıqda, bir çox çinlilərin qəlbinə yaxın olan, onlar üçün əziz olan məsələ var: bu, Tayvan məsələsidir. Tayvan məsələsinə kənardan müdaxilə var. Siz öncə söylədiniz ki, Çini bölmək səylərini dəstəkləmirsiniz. Bu barədə ətraflı deyə bilərsinizmi?

**Prezident İlham Əliyev:** Bilirsiniz, biz Çinin ərazi bütövlüyünü, Vahid Çin və Çinin birləşməsi siyasətini

hər zaman dəstəkləmişik və dəstəkləməkdə davam edirik. Bu siyasət bir neçə il əvvəl qeyd olunub, bir çox hallarda yenidən təsdiqlənib, tamamilə dəyişməz olaraq qalır və heç zaman da dəyişməyəcək. Birincisi, bu, onunla bağlıdır ki, Çin bizim üçün dost ölkədir. İkincisi, biz hər zaman beynəlxalq hüququn norma və prinsiplərini dəstəkləyirik. Beynəlxalq hüququ ayrılıqda tətbiq etmək olmaz. Beynəlxalq hüququ ayrılıqda tətbiq etmək istəyən ölkələr yalnız öz nüfuzunu itirəcəklər, çünki beynəlxalq hüquqda aydın şəkildə deyilir ki, ərazi bütövlüyü onun fundamental prinsipidir. Xalqların öz müqəddəratının təyin edilməsi hər hansı ölkənin ərazi bütövlüyü ilə ziddiyyət təşkil etməli deyil. Bu, beynəlxalq hüququn fundamental prinsipləridir. Buna görə, Vahid Çin siyasəti ilə bağlı mövqeyimiz tam aydındır və ümid edirəm ki, bəzi Qərb hökumətləri də bu mövqeyə uyğun davranacaqlar.

**Müxbir:** Ermənistan-Azərbaycan münasibətlərinə gəldikdə, bilirik ki, atəşkəs mövcuddur, lakin vəziyyət mürəkkəb olaraq qalır. Əvvəlki hadisələrin hamısını nəzərə alaraq, cənab Prezident, Siz sülh müqaviləsi haqqında nə düşünürsünüz? Onu nə vaxt gözləmək olar? Əgər olarsa, o, necə olacaq?

**Prezident İlham Əliyev:** Düşünürəm ki, ona ən yaxın gələcəkdə nail olmaq olar. Nəyə görə mən bu cür düşünürəm, çünki Ermənistan çox mühüm bəyanatla çıxış etməli idi ki, onlar nəinki Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar, - əslində, onlar bunu rəsmən ötən ilin oktyabrında bəyan etdilər və sonra bir neçə dəfə təsdiqlədilər, - həmçinin bu ilin mayında onlar bunu aydınlaşdırdılar, çünki biz tələb etdik ki, onlar Qarabağı Azərbaycanın hissəsi kimi tanıdıqlarını qeyd etsinlər. Onlar Azərbaycanın ərazi bütövlüyünü 86,6 min kvadratkilometr ərazidə tanıdılar. Bu əraziyə Qarabağ və Ermənistan ərazisində olan səkkiz Azərbaycan anklavı da daxildir. Bu, əslində, mühüm bəyanatdır. Bundan sonra qalan yeganə məsələ, bunu kağız üzərinə köçürmək və imzalamaqdır. İkinci Qarabağ müharibəsi bitdikdən sonra, sülh müqaviləsi ilə bağlı mövqeyimiz həmin müqavilənin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmasından ibarətdir. Biz sülh müqaviləsinin əsasını təşkil etməli olan beş beynəlxalq təməl prinsipini hazırladıq. Bir neçə dəfə danışıqlar aparılıb və iyunun sonunda davam etdiriləcək. Fikir ayrılığının yeganə əsas müddəası onunla bağlı idi ki, Ermənistan Qarabağı rəsmən Azərbaycanın hissəsi kimi tanısın. Artıq dediyim kimi, bir – onlar qeyd etməlidir ki, Qarabağ Azərbaycandır və indi isə, onlar ikincini etməlidirlər: imzalamalıdırlar. Bundan sonra razılaşma əldə oluna bilər və düşünürəm ki, əgər ermənilər söylədiklərini yerinə yetirərlərsə və əgər bu, yenidən siyasi manevr deyilsə, prosesi yubatmaq cəhdləri naminə ixtira edilən hekayət deyilsə, onda biz ilin sonuna qədər sülh müqaviləsinə nail olaraq, onu imzalaya bilərik. Bu, həqiqətən mühüm geosiyasi amilə çevrilə bilər, uzunmüddətli qarşıdurmaya son qoyar, Qafqazda real sülh yaradar, bütün kommunikasiyaları açar. Həmçinin əlavə etmək istəyirəm, Azərbaycandakı erməni azlığına gəldikdə, biz artıq rəsmən bəyan etmişik ki, onların hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyası əsasında lazımınca qorunacaq. Bununla belə, Azərbaycan onlarla etnik qrupun, o cümlədən ermənilərin yaşadığı ölkədir. Bizim dini və ya etnik zəmində heç zaman hər hansı problemimiz olmayıb. Buna görə, Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilər hər hansı digər Azərbaycan vətəndaşı qədər bərabər hüquq və təhlükəsizlik zəmanətinə malik olacaqlar. Düşünürəm ki, bu, tam şəkildə beynəlxalq hüququn normalarına uyğundur və fikrimcə, Azərbaycanın bu mövqeyi beynəlxalq ictimaiyyət tərəfindən dəyərləndirilir.

**Müxbir:** Prezident Əliyev, gəlin Sizin sevdiyiniz mövzulardan birinə keçək – idman və fitnesə.

**Prezident İlham Əliyev:** Yaxşı.

**Müxbir:** Siz turnikdə dartındığınız videonu qoymusunuz. 60 yaşınız tamam olurdu həmin vaxt.

**Prezident İlham Əliyev:** Bəli.

**Müxbir:** On beş dəfə. Çox xoş təəssürat bağışladı. Daha çox da edə bilərsiniz...?

**Prezident İlham Əliyev:** Əvvəllər çox edirdim. Sadəcə, indi birinci dəfə göstərdim. Gənc olduğum zaman bunu heç zaman göstərmirdim, çünki gənc insan üçün bunu çox etmək təbii haldır. Nəyə görə bunu göstərdim? İstəyirəm ki, gənc nəsil eynən bu cür etsin. Demək istəyirəm ki, 60 yaşın olsa belə, əgər pis vərdişlərin yoxdursa, idmanla müntəzəm məşğul olursansa, onda bunu bacararsan. Mənim gənc nəslə ismarışım bu idi. Əgər siz hesab edirsiniz ki, 60 yaşınız var, edə bilməzsiniz, yanılırsınız, bacararsınız. Amma ondan çox dartınmaq, bəlkə də, bacararam. Lakin bu, o qədər cəlbedici olmaz.

**Müxbir:** Tam haqlısınız. Siz, həmçinin ağır atletikanı sevdiyinizi gizlətmirsiniz. Hətta, yaxın dostunuz, Prezident Ərdoğanın qarşısında hazırlıq olmadan göstərdiniz.

**Prezident İlham Əliyev:** Bu, işin asan hissəsi idi. Bəli, o qədər də ağır deyildi.

**Müxbir:** Amma Siz bunu etdiniz. İdmana şəxsi sevginizi daha böyük ismarışa çevirmək bacarığınız təsirlidir. Elə baxaq Bakıya, onun mərkəzində F1 yarışları keçirilir. Sizdə 2020-ci ilin futbol üzrə Avropa çempionatının oyunları, 2015-ci ildə ilk Avropa Oyunları təşkil olundu. İdmana həvəsiniz barədə söyləyin, nəyə görə məhz idman?

**Prezident İlham Əliyev:** Birincisi, mən idmanı sevirəm. İkincisi, ömrüm boyu mən idmanla müəyyən fasilələrlə məşğul olmuşam. Əfsuslar ki, bəzən atmışam, sonra yenidən başlamışam. Gənc yaşlarımda idmanla çox fəal məşğul olurdum. Sonra dayandırırdım və yenidən başlayanda mənim üçün formanı qaytarmaq çox asan olurdu.

İkincisi, idman ictimai həyatın mühüm amilidir. İşğal dövründə idman qələbələrimiz insanların şüurunda

Birinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra bir növ rəmzi kompensasiya oldu. Beləliklə, biz göstərdik ki, qalib gələ bilərik və qələbə Azərbaycanda vətənpərvərliyin çox mühüm amilinə çevrildi. Çünki idmançılarınız qalib gələndə, bayrağımız qalxanda, himnimiz çalınanda adamı böyük qürur hissləri bürüyür. Bu, gənc nəsil üçün vətənpərvər olmaqda mühüm amil idi, çünki mən aydın şəkildə anladım ki, bunsuz biz qələbə qazana bilməyəcəyik. Bəli, biz müdafiə imkanlarımıza, hərbçilərimizin təliminə böyük sərmayələr yatırdıq. Biz İkinci Qarabağ müharibəsinə hazırlaşmaq üçün çox işlər gördük. Lakin sizə deyə bilərəm ki, hazırda, iki il yarımdan sonra, Qələbəmizin əsas meyarı qələbə ruhu idi. Torpaqları azad edənlər həyatlarında heç vaxt Qarabağı görməmişdilər, çünki çox gəncdirlər. Qarabağ işğal ediləndə onlar heç anadan olmamışdılar. Beləliklə, onları bu məqsədə aparan nə idi? Qələbə ruhu, vətənpərvərlik və ləyaqət idi. İdman həm budur, həm fiziki sağlamlıq deməkdir, çünki biz istəyirik ki, cəmiyyətimiz sağlam olsun. Biz istəyirik cəmiyyətimiz fiziki baxımdan güclü olsun. Bunun üçün idman birinci yerdədir. Əlbəttə ki, yaxşı qida, pis vərdişlərin olmaması məsələsi də var. İdman bəlkə onları üstələyir. Həmçinin hazırda biz idmanın kütləviliyi üzərində çalışırıq ki, hər rayonda idman infrastrukturumuz olsun. Bunu artıq yaratmışıq. Eyni zamanda, bu, beynəlxalq nüfuz deməkdir, çünki ilk Avropa Oyunları həqiqətən Azərbaycanı Avropaya açdı. Formula 1 yarışlarını artıq yeddi dəfə keçirmişik. Xüsusən də, nəzərə alsaq ki, o, şəhər küçələrində baş verir. Bu, Bakını heç vaxt görməyən üçün şəhərimizin təqdimatıdır. Formula 1-in auditoriyası 500 milyondur. İlk Formula 1 yarışlarından sonra turizm 20 faiz artdı və COVID-dən əvvəl hər il on – on beş faiz artım var idi. Yarışlar sayəsində çoxlu xarici turist gəldi. Ölkəyə çox xarici valyuta daxil oldu. Bir çox amillər hər bir hökumətin idmanın inkişafına böyük diqqət yetirməli olduğunu göstərir.

**Müxbir:** 2020-ci ilin futbol üzvə Avropa çempionatını çox yaxşı xatırlayıram.

**Prezident İlham Əliyev:** Avropa Liqasının 2019-cu ildəki final matçı və UEFA 2020-ci ilin matçları 2021-ci ildə Bakıda keçirildi. Bəli, Bakı artıq böyük idman tədbirləri üçün beynəlxalq məkana çevrilib. Ölkəmizdə, həmçinin 2017-ci ildə İslam Həmrəyliyi Oyunları keçirildi. Təsəvvür edin, 2015-ci ildə ilk Avropa Oyunları və 2017-ci ildə İslam Həmrəyliyi Oyunları bir şəhərdə cəmi iki il ərzində keçirilib. Bu, bir daha Azərbaycanı idman ölkəsi kimi nümayiş etdirir. Avropa ilə Asiyanın kəsişməsində yerləşən ölkəmiz müsəlman aləminin, eyni zamanda, Avropanın bir hissəsidir. Ölkəmizin yerləşməsi çox unikaldır. Ölkəmizin siyasəti, cəmiyyətin statusu bütün bunların təzahürüdür.

**Müxbir:** Prezident Əliyev, Hancouda Asiya Oyunları yaxınlaşır və Çinin Çendu şəhərində Dünya Universitet Oyunları gözlənilir. İdmançılara və iştirakçılara nə deyərdiniz? Çində keçiriləcək həmin oyunlardan gözləntiləriniz?

**Prezident İlham Əliyev:** Mən yalnız uğurlar arzulayıram. Əminəm ki, oyunlar mümkün ən yüksək səviyyədə təşkil olunacaq. Çində idman tədbirlərinin necə təşkil edildiyinə bələdəm. Mən Pekində keçirilmiş Olimpiya Oyunlarında oldum, 2008-ci ildə gözəl ölkənizdə bir neçə gün keçirdim. Yəqin bilirsiniz, biz Asiya Oyunlarında iştirak etmirik, lakin Dünya Universitet Oyunlarında 150-dən artıq atletlə böyük komanda ilə iştirak edəcəyik. Onların sayı heç zaman olmadığı qədər bir neçə dəfə çox olacaq. İdmançılara qələbə, təşkilatçılara uğurlar, Çin xalqına bu oyunlarda sevinc arzu edirəm.

**Müxbir:** Son olaraq, Azərbaycan sıravi çinlilərə görə uzaq, lakin sirli ölkədir. Mən burada ölkə Prezidenti ilə əyləşmişəm. İcazə verin soruşum: Siz proqramımızın çinli tamaşaçılarına söyləyə bilərsinizmi nəyə görə onlar Azərbaycanı növbəti turizm məkanı kimi seçməlidirlər?

**Prezident İlham Əliyev:** Bilirsiniz, birincisi, insanlarımız çox mehriban və qonaqpərvərdirlər. İkincisi, bizim çox müasir hotel infrastrukturumuz var. Rəngarəng təbiətimiz var. Ölkədə doqquz iqlim qurşağı var. Ölkənin ərazisi o qədər böyük deyil, siz qatarla, avtomobillə və yaxud ən uzağı təyyarə ilə asanca qət edə bilərsiniz. Yol infrastrukturu ən yaxşılar sırasındadır. Mətbəx, fikrimcə, ən yaxşılar sırasındadır.

**Müxbir:** Biz çoxlu kabab yedik.

**Prezident İlham Əliyev:** Hava çox yaxşıdır. Dağlarda xizək sürə bilərsiniz. Xəzər dənizində üzə bilərsiniz. Velosipedlə dağlara çıxmaq, palçıq vulkanlarını görmək, Qarabağın dağlarına və meşələrinə getmək olar. Göl və çaylarımız var. Həmçinin düşünürəm ki, çinli turistlər görəcəklər ki, Azərbaycan xalqının Çinə böyük rəğbəti var. Onlar ölkənizi tanıyır, dost olduğumuzu bilirlər. Ona görə, çinlilər özlərini öz evindəki kimi hiss edəcəklər.

**Müxbir:** Prezident Əliyev, ölkənizdə bizi qəbul etdiyinizə görə bir daha çox sağ olun. Bu müsahibəyə görə minnətdarıq.

**Prezident İlham Əliyev:** Sağ olun.

DOI: 10.30546/2309-1347.83.2023.97

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsi*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Şuşada "Euronews" televiziyasına müsahibə verib. Müsahibə avqustun 1-də "Euronews"da yayımlanıb.*

**Müxbir:** Cənab Prezident Əliyev, bizi burada qəbul etdiyinizə görə Sizə çox minnətdarıq. Bu bölgə Cənubi Qafqazın yeni tarixində bəzi ən zorakı epizodların cərəyan etdiyi səhnə olub. Bununla belə, 2020-ci ildəki sülh razılaşmasından sonra gərginlik hələ də tam aradan qalxmayıb. Daimi düşmənçiliyi Siz nə ilə əlaqələndirirsiniz?

**Prezident İlham Əliyev:** Demək çətindir. Düşünürdüm ki, İkinci Qarabağ müharibəsindən sonra vəziyyət fərqli olacaq. Biz sülh üçün hazır idik və əslində bir az gözlədik ki, beynəlxalq iştirakçılar bizə müəyyən yeni təkliflər versinlər. Anladıq ki, bir növ boşluqdur. Heç kəs nə etməyi bilmirdi. 2020-ci il noyabrın 10-da Bəyanatı imzaladığımız zaman vəziyyət, əslində, dayanıqlı sülhü təmin etmirdi. O, sülh razılaşması deyildi, Bəyanat idi. Əslində, Ermənistanın kapitulyasiya aktı idi. Buna görə biz Ermənistanla münaqişənin yekun həll variantını tapmaq məqsədilə müəyyən təşəbbüslərlə çıxış etməyə başladıq və ictimaiyyət qarşısında bunu açıqladıq. Elan etdik ki, sülh sazişi imzalanmalıdır. Amma yenə boşluq yarandı. Sonra isə biz sülh sazişinin prinsiplərini müəyyən etdik. Onlar ərazi bütövlüyünün, suverenliyin və beynəlxalq sərhədlərin qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası, gücdən istifadə etməmə və ya güclə təhdid etməmə kimi beynəlxalq hüququn tam məlum prinsipləridir. Bu təklifi biz masa üzərinə qoyduq. Biz 30 illik işğaldan əziyyət çəkmiş və ədaləti güc hesabına bərpa etmiş ölkə olaraq yeni sülh prosesinin müəllifi olduq. Deməzdim ki, hər şey çox rəvan gedir. Amma biz hələ də nikbinik, çünki hazırda biz hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində çox fəal danışıqlar aparırıq.

**Müxbir:** Elə mən də onu soruşmaq istəyirdim. Sözünüzü kəsdiyimə görə üzr istəyirəm. Siz bu yaxınlarda Brüsseldən qayıtmısınız. Sülh danışıqlarının növbəti raundu keçirildi. Bir çox insan tərəfindən bu danışıqlar Ermənistanla Azərbaycan arasında dayanıqlı sülhə aparan ümid kimi qarşılandı. Ən sonuncu raunddan sonra ümidli olmaq bizim tərəfdən düzgün olardımı?

**Prezident İlham Əliyev:** Bəli, ümidli olmaq yaxşıdır. Lakin deməliyəm ki, sülh danışıqları xarici işlər nazirləri tərəfindən aparılır. Brüsseldəki görüşlərimiz Avropa İttifaqı Şurasının Prezidenti tərəfindən təşkil olunur. Əslində, həmin görüşlər bizə çox həssas məsələlərə toxunmaq imkanını verir.

**Müxbir:** Məsələn.

**Prezident İlham Əliyev:** Sərhədlərin gələcək parametrləri ilə bağlı məsələ, çünki Ermənistanla Azərbaycan arasında sərhəd müəyyən olunmamışdır. Çünki Sovet İttifaqının süqutu ərəfəsində biz təcavüzlə üzləşdik. İndi sərhəd necə olacaq? Yerlərdə real vəziyyət necə olacaq? Kommunikasiyalarla bağlı vəziyyət necə olacaq? Çünki İkinci Qarabağ müharibəsi nəticəsində Ermənistanın imzaladığı sənəddə onun öhdəliyi var ki, bizim eksklavımız olan Naxçıvana çıxışımız olsun. Lakin bu, hələ də baş vermir. Beləliklə, sülh sazişinin əsas bəndləri nazirlər tərəfindən tərtib edilir. Bizim görüş isə hesab edirəm ki, yaxşı mühit yaradır. Lakin əgər biz Ermənistan tərəfindən konstruktiv yanaşma görsək və ən vacibi isə əgər onlar ərazi bütövlüyümüzü mübahisələndirən bütün iddialarını kənara qoysalar, onda biz tezliklə, bəlkə də ilin sonunadək sülh variantını tapa bilərik.

**Müxbir:** Danışıqlar haqqında sonra daha çox söhbət edəcəyik. Lakin mənim üçün soruşmaq maraqlıdır ki, vəziyyəti nizamlamağa cəhd edən çox beynəlxalq iştirakçı olub. Avropa İttifaqı danışıqlar masasına nəyi gətirir?

**Prezident İlham Əliyev:** Əslində, 1992-ci ildən etibarən - hələ işğal dövründə aparılan danışıqlar zamanı Avropa İttifaqı vasitəçilik prosesinin bir hissəsi olmayıb. İndi bu, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsüdür. O, bizi dəvət etdi və biz dəvəti qəbul etdik. Çünki Azərbaycan ilə Avropa İttifaqının, eləcə də onunla Ermənistanın əməkdaşlıq səviyyəsini nəzərə alsaq, Avropa İttifaqının fəal olması təbiidir. Xüsusən də nəzərə alsaq ki, İkinci Qarabağ müharibəsindən sonra Minsk qrupu, əslində, fəaliyyət göstərmirdi və indi də göstərmir. Beləliklə, müəyyən beynəlxalq qurum olmalı idi. Düşündüm ki, Avropa İttifaqı ən yaxşı vasitəçi ola bilər, çünki bizim onunla münasibətlərimiz qarşılıqlı hörmətə, etimada və maraqlara söykənir. Bir sözlə, həmin təşəbbüs hazırda çox fəal dialoq formatına çevrilir, çünki biz təkcə Brüsseldə deyil, həmçinin Avropa Siyasi Birliyinin tədbiri çərçivəsində də görüşürük. Sonuncu dəfə görüş Kişineuda baş tutdu. Bunu vacib hesab edirəm, çünki vəziyyətin durğun olmasına imkan vermirik, durğunluq yaranarsa, yenidən bir növ fasiləyə keçərsə, onda biz hər hansı təhlükəli ssenaridən sığortalana bilmərik.

**Müxbir:** Sizin fikrinizcə, Qərbin, yəni Avropa İttifaqının və həmçinin Birləşmiş Ştatların artan vasitəçiliyi bu regionda daha ənənəvi gücdə – Rusiyada qıcıq yarada bilərmi? Rusiyanın Ukrayna ilə məşğul olması faktı Azərbaycan ilə Ermənistanın ümumi razılığa gəlməsi üçün müəyyən imkan yaradırmı?

**Prezident İlham Əliyev:** Atəşkəs sazişinin, yəni 2020-ci il 10 noyabr tarixli Bəyanatın vasitəçisi nə

Birləşmiş Ştatlar, nə də Avropa İttifaqı deyil, Rusiya olub. Ermənistanın baş naziri ilə ilk görüşlərim Rusiya tərəfindən bu ölkədə təşkil olunmuşdu. Rusiya–Ukrayna müharibəsindən sonra vəziyyət dəyişdi və biz gördük ki, Birləşmiş Ştatlar və Avropa daha fəal oldular. Əslində, prosesin kimin tərəfindən aparılacağı və ya prosesi kimin müəyyən dərəcədə inhisara götürəcəyi bizim üçün böyük fərq etmir. Nəticəyə gəlmək vacibdir. Biz sülh sazişi ilə nəticələnəcək təşəbbüs irəli sürən hər hansı tərəfi dəstəkləyəcəyik. Yeri gəlmişkən, xarici işlər nazirləri arasında Vaşinqtonda danışıqlar aparılıb. Hazırda biz bu ayın sonunda danışıqların raundunu Rusiyada keçirmək barədə Rusiyadan dəvət aldıq və bununla razılaşdıq. Beləliklə, əgər hər hansı digər məkan olarsa, əlbəttə ki, biz razılaşacağıq, çünki bizim üçün razılığa gəlmək və nəticə əldə etmək vacibdir. Əlbəttə, müəyyən siyasi rəqabəti, bəzi iştirakçıların daha fəal olmaq cəhdlərini anlayırıq, lakin biz bunu yalnız alqışlaya bilərik. Əgər sağlam rəqabət olarsa, onun yalnız yaxşı nəticələri olacaq.

**Müxbir:** Rusiya ilə uzun tarixi və əhatəli münasibətlərinizin olduğunu anlayıram. Sizin fikrinizcə, Rusiyanın hazırda bölgədəki təsiri necədir?

**Prezident İlham Əliyev:** Bilirsiniz, region haqqında demək mənim üçün çətindir, çünki Cənubi Qafqaz bölgəsi üç ölkədən ibarətdir. Biz Rusiyanın Cənubi Qafqazdakı qonşularımızla qarşılıqlı əlaqələrini, sadəcə, müşahidə edə bilərik. Azərbaycana gəldikdə isə elə də ciddi dəyişiklik yoxdur, çünki bizim Rusiya ilə münasibətlərimiz artıq tarazlaşdırılıb. Onlar bir-birimizin milli maraqlarının və əlbəttə ki, ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanır. Rusiya Azərbaycanın qonşusu və tərəfdaşıdır. Bizim nəzərəçarpan ticari dövriyyəmiz, daşımalar infrastrukturuna aid bir çox layihələrimiz var. Bu, xüsusən də indiki dövrə aiddir. Layihələr enerjinin inkişafına aiddir. Əlbəttə ki, mədəniyyət sahəsi də çox vacibdir.

**Müxbir:** Hazırda Siz məhz enerji sektorunda Qərblə bir çox razılaşmalar əldə etmisiniz. Elədirmi?

**Prezident İlham Əliyev:** Bəli, Qərblə razılaşmalar var. Lakin bu, uzun müddət əvvəl əldə edilib, o vaxt biz Bakıdan İtaliyaya vahid boru kəməri sistemini qurmaq təşəbbüsünü irəli sürdük. O, mərhələli şəkildə icra olundu və onun yekun mərhələsi iki ildən çoxdur yekunlaşıb. Artıq iki ildən çoxdur ki, Azərbaycan Avropanın mühüm qaz təchizatçısına çevrilib. Əlbəttə, Rusiyaya qarşı sanksiyalarla bağlı vəziyyət yeni ölçü yaradıb, çünki hazırda enerji sərvətlərimiz heç zaman olmadığı kimi zəruridir. Lakin istənilən addıma gəldikdə, biz onu bir çox il əvvəl imzalanmış müqavilələrimiz və planlarımız əsasında atırıq. Düzdür, hazırda Azərbaycandan əlavə qaz almaq üçün müraciət edən ölkələrin sayı daha çoxdur. Bunu etməyə hazırıq və artıq başlamışıq. Ötən il daha çox ölkə qazımızı almağa başladı. Bu, cari ildə də davam edəcək. Lakin yenə də Rusiya ilə münasibətlərimiz nöqteyi-nəzərindən, Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra çox şey dəyişməyib.

**Müxbir:** Burada olan vəziyyət haqqında danışaq. Beynəlxalq Ədalət Məhkəməsi, Avropa İnsan Hüquqları Məhkəməsi, ABŞ və Avropa İttifaqı hamısı Laçın dəhlizinin bağlı qaldığı təqdirdə, əhalinin potensial qaydada girova düşmək təhlükəsini qeyd edərək, həmin dəhlizdə hərəkət azadlığına dair zəmanətləri tələb ediblər. Hazırda Laçın dəhlizində baş verənlər haqqında nə deyə bilərsiniz?

**Prezident İlham Əliyev:** Laçın dəhlizi adlandırılan yol İkinci Qarabağ müharibəsinin bitməsindən sonra fəaliyyətini işğal vaxtında işləyən qaydada təxminən iki il davam etdirmişdir. Bir fərq var idi – o, rus sülhməramlılarının nəzarəti altında idi və bu, üçtərəfli Bəyanatın bir hissəsi idi. Yəni, fəaliyyətdə dayanma, bizim tərəfimizdən hər hansı müdaxilə yox idi. Bununla belə, orada vəziyyət dəyişməyə başladı. Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələrinin dəhlizə müəyyən dərəcədə nəzarət etmək səyləri ötən il noyabrın əvvəlində Qarabağda təbii sərvətlərin yenidən qeyri-qanuni istismarı ilə bağlı idi. Müharibədən sonra bu proses dayandırılmışdı, çünki qeyri-qanuni idi. Bu sərvət bizə məxsusdur. Bir neçə xarici şirkət qızıl və mis mədənlərimizi qeyri-qanuni olaraq istismar edirdilər. Biz işğal zamanı heç bir şey edə bilmirdik, lakin müharibə başa çatdıqdan sonra aydındır ki, bu fəaliyyət dayandırılmalı idi və dayandırıldı. Amma sonradan – noyabrda həmin proses yenidən başladı. Vətəndaş cəmiyyətinin nümayəndələri rus sülhməramlılarından xahiş etdilər ki, mədənlərdə nəyin baş verdiyini görmək üçün orada monitorinq keçirsinlər. Biz gördük ki, dəmir və qızıl filizi yük maşınlarında rus sülhməramlılarının müşayiəti ilə Qarabağdan Ermənistana daşınır. Həmin yerə getmək hüququmuz təmin edilmədi və beləcə vətəndaş cəmiyyətimizin nümayəndələri yola nəzarət etməyə başladılar. Amma yol yenə də bağlı deyildi, hərəkət azad idi.

**Müxbir:** Yəni, o, heç vaxt bağlanmamış, hərəkət heç zaman dayandırılmamışdır?

**Prezident İlham Əliyev:** Xeyr, xeyr!

**Müxbir:** Onda fikrinizcə, həmin təsisatlar xüsusən də Azərbaycandan niyə bunları soruşurlar? Onlar qeyd edirlər ki, Siz həmin sahənin ətraf hissəsinə cavabdehsiniz. Siz hərəkət etmək azadlığını təmin etməlisiniz. Sizcə, nəyə görə onlar Sizi hədəfləyirlər?

**Prezident İlham Əliyev:** Əslində, Beynəlxalq Ədalət Məhkəməsi bizə öz ismarışını ünvanladı ki, hər hansı hərəkətin pozulmaması üçün biz vətəndaş cəmiyyətinin fəalları ilə danışaq. Biz bunu etdik. Biz Ermənistanla sərhədimizdə sərhəd-keçid məntəqəsini qurduqdan dərhal sonra, – bu, bizim legitim hüququmuzdur və heç kəs tərəfindən, o cümlədən Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən mübahisələndirilmir, – biz burada Şuşadakı nümayəndəm vasitəsilə QHT nümayəndələri ilə danışdıq ki, həmin aksiyanı dayandırsınlar. Onlar bunu etdilər və getdilər. Hazırda da

hərəkət etmək azadlığı bloklanmayıb. Aprelin 23-dən – sərhəd-keçid məntəqəsini qurduğumuz vaxtdan etibarən Qarabağın 2 mindən artıq sakini Ermənistana asan şəkildə gedib-gəlib. Amma iyunun 15-də Ermənistan növbəti hərbi təxribata əl atdı və bizim sərhədçilərimizdən birini yaraladı.

Araşdırma aparıldığı üçün yol müvəqqəti olaraq bağlansa da, sonra təkrar açıldı. Qırmızı Xaç Komitəsi dava-dərmanın nəqlini və Ermənistanda müalicəyə ehtiyacı olan xəstələrin təxliyəsini bərpa etdi. Lakin əfsuslar olsun ki, Qırmızı Xaç Komitəsinin yük maşınlarının yoxlanılması zamanı siqaret, iPhone-lar və benzin kimi məhsulların qaçaqmalçılıqla keçirilməsi aşkar olundu. Qırmızı Xaç Komitəsi bunu etiraf etdi və bildirdi ki, onlar buna görə heç bir məsuliyyət daşımırlar, çünki...

**Müxbir:** Yük maşınları, sadəcə, sürücülər tərəfindən istifadə olunurdu...

**Prezident İlham Əliyev:** Bəli, lakin bu yük maşınlarının üzərində Qırmızı Xaçın emblemi var idi və sürücülərin uniformaları üzərində də emblemlər var idi. Beləliklə, yol yenidən bu şəkildə bağlanıldı və biz Qırmızı Xaç Komitəsindən buna son qoyulmasını və bizimlə daha konstruktiv işləməsini xahiş etdik. Çünki əfsuslar olsun ki, bu günə kimi onların Qarabağdakı ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir. Bu da yolverilməzdir. Çünki bütün dünya Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyır. Hətta Ermənistanın baş naziri dəfələrlə "Qarabağ Azərbaycandır" söyləyib. Bəs nəyə görə Qırmızı Xaç Komitəsinin Xankəndidəki ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir? Bu, bizim legitim tələbimizdir.

**Müxbir:** Laçın dəhlizi, sərhəd-keçid məntəqəsi və bu, çox mühüm keçid yolu məsələsinin indi sülhə əngəl olan əsas maneələrdən biri olduğunu deyərdinizmi?

**Prezident İlham Əliyev:** Mən belə düşünmürəm. Çünki Laçın-Xankəndi yolundakı vəziyyət biz aprel ayının 23-də sərhəd-buraxılış məntəqəsi yaradanda dəyişdi. O vaxta kimi bizim sülh razılaşmasına gəlmək üçün iki il yarım vaxtımız var idi. Yeganə əngəl Ermənistanın rəsmi surətdə Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanımaq istəməməsi idi. Bəli, onlar bunu bəyanatlarla, şifahi bəyanatlarla edirdilər. Bu da mövqeyin ifadə edilməsinin bir yolu idi, lakin onlar sənədə imza atmalı idilər. Odur ki, mən bu iki məsələnin bir-biri ilə bağlı olduğunu düşünmürəm. Çünki Ermənistanla aparılan sülh danışıqlarının uğurlu bir ssenari ilə yekunlaşacağına ümid edirəm və bunun yaxın aylarda baş verəcəyinə ümidvaram.

**Müxbir:** Düşünürəm ki, indi Sizə ünvanlayacağım suala artıq cavab vermisiniz. Amma mən istənilən halda Sizin burada olduğunuza və Sizə sual vermək üçün çoxlu imkanımın olmayacağına görə yenə bu sualı Sizə vermək istəyirəm. 2020-ci ildə hər iki tərəfdən təxminən 5 min insan tələfatı oldu. Mən burada idim, mən Dağlıq Qarabağa gəlmişdim və həlak olmuş bir çox erməni əsgərlərinin anaları ilə görüşdüm. Həmçinin Azərbaycanda işləyən həmkarlarım sayəsində digər tərəfin, Sizin tərəfin ağrısı və acısının da şahidi oldum. Lakin mən müharibəyə və oğlunun ölümünə görə siyasətçiləri günahlandırdığını deyən bir ana ilə danışdığımı xatırlayıram. O, siyasətçilərin müharibə tələsinə düşmədən məsələləri diplomatik yolla həll etməli olduqlarını deyirdi. Siz missiyanızın nədən ibarət olduğunu deyərdiniz? Missiyanız müharibədə qalib gəlmək, yoxsa dayanıqlı sülhə nail olmaqdır?

**Prezident İlham Əliyev:** Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatdı. Biz bir çox amillərə - siyasi amillərə, işğal edilmiş ərazilərdə hərbçilərimiz üçün bir neçə müdafiə səddinin keçilməsini çətinləşdirən uzunmüddətli infrastruktur layihələrinin olmasına baxmayaraq, müharibədə qalib gəldik. Bəzi yerlərdə onların minalarla dolu beş, digər yerlərdə isə yeddi müdafiə səddi var idi. Yəqin ki, Füzulidən gələndə yolun yuxarıya doğru getdiyini görmüsünüz. Bizim hərbçilərimiz məhz bu yolla buraya gəliblər. Sizin gəldiyiniz, sonradan "Zəfər yolu" adlandırdığım bu yol mövcud deyildi. Bu, bizim hərbçilərimizin Şuşaya doğru necə irəliləməsini göstərən yoldur. Onlar bu qayalı dağlara dırmaşırdılar. Beləliklə, bu amillərə, böyük erməni diasporuna malik bir çox ölkələrin güclü siyasi dəstəyinə baxmayaraq, biz düzgün olanı etdik. Biz ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik. Biz Ermənistanın torpağında savaşmadıq, öz torpağımızda vuruşduq və biz Zəfər çaldıq. Beləliklə, bu, bir nömrəli missiya idi və o, artıq tamamlandı. İndi isə biz sülh haqqında danışırıq.

Otuzillik işğaldan əziyyət çəkmiş ölkəmizin işğal altında olan əraziləri tamamilə məhv edilmişdir. Şuşada qeyri-qanuni məskunlaşmalar olduğu üçün şəhər tamamilə dağıdılmamışdır. Onlar Orta Şərqdən olan erməniləri burada məskunlaşdırmaq istəyirdilər və burada bir neçə min erməni yaşayırdı. Məhz buna görə heç də bütün şəhərlər dağıdılmamışdır. Lakin Füzuli tamamilə yerlə-yeksan edilmişdir, Ağdamda da vəziyyət eynidir. Demək olar ki, bir milyon azərbaycanlı evindən məhrum olmuşdur. Bütün bu acılara baxmayaraq, biz qisas almadıq. Mən dedim ki, biz qisası döyüş meydanında alacağıq, lakin Ermənistan müharibənin ilk günündən mənim tələb etdiyim bütün ərazilərdən geri çəkiləcəyi tarixləri təqdim edən kimi biz dayandıq və sonra da sülh haqqında danışıqlara başladıq. İndi sülh bizim gündəliyimizdədir. Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddiamız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik. Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar. Onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına və ya Azərbaycanı tərk edəcəklərinə dair seçim

etməlidirlər. Bu, onların seçimidir. Biz bunu onların buranı tərk etməsini istədiyimizə və ya Ermənistanın bizi etnik təmizləmə siyasəti aparmaqda günahlandırdığına görə etmirik. Biz onlara seçim hüququ veririk. Çünki onlar heç bir hüquqi icazə olmadan ya Ermənistan vətəndaşları olaraq, ya da heç kim tərəfindən tanınmayan dırnaqarası "Dağlıq Qarabağ respublikası"nın vətəndaşları olaraq bizim ərazidə necə yaşaya bilərlər? Hesab edirəm ki, bu, legitim yanaşmadır. Bu yanaşma beynəlxalq təcrübəyə uyğundur. Bu yanaşma separatizmə qarşı mübarizə aparan bir çox Avropa ölkələrində gördüyümüz təcrübəyə uyğundur. İndi biz separatizmə qarşı mübarizə aparmaqda Ukraynaya kömək etmək üçün Avropa və Qərbin necə birləşdiyini görürük. Bəs bizə gəldikdə nəyə görə bizim separatizmə qarşı mübarizəmizə fərqli yanaşma sərgilənir? Nəyə görə Gürcüstanın separatçı regionları ilə bağlı yanaşması Qərb cəmiyyəti və siyasətçiləri tərəfindən tamamilə anlaşılır, lakin bizim eyni mənşədən olan separatizmə son qoymaq üçün legitim istəyimiz sual altına alınır? Nə üçün İspaniya Kataloniyaya referendum keçirməyə icazə vermir, baxmayaraq ki, onların sayı 5, yaxud 6 milyon nəfərdir və yaxınlıqda öz dövləti olan ermənilərdən fərqli olaraq, onların öz dövləti yoxdur. Nə üçün biz separatizmə dözməliyik? Biz bunu etməyəcəyik.

**Müxbir:** Siz artıq əhaliyə və dövlətlərə mesajlar, o cümlədən təminatlar vermisiniz ki, istəsələr onlara qalmağa icazə veriləcək, onlar qorunacaqlar və burada yaşamağa icazə veriləcək. Bu gün ola bilsin ki, bizi izləyən ermənilərə mesajınız varmı? Şərt deyil bu, hökumət olsun, mən bilirəm, Siz baş nazir Paşinyanla təmasdasınız və ona mesaj göndərmək üçün bizim kameralarımıza ehtiyacınız yoxdur. Bəs ola bilsin ki, bizi izləyən başqa ermənilərə gəlincə necə? Bu gün qarşı tərəfə mesajınız nədən ibarətdir?

**Prezident İlham Əliyev:** Mən bu barədə düşünməmişəm, çünki həyatımda ilk dəfədir ki, mənə bu sual verilir.

**Müxbir:** Həqiqətənmi?

**Prezident İlham Əliyev:** Bəli. Düşünürəm ki, mən sualı iki hissəyə bölərdim. Birincisi, əgər onlar mənim söylədiklərimə qulaq asırlarsa, mənim Ermənistandakı ermənilərə mesajım belədir ki, biz onların dövləti ilə sülh istəyirik, bizim Ermənistana qarşı ərazi iddialarımız yoxdur, baxmayaraq ki, müharibədən əvvəl yüz minlərlə azərbaycanlı Ermənistanda yaşayıb və bütövlüklə etnik təmizləməyə məruz qalıb, onların mədəni və dini irsi tamamilə məhv edilib. Bununla belə, bizim heç bir ərazi iddiamız yoxdur. Lakin biz düşünürük ki, Azərbaycan və Ermənistan əlaqələrini normallaşdıranda və diplomatik əlaqələr quranda, Ermənistandan zorla deportasiya olunmuş azərbaycanlıların qayıtmaq hüququ var. Onlara digər bir mesaj ondan ibarətdir ki, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır. Uzun illər ərzində Ermənistan liderləri öz xalqını inandırırdılar ki, onlar dünyanın ən güclü ordusuna sahibdirlər, əgər müharibə başlasa, onlar Bakıya gələcəklər, Azərbaycan öz torpaqları uğrunda döyüşməyəcək, azərbaycanlılar artıq işğalla barışıblar. Bütün bu hekayələr tamamilə yanlış idi və təbliğatdan başqa bir şey deyildi. Beləliklə, müharibə bu hekayələri məhv etdi və bu, təkcə bununla bitmədi. O, həmçinin Ermənistan dövlətinin çox sayda ideoloji sütunlarını dağıtdı. Onlar dərk etdilər ki, müharibəni uduzublar və çox güman ki, bu, onlar üçün psixoloji cəhətdən çox ağrılı oldu. İndi biz sülh istədiyimizi deyəndə, bu, ona görə deyil ki, biz zəifik və sülh axtarırıq. Xeyr, onlar bilirlər ki, biz xeyli güclüyük. Bu ona görədir ki, biz tarixin bu qara səhifəsinin bağlanmasını istəyirik. Biz nə bu gün, nə də gələcəkdə başqa bir müharibə istəmirik.

Erməni icmasına gəlincə, düşünürəm ki, onlar beynəlxalq ictimaiyyətin sülh təşəbbüslərinə qarşı çıxmamalıdırlar. Başa düşməlidirlər ki, əgər onlar Azərbaycanla sülh sazişi imzalamaq istəmirlərsə, gələcəkdə proqnozlaşdırılmayan vəziyyət olacaq. Gördüyümüz kimi, dünyada və regionda geosiyasi vəziyyət çox kəskin şəkildə dəyişir. Onların təhlükəsizliyi ilə bağlı ümidlərinin bir qismi tamamilə yoxa çıxdı. İndi onlar yeni təhlükəsizlik qarantları axtarırlar. Kim bu ərazidə döyüş meydanında Azərbaycanla qarşıdurmaya hazırdır, xüsusilə bizim müharibə zamanı nümayiş etdirdiklərimizdən və müharibədən sonra müdafiə imkanlarımızı artırdığımızdan sonra? Ermənilərə görə bizə qarşı döyüşməyə hazır olan kimsə varmı? Mən buna şübhə edirəm.

Mənim konkret olaraq bu vəziyyətdə Ermənistan hökumətinə artıq çatdırdığım başqa bir mesaj ondan ibarətdir ki, onlar üçün seçim ən yaxşı və qat-qat yaxşı arasında deyil. Onlar üçün seçim çox pis və qəbulolunan arasındadır ki, qəbulolunan seçim sağlam düşüncəyə, beynəlxalq hüquqa və azərbaycanlıların 30 il ərzində məhrum edildikləri öz torpaqlarında yaşamaq hüququnun tanınmasına əsaslanır. Qarabağdakı ermənilərə xatırlatmaq istərdim ki, biz onlarla təmaslara dərhal başladıq. Faktiki olaraq biz erməni əhalinin yaşadığı bir neçə kənddən keçən yeni Laçın yolunu tikməyə başlayanda xalqlar arasında təmaslar oldu. Mənə məlumat verildi ki, yolun inşası ilə məşğul olan işçilərlə erməni icması arasında təmaslar qurulub və onlar demək olar dərhal dostlaşıblar. Əgər tikintinin birinci ayında rusiyalı sülhməramlılar hər iki tərəfin təhlükəsizliyini təmin edirdilərsə, sonradan onlar, sadəcə olaraq, çıxıb getdilər. Rusiya sülhməramlıları yox idi, onlar asanlıqla ünsiyyət qururdular. Beləliklə, bu, onu göstərir ki, sadə insanların əksəriyyətinin ürəyində bu nifrət yoxdur.

Qarabağdakı ermənilərə gəlincə, onlar qondarma liderlərinin arxasınca getməməlidirlər. Bu "liderlər", - hazırkı və bundan əvvəlki "liderlər", - onlara bütün bu müddət ərzində - müharibədən əvvəl, müharibə zamanı qalib gəldiklərini deyəndə yalan danışıblar. Hətta biz

Şuşaya nəzarəti ələ alanda onlar deyirdilər ki, Şuşa onların nəzarəti altındadır. Onlar bunu çox yaxşı bilirlər. Onlar Xankəndidə hakimiyyəti ələ keçirmiş və əsas məqsədi öz maraqlarını güdmək olan bugünkü rejimin girovuna çevrilməməlidirlər.

Burada, Şuşada işğal dövründə tikilmiş üç villa var. Maraqlanırsınızsa, sizə onları göstərə bilərlər. Bu villalar Qarabağ ermənilərinin liderləri üçün tikilmişdi. Onlar bunu özləri üçün tikmişdilər. Şəhər tamamilə xarabalıqlar içərisində idi. Sizin indi gördükləriniz, o cümlədən bu "Qarabağ" hoteli, icra hakimiyyətinin binası, mehmanxanalar və hər şey bizim yenidənqurma prosesinin başlanğıcıdır. Onlar şəhərin ən yaxşı yerində özləri üçün 3 villa tikiblər. O insanlar ki, bu gün həmin qondarma, tanınmamış respublikaya rəhbərlik edirlər. Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq onlar normal həyat yaşayacaqlar. Onlar manipulyasiyanın girovu olmağa son qoyacaqlar. Həmçinin onlar başa düşməlidirlər ki, bizi saymamağa davam etsələr, bizim mövcud olmadığımız kimi davranmağa davam etsələr və ya "prezidenti", "nazirləri", "parlamentariləri" olan qondarma ölkədə yaşayırlarmış kimi davransalar, bu gün olduqları vəziyyət onların xeyrinə dəyişməyəcək. Bütün bunlar yalandır. Biz onlara normal həyat təklif edirik. Düşünürəm ki, onlar mənə qulaq assalar başa düşəcəklər və bilirlər ki, mən sözümə əməl edirəm.

**Müxbir:** Prezident İlham Əliyev, "Euronews"a müsahibə verdiyiniz üçün təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

* * *

Müsahibədən sonra Prezident İlham Əliyev "Euronews"un müxbirinə işğal dövründə Şuşada ermənilər tərəfindən güllələbaran edilmiş Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəlləri barədə məlumat verdi.

DOI: 10.30546/2309-1347.83.2023.101

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti*

*Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.*

### Prezident İlham Əliyevin xalqa müraciəti

– Əziz həmvətənlər.

Bildiyiniz kimi, dünən səhər erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində 6 Azərbaycan vətəndaşı, onlardan ikisi mülki şəxs mina terrorunun qurbanı olmuşdur. Birinci dəfə deyil ki, bizə qarşı Ermənistan terror aktı törədir. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bu günə qədər 300-dən çox Azərbaycan vətəndaşı mina terrorunun qurbanı olmuşdur, ya da ki, ağır yaralanmışdır.

Dünənki terror aktı bu sıradan olan hadisə idi. Laçın sərhəd-buraxılış məntəqəsi qurulmayana qədər İkinci Qarabağ müharibəsindən sonra Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz olaraq minalar gətirilmiş və müxtəlif yerlərdə basdırılmışdır. Bir müddət bundan əvvəl Azərbaycan Silahlı Qüvvələri tərəfindən aşkarlanmış minalar Rusiya sülhməramlı kontingentinin və Rusiya-Türkiyə Monitorinq Mərkəzinin nümayəndələrinə göstərilmiş və onlardan ciddi tədbir görülməsi tələb edilmişdir. Bu minalar 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalardır. Yəni, bu, bir daha onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra məqsədyönlü şəkildə Azərbaycana qarşı terror aktlarını həyata keçirmək üçün bu minalar gətirilmişdir.

Azərbaycan dərhal lazımi addımlar ataraq düşməni layiqincə cəzalandırmışdır. Lokal xarakterli antiterror tədbirlərinə başlanıldı və qarşıda duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirildi. Terrorçular cəzalandırıldı və bir daha Ermənistana göstərildi ki, onların istənilən təxribatına layiqli cavab veriləcəkdir.

Dünən təxminən saat 13:00 radələrində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir.

Qeyd etməliyəm ki, antiterror tədbirləri nəticəsində bizim hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərmişlər. Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz bir daha qeyd etdiyim kimi, qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır.

Əməliyyat başlamazdan əvvəl mənim tərəfimdən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. Biz həm

yüksək dəqiqliyə malik silahlardan istifadə edərək buna nail olduq, eyni zamanda, Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etmişlər. Eyni zamanda, göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır. Bir daha demək istəyirəm ki, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir.

Bir daha qeyd etmək istəyirəm ki, aparılmış qısamüddətli lokal xarakterli antiterror tədbirləri nəticəsində, düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarılmışdır. Onu da bildirməliyəm ki, Azərbaycan ərazisində qanunsuz olaraq Ermənistan ordusuna məxsus yüzdən çox tank və zirehli nəqliyyat vasitələri, zirehli texnika yerləşdirilmişdir. Radioelektron mübarizə vasitələri yerləşdirilmişdir. İki yüzdən çox top və artilleriya qurğuları, hava hücumuna qarşı ən müasir qurğular yerləşdirilmişdir. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində öz silahlı qüvvələrini, canlı qüvvəsini və texnikasını bizim ərazimizdən çıxarmamışdır. Halbuki dəfələrlə həm Ermənistan rəhbərliyi ilə təmaslar əsnasında, eyni zamanda, beynəlxalq tədbirlərdə yüksək kürsülərdən mən dəfələrlə bu məsələyə qayıdaraq Azərbaycan dövlətinin haqlı narazılığını ifadə etmişdim. 10 noyabr üçtərəfli Bəyanatı, əslində, Ermənistan dövlətinin kapitulyasiya aktı idi və bu kapitulyasiya aktına görə Ermənistan Azərbaycan ərazilərindən bütün silahlı qüvvələrini çıxarmalı idi. Ancaq bundan imtina edirdi.

Əfsuslar olsun ki, antiterror tədbirləri zamanı şəhidlərimiz olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgər, zabitlərimiz olub. Allah onlara şəfa versin. Onlar Vətən yolunda, haqq-ədalət yolunda, Azərbaycanın suverenliyi yolunda öz canlarını fəda etmişlər. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır.

Əməliyyatın uğurlu gedişatı təbii ki, Ermənistan dövlətini və onun himayəsi altında fəaliyyət göstərən qanunsuz xunta rejimini ciddi təşvişə salmışdır. Əməliyyatdan bir qədər sonra bizə vasitəçilər tərəfindən müxtəlif qeyri-müəyyən siqnallar gəlməyə başlamışdır və bizim Silahlı Qüvvələrimizin uğurlu irəliləyişi nəticəsində bu siqnallar daha intensiv xarakter almışdır. Bu gün səhər beynəlxalq tərəfdaşlardan bizə verilən məlumat ondan ibarət idi ki, qanunsuz silahlı birləşmələr, Ermənistan ordusunun bu birləşmələri artıq bizim şərtlərimizi qəbul etməyə hazırdırlar. Bizim şərtlərimizi isə mən dünən mənə zəng etmiş Amerika Birləşmiş Ştatlarının Dövlət katibinə çatdırmışdım. Məndən soruşuldu ki, antiterror tədbirlərini dayandırmaq üçün nə lazımdır? Mən dedim ki, Ermənistan ordusunun bizim ərazimizdə qanunsuz məskunlaşmış birləşmələri silahları yerə qoymalı, tərk-silah olunmalı, bizim ərazimizdən tamamilə çıxarılmalıdır və eyni zamanda, bütün silahları və texnikaları təhvil verməlidirlər. Ancaq o təqdirdə Azərbaycan antiterror tədbirlərini dayandıra bilər. Əks-təqdirdə sona qədər gedəcəyik və düşmən bizim gücümüzü də, qətiyyətimizi də yaxşı bilir.

Bu gün səhər saatlarında artıq bizə bildirildi ki, bizim şərtlərimiz qəbul edilib. Üstəgəl, bir neçə ay ərzində bizim nümayəndələrimizlə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri bizimlə dediyimiz yerdə – Yevlax şəhərində görüşməyə hazırdırlar. Mənim cavabım belə oldu ki, Azərbaycan hər zaman olduğu kimi, öz sözünə sadiqdir. Bunu dostlarımız da bilir, düşmənlərimiz də bilir. Bizim sözümüz imzamız qədər dəyərlidir və bizim şərtlərimiz qəbul olunarsa, təbii ki, tədbirlərimiz, hərbi tədbirlərimiz dayandırılacaq və bu gün saat 13-də atəşkəs elan edildi. Əfsuslar olsun ki, qarşı tərəf atəşkəsə tam əməl etməyib. Atəşkəs elan olunandan sonra da bizim mövqelərimiz atəş altına düşmüşdür. Buna baxmayaraq, prinsip etibarilə bizim şərtlərimiz tam qəbul olundu və onu da bildirməliyəm, indi saat yeddiyə beş dəqiqə işləyir.

Artıq qanunsuz erməni silahlı birləşmələrinin mövqelərdən çıxarılma prosesi başlamışdır. O cümlədən onlar bizim şərtimizi qəbul edərək silahların da təhvil verilməsinə başlamışlar. Sual olunur. Bu vəziyyətə gətirib çıxarmaq kimə xeyir gətirdi? Axı, İkinci Qarabağ müharibəsindən dərhal sonra biz haqlı narahatlığımızı ifadə edərək dəfələrlə Ermənistan rəhbərliyinə, onların xaricdəki havadarlarına və digər tərəflərə müraciət edərək deyirdik ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qalması qanunsuzdur və buna son qoyulmalıdır. Biz deyirdik ki, qanunsuz xunta rejimi öz əski parçasından artıq olmayan dırnaqarası bayraqlarını büküb cibinə qoyub bizim torpağımızdan çıxmalıdır. Bu, bizim suveren hüququmuzdur. Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır, o cümlədən Ermənistan rəhbərliyi artıq bunu başa düşüb. Əgər vaxtilə “Qarabağ Ermənistandır və nöqtə” deyirdisə, indi “Qarabağ Azərbaycandır” deyir və nəinki deyir, hətta bizim ərazimizin ölçülərini də dilə gətirməyi unutmur. Düzdür, bunu öz xoşu ilə etməyib, bunu “dəmir yumruq” hesabına etməyə məcbur olub. Amma fakt göz qabağındadır. Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyandan sonra Qarabağda 30 il at oynadan kriminal rejimin hansı statusu ola bilər?! Hansı dövlət atributları ola bilər?! Hansı seçkilər ola bilər?! Bütün İkinci Qarabağ müharibəsi başa çatandan sonra əldə edilmiş üçtərəfli şifahi razılaşmalara rəğmən bu ayın 9-da Qarabağda saxta “seçkilər” keçirildi, saxta “prezident” seçildi, dırnaqarası prezident. Həmin o şəxs dərhal bəyan etdi ki, onlar statusun dalınca qaçacaqlar. Yəqin ki, mənim sözlərim onların yadından çıxıb. İkinci Qarabağ

müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldıranda, diz çökəndə, kapitulyasiya aktına imza atanda mən demişdim ki, status cəhənnəmə getdi. Müharibədən bir müddət sonra biz status haqqında cəfəng ifadələri eşitmirdik. Amma görünür ki, bu qorxu onların canından yavaş-yavaş çıxdıqca yenidən revanşist qüvvələr baş qaldırır. Ona görə bütün bu amillər bir daha onu göstərir ki, qanunsuz kriminal xunta rejimi azğınlaşıb, harınlaşıb və qudurub. Unudub ki, onlar Azərbaycan ərazisində yaşayırlar. Ona görə bizim bütün addımlarımız legitimdir, hüquqidir, ədalətlidir və bütün addımlara görə biz həm məsuliyyət daşıyırıq, həm qürur hissi keçiririk. Yenə də deyirəm, antiterror tədbirləri yüksək peşəkarlıqla, dəqiqliklə elə aparıldı ki, mülki əhali zərbə altına düşmədi, mülki infrastruktura zərər vurulmadı. Ancaq düşmən mövqeləri, onların silahları, texnikaları məhv edildi.

İndi isə əminəm ki, bölgəmizdə yeni vəziyyətin yaranması labüddür. Çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər. Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi. Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdur, onların beyinlərini zəhərləmişdir. Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur.

Bütün haqsızlıqlara baxmayaraq, bütün kriminal Ermənistan rejimi tərəfindən törədilmiş cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq. Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar.

Müasir dünyada dövlətlərin iqtisadi inkişafı sənayenin üzərində qurulub. Sənaye sektoru müxtəlif mərhələləri keçərək elm və texnoloji yeniliklərin nəticəsində həyatımızın bütün sahələrində öz əksini tapıb. Hazırda isə sənaye sahəsi özünün yeni mərhələsinə qədəm qoymaqdadır. Elmi dairələrdə bu yeni dövrü "IV Sənaye inqilabı" dövrü adlandırırlar. Müasir dünyada informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı ilə əlaqədar olaraq sürətli dəyişikliklər baş verir və dünya dövlətləri bu yeniliklərə uyğunlaşmağa çalışırlar. IV Sənaye inqilabı dövründə müsbət və mənfi çağırışlar yaranmışdır və dünya dövlətləri onlara cavab vermək imkanlarına malik olmağa çalışırlar. Dünyanın mötəbər elmi mərkəzlərində, araşdırma dairələrində tez-tez səsləndirilən bu yeni dövr haqqında müzakirələr mühüm aktuallıq kəsb edir.

IV Sənaye inqilabının əsas xüsusiyyəti onun bəşəriyyət üçün mühüm texnoloji irəliləyişlər – insanın iştirakı olmadan idarə edilən avtomobillər, 3D çap, qabaqcıl robot texnikaları, genlərin redaktə edilməsi, əşyaların interneti, insan bədəninə implantasiya edilmiş telefonlar, şirkətlərin rəhbərliyinin tərkibində süni intellekt, blokçeyn vasitəsilə verginin toplanması və s. vəd etməsidir [6].

"Sənaye inqilabı" termini 1830-cu illərdə fransız iqtisadçısı Cerom-Adolf Blankin tərəfindən işlənmişdir [6]. Bu termindən fransızlar daha əvvəl istifadə etsələr də, o, daha çox ingilis iqtisadi tarixçisi Arnold Toynbee tərəfindən Britaniyanın 1760-1840-cı illərdəki iqtisadi inkişafını təsvir etmək üçün populyarlaşdırıldı [16].

IV Sənaye inqilabı ilə bağlı müxtəlif konsepsiyalar mövcuddur. ABŞ-da "Advanced Manufacturing Partnership", Yaponiyada "Industry 4.1J", "Super-smart society, Society 5.0", Çin Xalq Respublikasında "Made in China 2025", Cənubi Koreyada "Manufacturing Industry Innovation 3.0" və digər bu kimi konsepsiyalar ölkələrin istehsal sənayesini modernləşdirmək məqsədi ilə qəbul edilmişdir [1]. Eyni zamanda IV Sənaye inqilabı konsepsiyası dörd prinsipə əsaslanır: insan və maşının arasında İnternet vasitəsilə birbaşa qarşılıqlı əlaqə; informasiyanın şəffaflığı və sistemlərin fiziki dünyanın virtual surətini yaratmaq imkanı; maşınların insanlara texniki yardımı; sistemlərin müstəqil və avtonom qərar qəbul etmə qabiliyyəti.

XXI əsrin ilk onilliyindən etibarən cəmiyyətdə yeni IV Sənaye inqilabı mərhələsinə keçid başlamışdır. İstehsalatın insandan asılılığına son qoyulması mərhələsinə keçid edilmişdir. Bu istiqamətdə mühüm irəliləyişlər əldə edilmiş və artıq ağıllı fabrik, zavod, ev, şəhər və s. ifadələri getdikcə reallaşmaq üzrədir. Qeyd edək ki, sənaye inqilabları təqribən 100 illik fasilələrlə baş verir. Belə olan halda növbəti, yəni dördüncü inqilabın 2060-70-cı illərdə baş verəcəyini ehtimal etmək olar.

Lakin internet istifadəçilərinin sayının hədsiz dərəcədə artması, məlumatlaşdırma və avtomatlaşdırma sahəsində texnoloji yeniliklərin baş verməsi IV Sənaye inqilabının daha erkən baş verəcəyini söyləməyə əsas verir [7, s.53-54].

IV Sənaye inqilabının başlanğıc meyarları özünü bir sıra sahələrdə göstərir. Onlayn təhsilin getdikcə yayılması, bərpa olunan enerjidən istifadənin artması, avtonom nəqliyyat, pilotsuz təyyarələr və s. sahələrdə yeniliklər buna praktik misal ola bilər. Süni zəkanın tətbiq olunduğu robotlaşdırma insanlara saysız-hesabsız xidmətlər göstərməyə malikdir. Misal üçün, dünyanın inkişaf etmiş hərbi sənaye komplekslərində bir çox hərbi texnikaların məsafədən idarəsi üçün çoxsaylı tətbiqlər işlənilir. Bu, özünü hərb sənayedə də göstərir. Əvvəllər düşmən ərazilərində hədəfi məhv etmək üçün istifadə edilən hərbi texnikanın idarə olunmasında ən azından bir insanın olması mütləq idisə, hazırda canlı itkiyə yol vermədən bütün texniki vasitələrin robotlaşdırılması (məsələn, dronlar) üzərində iş gedir. Digər bir misal, son bir neçə ilin ən mükəmməl elektromobili kimi özünü sübut etmiş "Tesla" bundan sonra sahibinə bütün lazımi imkanlardan yararlanmağa imkan verəcək. Belə ki, istehsalçı şirkətin tətbiq etdiyi hər bir yenilik avtomobillərdə quraşdırılmış intellektual proqram sayəsində həmin an sürücünü məlumatlandıracaq. Sürücü isə bütün yenilikləri yeni model almadan öz avtomobilində tətbiq edə biləcək.

IV Sənaye inqilabının yenilikləri insanların gündəlik məişət həyatında da özünü göstərəcək. İşdən çıxıb evə gedən insanlar evdə heç kim olmasa belə, hansı ərzaqları alacaqlarını vaxt itirmədən soyuducularda quraşdırılmış süni zəka sayəsində mobil telefonlarının ekranında görə biləcəklər. Digər tərəfdən onlayn idarəetmənin sayəsində sənaye müəssisələrini işə getməməklə də idarə etmək mümkün olacaq. Google, Facebook, Yahoonun timsalında bunun bir qismi hazırda da tətbiq olunur [8].

IV Sənaye inqilabı zamanı isə iş yerlərində ağıllı texnologiyaları tətbiq etməklə bütün sahələri avtomatlaşdırmaq mümkündür. Bu sənaye inqilabını fərqləndirən əsas cəhət onun sürəti, əhatə dairəsi və sistematik effektidir. Yeni nəsil "İphone"da olan səslə hərəkətə keçən Siri əlavəsi 4-cü inqilabın parlaq nümunəsidir. IV Sənaye inqilabı dövründə robortların istehsal prosesində insanları əvəz etməsi mümkündür [4].

IV Sənaye inqilabının müsbət və mənfi keyfiyyətləri vardır. İnqilab həyat və yaşayış şəraitinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Yeni ağıllı cihazların tətbiqi ilə insanlar təbiət hadisələri haqda daha öncədən xəbər tutmaqla itkilərin qarşısını müəyyən qədər ala bilər. İnqilabın ən mühüm müsbət cəhəti yeni kvant kompüterlərin tətbiqi ilə kompüter sistemlərini sürətləndirmək və daha əvvəl mümkün olmayan qədər informasiyanı bir yerdə toplamaqdır. Geniş həcmdə məlumat bazasına giriş isə insanların təhsil və dünyagörüşünün artırılması və iqtisadiyyata yeni işçi qüvvəsinin cəlb olunması ilə nəticələnə bilər. Səhiyyə sahəsində də yeniliklərin olması gözlənilləndir. İnsanların orta yaş həddinin artacağı və əvvəllər müalicəsi mümkün olmayan xəstəliklərin həlli yeni texnologiyanın tətbiqi ilə mümkün olacağı hesab olunur. Beləliklə, bütün sahələrdə misilsiz rəqəmsal inkişaf istehsal və iqtisadiyyatda insan faktorunun rolunu azalmasına səbəb olacaq [4].

Dünya İqtisadi Forumunun 2018-ci ildə "The Future of Jobs 2018" adlı hesabatında IV Sənaye inqilabı nəticəsində baş verəcək mühüm dəyişikliklərə diqqət yetirilmişdir. Hesabatda 2025-ci ilədək robotların insan əməyinin tətbiq olunduğu sahələrin 51 faizini əvəzləyəcəyi, robot texnologiyası və süni intellekt nəticəsində 58 milyon yeni iş yerinin yaranacağı, məhsuldarlığın 30 faizədək artacağı proqnozlaşdırılmışdır [14].

Dünya İqtisadi Forumunun "Əmək bazarının gələcəyi – 2018" hesabatında göstərilirdi ki, müasir texnologiyaların inkişafı nəticəsində 2020-ci ildə 75 milyon insan işsiz qala bilər, çünki iş yerlərinin dörddə biri 70% avtomatlaşdırılacaq [14].

IV Sənaye inqilabı ilə bağlı hesabatda bəzi peşələrin, xüsusilə satıcı, ofis işçiləri, yük maşınlarının sürücüləri və s. daha çox yox olmaq riski var. Ən az sıxışdırılma ehtimalı olanlar isə insanlarla iş sahəsinə aid olan həkimlər, müəllimlər, tibb bacıları ilə bağlıdır.

Tarixə qovuşacaq peşələrə isə "məlumatların daxil edilməsi operatoru", "mühasib", "administratorlar və katiblər", "quraşdırma müəssisələrinin işçiləri", "auditorlar", "poçt xidmətlərinin əməkdaşları", "sifarişçilərlə iş üzrə xidmət operatorları", "anbar hesabatı operatorları" aid edilir [14].

IV Sənaye inqilabı hər şeydən əvvəl III Sənaye inqilabına əsaslanır. Bu sənaye inqilabının əsas xüsusiyyəti onun rəqəmsal olmasıdır. Müasir dünyada insanların qarşılaşdığı bir çox problemlər var ki, onlar IV Sənaye inqilabının baş verməsini zəruri edir.

IV Sənaye inqilabının tarixdə baş vermiş digər üç sənaye inqilabından fərqi ondan ibarətdir ki, bu yeni dövrdə texnologiyalar iqtisadiyyata təsir göstərən fiziki, digital və bioməhsulların əvəzləyicisi rolunda çıxış edəcək [8].

İnqilabın mənfi təsirləri də vardır. İstehsal və iqtisadiyyatın bütün sahələrində insan faktorunun rolunun azalması əmək bazarında kütləvi işsizliyə səbəb ola bilər. Yüzlərlə, minlərlə işçisi olan müəssisələrdə son texnologiyaların tətbiq edilməsi nəticəsində bir neçə işçi ilə eyni həcmdə istehsalı təşkil etmək mümkün olacaq. Bu isə bir sıra peşə və ixtisasların yoxa çıxması ilə nəticələnəcək. Belə ehtimalın və bundan qaynaqlanaraq kapitalizmin yox olması fikrinin izahını Jeremy Rifkin özünün "The Zero Marginal Cost Society"kitabında vermişdir [19]. Məşhur "Ford" avtomobilinin yaradıcısı Henri Ford deyirdi: "Biz hər kəsə istədiyi rəngdə qara avtomobil verə bilərik". Bu, III sənaye inqilabının şüarı idi. IV sənaye inqilabında isə, "Mən düşündüyüm üçün mövcudam…" – deyən robot insanlara istehza ilə baxdı [8].

IV Sənaye inqilabı dövründə baş verən əsas trendlərdən biri qocalmadır. Müasir mərhələdə 7,2 milyard olan dünya əhalisinin sayının 2030-cu ildə 8 milyarda, 2050-ci ildə isə 9 milyarda qədər artacağı gözlənilir. Bu trend zəngin Qərb dövlətlərində daha çox müşahidə olunur. Bu tendensiya yalnız Avropada deyil, eyni zamanda, Cənubi Amerikanın böyük bir hissəsində və Karib hövzəsində, Çin və Cənubi Hindistan da daxil olmaqla Asiyanın əksər yerlərində, hətta Livan, Mərakeş və İran kimi bəzi Orta Şərq və Şimali Afrika ölkələrində də mövcuddur. Qocalma iqtisadi inkişafa mənfi təsir edir. Əhali yaşlandıqca və yetkinlik yaşında olan gənc insanların sayı azaldıqca, ev, mebel, avtomobil və cihaz kimi bahalı məhsulların satış səviyyələri də aşağı düşəcəkdir. Müasir mərhələdə inkişaf etmiş iqtisadiyyatlarda doğulan uşaqların dörddə birindən çoxunun 100 yaşına qədər yaşayacağı gözlənilir [18, s.44].

IV Sənaye inqilabı özü ilə bərabər yeni peşələrin ixtisasların yaranmasına gətirib çıxara bilər. Onlar data analist, külək enerjisi texniki, proqram inkişaf etdiricisi, 3D-çap texniki, robot texniki, günəş enerjisi texniki, beyin implant mütəxəssisi, gen mühəndisliyi, dron pilotları, iqlim mühəndisləri, kosmos turizm bələdçisi, uzaqdan sağlamlıq mühəndisi, nanotexnologiya mühəndisi, kiber təhlükəsizlik mütəxəssisi və s.-dir [12].

Bu peşələrin əhəmiyyətinə nəzər saldıqda onlara ehtiyacın çox olması qənaətinə gəlmək olar. Məsələn, müasir dünyada məlumatların müxtəlifliyi və çoxluğu şəraitində onların toplanmasına və gələcəkdəki yarana biləcək problemləri təxmin edə bilən mütəxəssislərə - data analistlərə ehtiyac vardır. Eyni zamanda ekoloji baxımdan təmiz enerji mənbələrindən istifadə edilməsi də vacib məqsədlərdən biridir. Külək enerjisi günəş enerjisi kimi təmizdir, ona görə də ondan istifadə olunması daha da genişlənir. Bu sahədə mütəxəssislərin olması vacibdir. Texnologiyanın, robotların, mobil cihazların və s. inkişaf etməsi üçün mütləq şəkildə proqram inkişaf etdiricilərə ehtiyac var. 2016-2026-ci illər ərzində təxminən Proqram inkişaf etdiricisi sahəsində 1.200000 yeni iş yeri açılacağı proqnozlaşdırılır [12].

IV Sənaye inqilabı yeni risklər yarada bilir. Dünyada inkişaf proseslərinin sürətlənməsi ilə əlaqədar köhnə tənzimləmə metodları yeni texnologiyalarla ayaqlaşmır, məlumatlar milli şirkətlər deyil, qlobal sosial şəbəkələr vasitəsilə toplanır. Bundan əlavə, yeni texnologiyalar bir neçə nüfuzlu korporasiyaların əlində cəmlənərək onlara bazara öz şərtlərini diktə etməyə imkan verir, dəyişikliklərin faydaları nisbətən kiçik elita arasında toplanır və bərabərsizliyi daha yüksək səviyyəyə çatdırır [1]. Fiziki sistemlərin İnternetə inteqrasiyası nəticəsində kiber hücumlara qarşı həssaslıq, şirkətlərin orta ömrünün 60 ildən 18 ilədək azalması, müəyyən peşə fəaliyyəti sahələrinin insanların təsir dairəsindən robotlara keçməsi Dördüncü Sənaye inqilabının yaratdığı risklər sırasına daxildir [1].

IV Sənaye inqilabına keçid artıq həyatın bütün sahələrində baş vermişdir. 2019-cu ilin dekabr ayından başlayan koronavirus pandemiyası bu prosesi daha da sürətləndirdi. Pandemiyanın dünya siyasi sisteminə, iqtisadiyyatına, təhsil və elm sahələrinə təsiri yeni texnoloji inkişaf mərhələsinin başlamasından xəbər verirdi. Nəticədə internetdən istifadənin əhatə dairəsi daha da genişləndi, cəmiyyətin və dövlətin bütün sahələrində onlayn texnologiyaların tətbiq olunması zərurəti yarandı [13].

Ümumiyyətlə, bəşəriyyət üçün IV Sənaye inqilabının müsbət və mənfi təsirləri ola bilər. Klaus Şvaba görə müsbət təsirlər itmiş uşaqların sayının azalması, müsbət tibbi nəticələrin, özünü təminetmənin artması, daha yaxşı qərarvermə, təsviri tanımaq və şəxsi məlumatların əlçatanlığı ilə özünü birüzə verəcəkdir. Mənfi təsirlər isə gizlilik, yəni potensial nəzarətin olması, məlumatların təhlükəsizliyinin azalması, kimlik oğurluğunun artması, onlayn təhdid, izlənilmə, həqiqətlərdən qaçma və asılılıq, diqqət yayınmasının artmasında özünü göstərə bilər [18, s.137].

Eyni zamanda bundan əvvəlki sənaye inqilablarına da tənqidlə yanaşan, texnologiyanın çevik inkişafına, insan həyatında tutduğu yerə sərt mövqe ortaya qoyan insanlar var. Onlar belə hesab edirlər ki, IV Sənaye inqilabı daha çox əmək bazarına mənfi təsir edəcək, insanların həyatdakı rolu azalacaq, onlar arasında qütbləşmə daha geniş şəkildə özünü göstərəcək. Bu vəziyyətin yaranması ehtimalı böyükdür. Lakin elm və təhsilin inkişafı bu dəyişikliklərin tətbiqində mühüm rol oynayacaq. Yalnız innovativ düşüncəyə, yaradıcı qabiliyyətə, emosional zəkaya, insanlar arasında əlaqələr qurmağa və onların nə istədiklərini həll etməyi bacaran, şəffaf və sistemli idərəetməyə meyilli olan kadrlara daha çox ehtiyac duyulacaq. Belə hesab olunur ki, istehsal sənayesi olmayan, texnoloji yeniliklərlə ayaqlaşa bilməyən ölkələr öz müstəqilliklərini belə itirəcək və nəticədə qlobal robot korporasiyaları tərəfindən idarə olunacaq ərazilərə çevriləcəklər [8].

Məşhur iqtisadçı Klaus Şvab yeni dövrün başlanğıcını zəruri edən səbəbləri göstərərək iqtisadi artımı çox yaxın gələcəkdə texnoloji dəyişikliklərin təmin edəcəyini bildirir və onların təsiri XIX və XX əsrlərdəki sənaye inqilablarındakından daha əsaslı, nəticələri isə daha tutarlı olacaq. Bu dəyişikliklər təkcə iqtisadi strukturlara deyil, insan həyatının bütün sahələrinə sirayət edəcək. Buna görə də, bütün sahələrin başdan-başa dəyişə biləcəyi ehtimalı daha çoxdur. Məsələn, ABŞ-ın "Uber Technologies İnc" taksi şirkəti yarandığı dövrdən dünyanın 60-dan çox ölkəsində öz fəaliyyətini genişləndirmişdir. Belə hesab olunur ki, bu böyümə Google və Facebookdan da sürətlidir. MDB ölkələri içərisində isə bu xidmət Rusiyadan sonra 2015-ci ildən Azərbaycanda tətbiq olunur. Məlumdur ki, smartfon istifadəçiləri taksi xidmətinə ehtiyac duyduğunda əvvəlcədən telefona yüklədiyi uberproqram sayəsində bir toxunuşla mərkəzə xəbər göndərir və sürücü ilə istifadəçi arasında mobil uzlaşma yaradılır. Ünvanı söyləməsə belə, GPS sayəsində mərkəz müştəriyə yaxın olan taksini ona tərəf yönləndirir, eyni zamanda telefona gələn məlumatda avtomobilin modeli, naviqasiya üzrə hərəkəti, sürücünün fotosu və ona aid olan məlumatları, sürücülük reytinqi, gedəcəyi yolun tarif qiyməti qeyd olunur.

Klaus Şvabın verdiyi məlumatlara əsasən, 3D çapı bütün sənaye istehsalını dəyişəcək, yəni təminatçılar – provayderlər şəbəkəsi ya tam yoxa çıxacaq, ya da tamamilə başqa bir formaya keçəcək. Bu sənaye inqilabı dövründə yaxın gələcəkdə çox sayda yeni texnologiyalar yaranacaq və onlar iqtisadiyyata təsir göstərən fiziki, digital və bioməhsulların əvəzləyicisi rolunda çıxış edəcək. Dünya artıq texnologiyanın daha üstün bir mərhələsi dövründə olacaq və bu da iqtisadiyyata, texnoloji rəqabətə yenidən təsir edəcək, dəyişikliklərə yol açacaqdır [8].

Müasir mərhələdə IV Sənaye inqilabı Azərbaycana qlobal iqtisadi rəqabətdə öz rolunu dəyişmək imkanı verir. Bu isə ölkə iqtisadiyyatının mövcud potensialından tam şəkildə istifadə etmək, innovasiyaları tətbiq etməklə mümkündür. Azərbaycanın mövcud zaman kəsiyində malik olduğu imkanlardan tam yararlanaraq texnoloji sıçrayışla və innovativ həllərlə regionun rəqəmsal mərkəzinə çevrilməsi imkanı olduqca böyükdür [6].

IV Sənaye inqilabının Azərbaycanın iqtisadi inkişafında və qlobal miqyasda rəqabətə davamlılığında mühüm əhəmiyyəti vardır. Bu zaman iqtisadiyyatın bütün mövcud potensialından tam şəkildə istifadə etmək, innovasiyaları tətbiq etmək zəruridir [13].

Azərbaycanda telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi və digər proqramlar çərçivəsində də informasiya cəmiyyətinin inkişafı üzrə bir çox işlər həyata keçirilir [13].

Müasir dünyada dövlətlər IV Sənaye inqilabının gedişində rəqabətə tab gətirmək üçün elektronlaşma, rəqəmsallaşma, elmi-texniki tərəqqidə sürətli nailiyyətlər əldə etməyə çalışırlar. Azərbaycan da bu tendensiyadan geri qalmır, dövlət idarəetmə sisteminin elektronlaşması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Azərbaycanın regionda innovasiyalar mərkəzinə çevrilməsi, Silikon Vadisi kimi Abşeron Vadisini yaratmaq məqsədi yeni inqilabi dövrə dövlətin strateji yanaşmasını göstərir [15].

Azərbaycan bu istiqamətdə geniş imkanlara malikdir və onlardan tam yararlanaraq innovativ həllər vasitəsilə regionun rəqəmsal mərkəzinə çevrilə bilər. Prezident İlham Əliyev 2020-ci il iyunun 16-da “Microsoft” şirkətinin təşəbbüsü ilə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və “Microsoft” şirkətinin digər nümayəndələri arasında keçirilən videokonfransda bildirmişdi ki, Azərbaycan artıq sənaye inqilabı üzrə regional mərkəzə çevrilir [13]. Dövlət başçısı Azərbaycanın rəqəmsal transformasiya üzrə hökumət strategiyası üzərində çalışdığını və bu sahədə “Microsoft”la əməkdaşlığa ümidvar olduğunu bildirdi: “.....Eyni zamanda, süni intellekt üzrə strategiyanın ətraflı işlənib hazırlanması ilə bağlı məsələlər də bizim gündəliyimizdədir. Kibertəhlükəsizlik hər zaman gündəlikdədir, çünki bu, bütün ölkələrin hazırlıqlı olmalı olduğu məsələdir. İndiyədək bizdə belə böyük hallar olmayıb, lakin heç kim sığortalanmayıb. Ona görə də bu da bizim gələcəyimiz üçün prioritetlər sırasında qalır.”[10].

IV Sənaye inqilabının çağırışlarına cavab vermək üçün hər bir dövlətin demoqrafik göstəriciləri də mühüm rol oynayır. Dünyanın inkişaf etmiş ölkələrində gənclərin sayının azalması və qocalmanın sürətlənməsi ciddi problemlərin baş verəcəyindən xəbər verir. Belə ölkələr bu problemin qarşısını kənar dövlətlərdən gənclərin gəlməsi üçün şərait yaratmaqla almağa çalışırlar. Müasir mərhələdə Avropa qoca qitə olmaqla yanaşı, həm də “qocalar ölkələri”nin cəmləşdiyi regiondur.

Azərbaycanda isə demoqrafik vəziyyət əksinə yaxşıdır. Əhalinin sayı artır, gənc nəsil cəmiyyətdə aparıcı mövqeyə sahib olur, orduda, dövlət idarəetməsində, elmdə, iqtisadiyyatda və sahibkarlıqda əsas qüvvəni təşkil edirlər.

Prezident İlham Əliyev bu məsələyə xüsusi diqqət yetirmişdir: “Avropa məkanında ölkələrdə ya əhali sabitdir, ya da ki, azdır, bizdə isə artır. Müstəqillik dövründə 7 milyondan 10

milyonadək artıbdır. Bütün bunlar yeni iş yerləri deməkdir. Amma biz görürük ki, IV Sənaye inqilabı iş yerlərinin ləğvinə gətirəcəksə - bu, artıq danılmaz faktdır - ona görə IV Sənaye İnqilabı nəticəsində yarana biləcək yeni peşələrə hazır olmalıyıq" [11].

Beləliklə, Prezident İlham Əliyev gənclərə çatdırdı ki, onlar yeni dünyanın yeni çağırışlarına hazır olmalıdırlar. Buna görə də yeni texnologiyalardan istifadə edilən peşələrə yiyələnməlidirlər. Azərbaycan gəncləri IV Sənaye inqilabının çağırışlarına vaxtında reaksiya verib düzgün mövqe tutmasalar dövlət ümumi inkişafdan geri qala bilər. Prezident İlham Əliyev gəncləri dünyanın bu çağırışını düzgün qiymətləndirməyə dəvət etdi.

İKT eyni zamanda davamlı və dayanıqlı inkişafın təmin edilməsi, biznesin irəliləməsi, korrupsiya ilə mübarizənin, yoxsulluq və işsizliyin azaldılmasının, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsinin əlverişli vasitəsi hesab olunur. Dövlət idarəçiliyi, təhsil, səhiyyə, biznes, bank işi və digər sahələrdə yeni dəyərlər yaradan İKT ictimai-iqtisadi münasibətlərin vacib tərkib hissəsinə çevrilmişdir. İnternetin inkişafı, bu sahədə medianın fəaliyyət azadlığı, internetdə fikir və söz azadlığının mövcudluğu, elektron qəzet və jurnalların, xarici və daxili sosial şəbəkələrin geniş yayılması İKT-nin cəmiyyətə verdiyi yeni imkanlardır.

Azərbaycanın İKT sahəsində ümumdünya elektron məkanına inteqrasiyası, sosial və iqtisadi fəaliyyətin yeni formalarının – e-hökumət, e-ticarət, distant təhsilin yaranması, bu sahədə səmərəliliyin artırılması, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılmışdır. Azərbaycanda İKT sahəsi dövlətin xüsusi diqqətindədir və bu sahənin ölkə iqtisadiyyatının gələcək inkişafı üçün prioritetlərdən olduğu bəyan edilmişdir [2].

Müasir mərhələdə bağlantı xidmətləri, avtomatlaşma və süni intellektin geniş tətbiqi ilə xarakterizə olunan IV Sənaye inqilabının çağırışları Azərbaycanda da özünü göstərir. Azərbaycanın dəmir yolu şəbəkəsində ən müasir standartlara cavab verən texnologiyaların tətbiqi IV Sənaye inqilabının çağırışlarına cavabdır. Enerji təchizatının sabit cərəyandan dəyişən cərəyana keçirilməsi, işarəvermə və rabitə sisteminin, lokomotiv və vaqon parklarının yeniləşdirilməsi üzrə avadanlıqların alınması, yol təsərrüfatının sağlamlaşdırılması və s. sahələrin müasir tələblər səviyyəsinə çatdırılması üzrə bir sıra mühüm tədbirlər həyata keçirilmişdir [3].

Azərbaycanda alternativ enerjidən istifadə, innovativ texnologiyaların tətbiqi və sənaye parklarında son texnologiyalardan istifadə sahəsində mühüm addımlar atılmışdır. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yenidənqurma və bərpa işləri yeni texnika və texnologiyaların tətbiq edilməsi ilə aparılır. Prezident İlham Əliyev həmin ərazilərdə aparılan işlərdə yeni texnologiyalardan istifadə edildiyini vurğulayaraq demişdir: "Nəzərə alsaq ki, azad edilmiş torpaqlar həm "ağıllı şəhər" modeli əsasında qurulacaq, "ağıllı kənd", "yaşıl enerji" zonası – bütün bu yeni sahələr, yeni peşələr, əlbəttə, gənclərin sərəncamında olacaq. Çünki IV Sənaye İnqilabı ilə bağlı olan yeniliklər, ilk növbədə, Azərbaycanda gənclər tərəfindən mənimsənilir və gənclər xətti ilə biz bu siyasəti icra edəcəyik." [11].

2019-cu ildə Prezident İlham Əliyevin Davosa səfəri zamanı Azərbaycan hökuməti ilə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında ilk dəfə olaraq əməkdaşlığın əsası qoyuldu, tərəflər arasında əməkdaşlıq sazişi imzalandı. Azərbaycan Prezidenti əməkdaşlıq sazişini yüksək qiymətləndirərək Azərbaycanın IV Sənaye inqilabının hədəflərinin həyata keçirilməsində maraqlı olduğunu ifadə etdi [9]. Prezident İlham Əliyev Azərbaycan Hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında əməkdaşlıq sazişinin vacibliyini vurğulayaraq bildirdi ki, Azərbaycan IV Sənaye inqilabının hədəflərinin həyata keçirilməsində çox fəal iştirak edəcək. Forumun dünyada gedən transformasiya proseslərinin yeni təmayülləri və çağırışların müzakirəsi

baxımından əhəmiyyətini vurğulayan İlham Əliyev Azərbaycanın öz inkişaf strategiyasını yenilənən beynəlxalq və regional təmayüllər nəzərə alınmaqla qurduğunu bildirdi [8].

Azərbaycan qlobal çağırışlara və tendensiyalara adekvat cavab verərək yeni inkişaf texnologiyalarının tətbiqində ön sıralarda olmaqda qərarlıdır. Ona görə də respublikamızda rəqəmsal iqtisadiyyatın və texnologiyaların inkişafi üçün əlverişli infrastrukturun, o cümlədən IV Sənaye inqilabının standartlarına uyğun şəraitin formalaşdırılması istiqamətində fəal iş aparılır. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 6 yanvar 2021-ci il tarixli Fərmanı ilə yaradılmış Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi yeni reallıqlar şəraitində bu istiqamətdə dövlətin mövqeyini gücləndirmək, qabaqcıl texnoloji imkanlardan maksimum yararlanmaq, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiya həyata keçirmək məqsədini daşıyır. Mərkəz Azərbaycan Respublikası ilə IV Sənaye inqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığı və bu sahədə əlaqələndirməni, həmçinin rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir [5].

IV Sənaye inqilabına keçidin Azərbaycan üçün çətin olacağı məqamlar da vardır. Əvvəlki inqilabların yenilikləri 40-50 il sonra Azərbaycana gəlib çatsa da, IV Sənaye inqilabının maliyyə dəyəri böyük olacaq. Sənaye 4.0-da yəni, istehsalın robotlaşdırılmasında iki məsələ var: Sənaye 4.0-a lazım olan robotları istehsal etmək; Bu robotları başqa ölkələrdən alıb, istehsalı onların vasitəsilə həyata keçirmək [17].

Bu prosesdə robot istehsal edən dövlətlər daha qazanclı çıxır. Azərbaycan robotlar istehsal edə bilmədiyindən robotları, digital maşınları ABŞ, Çin, Cənubi Koreya kimi dövlətlərdən alıb, istehsal müəssisələrinə yerləşdirəcək. Bundan sonra robotların əməliyyat sistemlərini, proqram təminatlarını da satın almaq, bu proqramlarla onları işlədib, məhsul istehsal etmək və satmaq kimi mərhələlərdən kecəcəkdir [17].

IV Sənaye inqilabı ilə bağlı müzakirələr onu göstərir ki, qlobal çağırışlar qaçınılmazdır. Əgər III Sənaye inqilabı kütlənin daha ucuz məhsullar və xidmətlərlə təminatını nəzərdə tuturdusa, istehlakçıya diqqət yetirmirdisə, yeni sənayenin inkişafı daha çox fərdiliyin üzərində inkişaf edəcək. Avropa ölkələri arasında yeni sənayeninin inkişafına ən çox pul xərcləyən Almaniyadır. Bu, Avropa ölkələrinin xərclədiyi pulun üçdə bir hissəsini təşkil edir. Bu isə almanların yeni sənaye inqilabının önündə gedəcəyini göstərir. Görünən odur ki, bundan sonra iqtisadi artım, hərtərəfli inkişaf təbii sərvətlərlə deyil, insan zəkası və innovasiyalardan asılı olacaq.

Qeyd edək ki, IV Sənaye inqilabı dünya, qlobal iqtisadiyyat üçün faydalı, inkişafın yeni mərhələsi üçün əsas istiqamət olacaqdır. İnsanların robotlaşmağa tənqidi yanaşmalarına baxmayaraq, unutmaq olmaz ki, robotları da, sənaye inqilablarını da yaradan məhz insandır, insan beynidir. İnsan öz beyninin məhsulunu yaradırsa, ondan faydalanmağın da ən mümkün yollarını axtaracaqdır [8].

Ümumiyyətlə, Azərbaycan Respublikası IV Sənaye inqilabının gətirdiyi texnoloji yeniliklərə və çağırışlara cavab vermək üçün mühüm addımlar atır. Bu addımlar insanların gündəlik məişət həyatından tutmuş, dövlət idarəçiliyi, iqtisadiyyat, sənaye, elm və təhsil sahələrində özünü göstərməkdədir. Bu istiqamətdə Azərbaycan dünya dövlətlərinin və beynəlxalq təşkilatların təcrübəsindən istifadə edir, onlarla sıx əməkdaşlıq əlaqələri qurulur. Dünyada fəaliyyət göstərən və İKT sahəsində ixtisaslaşan məşhur şirkətlər və beynəlxalq təşkilatlar Azərbaycanda rəqəmsal inkişaf sahəsində əldə edilən yeniliklər yüksək qiymətləndirilir.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan işğaldan azad edilmiş ərazilərin yenidən qurulması üçün "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyalarından istifadə edərək inqilabın son texnoloji yeniliklərini bərpa prosesinə cəlb edir. Bu baxımdan təqdim olunan

məqalə mühüm elmi, siyasi əhəmiyyətə malikdir. Azərbaycan son illər ərzində IV Sənaye inqilabının çağırışlarına cavab verəcək, onun beynəlxalq qurumlarla əlaqələrini tənzimləyəcək strukturların yaranması, bu istiqamətdə Azərbaycan dövlətinin strateji addımları, yeni peşələrə hazırlıq, sənaye və iqtisadi sahələrdə çağırışlarınn yaranması və onlara cavab və s. məsələlərin araşdırılması elmi yenilik səciyyəsi daşıyır və araşdırılması aktualdır.

**Ədəbiyyat:**


1. Akademik Rasim Əliquliyev: "Azərbaycan alimləri IV sənaye inqilabı ilə bağlı mühüm tədqiqatlar aparıb": [Elektron resurs] / – URL: https://ict.az/az/news/ 5379.
2. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya // 2 aprel 2014-cü ildə qəbul edilmişdir: [Elektron resurs] / – URL: https://president.az/az/articles/view/11312.
3. Bayramov, V. IV sənaye inqilabının çağırışları uğurla yerinə yetirilir: [Elektron resurs] / – URL: https://xalqqazeti.com/mobile/az/news/90 201.
4. Dadaşzadə, Ə. Tarixdəki 4-cü sənaye inqilabı nə vəd edir?: [Elektron resurs] / – URL: https://banker.az/tarixd%C9%99ki-4-cu-s%C9%99naye-inqilabi-n%C9%99-v%C9%99d-edir
5. Dördüncü Sənaye İnqilabı: [Elektron resurs] / – URL: https://economy.gov.az/az/page/ dorduncu-senaye-inqilabi.
6. IV sənaye inqilabı: Azərbaycan üçün perspektivlər: [Elektron resurs] / – URL: https://az.trend.az/business/it/2985579.
7. Əliyev, Ə. Q. İnformasiya iqtisadiyyatı sektorlarının və innovativ strukturlarının inkişafına Dördüncü Sənaye inqilabının təsirinin analizi / Ə. Q. Əliyev, R.O. Şahverdiyeva // İnformasiya cəmiyyəti problemləri, – Bakı: – 2018. №2, – s.52-64.
8. Həsənov, S. IV sənaye inqilabı: yeni dövrün çağırışı və qlobal yeniliklər: [Elektron resurs] / – URL: https://naxcivanxeberleri.com/cemiyyet/32 059-iv-snaye-inqilabi-yeni-dovrun-cagirisi -v-qlobal-yeniliklr.html.
9. İlham Əliyevin İsveçrə Konfederasiyasına işgüzar səfəri: [Elektron resurs] / – URL: https://president.az/az/articles/view/31810.
10. İlham Əliyevlə "Microsoft" şirkətinin vitse-prezidenti və digər nümayəndələri arasında videokonfrans keçirilib: [Elektron resurs] / – URL: https://president.az/ az/articles/view/ 39176.
11. Kamal, R. Gənclər IV Sənaye İnqilabı ilə bağlı yenilikləri yüksək səviyyədə mənimsəyirlər: [Elektron resurs] / – URL: https://azerbaijan-news.az/az/posts/ detail/gencler-iv-senaye-inqilabi-ile-bagli-yenilikleri-yuksek-seviyyede-menimseyirler-1644352883.
12. Qasımlı, B. IV Sənaye İnqilabı: Yeni peşələr: [Elektron resurs] / – URL: https://markzone. az/iv-senaye-inqilabi-yeni-peseler/
13. Məmmədov, A. IV Sənaye İnqilabı və təhsilin əsas inkişaf trendləri: [Elektron resurs] / – URL: https://stm.az/en/news/227/iv-senaye-inqilabi-ve-tehsilin-esas-inkisaf-trendleri
14. Mustafayev, O. Bizi dəyişən robotlar: [Elektron resurs] / – URL: https://www.muallim.edu. az/news.php?id=2400/
15. Səlimov, E. Dördüncü Sənaye İnqilabı: sürətli inkişaf, insanları gözləyən təhlükə: [Elektron resurs] / – URL: https://www.digital.gov.az/digitalazerbaij an/az/blog/44/ dorduncu-senaye-inqilabi-suretli-inkisaf-insanlari-gozleyen-tehluke.

16. Sənaye inqilabı: [Elektron resurs] / – URL: https://az.gov-civ-guarda.pt/.
17. Sənaye inqilabları və Azərbaycan: [Elektron resurs] / – URL: https://imammadli.com/tag/s%C9%99naye-inqilabi/.
18. Şvab, K. Dördüncü Sənaye inqilabı. 2016 Dünya İqtisadi Forumu / K. Şvab. – Bakı: İqtisad Universiteti nəşriyyatı, – 2020. – 204 s.
19. Rifkin, J. The Zero Marginal Cost Society: The Internet of Things, the Collaborative Commons, and the Eclipse of Capitalism Paperback: [Electronic resource] / – URL: https://www.amazon.com/Zero-Marginal-Cost-Society-Collaborative/dp/1137280115.

***Açar sözlər:*** *informasiya-kommunikasiya texnologiyaları, IV Sənaye inqilabı, çağırışlar, texnoloji yeniliklər, rəqəmsal inkişaf, robotlaşma*

**Arzu Khalilzade**
*Baku State University*
*Department of Source Studies, Historiography and Methodology*
*Ph.D. in History, Associate Professor*

## CHALLENGES OF THE IV th INDUSTRIAL REVOLUTION AND AZERBAIJAN

## ABSTRACT

The article examines the conditions for the emergence of the Fourth Industrial Revolution, its distinguishing characteristics, positive and negative challenges, and Azerbaijan's ability to adapt and respond to them.

The main goal of the research is to study the contributions of the revolutions to the world industry, economy, science, and education, the challenges of the Fourth Industrial era, the projects implemented in Azerbaijan in this field and the adopted strategic programs.

The presented research work is essential from scientific, historical, and political points of view. In Azerbaijan, there are various studies on the possibilities of transition to the Fourth Industrial Revolution and measures taken in different state sectors in this field. However, there is a great need for further research. The IV Industrial Revolution constitutes an important historical stage in the world as well as in Azerbaijan. The states that respond to this revolution's challenges will be the world's main power players. The potential to respond to challenges will determine each state's historical and political place. In this regard, the presented research work is a great contribution to the history of Azerbaijan.

Historicity, generalization, systematic approach, comparison, and content analysis methods were used in this research paper. The author used reliable sources for the research. The research work is important not only in the history of Azerbaijan but also in the study of economic, industrial and other non-oil sectors.

***Keywords:*** *information and communication technologies, IV Industrial revolution, challenges, technological innovations, digital development, robotization*

**Арзу Халилзаде**

*Доцент кафедры Источниковедения, историографии и методики Бакинского Государственного Университета, доктор философии по истории*

## ВЫЗОВЫ IV ПРОМЫШЛЕННОЙ РЕВОЛЮЦИИ И АЗЕРБАЙДЖАН

## РЕЗЮМЕ

В статье рассматриваются условия возникновения IV промышленной революции, характеристики, отличающие ее от других революций, возникшие положительные и отрицательные вызовы, а также возможности Азербайджана адаптироваться и реагировать на них. Основной целью исследования является изучение вклада происходящих революций в мировую промышленность, экономику, науку, образование, а также вызовов IV промышленного периода, реализуемых в Азербайджане проектов и принятых стратегических программ в этой области. Представленная исследовательская работа важна с научной, исторической и политической точек зрения. В Азербайджане проводятся различные исследования о возможностях перехода к IV промышленной революции, мерах, принимаемых в различных секторах государства в этой области. Однако существует большая потребность в исследованиях, основанных на научных основах и концепциях. IV промышленная революция представляет собой важный исторический этап как в мире, так и в Азербайджане. Государства, которые ответят на вызовы этой революции, станут главными могущественными игроками в мире. Потенциал реагирования на вызовы определит историческое и политическое место каждого государства в мире. В связи с этим представленная исследовательская работа является большим вкладом в историческую науку Азербайджана.

При разработке статьи использовались методы историзма, обобщения, системного подхода, сравнения, контент-анализа, были сделаны важные научные выводы. Последние источники и ресурсы были вовлечены в исследование темы. С этой точки зрения работа имеет важное значение не только в исторической науке Азербайджана, но и в изучении экономики, промышленности и других отраслей ненефтяного сектора.

***Ключевые слова:*** *информационно-коммуникационные технологии, IV промышленная революция, вызовы, технологические инновации, цифровое развитие, роботизация*

DOI: 10.30546/2309-1347.83.2023.143

**H Ü Q U Q**
**L A W**

UOT: 343.2/.7

**HAFİZ MUSAYEV**

**Bakı Dövlət Universiteti, Beynəlxalq Hüquq; Hüquq fakültəsinin İnsan hüquqları va informasiya hüququ UNESCO kafedrası, hüquq üzrə fəlsəfə doktoru**

*e-mail: elchin.gulaliyev1@gmail.com*

# CİNAYƏT YOLU İLƏ ƏLDƏ EDİLMİŞ PULLARIN LEQALLAŞDIRILMASI VƏ TERRORÇULUĞUN MALİYYƏLƏŞDİRİLMƏSİNƏ QARŞI MÜBARİZƏNİN ƏSASLARI

Tarix və müasir təcrübə göstərir ki, terrorçuluq hakimiyyət uğrunda mübarizədən, ona müəyyən sosial əhəmiyyətli maraqlar baxımından təsirdən yaranır. Terrorçuluq demək olar ki, həmişə siyasi motivlidir və konkret siyasi nəticələrə yönəlib.

Terrorçuluq ikinci mühüm elementi terrorun subyektləridir ki, onlar da kifayət qədər müxtəlifdir, ekstremist, radikal ideyaları və siyasi doktrinaları bəyan edən qeyri-dövlət strukturlarıdır. Müasir şəraitdə onlar çox vaxt şaxələnmiş şəbəkə strukturlarını təmsil edən terror təşkilatları və qrupları şəklində təqdim olunur.

Müasir tədqiqatçılar bu struktur elementlə razılaşmırlar. Bir sıra alimlər hesab edir ki, terrorun subyektləri əsasən dövlət təşkilatlarıdır. Belə ki, Terrorçuluğu ayrı-ayrı şəxslər, təşkilatlar və ilk növbədə dövlət orqanları tərəfindən arzuolunmaz dövlət və siyasi xadimlərin aradan qaldırılmasına, müəyyən siyasi nəticələrə nail olmaq üçün dövlətin hüquqi sabitliyini pozmağa yönəlmiş zorakılıq hərəkətləri kimi izah edirlər..

Digər alimlər hesab edirlər ki, bu neqativ sosial fenomenin mahiyyəti dövlət zorakılığı ilə bağlı deyil, müəyyən siyasi strategiya çərçivəsində siyasi məqsədlər üçün xüsusi şəxslər tərəfindən zorakılıq tətbiq etmək və ya istifadə etmək hədəsi ilə həyata keçirilən fəaliyyətlərə aiddir.

Terrorçuluq üçüncü elementi terror təsirinin obyektləridir, terror aktları konkret olaraq nəyə yönəlib. Adətən bunlar, dövlətin birinci şəxsləri, siyasətçilər, müxtəlif səviyyələrdə hökumət nümayəndələri həmçinin, izdihamlı yerlər, məktəblər, xəstəxanalar, enerji mərkəzləri, hərbi obyektlər. Obyektlər kimi terrora qarşı mübarizə aparan xüsusi xidmət orqanları, sərhəd qurumları və digər strukturlar seçilməlidir.

Terrorçuların məqsədləri hakimiyyət orqanlarını irəli sürülən şərtləri və tələbləri qəbul etməyə məcbur etmək, ictimai münasibətlərə (siyasət, iqtisadiyyat, sosial təminat, mədəniyyət, azadlıq, insanların təhlükəsizliyi və s.) təsir etməkdir.

Terrorçuluq dördüncü elementi terrorun təsir vasitələri və üsullarıdır. Onların siyahısı artır, vasitə və üsullar təkmilləşməklə yanaşı, texnoloji tərəqqi fonunda daim mürəkkəbləşir.

Qlobal dünyada cinayət yolu ilə əldə olunan pulların leqallaşdirilmasi və terrorizmin maliyyələşdirilməsi kifayət qədər yüksəkdir. Bütün dünya ölkələrində terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə aparan qurumlar mövcuddur. Cinayət yolu ilə əldə olunmuş pulların yuyulmasının və terrorizmin maliyyə-

ləşdirilməsinin ölkələrin iqtisadiyyatına, maliyyə sabitliyinə və təhlükəsizliyinə təsirini, həmçinin bunun yaratdığı sosial fəsadları minimallaşdırma mexanizmlərini göstərməkdən ibarətdir.

Beynəlxalq təşkilatlar və ayrı ayrılıqda dövlətlərin adiyyatı qurumları tərəfindən çirklipulların yuyulması və terrorizmin maliyyələşməsinə qarşı tədbirlərin vaxtında görülməməsi çox ciddi nəticələrə gətirib çıxara bilər. Cinayət yolu ilə əldə olunmuş pulların yuyulması və terrorizmin maliyyələşməsinə qarşı mübarizə sistemi zəif olan ölkələrdə, həmçinin bu sahə iləbağlı beynəlxalq standartlara əməl etməyən ölkələrdə investisiya imkanları, beynəlxalq əməkdaşlıq, turizmin inkişafı çox zəifformada olur. Ona görədə, ölkəmizdə fəaliyyət göstərən maliyyə qurumlarında mübarizə sisteminin qurulması, təkmilləşdirilməsi, bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi müasir dövrün aktual məsələlərindən biridir.

Nəzərə alsaq ki, bütün dünyada cinayət yolu ilə əldə olunmuş pulların leqallaşdırılması, narkotika və silah ticarəti, terrorizmin maliyyələşdirilməsi və s. kimi cinayət əməllərini gizlətmək məqsədilə istifadə edilir. Bu sahədə banklar və maliyyə institutları həmçinin bəzi beynəlxalq "Yardım fondları"da pulların yuyulması əməliyyatlarının və maliyyə cinayətlərinin əsas hədəfinə çevrilə bilər. Çünki bu halda pulun mənbəyini gizlətmək üçün istifadə edilən çoxlu sayda, müxtəlif növ xidmətlər göstərirlər.

Cinayət yolu ilə əldə edilmiş pulların leqallaşdırılması termininin istifadəsi ilə bağlı vahid yanaşma mövcud deyil. Pulların leqallaşdırılması ilə yanaşı beynəlxalq təcrübədə "pulların yuyulması", "çirkli pulların yuyulması" kimi terminlərdən geniş istifadə edilir. Çirkli pulların yuyulması ifadəsində qeyd edilən "yuyulma" sözü qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitinin qanuni mənbədən gəlməsi, leqallaşdırılması görüntüsünün yaradılması anlamını verir. Bizim lüğətə ilk dəfə "Çirkli pulların yuyulması" ifadəsi 2009-cu ildən daxil edilmişdir. Bu cinayə bir sıra inkişaf etmişölkələrdə, xüsusilə avropa ölkələrində uzun müddətdir ki, ölkələrin təhlükəsizliyinə, iqtisadiyyatına ciddi təhlükə gətirən cinayətlərdən hesab edilir [1; 2].

Cinayət yolu ilə əldə edilmiş pulların leqallaşdırılması və terrorizmin maliyyələşdirilməsindən danışarkən bu terminin önəmliliyi, formalaşma tarixi, aktuallığı barəsində də söz açmaq lazımdır.Araşdırmalar zamanı məlum olur ki, tarix boyu hər zaman çirkli pullar və onların yuyulmasına yönələn fəaliyyətlər olmuşdur. Tarixi mənbələrə görə "Qədim Çində" tacirlər əldə etdikləri gəlirlərini hökmdardan gizlətmək üçün Çinin müxtəlif bölgələrinə və Çindən kənar ərazilərə investisiya edərmişlər. Amerikanın görkəmli yazıçısı Sterlinq Siqreyv (1937) özünün "Lords of the Rim" adlı əsərində, hələ e.ə 2000-ci illərdə Çin tacirlərinin öz sərvətlərini hökmdar tərəfindən əllərindən alınacağı qorxusu ilə necə gizlədiklərini, öz əmlaklarını hərəkətə gətirərək uzaq şəhərlərdə və hətta Çindən kənarda investisiyaya yönəltdiklərini qeyd edir.

"Çirkli pulların yuyulması" termininin XX əsrin əvvəllərində meydana gəlmişdir. O dövrdə quruplaşmalar silah alverindən, qumardan, narkotik ticarətindən və s. əməllərdən əldə etdiklərivəsaitləri qanuniləşdirməyə və leqal olduğunu sübut etməyə çalışırdılar. Bunun üçün də, cinayətkarlar qeyri-leqal yollarla əldə edilən pulları qanuni ticarətlə əlaqələndirməyə çalışırdılar. Bu metodlardan biri də, jetonla işləyən avtomatlar və camaşırxanalar idi. "Çirkli pulların yuyulması" ifadəsi də bu cəmaşirxanalarla bağlıdır. Belə ki, 14.04.1994 tarixli "L'expresse" qəzetinin yazdığına görə 1920-ci illərdə Çikaqoda yerli mafiyanın kassiri olan Al Capone adlı bir şəxs həmin dövrdə ölkədə populyar olan və hesablaşmaların yalnız nağd pul ilə aparıldığı bir avtomatik cəmaşirxanalar şəbəkəsini satın alaraqcinayət yolu ilə əldə olunanpulları camaşırxanaların qanuni gəlirlərinə qatıb sənədləşdirməklə, onlara qanuni "don geyindirmə"yə başlamışdır. İngiliscə "laundering" (yumaq) sözü də buradan yaranmışdır. Bununlada cinayətkarlar qeyri qanuni yollarla əldə etdikləri pulları çox asanlıqla leqallaşdırırdılar.

Beynəlxalq səviyyədə pulların yuyulması məsələsi XX əsrin 80-ci illərindəaktual olmağa başlamışdır. 1989-cu ildə “Böyük yeddiliy”in görüşündə bu problem çox ciddi hesab edilərək xüsusi qrupun – Maliyyə Tədbirləri üçün İşçi Qrupunun (FATF) yaradılmasına dair qərar qəbul edilmişdir. Digər bir çox beynəlxalq təşkilatlar kimi FATF da ölkələr üçün məcburi xarakter daşıyan heç bir qanun, qərar qəbul edə bilməz, qəbul etdiyi qərar yaxud sənəd tövsiyə xarakteri daşıyır. FATF tərəfindən tərtib edilmiş “40 Tövsiyə” (FATF Tövsiyələri) hər bir ölkədə və aidiyyatı beynəlxalq təşkilatlar üçün bu sahədə rəhbər rolunu oynayır.

Pulların leqallaşdırılmasının ictimai təhlükəliliyi ondan ibarətdir ki, cinayət yolu ilə əldə olunmuş əmlak müxtəlif üsullarla dövlət orqanlarının qanunvericiliklə nəzərdə tutulmuş nəzarətindən kənar mülki dövriyyəyə daxil olaraq onun digər iştirakçılarının, ilk növbədə iqtisadi fəaliyyət subyektlərinin mənafeyini təhlükə altına alır. Cinayət Məcəlləsi ilə belə əmələ görəcinayət məsuliyyəti nəzərdə tutularkən maddi və qeyri-maddi əmlak dəyərlərinin dövriyəsinin qanunauyğunluqlarına, onlardan istifadənin və onlara nəzarətin mövcud qaydalarına riayət edilməsi zərurəti nəzərə alınmışdır. Azərbaycanda cinayət yolu ilə əldə olunmuş pulların və ya başqa əmlakın leqallaşdırılması əməlinin hüquqi tənzimləməsi Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 193-1 və 194 maddələri ilə müəyyən olunur [3].

"Terrorizmin maliyyələşdirilməsi dedikdə, pul və yabaşqa əmlakın, bilavasitə və ya dolayı yollarla terror tədbirlərinin həyata keçirilməsi üçün istiqamətlənməsi və ya maliyyə vəsaitlərinin və ya başqa əmlakın bu məqsədlə toplanılması başa düşülür. Terrorçuluğun maliyyələşdirilməsinin ictimai təhlükəliliyi insanların ölməsi, əmlakların dağıdılması, digər ağır nəticələri ola biləcək partlayışların və ya başqa addımların atılmasıməqsədi ilə əlverişli şəraitin yaradılmasında ifadə olunur.

Beynəlxalq və Azərbaycan Respublikası qanunvericiliyinə əsasən 16 yaşına çatmış hər hansı fiziki şəxs buəmələ görə cinayət məsuliyyətinə cəlb olunur. Ölkəmizdə terrorçuluğun maliyyələşdirilməsi əməlinin hüquqi tənzimləməsi Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 214-1 bəndi ilə müəyyən olunur. [2]. “Terrorizmlə mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə uyğun olaraq, pul vəsaitləri yaxud başqa əmlak dedikdə, əldə olunması vasitəsindən asılı olmayaraq, hər cür maddi və qeyri maddi əmlak növləri, daşınmaz yaxud daşınar əmlak, həmçinin kreditlər, çeklər, poçt göndərişləri, qiymətli kağızlar və səhmlər və s. daxil olmaqla, bu növ aktivlərəmövcud hüquqları təsdiqləyən elektron yaxud digər formada tərtib edilən sənədlər, aktlar başa düşülür. Digər əmlak qisminə aiddir:

– Terror aktlarının həyata keçirilməsi üçünverilən hava gəmiləri və ya hər hansı başqa növ nəqliyyat vasitələri;
– xüsusi qurğularla təchiz olunmuş nəqliyyat vasitələri, binalar və ya mənzillər; odlu silah, döyüş sursatı və ya partlayıcı maddələr;

Pul vəsaitlərinin yaxud başqa əmlakın terrorçuluğun maliyyələşdirilməsinə qəsdən yönəldilməsi dedikdə, hər hansı bir maliyyə əməliyyatından əldə edilən vəsaitin, yaxud əmlakın hamısının və ya onun bir hissəsinin terror aksiyalarının hazırlanmasına və həyata keçirilməsinə, terror məqsədi ilə silahlı birləşmələr və qruplar yaradılmasına, habelə bu və ya digər formalarda aksiyalarda iştirak etməyə, şəxsləri terrorçuluğa cəlb etməyə, silahlandırmağa, onlara təlim keçməyə vəonlardan istifadə etməyə yönəldilməsi başa düşülür [6;7].

Qloballaşan dünyada maliyyə vasitələrinin hərəkətlərinin sərbəstləşməsi, maliyyə vasitələrinin və informasiya texnologiyalarının inkişafıprosesləri də özlərində təhlükələr gizlədir. Qeyd olunan proseslər cinayət əməllərinin məqsədli və mütəşəkkil xarakter daşımasına şərait yaradır. Tamah məqsədilə edilən cinayət sonda əldə olunmuş gəlirlərin qanuniləşdirilməsi ilə nəticələnir. Bütün cinayətlərin

çoxunun, xüsusilə də bəşəriyyət əleyhinə yönəlmiş cinayətlərin isə əsasında maliyyələşmə durur. Bu səbəbdən bütün cinayətlərlə mübarizə maliyyə sistemindəaparılmalıdır.

Bu sahə üzrə olan tədqiqatçılar Giuseppe L., John B., Daniel T.və başqaları öz araşdırmalarında çirkli pulların yuyulması vəterrorizmin maliyyələşdirilməsinin potensial dağıdıcı iqtisadi, təhlükəsizlik və sosial fəsadlara malik olmasını bildiriblər. Bu cinayət əməllərinin dünyanın istənilən ölkəsində baş verəbilməsi ehtimalına baxmayaraq, onlar əsasən inkişaf etməkdə olan ölkələr, inkişaf edən bazarlar və həssas maliyyə sistemlərinə malik ölkələr üçün xüsusilə əhəmiyyətli iqtisadi və sosial fəsadlar törədir. Çirkli pulların yuyulmasının mənfi təsirləri hüquq-mühafizə sistemləri və sabit maliyyə dayaqlarının zəif olduğu, həmçinin cinayət, yaxud terrorizm təsirlərinə daha çox məruz qalan ölkələrdə özünü göstərir.

Terrorçuluğun maliyyələşdirilməsinə gəldikdə isə bunun özünəməxsus mərhələləri mövcud deyil. Terrorist qrupları əsasən aşağıdakı formada qruplaşdırılır:

- Separatist – dini azadlıq,müstəqil olmaq və s. kimi yollarla mövcud birlikdən ayrılmaq niyyətində olan qruplardır. Separatislərinideyası sosial ədalətlilik və ya bərabərlik, xarici qüvvələr tərəfindən işğala qarşı mübarizədən ibarət olur.
- Etnosentrik – bu qrupdan olanlar irqi cəmiyyətin həlledici amili kimi görürlər və bütün münaqişələrin məhz bu amildən qaynaqlandığını hesab edirlər. Burada bəziqrupların öz təbii irqi xüsuisiyyətlərindən irəli gələrək özlərini digər qruplardan üstünhesb etmə münasibıtləri mövcud olur.
- Millətçilər – millətinə loyallıq və sədaqətli olan və öz millətinin mədəniyyətini və maraqlarını digər millətlərin mədəniyyət və maraqlarından üstün tutan qruplar hesab olunurlar. Bu özünün təzahürünü yeni “millət” yaratma və ya mövcud dövlətdən ayrılmaqla bu kimi dəyərlərə önəm verən, bu millətçiliyin yaradılmasına razı olan digərdövlətlərin tərkibinə daxil olma cəhdlərində özünü açıqca biruzə verir.
- Üsyançılar – mövcud rejimin devirilməsi və ya yeni siyasi struktur ilə əvəzlənməsinidəstəkləyən qruplardır. Bu çox zamankommunist siyasi ideologiya ilə bağlı olsa da, hər zaman belə deyil, öz məqsədlərinə nail olunması üçün siyasi cərəyanlar da inqilabi üsullardan istifadə edə bilirlər.
- Siyasi – siyasi ideologiyaları dövlət və icmaların formalaşdırılmasının təşkili və strukturundan narazı olan qruplardır.
- Dini – son zamanlar dünyada dini motivlərlə bağlı olan terrorizm yayılmağa davam etməkdədir. Buna əyani missal olaraq, İslam terrorçuluğunun ABŞ-a qarşı aktivləşməsini və ya İslam ideologiyasının əksinə yaranan qruplaşmaları missal göstərmək olar.
- Sosial – bu bəzən ekstremist davranış və terrorizmin yaranmasına səbəb olur. Bunu bəzən “tək məsələ” və ya “xüsusi maraq”terrorizmi də adlandırırlar. Dünyanın bəzi ölkələrində terrorçuluq fəaliyyətinə səbəb olan bir sıraməslələr var ki, bunlara missal olaraqekologiya və ətraf mühit, abort və s. misal göstərmək olar.
- Yerli – bu terroristlər “evdə böyüdülən” terroristlərdir və öz ölkələrinin əleyhinə ölkədaxili fəaliyyət göstərirlər. Önlar hər hansı konkret bir cəmiyyətdaxili ifrat social və siyasi fraksiyalarla əlaqəli olur və əsas səylərini öz millətlərinin ictimai-siyası arenalarına yönəldirlər. Buna Türkiyəni missal gətirmək olar, hansıki PKK terror təşkilatının sıralarında çoxlu sayda türkiyə vətəndaşı öz dövlətinə qarşı vuruşurlar [9;11].
- Beynəlxalq və millətlərarası – beynəlxalq qruplar tipik olaraq müxtəlif

ölkələrdəfəaliyyət göstərsələr də, öz fəaliyyətləri məqsədilə xüsusi cografi istiqamətə fokuslanırlar. Məsələn, “Hizbullah” təşkilatı bir çox ölkələrdə fəaliyyət göstərsə də, daha çox Livanvə İsraildəki hadisələrə bağlıdır [7; 9].

Terrorçuluğun maliyyələşdirilməsi məqsədi ilə pulların leqallaşdırılması üçün istifadə olunan müxtəlif üsul, vasitə və mexanizmlərdən istifadə edilir. Terrorçuluğun maliyyələşdirilməsinə yönəldilən vəsaitlərin qeyri-leqal və ya qanuni olmasından asılı olmayaraq, həmin vəsaitlərin mənbəyinin gizlədilməsi mühüm əhəmiyyət kəsb edir. Əldə olunan vəsaitlər daha sonra terror aktlarının və təşkilatlarının maliyyələşdirilməsində istifadə edilir.

Pulların leqallaşdırılması, terrorçuluğun maliyyə vasitələri ilə təmin edilməsinə qarşı mübarizə üzrə beynəlxalq əməkdaşlıq hər bir beynəlxalq qurumun, beynəlxalqsənədlərin əsas məqsədlərindən biridir. Beynəlxalq münasibətlər və əməkdaşlıqlar dövlətlərin öz təhlükəsizliklərini, mənafelərini qorumaq məqsədi iləhəyata keçirilir. Nümunəolaraq, əgər hər hansı ölkədə terror hadisəsi baş verirsə, dərhal digər ölkələr də münasibət bildirir, terrorçuluğa qarşı mübarizəyə çağırırlar, çünki terrorçuluğa qarşı mübarizəyə qoşulmayacaqları halda fəsadlar onların ölkələrindən də yan keçməyəcəkdir [10;19].

Global inkişaf, texnologiyaların sürətlə yenilənməsi nəticəsində pulların leqallaşdırılması prosesi zaman ötdükcə daha da qloballaşır və bir çox ölkələri əhatəetməyə başlayır. Bu nəticə etibarilə elə bir səviyyəyə çatır ki, digər dövlətlər dəstək göstərmədiyi təqdirdə bir ölkədə pulların leqallşdırılmasına qarşı güclü, effektiv mübarizə göstərilməsi mümkün olmur. Bu növ problemlərin həll edilməsi ehtiyacı da busahədə bir çox beynəlxalq standartların yaranmasına səbəb olmuşdur [3;5].

Tədqiqatı zamanı o qənaətə gəldik ki, beynəlxalq səviyyədə birgə fəaliyyətin, əməkdaşlığın “effektiv” olması dedikdə, məxfiliyə riayət olunmaqla məlumat mübadiləsinin mümkün olan qeyri-rəsmi və sürətli şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Beynəlxalq əməkdaşlığın yüksək səviyyəsi hesab olunur ki, bir ölkə digər ölkənin sorğusu olmadan, zəruri məlumatları digər ölkəyə ixtiyari şəkildə təqdim etsin və yabu ölkənin mənafeyi üçün ixtiyari zəruri tədbirlər görsün. Xüsusilə qeyd etmək lazımdır ki, yüksək və effektiv beynəlxalq əməkdaşlıq ancaq effektiv daxili əməkdaslıq çərçivəsində mümkündür.

Beynəlxalq əməkdaşlıq çərçivəsində əlaqələrin möhkəmliyinə eləcə də cinayət təqibi işlərinin başqa dövlətlərə ötürmək imkanı da xidmət edir. Yəni ölkədə başlanmış, amma xarici ölkə elementi olan cinayət işini, onun təqibinin səmərəliyinivə gedişatının hüuquq prinsipinə uyğunluğunu təmin etmək üçün müvafiq dövlətə təhvil vermək tövsiyə olunur.

Ölkələrarası əməkdaşlığın başqa bir sahəsini “əmlak hüquqları” adlanan sahə təşkil edir. Burada başqa ölkənin sorğusu əsasında, məzmun və mahiyyətdən asılıolaraq, predikativ cinayətdə istifadə olunmuş və ya istifadə olunması planlaşdırılan üsul və vasitələrin, cinayət yolu ilə əldə edilmiş əmlakın, pulun və ya onun dəyəri ekvivalentində başqa əmlakın, pulun müəyyən edilməsi, həbsi, dondurulması yaxud müsadirəsi anlamına gəlir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunu, Bakı, 10.02.2009-cu il, № 767-IIIQ.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Bakı, 2000-ci il, № 4.
3. Bağırzadə E.N. "İqtisadiyyatda çirkli pul probleminin bəzi nəzəri-konseptual aspektləri, İqtisadiyyat və audit jurnalı, 2008.
4. "Cinayət yolu ilə əldə edilmis pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçulugun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Fərman", Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 23.02.2009.
5. Hacılı, Z.N. "Çirkli pulların yuyulmasına qarşı mübarizə" / Z.N.Hacılı. –Bakı:– 2010.
6. Lətifov, K.F. «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasının və terrorizmin maliyyələşdirilməsinin ölklərin iqtisadiyyatına təsiri» // Bakı Biznes Universitetinin "Audit" jurnalı. – Bakı: – 2017.
7. Salmanov, A.F. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Qanunvericilik Toplusu". – Bakı: – 2011.
8. Лятифов, К.Ф. «Основные методы отмывания денег, полученных преступным путем в банковском секторе» // "Проблемы теории и практики современной науки" jurnalı. – Москва: 18.05.2016, İSBN 978-5-906883-09-4, səh.138-144.
9. Demits, D. Technology and Anti-Money Laundering: A Systems Theory and Risk-Based Approach. Edward Elgar Publishing Ltd., 2010. 192 p.
10. Danziger, Y. Changes in methods of freezing funds of terrorist organization since 9/11: A comparative analysis // Journal of Money Laundering Control. – 2012. Vol. 2, № 15, P. 210-236


***Açar sözlər:*** *təhlükəsizlik, təhdid, terror, terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, mütəşəkkil cinayətkarlıq*

**Hafiz Musayev**

*Baku State University, International Law*
*UNESCO Department of Human Rights and Information Law,*
*Doctor of Philosophy in Law*

# LEGALIZATION OF MONEY OBTAINED THROUGH CRIME AND THE BASICS OF COUNTERMEASURES AGAINST THE FINANCING OF TERRORISM

## ABSTRACT

In the globalized world, the liberalization of the movements of financial resources and the processes of developing financial means and information technologies hide specific threats. In this article, issues related to the legalization of money obtained through crime and the financing of terrorism have been investigated. The methods, means, and mechanisms used for the legalization of money to finance terrorism were also studied.

The article also pays special attention to the issues of international cooperation in the fields of money laundering and the financing of terrorism. Systematic and comparative analysis methods were used in the article, and appropriate conclusions were drawn at the end.

***Keywords:*** *security, threat, terror, terrorism, financing of terrorism, organized crime*

***Хафиз Мусаев***

*Бакинский Государственный Университет, Международное право;
Кафедра прав человека и информационного права ЮНЕСКО
юридического факультета, доктор философии по праву*

# ЛЕГАЛИЗАЦИЯ ДЕНЕГ, ПОЛУЧЕННЫХ ПРЕСТУПНЫМИ ПУТЯМИ, И ОСНОВЫ БОРЬБЫ С ФИНАНСИРОВАНИЕМ ТЕРРОРИЗМА

## РЕЗЮМЕ

В глобализованном мире либерализация движения финансовых средств, процессы развития финансовых средств и информационных технологий таят в себе определенные угрозы. В данной статье рассматриваются вопросы, связанные с отмыванием денег и финансированием терроризма. Также были изучены методы, средства и механизмы, используемые для легализации денег в целях финансирования терроризма. Особое внимание уделяется вопросам международного сотрудничества в сфере борьбы с отмыванием денег и финансированием терроризма. В статье использованы методы системного и сравнительного анализа, в заключении сделаны соответствующие выводы.

***Ключевые слова:*** *безопасность, угрозы, террор, терроризм, финансирование терроризма, организованная преступность*

DOI: 10.30546/2309-1347.83.2023.151

**H Ü Q U Q**
**L A W**

UOT 342.2

**RAHİB ƏKBƏROV**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**Hüquq kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru**
*e-mail: rahibekberli@gmail.com*

# DÖVLƏT QURUCULUĞUNUN İNKİŞAFI VƏ MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ REFERENDUM AKTLARININ ROLU

Müasir Azərbaycan Respublikasının qurucusu, Ümummilli Lider Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə dövlətçiliyin möhkəmlənməsi və inkişafı üçün mühüm əhəmiyyət kəsb edən demokratik-hüquqi islahatlar həyata keçirmişdir. Ulu Öndər ilk növbədə bu islahatların hüquqi bazasının əsasını təşkil edən konstitusiyanın qəbul olunmasına xüsusi önəm vermiş və dövlətin siyasi-hüquqi əsaslarını müəyyən edən Azərbaycanın ilk müstəqil milli konstitusiyasının tezliklə qəbul olunmasına çalışmışdır. Ümummilli Liderin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycanın ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) keçirilməsi ilə qəbul edilmişdir. Zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev dün=-yanın müasir reallıqlarını obyektiv şəkildə qiymətləndirərək inkişaf etmiş dövlətlərin təcrübəsini, eyni zamanda ölkənin milli maraqları və milli-mənəvi dəyərlərini nəzərə almaqla unikal ali hüquqi sənəd hazırlanmasına nail olmuşdur.

Müstəqilliyimizin ilk dövrlərindən başlayaraq Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dünya birliyinə və beynəlxalq münasibətlər sisteminə inteqrasiya olunmasına xüsusi diqqət vermiş və ilk növbədə Azərbaycan Respublikasının Avropa Şurasının üzvlüyünə qəbulunu daha da sürətləndirmək məqsədini daşıyan tədbirlər həyata keçirmişdir. Belə ki, 1996-cı il iyulun 8-də “Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında”, 1998-ci il yanvarın 20-də “Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında”, 1999-cu il mayın 14-də “Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında” sərəncamlarının böyük əhəmiyyəti olmuşdur. Milli Məclis öz növbəsində Azərbaycanın demokratik inkişaf yolunda tutduğu mövqeyi möhkəmləndirmək üçün qəbul etdiyi qanunvericilik aktlarını, xüsusilə də məcəllələrin hazırlanmasını sürətləndirmiş, Avropa Şurasının bir sıra saziş və konvensiyalarına qoşulmuşdur.

Məhz məqsədyönlü tədbirlər nəticəsində müstəqil Azərbaycan Respublikası 2001-ci il yanvarın 17-də Avropa Şurası Nazirlər Komitəsinin qərarı ilə bu təşkilatın tam hüquqlu üzvlüyünə qəbul olunmuşdur. 2001-ci il yanvarın 25-də Ümummilli Lider Heydər Əliyev dövlətimizin üçrəngli bayrağını Avropa Şurası binası önündə ucaltmışdır. Avropa Şurası Parlament Assambleyasında ilk Azərbaycan parlament nümayəndə heyətinə 2001-ci ildən

2003-cü ilin oktyabrına qədər cənab İlham Əliyev rəhbərlik etmişdir. Məhz Azərbaycan parlament nümayəndə heyəti AŞPA-nın 2001-ci il aprel sessiyasında "Ermənistan tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın tanınması" və "Ermənistan və Dağlıq Qarabağda saxlanılan müharibə əsirləri və girovları" adlı rəsmi sənədlərin qəbul olunmasına nail olmuşdur.

Azərbaycan Respublikasının dövlət quruculuq sahəsində çevik idarəetmə fəaliyyətinin təmin olunmasını inkişaf etdirmək, insan hüquq və azadlıqlarının daha mükəmməl qorumaq və dünyanın qlobal çağırışlarını nəzərə alaraq, ölkədə ilk Konstitusiya Referendumu həyata keçirmək zərurəti yaranmışdır. Belə ki, ümumxalq səsverməsinin keçirilməsinə dair Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 22 iyun 2002-ci il tarixdə 722 saylı fərman imzalamışdır [2]. Referendum Aktına müvafiq olaraq Konstitusiyanın 24 maddəsi üzrə nəzərdə tutulmuş əlavə və düzəlişlər şərti olaraq 8 hissəyə bölünmüşdü. Birinci hissəyə daxil edilmiş dəyişikliklər Azərbaycan Respublikasının Avropa Şurası qarşısında öz üzərinə götürdüyü öhdəliklərdən irəli gələn dəyişiklikləri, ikinci hissə Azərbaycan Respublikasının İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulmasından irəli gələn dəyişiklikləri, üçüncü hissə referendum keçirilməsinin təkmilləşdirilməsindən irəli gələn dəyişiklikləri, dördüncü hissə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə bağlı dəyişiklikləri, beşinci hissə Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə bağlı dəyişiklikləri, altıncı hissə dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin təkmilləşdirilməsindən irəli gələn dəyişiklikləri, yeddinci hissə məhkəmə islahatlarının keçirilməsindən irəli gələn dəyişiklikləri və nəhayət səkkizinci hissə "digər dəyişiklikləri" əhatə etmişdir. Konstitusiyanın 105-ci maddəsinə edilən düzəlişə görə, icra-edici-sərəncamverici orqan olan Nazirlər Kabinetinin statusu artırılırdı. Belə ki, Nazirlər Kabineti Azərbaycan Respublikasının dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir, Azərbaycan Respublikasının dövlət büdcəsinin icrasını təmin edir, dövlət iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir, nazirliklərə, digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, dövlət sosial təminat proqramının həyata keçirməsini təmin edir. 105-ci maddəyə edilən dəyişikliklər çevik, fasiləsiz və rabitəli icra strukturunun mövcudluğunu nəzərdə tuturdu. Məhz hakimiyyət qollarının bölgüsü prinsipi Azərbaycan Respublikası Konstitusiyasının 105-ci maddəsinə edilmiş düzəlişlə möhkəmləndirildi.

"Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" 24 avqust 2002-ci il tarixli Azərbaycan Respublikasının Referendum Aktına görə, Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edən seçicilərin yarısından çoxunun səs çoxluğu ilə seçilir. Konistitusiyanın 83-cü maddəsində edilən dəyişikliyə görə, Milli Məclisin deputatları yalnız majoritar seçki sistemi qaydasında seçilə bilərlər. Yeni əlavələrdən sonra, Azərbaycan Respublikasının Prokurorluğuna qanunvericilik təşəbbüsü ilə çıxış etmək səlahiyyəti də verildi. Beləliklə, dövlət müstəqilliyinin daha da möhkəmlənməsi, keçid dövrünü əhatə edən islahatların yekunlaşması, beynəlxalq öhdəliklərdən və dövlət hakimiyyət orqanlarının təkmilləşdirilməsindən irəli gələn dəyişikliklər zərurəti ilə əlaqədar olaraq 24 avqust 2002-ci ildə keçirilmiş referendumda qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı ölkənin inkişafının növbəti uğurlu mərhələyə keçməsini təmin etmişdir.

Azərbaycan Respublikasının müstəqil dövlət quruculuğunun inkişafında Konstitusiya qanunları xüsusi yeri tutur. Belə ki, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının 28 dekabr 2001-ci il tarixli ilk Konstitusiya qanunu qəbul edilmişdir. 2002-ci il 24 avqust tarixli Konstitusiya

referendumundan sonra təsbit edilmiş əlavə və dəyişikliklərə müvafiq olaraq, Konstitusiyanın 95-ci maddəsinin birinci hissəsinin 6-cı bəndində Milli Məclisin həll etdiyi məsələlərə Azərbaycan Respublikası prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi də daxil edilmişdir [3, maddə 115]. Konstitusiya qanunu Ombudsmana geniş səlahiyyətlər verir, onun fəaliyyətinə insan hüquqlarının müdafiəsi, pozulmuş insan hüquq və azadlıqlarının bərpasına yönəlmiş fəaliyyətləri daxil edir. Ombudsmanın səlahiyyətlərinə daxil edilməyən fəaliyyətlərə Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının və Azərbaycan Respublikası hakimlərinin yoxlanılması aid edilir. Müvəkkil əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələlərinin həlli ilə bağlı Azərbaycan Respublikası prezidentinə təkliflər verə bilər. Konstitusiya islahatı Ombudsmana qanunvericilik təşəbbüsü hüququ verir. Müvəkkil Azərbaycan Respublikası Milli Məclisinə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına dair təkliflər verə bilər. Xüsusilə qeyd etmək lazımdır ki, Ümummilli liderin rəhbərliyi ilə Respublikada demokratik prinsiplər əsasında həyata keçirilən hüquqi islahatlar beynəlxalq ekspertlər tərəfindən yüksək qiymətləndirilmişdir [6, s.167].

Konstitusiya əhəmiyyətli qanunların qəbul edilməsi gənc dövlətimizin beynəlxalq aləmdə nüfuzunu daha da möhkəmləndirməyə xidmət etmişdir. Belə ki, 2002-ci il 24 dekabr Konstitusiya qanunu ilə “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında” Konstitusiya qanunu təsbit edilmişdir. Konstitusiya qanunu milli qanunvericiliyi “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” beynəlxalq Konvensiyaya uyğunlaşdırmaq məqsədi ilə qəbul edilmişdir [8, s.41]. Konstitusiya qanunu insan hüquq və azadlıqlarının həyata keçirilməsinin əsas şərtlərini, məhdudlaşdırılması qadağan olunan insan hüquqlarına dair tələbləri, şəxsin tutulmasına, həbsə alınmasına və ya azadlıqdan məhrum edilməsinə qoyulan məhdudiyyətləri, şəxsin insan hüquqlarını və azadlıqlarının pozan qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qərarlarından, bələdiyyə aktlarından Konstitusiya Məhkəməsinə şikayət vermək hüququnu və həmçinin digər məhkəmə instansiyalarının Konstitusiya məhkəməsinə müraciət etmək hüququnu müəyyən edir. “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında” Konstitusiya qanununun heç bir müddəası hüquq və azadlıqların qanunda nəzərdə tutulduğundan daha artıq məhdudlaşdırılmasına yönəlmiş kimi şərh edilə və düşünülə bilməz.

Konstitusiya qanunları sırasında Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi məsələsi də aktuallığı ilə fərqlənir. “Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Azərbaycan Respublikasının 24 dekabr 2002-ci il tarixli Konstitusiya qanununa görə, Azərbaycan Respublikasının qanunvericilik orqanı Nazirlər Kabinetinə etimad məsələsini müzakirəyə çıxar bilməz [4, maddə 19].

Azərbaycan Respublikasında Ulu Öndər ideyaları, o cümlədən dövlət quruculuğu sahəsində qanunların qəbul edilməsi, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi və sosial sahələrdə islahatların aparılması ardıcıllıqla və uğurla davam etdirilmişdir. Azərbaycanın Respublikasının Konstitusiyasına 29 maddə üzrə əlavə və dəyişikliklər edilməsi haqqında Azərbaycanın Respublikasının 2009-cu il 18 mart tarixli Referendum Aktı cəmiyyətin hər bir üzvünün inkişafı, demokratiyanın, insan hüquq və azadlıqlarının, ümumilikdə hüquqi dövlətin daha da möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət kəsb etmişdir. Belə ki, əvvəlki Konstitusiya redaksiyasından fərqli olaraq, “Ailə, uşaqlar və dövlət” adlanan Konstitusiyanın 17-ci maddəsinə əlavə olunan III, IV, V və VI hissələr uşaqlara xüsusi dövlət

qayğısını müəyyən edir və valideyn qayğısından məhrum olan uşaqları tamamilə dövlət himayəsinə daxil edir. Konstitusiyanın müvafiq norması uşaq hüquqlarının həyata keçirilməsini dövlət nəzarətinə götürür. Konstitusiyanın 25-ci maddəsinə edilən əlavə IV və V hissələrdə hər bir insanın bərabərlik hüququ daha da möhkəmləndirilir, hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin təmsilçiləri ilə münasibətdə hər kəsin bərabər hüquqlarını təmin etmək hüququ təsbit edilir. 29-cu maddənin yeni redaksiyası, mülkiyyət hüququnun ictimai ehtiyaclar üçün özgəninkiləşdirilməsini qadağan edir. Şəxsi toxunulmazlıq hüququnu təsbit edən 32-ci maddəyə edilən əlavələr müvafiq hüquqların qorunması dairəsini daha da genişləndirir. Sağlam ətraf mühitdə yaşamaq hüququnu müəyyən edən 39-cu maddəyə əlavə edilən III hissədə göstərilir ki, heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz. Bu maddəyə əlavə edilmiş IV hissə isə ekoloji tarazlığa, fauna və floranın qanunla müəyyən edilmiş növlərinin qorunmasına dövlət təminatını təsbit edir və hal-hazırda Qarabağ iqtisadi rayonunda baş verən qanunsuz təbii sərvətlərin istismarına və talan olunmasına qarşı ekofəalların hüquqi müdafiə vasitəsinin təminatçısı qismində çıxış edir.

Əsas qanunun 48-ci maddəsində vicdan azadlığı, 50-ci maddəsində isə məlumat azadlığı ilə bağlı hüquqi münasibətlər insan hüquq və azadlıqlarının qorunması baxımından möhkəmləndirilir. Konstitusiyanın 67-ci maddəsinə əlavə edilən II hissədə cinayət törədilməsində təqsirləndirilən hər bir şəxsin məhkum edilməzdən əvvəl dinlənilməsini təsbit edir. Eyni zamanda, əvvəlki redaksiyadan fərqli olaraq, konstitusiyanın yeni mətnində “ittiham edilən” ifadəsi “təqsirlən-dirilən şəxs” ifadəsi ilə dəyişdirildi. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatını təsbit edən Konstitusiyanın 71-ci maddəsinin II hissəsinə əlavə edilən cümlə və yeni məzmunda əlavə edilən IX və X hissələr bu hüquq və azadlıqları konstitusiya normaları ilə daha da möhkəmləndirdi. Konstitusiyanın 92-ci maddəsinə edilən əlavəyə görə, Milli Məclisin orqanları sırasında komitələrin yaradılması nəzərdə tutulur. Əgər beynəlxalq təcrübəyə müraciət etsək görərik ki, məhz dünya ölkələrinin konstitusiya aktlarında və qanunvericilik orqanlarında komitələr mühüm yer tuturlar. Belə ki, komitələr parlamentin müvafiq orqanları və komissiyaları arasında qanunvericilik fəaliyyəti işlərinin əlaqələndirilməsində xüsusi rola malikdirlər. Komitələrin tərkibinə daxil edilən peşəkar hüquqşünaslar, mütəxəssis və ekspertlər qanunların hazırlanmasında, komissiyaların fəaliyyətinin əlaqələndirilməsində çox səmərəli fəaliyyət göstərirlər. Hətta ABŞ konqresi tarixində belə bir presedentlər də məlumdur ki, sessiyanın qurtarmasına 10 gün qalmış komitə tərəfindən qanununverici orqana təqdim edilmiş layihələr müzakirə edilmədən birbaşa qəbul edilmişdir. Bəzən komitələr ABŞ konqresinin üçüncü palatası kimi də xarakterizə olunur [7, s.519].

Azərbaycanın Respublikasının 2009-cu il 18 mart tarixli Referendum Aktında konstitusiya quruculuğu üçün əhəmiyyət kəsb edən cəhətlərindən biri, ilk dəfə olaraq, dövlət hakimiyyəti orqanlarından başqa, Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına qanunvericilik təşəbbüsü hüququnun verilməsi olmuşdur.

Ekstremal şərait səbəbindən və ali dövlət hakimiyyəti orqanlarının seçki müddətinin başa çatması ilə əlaqədar olaraq, onların fəaliyyətlərində yarana biləcək hüquqi boşluğun qarşısını almaq və ali dövlət hakimiyyəti orqanlarının fasiləsiz və rabitəli fəaliyyət göstərmələrini təmin etmək üçün, Konstitusiyanın 84-cü maddəsinin I hissəsinə əlavə edilmiş cümlə və 101-ci maddəyə əlavə edilmiş V hissəyə görə, müharibə şəraitində hərbi əməliyyatların sonunadək parlamentin və prezidentin səlahiyyət müddətlərinin uzadılması qaydaları müəyyən edilir. Başqa dövlətlərdə də rast gəlinən bu praktika, yalnız və yalnız ölkələrin milli təhlükəsizliyinin qorunmasına və möhkəmlənməsinə xidmət edir.

Konstitusiyanın 101-ci maddəsinin 5-ci hissəsinə edilən dəyişiklik bir şəxsin iki dəfədən artıq prezident seçilmək hüququ məhdudiyyətini ləğv etdi. Vətəndaşların seçmək hüququnu məhdudlaşdıran bu senzin Konstitusiyadan çıxarılması xalqın istədiyi şəxsi seçmək hüququnu təsbit etdi.

Qanunverici hakimiyyətin səlahiyyətlərinin artırılmasını təmin edən Konstitusiyanın 109-cu maddəsinin 17-ci bəndinə edilən əlavələr xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Konstitusiyanın əvvəlki redaksiyasından fərqli olaraq, Konstitusiyanın 109-cu maddəsinin 17-ci bəndinə edilən əlavə, Prezidentin səlahiyyətlərinə daxil olan hökumətlərarası beynəlxalq müqavilələrin təsdiq və ləğv olunması qaydalarını dəqiqləşdirərək, indi artıq onları ilkin olaraq Azərbaycan Respublikasının Milli Məclisinə təqdim etməyi təsbit etdi. Referendumdan əvvəl isə Milli Məclisə təsdiq və ləğv olunmaq üçün, yalnız dövlətlərarası beynəlxalq müqavilələr təqdim edilirdi. Hökumətlərarası beynəlxalq müqavilələr, adətən sosial-iqtisadi, hüquqi-mədəni və s. sahələri əhatə edir. Digər diqqəti cəlb edən cəhət isə, "dövlətlərarası, Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası" beynəlxalq müqavilələrdən yarana biləcək kolliziya normasının aradan qaldırılmasını, qanunverici orqan tərəfindən təsdiq və ləğv edilməsini tənzimləməklə bağlı olmuşdur. Çünki kolliziyalar (milli qanunvericiliklə beynəlxalq qanunların toqquşması) beynəlxalq hüququn üstünlüyünü müəyyən etdiyindən, Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan dövlətlərarası və hökumətlərarası müqavilələrin təsdiq və ləğv olunmasının qanunverici orqana təqdim edilməsi milli mənafelərin qorunması baxımından böyük əhəmiyyət kəsb edir və parlamentin rolunun daha da artırılmasına xidmət edir.

2009-cu il 18 mart tarixli Referendum Aktı Konstitusiya islahatları, məhkəmə orqanlarının və bələdiyyələrin fəaliyyətlərinin təkmilləşdirilməsi baxımından da zəruri və əhəmiyyətli əlavə və dəyişiklikləri nəzərdə tutur. Belə ki, 125, 129, 130 və 131-ci maddələr məhkəmə orqanlarının və 146-cı maddəyə əlavə edilmiş I, II, III və IV hissələr isə bələdiyyə orqanlarının fəaliyyəti ilə bağlı hüquqi münasibətləri tənzimləyirdi. Konstitusiyanın 149-cu maddəsinin VIII hissənə əlavə etməyi nəzərdə tutan sonuncu, 29-cu əlavədə normativ hüquqi aktların dərc edilməsi qaydası və bu qaydanın konstitusiya qanunu ilə müəyyən edilməsi təsbit olunmuşdur.

Müstəqil Azərbaycan Respublikasında Konstitusiya islahatları üzrə 3-cü Referendum 2016-cı il sentyabr ayının 26-da keçirilmişdir. Ümumxalq səsverməsi ölkədə insan hüquq və azadlıqlarının konstitusion təminatının daha da gücləndirilməsinə, demokratik təsisatların fəaliyyətinin və idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədlərinə xidmət etmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi məqsədilə keçirilən Referendum, ölkədə insan hüquq və azadlıqlarının konstitusion təminatının daha da gücləndirilməsinə, demoktratik təsisatların fəaliyyətinin və idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədlərinə xidmət göstərir. Konstitusiyaya təklif olunmuş və ölkə vətəndaşları tərəfindən dəstəklənmiş dəyişikliklər Azərbaycan Respublikasının bəyan etdiyi demokratik inkişaf konsepsiyasının daha da möhkəmləndirilməsinə və inkişafına təkan vermişdir. Konstitusiya islahatlarına görə Azərbaycan Respublikasında ilk dəfə çox uğurlu vitse-prezident institutu yaradılmışdır.

Beləliklə, Azərbaycanın ikinci dəfə dövlət müstəqilliyinə gətirib çıxaran uzun mübarizə tarixinin ötən əsrin 60-ci illərinin sonlarından başlaması, fenomenal şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri ilə bilavasitə bağlıdır. Məhz o dövrdə Ulu Öndər peşəkar nəzəri və praktik bacarığını əsirgəməyərək özünün bütün əməli fəaliyyətini Azərbaycanın tam müstəqilliyinin bərpa olunmasına həsr etmişdir. Azərbaycan dövlətinin qurucusu xalq naminə, suveren, azad, müstəqil milli dövlət uğrunda qüdrətli xilaskarlıq fəaliyyətində çox böyük müdriklik və qətiyyətlik

göstərərək ölkəni dağılmaqdan xilas etməyə nail olmuşdur. Mövcud şəraitdə xalqın istəyilə hakimiyyətə gələn Ulu Öndərin 1993-cü ildən başladığı institusional məzmunlu idarəçilik, iqtisadi, sosial və hüquqi sahələrdəki islahatları Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində mühüm mərhələ kimi xarakterizə edilir. Ümummilli Liderin müstəqil Azərbaycana rəhbərliyi dövründən başlayan hüquqi, demokratik dövlət idarəçiliyi, onun konstitusion əsasları müasir tələblər səviyyəsində daim təkmilləşmiş və inkişaf etmişdir. Ulu Öndərin dövlət quruculuğu sahəsində mühüm əhəmiyyət kəsb edən demokratik-hüquqi islahatları müstəqil Azərbaycan Respublikasının möhkəmlənməsində və inkişafında xüsusi rola malik olmaqla, dövlət quruculuğu sahəsində daim ardıcıl və qətiyyətli tədbirlərlə müşayiət olunmuşdur. Möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmiz XXI əsrdə Heydər Əliyevin ideyaları əsasında dünya miqyasında nüfuzlu və qüdrətli dövlətə çevrilməkdədir [5, s.9]. Məhz Ümummilli Lider Heydər Əliyevin apardığı konstitusion və digər bütün islahatlar sosial sifariş kimi Azərbaycan Respublikasının indiki və gələcək uğurlarının əsas bazası rolunda çıxış etmiş və hər zaman çıxış edəcəkdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, “Qanun” nəşriyyatı, 2016.
2. “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” 24 avqust 2002-ci il tarixli Referendum Aktı. AR qanunvericilik Toplusu, 2002, №9.
3. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının 2001-ci il 28 dekabr tarixli Konstitusiya qanunu. AR qanunvericilik Toplusu, 2002, №3.
4. “Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Azərbaycan Respublikasının 24 dekabr 2002-ci il tarixli Konstitusiya qanunu. AR qanunvericilik Toplusu, 2002, №1.
5. Əliyev İ.H. Mən istənilən səviyyədə istənilən mübarizəyə hazıram. – Bakı: Azərbaycan. – 2001.
6. Əliyev N.H. Azərbaycanda hüquqi islahatlara dair. Dirçəliş XXI əsr, 2003, №67.
7. Əkbərov, R.A. Azərbaycanın hüquq tarixi: (qədim, orta əsrlər və müasir dövrdə). Dərslik / elmi red. F.T.Nağıyev; Azərb. Resp. Prezidenti yanında Dövlət İdarəçilik Akad. – Bakı: Qanun, 2021. – 543 s.
8. Süleymanov F.M. Azərbaycan Respublikası Konstitusiyasının aliliyi. BDU Xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2003. Bakı Universitetinin Xəbərləri: Sosial-siyasi elmlər seriyası. – 2003. – №3-4. – 228 s. – s.35-42.


***Açar sözlər:*** *Ümummilli Lider, dövlət xadimi, referendum, konstitusiya quruluşu, dövlət quruculuğu*

**Rahib Akbarov**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Law, Associate Professor, Ph.D. in History*

# THE ROLE OF REFERENDUM ACTS IN THE DEVELOPMENT AND STRENGTHENING OF STATE BUILDING

## ABSTRACT

The article explores the constitutional reforms of the National Leader Heydar Aliyev, which are of paramount importance in the field of state formation. On August 24, 2002, a referendum On Amendments to the Constitution of the Azerbaijan Republic was held in the Republic of Azerbaijan. The referendum was held in response to the necessity to further strengthen the independence of the Azerbaijan Republic, complete the reforms covering the transition period, implement changes arising from international obligations, and enhance public authorities. As a result of constitutional reforms, the processes of state building, democratic and legal development, the establishment of international relations, and Azerbaijan's integration into the global community have been accelerated.

***Keywords:*** *National Leader, statesman, constitutional structure, state building*

**Рахиб Акберов**
*Доцент кафедры Права Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по истории*

## РОЛЬ РЕФЕРЕНДУМНЫХ АКТОВ В РАЗВИТИИ И УКРЕПЛЕНИИ ГОСУДАРСТВЕННОГО СТРОИТЕЛЬСТВА

### РЕЗЮМЕ

В статье изучаются конституционные реформы Общенационального Лидера Гейдара Алиева, имеющие большое значение в сфере государственного строительства. 24 августа 2002 года в Азербайджанской Республике состоялся референдум «О внесении изменений в Конституцию Азербайджанской Республики». Референдум был проведен в связи с необходимостью дальнейшего укрепления независимости Азербайджанской Республики, завершения реформ, охватывающих переходный период, и внесения изменений, вытекающих из международных обязательств и совершенствования органов государственной власти. В результате конституционных реформ ускорились процессы государственного строительства, демократически-правового развития, налаживания международных отношений и интеграции Азербайджана в мировое сообщество.

***Ключевые слова:*** *Общенациональный Лидер, государственный деятель, референдум, конституционное устройство, государственное строительство*

DOI: 10.30546/2309-1347.83.2023.159

B E Y N Ə L X A L Q   M Ü N A S İ B Ə T L Ə R   T A R İ X İ
H I S T O R Y   O F   I N T E R N A T I O N A L   R E L A T I O N S

UOT: 930.22

**AQİL ƏHMƏDOV**

**Azərbaycan Milli Elmlər Akademiyasının**
**A.A.Bakıxanov adına Tarix İnstitutunun**
**Beynəlxalq münasibətlər tarixi ixtisası üzrə elmlər doktoru**
**proqramının dissertantı, tarix üzrə fəlsəfə doktoru, dosent**

*e-mail: agilahma@gmail.com*

# AZƏRBAYCAN-TÜRKİYƏ MİQRASİYA ƏMƏKDAŞLIĞINDA ŞUŞA BƏYANNAMƏSİ: TƏHLÜKƏSİZLİK VƏ İNKİŞAF

## Giriş

Tarixi, etnik, dini, mədəni köklərə malik Azərbaycan-Türkiyə münasibətləri son illər bir qədər də möhkəmlənmiş, əməkdaşlıq üçün yeni perspektivlər yaranmışdır. Regionda, eləcə də müasir bynəlxalq münasibətlərdə Azərbaycan və Türkiyə kimi müttəfiq ölkələrə çox az rast gəlinir. Strateji mütəffəqilikdən ötə, hər iki cümhuriyyəti qardaşlıq kimi yüksək mədəni və mənəvi bağlar birləşdirir. Dünya dövlətləri arasında nadir rast gəlinən qardaşlıq münasibətləri diplomatik və xalqlararası münasibətlərdə özünü bariz şəkildə göstərir. Tarixin bir sıra qaranlıq dönəmlərində, xüsusilə XX əsrin əvvəllərində Azərbaycanın yanında olan Türkiyə, həmçinin qardaş dövlətin dar günündə öz əməli dəstəyi ilə Türkiyəyə dəstək verən Azərbaycan müasir dövrdə əməkdaşlıq əlaqələrini gücləndirərək bir çox strateji sahələrdə ikitərəfli münasibətlərini inkişaf etdirməkdə maraqlı olduğunu bəyan edir. Bu baxımdan, üzərindən üç ilə yaxın vaxt keçən 44 günlük Vətən müharibəsindən sonra, Azərbaycan-Türkiyə münasibətləri əhəmiyyətli dərəcədə irəliləmiş, hər iki dövlət başçısının imzası ilə tarixi dəyərə çevrilmiş Şuşa Bəyannaməsi müttəfiqlik münasibətlərini dərinləşdirməklə yanaşı, yeni təhlükəsiz şəraitdə regional və beynəlxalq əməkdaşlıq üçün prioritet istiqamətlər müəyyən etmişdir. İkitərəfli siyasi və sosial-iqtisadi münasibətlərdə az əhəmiyyət daşımayan miqrasiya sahəsində əməkdaşlıq bu baxımdan diqqət çəkir və məsələyə elmi-nəzəri yanaşma tələb edir.

Hələ ötən əsrin əvvəllərində çar rejiminin təqiblərindən Osmanlıya miqrasiya etmək məcburiyyətində qalan Ə.Ağayev, Y.Akçura, Ə.Hüseynzadə, A.İbrahimov kimi müsəlman dünyasında tanınmış xadimlər, 1915-ci ildə Rusiya müsəlman türk-tatar xalqlarının hüquqlarının müdafiəsi məqsədilə İstanbulda xüsusi Müdafiə Komitəsi təşkil etmişlər [19, 8]. İstər I Dünya, istərsə də II Dünya müharibələri illərində çarizm və bolşevizm zülmündən emiqrasiya edərək Türkiyəyə sığınan bir çox azərbaycanlı aydınlar uzun illər yaşadıqları dövlətin intellektual inkişafında yaxından iştirak etmiş, həmin ölkədə Azərbaycan diasporunu qura bilmişlər.

Yaxın Şərqdə olduğu kimi, Cənubi Qafqaz regionunda Türkiyənin varlığının hiss olunması, Azərbaycan Respublikasını şanlı qələbəyə aparan yolda, Türkiyənin davamlı mənəvi

və siyasi dəstəyi, iki xalqı bir-birinə yaxınlaşdıran, eləcə də postmünaqişə dövründə bölgədə sülh və təhlükəsizliyin bərpa olunmasına xidmət edən mühüm amildir. Bununla yanaşı 44 günlük Vətən müharibəsində Azərbaycanın haqq işinə dəstək verən dövlətlər sırasında Pakistan və İsrail də rol oynamış, siyasi dəstəklərini Azərbaycan xalqından əsirgəməmişlər. Xüsusilə İsraildə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları Ermənistanın alovlandırdığı və Azərbaycanın qələbəsi ilə sona çatan müharibədə ilk gündən əməli fəaliyyətə keçərək, dünya mətbuatını davamlı məlumatlandırmış, nüfuzlu nəşrlərdə məqalələrlə çıxış etmiş, verliş və müsahibələr təşkil etmişlər. Ötən vaxt ərzində Azərbaycan – Türkiyə, Pakistan və İsrail ilə münasibətlərini genişləndirmiş, təhlükəsizlik və əmək miqrasiyası kimi qlobal məsələlərdə siyasi dialoqa diqqət yetirmişdir.

Sovet İttifaqının dağılmasından sonra Azərbaycan bütün aspektlərdə mürəkkəb bir prosesə daxil olmuş, ağır iqtisadi vəziyyət və Ermənistanla davam edən müharibə bu mürəkkəb prosesi daha da həll olunmaz hala gətirmişdir. Bu səbəbdən, həmin dövrdə məcburi miqrasiya hərəkətləri də sürətli şəkildə baş vermişdir. Ancaq, Azərbaycan həmin prosesdən usanmadan, səmərəli plan və proqramlarla işləyərək, böyük dərəcədə qurtulmağı bacarmışdır [15, 161]. İşsizlik sahəsində vəziyyətin gərginləşməsinə Ermənistanın təcavüzü təsir etmişdir. İşğal olunmuş ərazilərdə 300 mindən çox iş yeri itirilmişdir. Burada işini itirənlərin 76 faizi kənd təsərrüfatı ixtisaslarına malik olmuşlar [17, 58]. Artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gətirdiyi fəsadlardan biri, heç şübhəsiz ki, daxili miqrasiyanın yüksəlməsi ilə bağlı olmuşdur. Müharibə regionda olduğu kimi respublikada da əmək miqrasiyasının inkişafına mənfi təsir göstərmişdir. Kifayət qədər iş yerlərinin itirilməsi, bərabərində qaçqınlıq kimi problemləri də gətirmişdir. Bütün çətinliklərə baxmayaraq Azərbaycan dövləti qısa zaman kəsiyində ölkə ərazisində salınan çadır şəhərciklərini yeni mənzillərlə əvəz etmişdir. Tarixi qələbənin əldə olunmasından sonra Azərbaycan Respublikası Cənubi Qafqaz regionunda yeni reallığa – təhlükəsizlik, əməkdaşlıq və inkişafa imza atmış, bölgəyə yeni sərmayələrin cəlb olunması, iş yerlərinin açılması miqrasiya proseslərinin müsbət iş inkişafına əhəmiyyətli təsir göstərmiş, Azərbaycan-Türkiyə münasibətləri yüksələn xətlə inkişaf etmişdir.

Hazırda Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında quruculuq işləri davam etdirilir. Burada dünyanın tanınmış tikinti şirkətləri ilə yanaşı Türkiyənin inşa sektorunda tanınan, nüfuzlu qurumları da mövcud istiqamətdə, yaxından iştirak edir və ixtisaslı əməkçi miqrantların inşa proseslərinə cəlb edilməsi əmək miqrasiyasının genişlənməsinə müsbət təsir göstərir. Azərbaycanın regionda davamlı sülhün qarantına çevrilməsi, nəhəng layihələrin icrasına blavasitə rəhbərlik etməsi, ordu quruculuğunda əldə etdiyi mütərəqqi dünya təcrübəsi, artan iqtisadi qüdrəti Azərbaycan-Türkiyə diplomatik münasibətlərində yeni eranın başlanması kimi xarakterizə edilə bilər.

Son 30 ildə Azərbaycan-Türkiyə münasibətləri bu qədər yüksək səviyyədə inkişaf etməmiş, Türkiyədə hazırkı Ədalət və İnkişaf Partiyasının iqtidar dövrü Aərbaycana əhəmiyyətli siyasi dəstəyə nail olunmasında, eləcə də hərbi sahədə əməkdaşlığın və qardaşlığın zirvəsinə yüksəlmiş Şuşa Bəyannaməsinin imzalanmasında mühüm rol oynamışdır. Hərbi müttəfiqliyi gücləndirən Bəyannamə regionda təhlükəsizliyə, inkişafa və əməkdaşlığa yeni qapı açaraq bölgədə sülhün, stabil inkişafın carçısına çevrilmişdir. Həssas sahə olan miqrasiya proseslərinin idarə olunmasında Şuşa Bəyannaməsində təsbit olunan məsələlər hər iki dövlət arasında yeni perspektiv imkanlar yaratmışdır.

Müasir qloballaşan dünyada Azərbaycanda miqrasiyanın yaranma meyillərinin tədqiqinə, respublikada iqtisadi və qeyri-bərabər miqrasiyanın qarşılıqlı əlaqələrinin müəyyən edilməsinə, onun ölkənin sosial-iqtisadi inkişafına və demoqrafik vəziyyətinə təsirinin qiymətləndirilməsinə çox ciddi tələbat yaranmışdır [7, 5].

Bu baxımdan, Şuşa bəyannaməsinin Azərbaycan-Türkiyə miqrasiya əməkdaşlığı üzrə, təhlükəsiz şəraitdə, sosial-siyasi əhəmiyyətinin təhlil edilərək yeni, elmi-nəzəri nəticələrinin müəyyən edilməsi mövzunun araşdırılmasına işıq tutmuşdur.

## 1. Şuşa Bəyannaməsinin sosial-siyasi əhəmiyyəti

Sülh və təhlükəsizlik olmadan heç bir əməkdaşlıq və inkişafdan söz açmaq mümkün deyil. Qeyd olunan başlıca prinsiplər əməkdaşlıq və sosial-siyasi, iqtisadi inkişafa aparan mütərəqqi yoldur. Vətən müharibəsindən ötən qısa dövr Azərbaycanda və bilavasitə bölgədə əməkdaşlıq üçün yeni reallıqlar meydana gətirdi. Belə olduğu təqdirdə 15 iyun 2021-ci ildə Azərbaycan mədəniyyətinin paytaxtı Şuşa şəhərində Azərbaycan və Türkiyə respublikaları Prezidentlərinin imzaları ilə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin həyata vəsiqə qazanması [1, 5] dövlətlər arasında həmrəylik münasibətlərinin inkişafına və möhkəmlənməsinə xidmət edəcək tarixi sənədə çevrilmişdir. Bu səbəbdən, Bəyannamə regional və beynəlxalq əməkdaşlıq kimi mühüm məqamlara diqqət çəkir, sülh və sabitlik, inkişaf və əməkdaşlığa töhfə verəcək başlıca amillər kimi sənəddə öz əksini tapır:

"Tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər" [1, 5]. Qeyd olunan məqamlar regionda uzunmüddətli və ya davamlı sülhün qalıcı olmasında müstəsna rol oynayacaq. Burada bölgə dövlətləri ilə sosial-iqtisadi əlaqələrin yenidən şəkillənməsi məqsədilə yaradılacaq regional və beynəlxalq nəqliyyat yolları qonşu dövlətlərlə münasibətlərin yeni perspektiv inkişafına xidmət edəcək.

İki ölkənin dövlət başçılarının imzaladıqları bəyannamədə BMT Nizamnaməsi vurğulanır və üçüncü ölkələrlə əməkdaşlıq qapılarının açıq olduğu bildirilir. Xatırladaq ki, imzalanma mərasimində dövlət başçılarının çıxışlarında Ermənistana da əməkdaşlıq təklifi səsləndirildi. Şübhəsiz ki, bu fikirlər Qafqazdakı sabitliyi və təhlükəsizliyi möhkəmləndirmək məqsədi daşıyır. Başqa sözlə, bölgə dövlətləri ilə münasibətlərin normallaşdırılması, davamlı sülhün bərqərar olması əsas məqsəddir [11, 1]. Kapitulyasiya olunmuş Ermənistanın Vətən müharibəsindən ötən dövr ərzində Azərbaycan Respublikasının sülhməramlı və iqtisadi inkişafa dəstək verəcək təkliflərinə hələ də soyuq yanaşması, Rusiya və Avropa arasında özünü çıxılmaz vəziyyətə salması, bəzi hallarda revanşist və separatist meyilli çıxışları qarşı tərəfin münasibətlərin normallaşdırılması prosesinə maneə yaratmağa davam etdiyini açıq şəkildə əks etdirir. Miqrasiya və urbanizasiya problemləri ilə üzləşən Ermənistandan hər il yüzlərlə insan ölkəni tərk edir, əmək miqrasiyası və aşağı düşən dövlət büdcəsi ianələr hesabına bərpa edilməyə çalışılır.

Ermənistanın regionda yaratmağa çalışdığı süni əngəllərə, çətinliklərə rəğmən, Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərində əhəmiyyətli xət təşkil edən miqrasiya proseslərinin müsbət inkişafına təsir göstərəcək, ümumilikdə regional əmək miqrasiyası da bundan faydalana biləcək. Bəyannamənin məqsədləri regional əməkdaşlıqla bitmir. Qlobal təhlükəsizliyin təmin olunmasında Azərbaycan və Türkiyənin birgə səyləri müasir beynəlxalq münasibətlərdə, sülh şəraitində dostluq və siyasi dialoqu genişləndirəcək. Bu məqsədlə sənəddə deyilir:

"Tərəflər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər" [1, 5]. Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq, dövlətlərin ərazi bütövlüyünə qarşı yarana biləcək təhdidlərin aradan qaldırılması,

beynəlxalq miqyasda münasibətlərin inkişaf etdirilməsi kimi mühüm məsələlər sabitlik və rifahın qarantına çevrilmiş olacaq. Regionda davamlı inkişafa təhdid və çağırışlar edən mənfi təsirlərdən qorunmaq Azərbaycan və Türkiyə kimi qüdrətli dövlətlərin sülhməramlı fəaliyyətində mühüm yer tutur:

"Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcək və dərinləşdirəcəklər" [1, 5]. Sadalanan məqamlar kifayət qədər ciddi amillər olmaqla, hər iki dövlətin milli maraqlarının, regional və beynəlxalq əməkdaşlığının təmin olunması və möhkəmlənməsində müttəfiqlik münasibətlərinin nə qədər əhəmiyyətli olduğunu göstərir. Azərbaycan kütləvi qırğın silahlarına qarşı beynəlxalq konvensiyaya qoşulmaqla, buna qarşı beynəlxalq təşkilatlarda, xüsusilə BMT və digər nüfuzlu qurumlar çərçivəsində fəaliyyətini davam etdirir. Narkotik, insan alveri və qeyri-leqal mqirasiya kimi həssas mövzularda da Azərbaycan regional və beynəlxalq səviyyədə mübarizəsini davam etdirir. Azərbaycan-Türkiyə müttəfiqlik Bəyannaməsində qeyd olunan mühüm məqamların öz əksini tapması hər iki dövlətin siyasi və iqtisadi qüdrətinin yüksəlməsindən, ordu quruculuğu, sərhəd mühafizəsi və əmək miqrasiyası kimi həssas mövzularda birgə səylərinin, imzalanan ikitərəfli sənədlərin fayda verdiyini göstərir.

Hazırda Azərbaycan və Türkiyə arasında viza məsələlərinin sadələşdirilməsi hər iki ölkə arasında aktiv miqrasiya proseslərinin, əmək miqrasiyasının inkişafında müsbət rol oynayır, emiqrasiya proseslərinin tənzimlənməsində dövlətlərin maraqlarının qorunduğunu, bilavasitə bölgədə insan hüquq və azadlıqlarının müdafiə olunması işində effekt verdiyini əks etdirir. Bəyannamədə diqqət çəkən məqamlardan biri miqrasiya qədər həssas mövzu olub, Azərbaycan və Türkiyənin diaspor təşkilatlarının fəaliyyəti ilə bağlıdır. Azərbaycanın qısa müddət ərzində torpaqlarının işğaldan azad olunmasında hər iki dövlətin diaspor qurumlarının təbliğat və əməli fəaliyyəti, mədəni, ictimai-siyasi səyləri, beynəlxalq mətbuat səhifələrində məlumat və məqalələrin dərc edilməsi, nüfuzlu informasiya saytlarına yerləşdirilən həqiqətlər beynəlxalq media qurumları tərəfindən tirajlanaraq hər tərəfə yayılmışdır. Postmünaqişə dövründə düşmənlə informasiya müharibəsi davam edir, Azərbaycan-Türkiyə münasibətləri isə durmadan inkişaf edir, yeni əməkdaşlıq üçün yollar açılır və diaspor sahəsində əməkdaşlıqla bağlı Bəyannamədə deyilir:

"Tərəflər müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər" [1, s. 5]. Azərbaycan və Türkiyə respublikalarının diaspor təşkilatlarının Vətən müharibəsi dövründə olduğu kimi, birgə, həmrəy addım atmaları hazırda aktual olaraq qalır. Bu isə öz növbəsində diasporun miqrasiya prosesləri qədər ikitərəfli münasibətlərdə əhəmiyyət daşıdığını göstərir. Düşmən tərəfi öz revanşist xislətini gizlətmir və Azərbaycan-Türkiyə müttəfiqliyini möhkəmləndirən Şuşa Bəyannaməsinin qəbul olunması erməni diaspor qurumlarına ağır zərbə effekti göstərmiş və hazırkı informasiya münaqişəsində türk dövlətlərinin milli maraqlarının qorunmasında birgə fəaliyyətin, həmrəyliyin vacibliyini bir daha bəyan edir.

Hər iki ölkə ticari-iqtisadi münasibətlərdə milli iqtisadiyyatın və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şəraitin inkişafı istiqamətində səylərini artıracaqlar [12]. Sosial-siyasi, ticari-iqtisadi münasibətlərin genişlənməsi, birgə fəaliyyətin, sərmayə mühitinin inkişaf etdirilməsi Azərbayca-

Türkiyə münasibətlərində, dəqiq ifadə etsək miqrasiya əməkdaşlığında mühüm amildir. Dərinləşən sosial-siyasi münasibətlər heç şübhəsiz ki, iki dövlət arasında əmək miqrasiyasının müsbət inkişafına əsas yaradır və təhlükəsiz əməkdaşlığın tərəqqiyə apardığını əks etdirir.

Azərbaycan vətəndaşlarının Türkiyə ərazisinə şəxsiyyət vəsiqəsi ilə səyahət etmələri haqqında əldə edilən razılaşma ölkələrin milli maraqlarına tam cavab verir. Həmin razılaşmanın xalqlarımız arasında yaxınlıq baxımından müstəsna əhəmiyyətini qeyd edərək, bir ölkənin vətəndaşlarının digər tərəfin ərazisində yaşamaq hüququ əldə etmələrini qarşılıqlı şəkildə asanlaşdırmaq üçün müvafiq tədbirlər görülməsi müqavilədə öz əksini tapmışdır. Şuşa Bəyannaməsi isə Azərbaycan və Türkiyə xalqları arasında müştərək dəyərlərə söykənən sıx əlaqələri humanitar, sosial müdafiə, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrində daha da inkişaf etdirəcək və dərinləşdirəcəkdir [12]. Sənəddən irəli gələn məsələlər və inkişaf prinsipləri ikitərəfli münasibətlərə töhfə verə biləcək tarixi Bəyannamə kimi müxtəlif sahələri əhatə edir. Qeyd olunan sahələr miqrasiya ilə əlaqələr quran vacib məqamlardır. Burada miqrasiya proseslərinin tənzimlənməsində mütərəqqi sənəddən irəli gələn əməkdaşlıq münasibətləri hər iki ölkənin əməkçi miqrantlarının hüquqlarının müdafiəsinə, paralel olaraq insan hüquq və azadlıqlarının qorunmasına əlverişli şərait yaradır.

Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni və daha praqmatik mərhələnin başlanması deməkdir. Burada regional və beynəlxalq səviyyədə diqqət yetirilən əmək miqrasiyasının, həmin sahədə əməkdaşlığın aktuallığı gün keçdikcə dinamizm qazanır. Həssas coğrafi və geosiyasi regionlarda yerləşən Azərbaycan və Türkiyəyə maraq illər ötdükcə artır, turist və miqrantların diqqətini çəkən dövlətlərin sosial-siyasi, iqtisadi qüdrəti əməkdaşlıq münasibətlərinə müsbət təsir göstərir. Postmünaqişə dövrü Azərbaycanın Türkiyə ilə çoxtərəfli münasibətlərində miqrasiya, miqrant hüquqları, insan hüquq və azadlıqlarının qorunması kimi qlobal məsələlərdə əməkdaşlıq üçün prioritetlər yaradır, hər iki dövlətin mövcud sahələrdə beynəlxalq hüququn norma və prinsiplərinə hörmətlə yanaşdıqlarını göstərir.

## 2. Azərbaycan-Türkiyə miqrasiya əməkdaşlığının regional inkişaf mərhələsi

Qədim tarixi köklərə əsaslanan Azərbaycan-Türkiyə münasibətləri postmünaqişə dövründə davam etdirilir. Şuşa Bəyannaməsinin imzalanmasından ötən qısa zamanda regionda sülh və əminamanlığın yaşandığı sabitlik, regional inkişaf mərhələsi Azərbaycanın Cənubi Qafqazın lider dövləti olduğunu təsdiq edir. Region dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərin qurulmasına çalışan Azərbaycan-Türkiyə dostluğu, müttəfiqlik və əməkdaşlıq prinsipləri yeni iqtisadi layihələrin, beynəlxalq infrastrukturun genişlənməsi və türk dövlətləri ilə əlaqələrin intensiv inkişafına əhəmiyyətli təsir göstərir.

Miqrasiya yolları düşünüldüyündə, Türkiyə coğrafi mövqeyi baxımından, tarix boyu insanlar üçün Şərq və Qərbi birləşdirən təbii bir körpü olmuşdur [16, 11]. Tarixi ənənələrə söykənən sülh və əməkdaşlıq körpüsü Türkiyənin çoxəsrlik dövlətçiliyində, dövlətlərarası münasibətlərində bu gün də davam etdirilir. Bunun bariz nümunəsi kimi Azərbaycan və Türkiyənin Cənubi Qafqazda, dünya maraqlarının kəsişdiyi həssas regionda davamlı sülhə və inkişafa nail olması, miqrasiya sahəsində müsbət təcrübələrinin öyrənilməsini göstərmək olar.

Hazırda Azərbaycan Respublikasında miqrasiya prosesləri əsasən "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında", "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında", "İmmiqrasiya haqqında" və "Əmək miqrasiyası haqqında" respublika qanunları ilə tənzimlənir [2, 226]. Hüquqi-demokratik inkişaf yolu Azərbaycan və Türkiyənin bir amala, bir məqsədə qulluq etdiklərini, nəticə etibarilə regional əməkdaşlıqda, diplomatik münasibətlərdə irəlilədiklə-

rini göstərir, miqrasiya sahəsində əməkdaşlıqda, qanunverici bazanın ciddi əhəmiyyət daşıdığını şərh edir. Azərbaycan dövləti tərəfindən miqrasiya siyasətinin inkişafına yönəlmiş qanunların qəbul olunması, respublikanın mövcud sahədə beynəlxalq qanunvericiliyə diqqət yetirilməsinin vacibliyinə işarə edir.

1999-cu il əhali sayımında emiqrasiyada olan əhalinin böyük əksəriyyəti Azərbaycanın daimi əhalisi kimi qeydə alındığı üçün statistik materiallarda bu azalma öz əksini tapmamışdır və 1989-1999-cu illərdə əhali nəinki azalmış, əksinə 932,2 min nəfər və ya 13,3% artmışdır [9, 127]. Miqrasiya proseslərinin idarə olunmasında statistik göstəricilər mühüm rol oynayır. Azərbaycanda əsasən, SSRİ-nin süqutuna qədər, son 1980-ci illərdə və dövlət müstəqilliyinin ilk illərində (1991-1992) emiqrasiya prosesləri kəskin artdığı halda, 1993-cü ilin ikinci yarısından respublikada yaranmış stabil dövlət idarəçiliyi, tədricən sosial-iqtisadi inkişafa nail olunması emiqrasiyaya müsbət təsir göstərmir, əkisnə dövlətin həyata keçirdiyi nəhəng enerji siyasəti immiqrasiyanın müsbət inkişafına gətirib çıxarmışdır. Milli inkişaf Azərbaycan-Türkiyə miqrasiya əməkdaşlığının genişlənməsində təməl əsas olmuşdur.

XX əsrin əvvəllərindən miqrasiya axınları Türkiyə cəmiyyətinin quruluşunu və xarakterini əsaslı şəkildə formalaşdırmışdır [4, 168]. 2000-ci illərdən etibarən Türkiyə "emiqrant" ölkəsindən "immiqrant"ölkəsinə çevrilmişdir. Bu vəziyyətin əsas səbəbləri qonşu ölkələrdəki siyasi təlatümlər, qloballaşmanın güclənməsi ilə Türkiyənin beynəlxalq miqrasiya sistemlərindəki mövqeyinin dəyişməsi və iqtisadi səbəblərdir [5, 403]. Türkiyə ərazisi, yerləşdiyi coğrafiya və beynəlxalq münasibətlərdə oynadığı rolu etibarilə emiqrasiya və immiqrasiya kimi aktiv proseslərin mərkəzinə çevrilmişdir. Bu proseslərdə Azərbaycan da yaxından iştirak edir və respublikadan Türkiyəyə emiqrasiya əsasən təhsil və əmək miqrasiyası kimi amillərə diqqət çəkir. Türkiyənin beynəlxalq aləmdə formalaşmış müsbət imici, siyasi aktivliyi regionlararası münasibətlərdə, xüsusilə də Cənubi Qafqazın miqrasiya proseslərində, Azərbaycanla əməkdaşlıq əlaqələrinin dərinləşməsində özünü göstərir.

Rusiya ilə yanaşı, Türkiyə də Azərbaycandan beyin miqrasiyasını alqışlayan mühüm ölkələrdən biridir. 1990-cı illərdən bəri ölkənin təcrübəli işçiləri, əsasən elm adamları və riyaziyyatçılar Türkiyənin ən yaxşı universitet və tədqiqat müəssisələrində işləməyə başladılar. Eyni zamanda, "Böyük tələbə layihəsi" adlı proqram çərçivəsində Azərbaycandan 2000-dən çox gənc bakalavr, magistr və doktorantura proqramları üzrə təhsil almaq üçün Türkiyəyə gəlib [6, 3-4]. 2010-cu ildə Azərbaycana oxumağa gələn əcnəbi tələbələr arasında, ümumilikdə Türkiyə 59.8 %-lə ilk yeri tutmuşdur [18, 60]. Dövlət müstəqilliyinin bərpasından ötən 30 ildən yuxarı vaxt ərzində Azərbaycan-Türkiyə münasibətlərində intellektual miqrasiya, hər iki dövlətin nüfuzlu universitetlərində tələbə mübadiləsi, ali təhsil kimi məsələlər gündəmdə olmuş, hazırki vaxtda da aktual səslənir. Hazırda Türkiyənin tanınmış universitetlərində kifayət qədər azərbaycanlı alimlər fəaliyyət göstərir, eləcə də Azərbaycanda həmin ölkənin ziyalıları, ali təhsil müəssisələri, beyin mərkəzlərilə əməkdaşlıqda maraqlı tərəf kimi çıxış edirlər.

Hazırda insan potensialı cəmiyyətin başlıca milli sərvəti və iqtisadi artımın əsas hərəkətverici qüvvəsi hesab edilir. Çünki, elmi-texniki tərəqqinin sürəti, əməyin təşkili və mədəniyyəti, onun məhsuldarlığı, hər şeydən əvvəl, insan potensialının keyfiyyətindən asılıdır [8, 7]. İnsan kapitalı XXI əsrin, qlobala dünyanın əsas hədəflərindən, hərəkətverici qüvvələrindən biridir. Gec-tez tükənən enerji resursları insan potensialının, intellektinin nə qədər dəyərli olduğunu, enerji resurslarının əldə olunmasında onun əhəmiyyətini təsdiq edir. Bu baxımdan Azərbaycan və Türkiyənin regional əməkdaşlığında, əmək miqrasiyası, insan potensialı, insan kapitalı kimi məsələlər mühüm əhəmiyyəti ilə seçilir.

Bu gün Türkiyədə yaşamaq icazəsi olan azərbaycanlılar 2017-ci ilin statistik məlumatlarına görə 49.208 nəfərdir ki, bu da İraq və

Suriyadan sonra 3-cü sırada gəlir. Türkiyə DİN-nin Miqrasiya Baş İdarəsinin statistikasına görə Türkiyədə qısamüddətli yaşamaq icazəsi almış 383.839 əcnəbinin 24.312 nəfəri azərbaycanlıdır. Bu statistikaya görə, Azərbaycan 4-cü yerdədir. Həmçinin, ailəvi yaşamaq üçün icazə alan 67.740 nəfərdən 8.589 nəfəri də azərbaycanlıdır [10, 69]. Azərbaycanlı miqrantların əmək fəaliyyətinin təhlükəsiz saydıqları dövlətlər sırasında Türkiyə ilk sıraları tutur. Göstərilən rəqəmlər Türkiyənin sürətlə inkişaf etdiyini, hər il müsbətə doğru dəyişdiyini, ciddi siyasi, iqtisadi maneələrə baxmayaraq müasir beynəlxalq münasibətlərə inteqrasiya olunduğunu göstərir. Bu addım öz növbəsində Azərbaycan-Türkiyə regional əməkdaşlığına da müsbət təsir göstərir, xüsusilə əmək miqrasiyasının idarə olunmasında yeni layihələrin işlənib hazırlandığını bəyan edir.

Miqrasiya kimi qlobal və Avropanın inkişaf etmiş dövlətlərinin çətinliklərlə qarşılaşdığı müasir dövrdə Azərbaycan-Türkiyə regioanl miqrasiya əməkdaşlığı hüquqi, dövlətlərarası qanunlarla tənzimlənir, yaranan və ya gələcəkdə yarana biləcək problemlərin qarşısının alınmasında birgə səylər bölgədə inkişafa, insanların sosial rifah halının yaxşılaşmasına müsbət təsir göstərir. İkitərəfli diplomatik münasibətlərdə, keçirilən rəsmi görüşlərdə miqrasiya məsələlərinin müzakirələri, birgə fəaliyyət imkanları mövcud sahədə problemlərin həllinə ciddi təsir göstərir. Bu baxımdan Dövlət Miqrasiya Xidməti (DMX) ilə əməkdaşlıq əlaqələrinin inkişafı prioritet təşkil edir. 2009-cu ilin 5 mart tarixində DMX-də Türkiyənin Azərbaycandakı səfiri ilə baş tutan görüşdə respublikanın mövcud sahədə müsbət təcrübəsi, “bir pəncərə” prinsipinin tətbiq olunmasının miqrantların hüquqlarının qorunmasında faydalı olduğu qeyd olunmuşdur. Həmin prinsip ölkə ərazisində hərəkət edən miqrantların, əcnəbi və vətəndaşlığı olmayan şəxslərin yaşadıqları ərazilər üzrə qeydiyyata alınması işini xeyli asanlaşdırmışdır.

Prezident İlham Əliyevin 2013-cü ilin noyabr ayında Türkiyə Respublikasına səfəri zamanı imzalanan “Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında işçi qüvvəsinin qarşılıqlı əmək fəaliyyətinə dair” Saziş hazırda öz bəhrəsini verir. Ötən 10 il ərzində işçi qüvvəsinin qarşılıqlı əmək fəaliyyətinin tənzimlənməsində sənəd müsbət rol oynamışdır [1, 5]. Ümumilikdə “Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş”in artıq mövcud olması Türkiyədən Azərbaycana gələn əməkçi miqrantlar, eləcə də həmin ölkəyə üz tutan azərbaycanlı miqrantların hüquqlarının tanınmasına ciddi imkan verən əsas sənədlərdən biridir. Burada diqqət çəkən məqamlardan biri Azərbaycana daxil olan Türkiyə immiqrantları arasında ixtisaslı kadrların olmasıdır. Onlar əsasən, inşaat, turizm, neft-qaz, təhsil, kənd təsərrüfatı, səhiyyə kimi sahələri əhatə edir.

“Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin nəzdində Miqrasiya İdarəsi üzrə Baş Direktorluğu ilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti arasında həyata keçiriləcək Razılaşma Memorandumu” həmçinin ikitərəfli münasibətlərin regional inkişafına əhəmiyyətli təsir göstərmiş, hər iki ölkənin əməkçi miqrantlarının sərbəst hərəkət və digər hüquqlarının müdafiəsi sahəsində effekt vermişdir. 1 sentyabr 2019-cu ildən hər iki ölkə arasında vətəndaşların rahatlığının təmin edilməsi məqsədilə viza sisteminin ləğv edilməsi, ardından 1 aprel 2021-ci ildən hər iki ölkə vətəndaşalrının qarşılıqlı səfərləri zamanı biometrik pasportlardan da istifadəyə verilən icazə [12] miqrasiya sahəsində əməkdaşlığa dinamizm qatmış, əmək miqrasiyanın müsbət inkişafına şərait yaratmışdır.

BMT-nin miqrantların sayına dair son (2020-ci il) rəqəmlərinə əsasən, Azərbaycanda 252.228 immiqrant yaşayır ki, onların da əksəriyyəti Ermənistan, Gürcüstan və Rusiyadan olan etnik azərbaycanlılardır. Daha kiçik miqrant qrupları Özbəkistan, Qazaxıstan, Ukrayna, Qırğızıstan və Türkiyədən gələnlərdir [14, 6-7]. Son illər, postmünaqişə dövründə, Şuşa Bəyannaməsinin imzalandığı qısa dövr ərzində Türkiyədən Azərbaycana immiqrasiya edən

ixtisaslı kadrların sayında artım müşahidə olunur. Yaxud əksinə Azərbaycandan Türkiyəyə emiqrasiya halları da aşağı faizlə izlənilir. Bunun başlıca səbəblərindən biri respublikada istehsal sahələrinin artması, təhlükəsiz, sivil və milli inkişafda iqtisadi tərəqqinin yüksəlməsi ilə izah olunur.

Ümumilikdə Azərbaycan-Türkiyə münasibətlərində miqrasiya ilə bağlı həlli mürəkkəb olan problemlər yaşanmamaqdadır. Hər iki respublikanın daxili qanunvericiliklə yanaşı, miqrasiya ilə bağlı beynəlxalq hüququn norma və prinsiplərinə riayət etməsi, insan hüquq və azadlıqlarının müdafiəsinə həssas yanaşması əmək miqrasiyasının tənzimlənməsində mühüm amil olaraq qalır [3, 579]. Bu baxımdan, Azərbaycan-Türkiyə regional əməkdaşlığında əmək miqrasiyası aktuallıq kəsb edir. Mövcud sahədə ciddi problemlərin yaşanmaması hər iki dövlətin qanunları ilə yüksək səviyyədə tənzimlənir, müsbət nəticəsi olaraq xarakterizə edilir. Mövcud şərait Azərbaycanın Türkiyə kimi sürətlə inkişaf etməkdə olan dövlətlə regional əməkdaşlığını genişləndirir və müxtəlif sahələri əhatə edir. Miqrasiya bütün dövrlərdə, qədim tarixi proses kimi müasir dövrdə, regionlararası münasibətlərin inkişafına əlverişli təsir göstərir, dövlətlərin sosial-siyasi əməkdaşlığına şərait yaratmaqla əlaqələri dərinləşdirir, sülh və təhlükəsizliyə əsas yaradır. Bunu Azərbaycan-Türkiyə regional münasibətlərində aydın görmək mümkündür.

## Nəticə

Aparılan tədqiqat və təhlillər göstərir ki, Cənubi Qafqaz regionu dünya dövlətlərinin maraqlarının birləşdiyi, bəzi hallarda toqquşduğu region kimi diqqət çəkir. Burada müsbət inkişafa diqqət çəkən digər bir məsələ, Azərbaycan Respublikasının 44 günlük Vətən müharibəsində bölgədə davamlı sülh, təhlükəsizlik və əməkdaşlığa nail olaraq yeni reallıq yaratmasıdır. Bu reallıqda Yaxın Şərqin inkişaf etməkdə olan böyük dövləti, Türkiyə Respublikasının sülhməramlı mövqeyi və Azərbaycana göstərdiyi siyasi dəstək bu gün də davam edir. İkitərəfli regional münasibətlərdə yaranan yeni mərhələ miqrasiya proseslərinin idarə olunması və təcrübə mübadiləsi kimi amilləri gündəmə gətirir, əməkdaşlıq üçün yeni perspektivlər yaranır.

Azərbaycan-Türkiyə münasibətlərində, xüsusilə də miqrasiya sahəsində stabil inkişafa və əməkdaşlığa yol açan Şuşa Bəyannaməsi hər iki ölkənin yaxın tarixində mühüm mərhələnin başlanğıcı kimi yadda qalacaq. Sənəddən irəli gələn əməkdaşlıq və inkişaf prinsipləri dövlətlərarası münasibətlərdə sosial-siyasi münasibətlərə töhfə verəcək, əmək miqrasiyasının genişlənməsinə yol açacaq.

Miqrasiya iqtisadi, siyasi və sosial dəyişikliklərin güclü mühərriki və vacib tədqiqidir. Onun icmalara əhəmiyyətli təsirini nəzərə alaraq, miqrasiyanı tam ölçmək və anlamaq lazımdır [20, 5]. 1995-2000-ci illərdə respublikadan xaricə 174.6 min nəfər getmişdir, bu da 1989-1994-cü illərdə gedənlərdən iki dəfə azdır [13, 80]. Göründüyü kimi ötən dövr ərzində Azərbaycan Respublikası həyatın bütün sahələrində, o cümlədən miqrasiya kimi birmənalı qarşılanmayan sahədə dövlət siyasətini inkişaf etdirmişdir. Azərbaycanın postmünaqişə dövründə diplomatik münasibətlərində qonşu dövlətlərlə, xüsusilə də Türkiyə ilə qurduğu əməkdaşlıq münasibətləri Şuşa Bəyannaməsinin imzalanmasından sonra müttəfiqlik və regional əməkdaşlıq mərhələsində yeni üfüqlər açmışdır. Mövcud sənəd ikitərəfli münasibətlərin bütün aspektlərini ehtiva etməklə hər iki dövləti müttəfiq kimi hərbi-strteji əməkdaşlıqda birləşdirir. Həmçinin, Bəyannamədə əmək miqrasiyasının inkişafı, qeyri-leqal miqrasiyanın qarşısının alınması, sərhəd təhlükəsizliyi və ümumilikdə regional təhlükəsizlik kimi məsələlərdə yarana biləcək problemlərin tənzimlənməsində gələcək faydaları öz əksini tapır.

Məqalə boyu sadalanan bütün müsbət məqamlar Azərbaycan-Türkiyə strateji əməkdaşlığının region üçün bir sıra dividentlər gətirdiyini şərh edir. Burada miqrasiya əməkdaşlığının sosial-siyasi mahiyyəti üzə çıxır, iqtisadi sahədə az əhəmiyyət daşımayan əmək miqrasiyasının idarə olunmasında birgə səylər

dəyərləndirilir, ikitərəfli qaydada qanunvericilik məsələləri nəzərdən keçirilir. Tarixi sənədin imzalanmasından sonra bölgədə qalıcı sülh və təhlükəsizliyin, stabil inkişaf və dialoqun, nəhayət əməkdaşlığın region dövlətləri üçün mühüm əhəmiyyət daşıdığı bəyan olunur.

Sonda "Azərbaycan-Türkiyə miqrasiya əməkdaşlığında Şuşa Bəyannaməsi: təhlükəsizlik və inkişaf" mövzusunda tədqiqat işini ümumiləşdirərək alınan elmi nəticəni aşağıdakı kimi sıralamaq mümkündür:

- Təbii proses olan miqrasiya müasir dünyanın bütün regionlarında, həmçinin Cənubi Qafqaz bölgəsində sosial-siyasi münasibətlərin inkişafına müsbət təsir göstərir;
- Regionun aparıcı dövləti kimi, güclü orduya və tərəqqi edən iqtisadiyyata malik Azərbaycanın bölgəsəl təhlükəsizliyin və əməkdaşlığın genişlənməsi istiqamətində Türkiyə ilə qurduğu müttəfiqlik münasibətləri gün keçdikcə daha da möhkəmlənir;
- Tarixi, etnik əlaqələr hər iki dövləti eyni məqsədə, amala doğru aparır – regionda və dünyada təhlükəsizlik şəraitində fəaliyyət göstərmək və buna təşviq etmək üçün yeni siyasi dialoq yaranır və əmək miqrasiyası kimi həssas mövzular gündəmə gətirilir;
- Azərbaycan-Türkiyə əməkdaşlığında bir millət iki dövlət prinsipi digər sahələrdə olduğu kimi, miqrasiya sahəsində də əməkdaşlıq üçün yeni yollar açır;
- Dövlət müstəqilliyinin bərpasından sonra, Şuşa Bəyannaməsi ikitərəfli münasibətlərin müttəfiqlik mərhələsində, Qars Müqaviləsindən sonra ikinci mühüm sənəd kimi uzun illər, əsrlər boyu hər iki dövlətin ərazi bütövlüyünün müdafiəsində mühüm rol oynayacaq;
- Viza rejiminin ləğv edilməsi, ikitərəfli miqrasiya əməkdaşlığında, gediş-gəlişin sadələşdirilməsi və əmək miqrasiyasının səmərəli inkişafında mühüm addım kimi qiymətləndirilir;
- Dövlət Miqrasiya Xidməti ilə Türkiyənin Daxili İşlər Nazirliyi nəzdində yaradılmış miqrasiya xidməti ilə əməkdaşlıq əlaqələri Şuşa Bəyannaməsinin qəbul olunmasından sonra bir qədər də genişlənmiş, rəsmi səfərlər çərçivəsində, mövcud sahədə yaranan və ya yarana biləcək problemlərin həllində birgə səylər dəyərləndirlir və proses davam edir;
- 2013-cü ildə "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında işçi qüvvəsinin qarşılıqlı əmək fəaliyyətinə dair" Sazişin imzalanmasından keçən vaxt ərzində dövlətlərarası miqrasiya tənzimlənməsi regional əməkdaşlığın inkişafında müsbət rol oynamışdır;
- Azərbaycanlı əməkçi miqrantların çalışmaq üçün təhlükəsiz saydıqları, eləcə də insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu ölkələr sırasında Türkiyə Respublikasına üstünülük verməsi mövcud sahədə əməkdaşlığın inkişaf perspektivlərini yaradır;
- Həmçinin Azərbaycan-Türkiyə miqrasiya əməkdaşlığında bu dövlətin vətəndaşlarının Azərbaycana gələrək müxtəlif sahələrdə çalışması, regional əməkdaşlığa müsbət təsir göstərən amillərdən biri hesab oluna bilər;
- Türkiyənin yüksək və dünya standartlarına cavab verən turizm potensialı müvəqqəti işləmək üçün azərbaycanlı əməkçi miqrantlar üçün cəlbedicidir;
- Yaxud Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan nəhəng tikinti, infrastruktur layihələrində Türkiyənin əmənkiç miqrantlarının da yer alması ikitərəfli miqrasiya proseslərinin inkişafına müsbət təsir göstərmək iqtidarındadır;
- Azərbaycan və Türkiyə kimi regional inkişafa töhfə verən üçüncü ölkələrə rast gəlmək mümükün deyil. Mövcud münasibətlər müttəfiqliyin sərhədlərini aşaraq qardaşlıq kimi mənəvi dəyərlər qazandırır. Belə dövlətlərarası təcrübə yalnız Azərbaycan və Türkiyə əməkdaşlığında özünü qabarıq şəkildə büruzə verir;
- Münasibətlər 44 günlük Vətən müharibəsi dövründə olduğu kimi, hazırda ən yüksək regional mərhələyə keçid almışdır;
- Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə bölgəsəl əməkdaşlığının qarantı kimi miqrasiya siyasətinin inkişafına və mənfi tendensiyaların aradan qalxmasına pozitiv təsir göstərməyə davam edir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik haqqında Şuşa Bəyannaməsi // "Azərbaycan" qəzeti, № 124 (8717), 17 iyun, 2021, s. 5.
2. Abdullayev F.N. Miqrasiya və milli təhlükəsizlik. Bakı: Elm, 2011, 284 s.
3. Əhmədov A.P. Azərbaycan-Türkiyə münasibətlərində miqrasiya məsələlərinin təhlili / ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş, "Gənc Tədqiqatçıların VI Beynəlxalq Elmi Konfransı"nın materialları. Bakı, 29-30 aprel, 2022, s. 579-583.
4. İçduygu A., Aksel B. Turkish migration policies: A critical historical retrospective // Perceptions, Autumn 2013, Volume XVIII, Number 3, pp. 167-190.
5. Koç S., Solmaz A.R. Türkiyede uluslararsı göç akımları: çekim modeli analizi // Rating Akademy. Journal of Life Economics. Cilt 6, Sayı 4, 2019, s. 401-412.
6. Khashimov M. Azerbaycandan beyin göçü sorunu ve Türkiyenin bu konudaki yeri // Göç Araştırmaları Vakfı Türkiye Diaspora Araştırmaları Merkezi, GAV Analiz. Sayı: 8, 2020, 11 s.
7. Qəribova E., Rüstəmova V. Azərbaycanda daxili miqrasiya və urbanizasiyanın sosial aspektləri // "Azərbaycan Barometri". Analitik hesabat (sosioloji sorğu və elmi tədqiqatın nəticələri əsasında), № 2(6), fevral 2020, 68 s.
8. Muradov Ş.M. Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu: əsas demoqrafik və etno-demoqrafik dəyişikliklər (1897-2007). Bakı: Elm, 2008, 240 s.
9. Muradov Ş.M., Baxış Ç.Ə. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar. Bakı, 2013, 135 s.
10. Nagıyeva L. Azerbaycandan Türkiyeye göçün sosyal medya üzerinden organizasyonu: Ankara önegi // Kadim Akademi SBD, Sosyal bilimler dergisi, Cilt 3, Sayı 1, 2019, s. 65-78.
11. Rəşid L. Şuşa bəyannaməsi regional və beynəlxalq təhlükəsizliyə zəmin yaradır // "Xalq" qəzeti, № 127 (29669), 20 iyun, 2021, s. 1-2.
12. Rüstəmov R. Azərbaycan-Türkiyə münasibətlərində Şuşa Bəyannaməsinin tarixi və strateji əhəmiyyəti / https://www.migration.gov.az/az/news_detail/14658 (01.07.2021).
13. Sərdarov M.Ə. Azərbaycanda miqrasiya prosesləri. Bakı: Adiloğlu, 2004, 155 s.
14. Seçilmiş ölkələrdə miqrasiya siyasətlərinin icmalı və Azərbaycan Respublikası üçün öyrənilmiş təcrübə (Estoniya, Gürcüstan, Almaniya, İtaliya, Moldova və Niderlandın milli miqrasiya siyasəti və təcrübələrinin təhlili əsasında) / müəlliflər: E.Diker, K.O'Dell, K.Marçand, S.Məstiyeva. Vyana: Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM), 2022, 74 s.
15. Seferov R., İbadov A. Ermenistanın Karabagı işgal süreci ve sonrasında Azerbaycanda yaşanan zorunlu göçler ve sorunları // Selçuk Üniversitesi Fen-Edebiyat Fakültesi "Edebiyat Dergisi", Sayı 18, 2007, s. 159-173.
16. Türkyede yaşam rehberi / yayın kurulu: A.Buran, A.R.Beşkat, B.Yaşar, C.Özoğlu, E.Kömleksiz, S.A.Özen. Ankara: T.C. İçişleri Bakanlığı Göç İdaresi Genel Müdürlüğü Uyum ve İletişim Dairesi Başkanlığı, 2019, 168 s.
17. Арзуманлы В.М. К вопросу миграционных процессов в азербайджанской республике // "Elturan" ictimai-siyasi, elmi-kütləvi jurnal, № 1-2(17), 2000, s. 56-60.
18. Азербайджан расширенный миграционный профиль. Построение миграционных партнерств (ПМП). Финансовая поддержка Тематической Программы Европейского Союза 2010, 96 с.

19. Из истории азербайджанской эмиграции. Сборник документов, произведений, писем. Москва: «Социально политическая мысль» / Сост., предисл. и примеч. С.М.Исхаков. 2011, 416 с.

20. Чудиновских О. Статистика международной миграции. Практическое руководство для стран Восточной Европы и Центральной Азии. Женева, 2011, 104 с.

***Açar sözlər:*** *Şuşa, təhlükəsizlik, miqrasiya, əməkdaşlıq, regional, beynəlxalq, bəyannamə*

**Agil Ahmadov**
*Dissertation candidate of the doctor of science program specializing “History of international relations” of the Institute of History named after A.A. Bakykhanov ANAS, Associate Professor, Ph.D. in History*

# SHUSHA DECLARATION IN AZERBAIJANI-TURKISH MIGRATION COOPERATION: SECURITY AND DEVELOPMENT

## ABSTRACT

Azerbaijani-Turkish strategic cooperation is developing in an ascending line in the XXI century. The current relations of cooperation have somewhat strengthened after the 44-day Patriotic War. The Shusha Declaration, which had a significant impact on the expansion of ties between the two States, brought dynamism to regional cooperation in the field of migration.

The article considered various aspects of the Shusha Declaration in the Azerbaijani-Turkish regional cooperation and mechanisms of influence on the positive development of labor migration. In this study, the author analyzed the sections entitled “The socio-political significance of the Shusha Declaration” and “The regional stage of development of Azerbaijani-Turkish migration cooperation." In the final part of the article, such important issues as security and the development of interstate relations became the object of research.

***Keywords:*** *Shusha, security, migration, cooperation, regional, international, declaration*

**Агиль Ахмедов**

*Диссертант программы доктора наук по специальности «История международных отношений» Института Истории им. А.А.Бакыханова Национальной Академии Наук Азербайджана, доктор философии по истории, доцент*

## ШУШИНСКАЯ ДЕКЛАРАЦИЯ В АЗЕРБАЙДЖАНО-ТУРЕЦКОМ МИГРАЦИОННОМ СОТРУДНИЧЕСТВЕ: БЕЗОПАСНОСТЬ И РАЗВИТИЕ

### РЕЗЮМЕ

В XXI веке азербайджано-турецкое стратегическое сотрудничество развивается по восходящей линии. Нынешние отношения сотрудничества еще более укрепились после 44-дневной Отечественной войны. Шушинская декларация, оказавшая значительное влияние на расширение связей между двумя государствами, внесла динамизм в региональное сотрудничество в области миграции.

В статье были рассмотрены различные аспекты Шушинской декларации в азербайджано-турецком региональном сотрудничестве, а также механизмы влияния на позитивное развитие трудовой миграции. Были проведены анализы в разделах под названием «Социально-политическое значение Шушинской декларации» и «Региональный этап развития азербайджано-турецкого миграционного сотрудничества». В заключительной части статьи объектом исследования стали такие важные вопросы, как безопасность и развитие межгосударственных отношений.

***Ключевые слова:*** *Шуша, безопасность, миграция, сотрудничество, региональный, международный, декларация*

DOI: 10.30546/2309-1347.83.2023.171

BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ
HISTORY OF INTERNATIONAL RELATIONS

UOT: 341.1; 341.16; 091; 342.951:351.82

**NİGAR BABAXANOVA**

**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Beynəlxalq elmi-mədəni əlaqələr şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent**

*e-mail: nbabaxanova@gmail.com*

# ƏLYAZMALARIN TƏDQİQİ VƏ TƏBLİĞİ SAHƏSİNDƏ BEYNƏLXALQ İNTEQRASİYANIN MÜQAVİLƏ-HÜQUQİ BAZASI VƏ ELMİ-TƏŞKİLATİ ASPEKTLƏRİ

30 ildən artıqdır ki, ölkəmizdəki qədim əlyazmaların baş saxlancı olan AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu beynəlxalq elmi-texniki əməkdaşlıq əlaqələrinin müstəqil subyekti qismində çıxış edir. Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının beynəlxalq təşkilatlara inteqrasiya etməsi müxtəlif ölkələrə səpələnmiş əlyazmalarımızın repatriasiyasına və tədqiqinə, İnstitutun fondundakı yazılı abidələrin geniş təbliğinə böyük təkan vermişdir.

Azərbaycan Respublikası 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv olmaqla, "Beynəlxalq hüquq prinsipləri" Deklarasiyasına (1970) qoşulmuşdur. Həmin sənəddə qeyd olunur ki, üzv ölkələr BMT Nizamnaməsi çərçivəsində bir-biriləri ilə iqtisadiyyat, sosial, təhsil, elm və texnika, mədəniyyət sahəsində əməkdaşlıq etməlidirlər [10]. 1992-ci il iyunun 3-də isə Azərbaycan Respublikası UNESCO-ya üzv qəbul edilmiş, müxtəlif illərdə qurumun bir sıra Konvensiyalarına, o cümlədən "Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında 16 noyabr 1972-ci il Konvensiyası"na (1993), "Müəlliflik hüququ haqqında 6 sentyabr 1952-ci il Ümumdünya Konvensiyası"na (1997), "Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında 14 noyabr 1970-ci il Konvensiyası"na (1997), "Beynəlxalq xüsusi hüququ unifikasiya institutunun (YUNİDRUA) oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəni dəyərlər haqqında 1995-ci il Konvensiyası"na (2003), "Nəşrlərin beynəlxalq mübadiləsinə dair 3 dekabr 1958-ci il Konvensiyası"na (2020) qoşulmuş, Azərbaycanda UNESCO-nun müxtəlif sahələri üzrə 6 milli komitə, o cümlədən "Muzeylərin Beynəlxalq Şurası" (ICOM- International Council of Museums), "Dünya Yaddaşı Proqramı üzrə Milli Komitə" (Memory of the World Register Programme) yaradılmışdır. Sadalanan Konvensiya və Komitələr Azərbaycan əlyazmalarının tədqiqi və təbliği sahəsində beynəlxalq inteqrasiya işinin müxtəlif aspektlərinə az və ya çox şəkildə təsir yükünə malikdir.

Azərbaycan Respublikası bu kimi təşkilatlara, onların sənəd və normalarına qoşulmaqla, həm də milli əlyazmaların qorunması və mühafizəsi, mübadiləsi, daşınması, xarici kitabxanalarda tədqiqi, repatriasiyası, təbliği işinin

qlobal hüquqi atmosferinə daxil olur və bu sahədə milli hüquqi baza üçün əsas yaradır. Əlyazmalar İnstitutu beynəlxalq elmi-mədəni əlaqələrdə məhz bu bazaya və Azərbaycan Respublikasının tərəfdar çıxdığı bir sıra müvafiq beynəlxalq müqavilələrə istinad edir.

Son illərdə elm, o cümlədən əlyazmaşünaslıq sahəsində beynəlxalq münasibətlərin hüquqi əsasları milli qanunvericilik səviyyəsində də kifayət qədər möhkəmləndirilmişdir. Ölkənin elm siyasətini tənzimləyən başlıca sənəddə – "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda [5] qeyd olunur ki, elmi fəaliyyət sahəsində dövlətin əsas vəzifələrindən biri də beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və Azərbaycan Respublikasının elm sahəsi üzrə tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş öhdəliklərinin yerinə yetirilməsi, beynəlxalq müqavilələrin icrasında ölkənin elmi potensialından istifadə edilməsinə üstünlük verilməsidir. Aydındır ki, elm sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi Azərbaycan Respublikasının elmi-texniki siyasətinin dünya elmi məkanında layiqincə təmsil olunması və təbliğ edilməsi üçün başlıca zəmindir.

Elm haqqında əsas Qanunda o da vurğulanır ki, elmi fəaliyyətin subyektləri, elmi tədqiqat institutları elm sahəsində beynəlxalq münasibətlərdə Azərbaycan Respublikasını təmsil edir, xarici ölkələrin elm və təhsil müəssisələri, beynəlxalq təşkilatlar və fondlarla əlaqələr yaradır, qarşılıqlı əməkdaşlıq haqqında müqavilələr bağlayır, elm sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökumət qurumlarına üzv olur, beynəlxalq elmi və elmi-texniki proqram, layihə və müsabiqələrdə, həmçinin ölkələrarası elmi mübadilə proqramlarında iştirak edirlər. Qanundakı bu müddəalar Əlyazmalar İnstitutunun beynəlxalq informasiya mühitinə inteqrasiya prosesində əsasən yerinə yetirilmişdir. Belə ki, son 10 ildə İnstitut 20 ölkənin 50-dan artıq elm və təhsil müəssisəsi, muzeyi, arxiv və kitabxanası, fondları ilə yeni əlaqələr qurmuş, əməkdaşlıq müqavilələri bağlamış, 2 beynəlxalq cəmiyyətə üzv seçilmiş, müxtəlif layihələrdə iştirak etmişdir. Türkiyə Yazma Əsərlər Təşkilatının Süleymaniyyə Kitabxanası, Xoca Əhməd Yasəvi adına Beynəlxalq Türk-Qazax Universiteti, Misir Milli Kitabxanası, Ərəb Ölkələri Liqasının nəzdində fəaliyyət göstərən Ərəb Əlyazmaları İnstitutu və s. ilə bağlanmış müqavilələr elm və təhsil müəssisələri ilə ikitərəfli əməkdaşlığa nümunə ola bilər. Müxtəlif beynəlxalq elm fondları və agentlikləri ilə əlaqələr, onların layihələrində iştirak da İnstitutun fəaliyyəti üçün prioritetlərdən olmuşdur. Misal üçün Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) ilə əlyazmaların bərpası və konservasiyası sahəsində yerinə yetirilmiş layihəni göstərmək olar. Bu layihə çərçivəsində İnstitutun mütəxəssisləri Türkiyədə xüsusi peşə kursları keçmiş, Əlyazmalar İnstitutuna müvafiq istiqamətlər üzrə maddi-texniki dəstək (bərpa materialları və xırda avadanlıq şəklində) göstərilmişdir. Göründüyü kimi, İnstitutun bu qəbildən olan layihələrdə iştirakı bərpa-konservasiya, rəqəmsallaşdırma işini yeni texnologiyalarla təchiz etməyə, mütəxəssislərə qabaqcıl bilik və bacarıqlar qazandırmağa imkan verir. Ən başlıcası isə İnstitut bununla beynəlxalq layihələrdə iştirak təcrübəsi əldə edir.

Məlumdur ki, beynəlxalq proqram, layihə və nominasiyalarda iştirakın özünəməxsus formal qaydaları, müqavilə-hüquq şərtləri, kommunikasiya üsulları, işgüzar sənədləşmə və təqdimat metodları vardır. Bunun üçün ilk növbədə mövcud proqram və ya layihənin tələbləri, məqsədi müəyyənləşdirilməlidir. Məqsədinə görə beynəlxalq layihələri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

**1. Məqsədli elmi təcrübə mübadiləsi və birgə tədqiqat aparmaq olan layihələr.** Adətən belə layihələr əvvəlcədən əldə olunmuş əməkdaşlıq razılaşması əsasında, tərəflərin qarşılıqlı maddi-texniki, informasiya dəstəyi ilə həyata keçirilir. Məsələn, bir neçə il öncə Əlyazmalar İnstitutu Səudiyyə Ərəbistanının

Milli Əlyazmalar Mərkəzi ilə Bakıda əməkdaşlıq müqaviləsi imzalamış və bu müqavilə əsasında tərəflər müştərək islam abidələrinin tədqiqi sahəsində təcrübə mübadiləsinə başlamışlar.

**2. Maarifləndirici layihələr.** Bu kimi layihələr layihə sahibinin maddi-texniki dəstəyi ilə reallaşdırılır və iştirakçı tərəf layihə üzrə nəzərdə tutulmuş imkanlardan (maarifləndirici, ixtisasyönümlü seminar və treninqlərdə, konfranslarda iştirak, elmi tədqiqatlar üçün informasiya təminatı almaq və s.) bəhrələnir. Misal kimi, Əlyazmalar İnstitutu ilə ABŞ-ın Clarivate Analytics (əvvəlki ISI Thomson Reuters) şirkəti arasındakı əməkdaşlıq layihəsini göstərmək olar. Bu layihəyə əsasən, İnstitutun əməkdaşlarına Web of Science elmmetrik bazası ilə işləmək, elmi jurnalları təsnifləşdirmək, beynəlxalq standartlar üzrə elmi məqalə hazırlamaq bacarıqları aşılanır.

**3. Təbliğat, intellektual marketinq məqsədli layihələr.** Bu cür layihələr kommersiya xarakterli elmi məhsulu realizə etmək məqsədilə həyata keçirilir. Əvvəlcə iştirakçı tərəf elmi əmtəə, xidmət haqqında məlumatlandırılır, daha sonra ona məhsuldan müvəqqəti istifadə imkanı yaradılır. Sınaq müddəti bitdikdən sonra elmi məhsulun əldə olunmasına qərar verilərsə, mülkiyyətçi tərəf məhsuldan istifadə qaydaları ilə bağlı treninqlər təşkil edir və lazımi bilikləri məhsulu satın alan iştirakçı tərəfə ötürür. 2014-cü ildən etibarən Əlyazmalar İnstitutunun antiplagiat proqramları, avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri (AKİS), DOI (rəqəmsal obyektlərin identifikasiyası) vasitələri, müxtəlif bərpa materialları (kağız, yapışqan, absorbent və digər kimyəvi-bioloji materiallar) təqdim edən beynəlxalq və xarici şirkətlərlə əlaqələri, müqavilələri bu tip layihələrə misal ola bilər.

**4. Maddi-texniki dəstək məqsədli layihələr.** Bu kimi layihələr mədəniyyətin inkişafına, elmi-texniki tərəqqiyə dəstək verən fondlara, təşkilatlara müraciət əsasında həyata keçirilir. İştirakçı tərəf elmi tədqiqatların yerinə yetirilməsi üçün qanuni yollarla kənardan əlavə maliyyə vəsaiti cəlb etmək, həmin tədqiqatların maddi-texniki və texnoloji təminatını gücləndirmək istədikdə, aidiyyatı qurumlara müraciət edir və onların layihələrinə qoşulur. Bəzən xoşməramlı layihələrin təşkilatçıları elmi ehtiyacları olan subyektləri, tədqiqat müəssisələrini özləri müəyyənləşdirib tapır, onlara maddi-texniki yardım edirlər. Əlyazmalar İnstitutunun TİKA ilə əməkdaşlığından qaynaqlanan layihə bunun bariz nümunəsidir.

**5. Nominasiya, mükafatlandırma məqsədli layihələr.** Bu kimi layihələr müəyyən fərqləri nəzərə almaqla, maddi-texniki dəstək məqsədli layihələrə bənzəyir. Layihəni elan edən tərəf əvvəlcə mükafatlandıra (maddi-texniki dəstək verə) biləcəyi potensial iştirakçıları müəyyənləşdirir (onların müraciəti əsasında və ya öz təşəbbüsü ilə). Daha sonra həmin iştirakçılarla müvafiq məsləhətləşmə və sənədləşmə işləri aparır. Danışıqlar müsbət nəticələndikdə, iştirakçı əsas mükafata namizədlik statusu əldə edir. Mükafatlandırma məqsədli layihələrin əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, lazımi nəticənin əldə olunması üçün mükafatverənlə həmin mükafatı almaq istəyənin qarşılıqlı razılığı kifayət etmir. Bu halda nominantlar arasından qalibi müəyyənləşdirmək üçün layihə elan edən təşkilat özünün ali idarəetmə orqanı və ya üzvləri səviyyəsində gizli və ya açıq səsvermə üsulundan istifadə edir. Əlyazmalar İnstitutunun bu tip layihələrdə iştirak təcrübəsi çox azdır. İlk dəfə belə bir təcrübə 2018-ci ildə UNESCO ilə əməkdaşlıq səviyyəsində əldə olunmuşdur. Həmin il İnstitut UNESCO-nun "Jikji Memory of the World Prize" mükafatına əsas namizədlərdən biri olmuş, lakin yekunda qalib seçilməmişdir. Bununla belə, proses zamanı formalaşmış müqavilə-hüquq bazası, əldə olunmuş yeni kommunikasiya, sənədləşmə, təqdimat təcrübəsi İnstitutun beynəlxalq elmi-mədəni əlaqələrinin elmi-praktiki əsaslarını gücləndirmişdir.

**6. İnvestisiya məqsədli elmi-mədəni layihələr.** Belə layihələr əsasən, perspektivli, fundamental elmi tədqiqatların aparılması məqsədilə dövlət və ya iri beynəlxalq təşkilatlar tərəfindən icra olunur. Nəticədə elmi bilikləri və texnologiyaları faydalı əmtəəyə, xidmət və məşğulluğa çevirə bilən innovasiyalar inkişaf etdirilir, qabaqcıl elmi laboratoriyalar, muzeylər, mərkəzlər yaradılır. Əlyazmalar İnstitutunun inkişafı, milli əlyazma irsinin tədqiq və təbliğinin, qorunmasının gücləndirilməsi üçün belə layihələrin icrasına böyük ehtiyac vardır. Məsələn, İnstitutdakı "Əlyazmaların gigiyena və bərpası laboratoriyası"nın müasir tələblər səviyyəsində yenidən qurulması, ən son bərpa-konservasiya avadanlıqları, materialları, imkanları ilə təchiz olunması, qədim yazılı abidələrin bərpası, təmiri sahəsində tədris mərkəzinə çevrilməsi; İnstitutun nəzdində açıq istifadəli qədim əlyazma və kitab mədəniyyəti muzeyinin yaradılması, həmin muzeydə ziyarətçilərin ödənişli əsaslarla həvəskar xəttatlıq, boyakarlıq, cildləmə, kağız hazırlama məşğuliyyətlərinə cəlb olunması, interaktiv, praktik iştirak imkanlarının genişləndirilməsi dövlət büdcəsinə əlavə vəsait qazandırmaq baxımından faydalı ola bilər.

Elmi fəaliyyət sahəsinə bu kimi investisiyaların cəlb edilməsi hüququ milli qanunvericilik bazasında da təsbit olunmuşdur. "Elm haqqında" Qanunun 34-cü maddəsində (Elmi fəaliyyətin maliyyələşdirilməsi) qeyd olunur ki, elmi və elmi-texniki fəaliyyətin maliyyələşdirilməsi dövlət büdcəsinin vəsaiti, elmi fəaliyyət subyektlərinin öz vəsaitləri, dövlət fondlarının vəsaitləri, kreditlər, qrantlar, ianələr və digər qanuni mənbələr hesabına həyata keçirilir. Həmçinin, elmi və elmi-texniki fəaliyyətin maliyyələşdirilməsi elmi müəssisə və təşkilatların beynəlxalq təşkilatlardan, maliyyə qurumlarından və fondlardan müqavilə, müsabiqə və qrantlar əsasında cəlb etdikləri, eləcə də elmi məhsul və xidmətlərin satışından daxil olan vəsaitlər hesabına da həyata keçirilə bilər. Bundan başqa, həmin Qanunun 38-ci maddəsində (Elmdə innovasiya və sahibkarlıq fəaliyyəti) göstərilir ki, Azərbaycan Respublikasında elmi araşdırmaların keyfiyyətini və səmərəliliyini yüksəltmək, ölkənin elmi potensialını və innovasiya imkanlarını genişləndirmək, alim və tədqiqatçıların elmi fəaliyyətlərini stimullaşdırmaq, beynəlxalq təcrübəni öyrənmək, müxtəlif elmi tədbirlərin təşkili üzrə layihələri dəstəkləmək məqsədilə elm, təhsil və innovasiya fondları yaradıla bilər. 39.2. maddəsində isə deyilir ki, elmi fəaliyyətin subyektləri dövriyyəsi qanunla qadağan olunmayan elmi nəticələrin və elmi məhsulların ölkə daxilində və xarici bazarlarda alqı-satqısını sərbəst həyata keçirmək hüququna malikdir.

Onu da qeyd etmək yerinə düşər ki, elm sahəsinin inkişafına və elmi tədqiqatlara xarici investisiya qoyuluşu "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

Nəzərə almaq lazımdır ki, Əlyazmalar İnstitutunun beynəlxalq elmi mədəni əlaqələri layihəmərkəzli deyil. Layihələrdə iştirak vacib olsa da əsas məqsəd beynəlxalq cəmiyyətlər, təşkilatlar, tədbirlər, nəşrlər vasitəsilə Azərbaycan əlyazmaşünaslıq elminin nailiyyətlərini təbliğ etməkdir. Elmi tədqiqat institutlarının, eləcə də həmin müəssisələrdə çalışan tədqiqatçıların beynəlxalq cəmiyyətlərə, assosiasiyalara qoşulmaq hüququ təkcə "Elm haqqında" Qanunda öz əksini tapmamışdır, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar 2022-ci ilin Yol Xəritəsi"ndə [2] də bu məsələyə diqqət yetirilmiş, müxtəlif istiqamətlər üzrə qabaqcıl beynəlxalq peşəkar cəmiyyətlərə üzvlüyünün əhəmiyyəti önə çəkilmişdir.

Əlyazmalar İnstitutu bu məsələyə xüsusi diqqət ayırır, müxtəlif beynəlxalq assosiasiya və cəmiyyətlərlə əməkdaşlıq edir. İnstitut 2015-ci ildə Böyük Britaniyanın Kembric Universiteti nəzdindəki İslam Əlyazmaları Assosiasiyasına (İƏA) (ing. The Islamic

Manuscript Association) üzv qəbul olunmuşdur. İƏA dünyadakı İslam əlyazmalarını mühafizə etmək və bu sahənin tədqiqatçılarına informasiya-resurs dəstəyi vermək məqsədilə yaradılmışdır. İslam əlyazmalarının kataloqlaşdırılması, bərpası, konservasiyası, elektronlaşdırılması, elmi-tənqidi mətnlərinin hazırlanması və nəşri üzrə standartlar və qaydalar işləyib hazırlayan Assosiasiya tədqiq və təbliğ işinə də böyük diqqət ayırır. Belə ki, İslam əlyazmalarını tədqiq edən onlarca tədqiqatçıya hər il Assosiasiya tərəfindən təqaüd verilir, sahə mütəxəssisləri üçün mütəmadi konfrans və seminarlar, treninqlər təşkil olunur. Əlyazmalar İnstitutu Assosiasiyanın işində yaxından iştirak edir, onun nüfuzlu “The Journal of Islamic Manuscripts” jurnalını əldə edərək alim və mütəxəssislərin ixtiyarına verir.

Əməkdaşlıq edilən başqa bir qurum isə Beynəlxalq Əlyazmalar Cəmiyyətidir (BƏC) (ing. International Manuscript Society). İnstitut baş qərargahı ABŞ-ın Kanzas ştatında yerləşən Beynəlxalq Əlyazmalar Cəmiyyətinə 2018-ci ildə tamhüquqlu üzv seçilmişdir. 1948-ci ildə yaradılmış Beynəlxalq Əlyazmalar Cəmiyyəti 1953-cü ilədək “Avtoqraf və Əlyazma Kolleksiyaçılarının Cəmiyyəti” adı ilə fəaliyyət göstərmişdir. Cəmiyyət müxtəlif ölkələrdə yerləşən arxivləri, elmi tədqiqat institutlarını, əlyazma fondlarını, kitabxanaları və s. özündə birləşdirir. Hazırda 1500-dən artıq təşkilat və 3400-ə yaxın arxivarius, əlyazmaşünas və kitabşünas BƏC-in üzvüdür. Əlyazmalar İnstitutu Cəmiyyətin ildə 4 dəfə nəşr edilən “Manuscript” adlı jurnalını abunə yolu ilə əldə edir.

Artıq Əlyazmalar İnstitutu Tarixi və İncəsənət Əsərlərinin konservasiyası üzrə Beynəlxalq İnstituta (ing. International Institute for Conservation of Historic and Artistic Works – IIC), Kitab və Kağız konservasiya-bərpası üzrə Avropa Tədqiqat Mərkəzinə (ing. European Research Centre for Book and Paper Conservation-Restoration), Beynəlxalq Arxivlər Şurasına da üzvlük müraciəti ünvanlamışdır və yaxın gələcəkdə bu müraciətlərin müsbət cavablandırılacağı gözlənilir.

Elmi tədqiqat institutları bir sıra qurumların işinə bilavasitə deyil, ancaq dövlət xətti ilə qoşulmaq imkanına malikdirlər. Məsələn, Azərbaycan Respublikası uzun illərdən bəri Mədəni Mülkiyyətlərin Qorunması və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ing. The International Centre for the Study of the Preservation and Restoration of Cultural Property-ICCROM) üzvüdür. 2019-cu ildə UNESCO-nun Dünya İrs Komitəsinin Bakıda baş tutan 43-cü sessiyasında ICCROM-un rəhbəri də iştirak etmiş, Azərbaycanda bərpa və restavrasiya ilə bağlı təlimlərin keçirilməsi haqqında razılıq əldə olunmuşdur, Həmin tədbirlər qlobal pandemiya səbəbindən təxirə salınmışdır. Son dövrlərdə, xüsusən Azərbaycanın 44 günlük Qarabağ müharibəsindəki zəfərindən sonra isə Mərkəzlə əməkdaşlıq daha da genişlənmiş, Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərində törətdiyi vəhşiliklərin nəticələrini aradan qaldırmaq, tarixi abidələri bərpa etmək üçün ICCROM-a müraciət olunmuş və müsbət cavab alınmışdır.

Bu kimi beynəlxalq mərkəzlərlə əməkdaşlığın Əlyazmalar İnstitutu üçün də perspektivləri mövcuddur. Çünki İnstitutun fondunda elə qədim əlyazmalar vardır ki, onların fiziki-bioloji aşınması artıq sonuncu mərhələyə daxil olmuşdur və aşınmanı bu mərhələdə dayandırmaq, həmin əlyazmaları heç olmasa, indiki vəziyyətdə saxlamaq üçün daha təkmil kimyəvi-texnoloji yanaşmalara, radiasiya proseslərinə, əlavə vəsaitə ehtiyac vardır [4, 7]. Belə məqamlarda dünya əlyazma xəzinələri adətən, yardımlaşaraq, beynəlxalq qurumlara müraciət edərək vəziyyətdən çıxmağa çalışırlar. Məsələn, 2006-cı ildə İtaliyanın Ambroziana Kitabxanasında Leonardo da Vinçinin çertyojlarından ibarət “Codex Atlanticus” əlyazmalar toplusunda göbələk xəstəliyi aşkarlandıqda və həmin toplu təhlükə ilə üzləşdikdə, bu barədə az qala bütün dünyaya car çəkilmiş, yardım istənilmişdi.

Bu kimi vəziyyətlərdə əlyazmalar bərpa üçün bəzən başqa ölkələrə aparılır, daha yüksək ixtisaslı mütəxəssislərin ixtiyarına verilir. Azərbaycan əlyazmalarının bərpasında isə mütəxəssis çatışmazlığı hələ ki, müzakirə mövzusu deyil, indiyə qədər hansısa əlyazmamız təmir və ya bərpa məqsədilə xarici ölkəyə aparılmamışdır, bu işlər həmişə yerli peşəkarlar tərəfindən yerinə yetirilmişdir. Kəskin aşınmaya məruz qalan bəzi əlyazmalarımızın xilası üçün ancaq yüksək texnologiyalara, bahalı kimyəvi, bərpaedici maddələrə ehtiyac var ki, onları da ICCROM tipli təşkilatlarla əməkdaşlıq şəraitində əldə etmək mümkündür. Bundan başqa, gələcəkdə ICCROM-un bərpa və konservasiya üzrə regional təlim mərkəzlərindən birini də məsələn, İnstitutun "Əlyazmaların gigiyena və bərpası laboratoriyası" əsasında yaratmaq olar. "Elm haqqında" Qanunda bu kimi birgəfəaliyyətlərin hüquqi inikasını görürük: 39-cu maddənin 5-ci bəndində deyilir ki, elmi müəssisə və təşkilatlar beynəlxalq əməkdaşlığı genişləndirmək və elmi fəaliyyətin keyfiyyətini yüksəltmək məqsədilə xarici tərəfdaşlarla ölkə daxilində və xarici dövlətlərdə müştərək struktur bölmələri (elmi mərkəzlər, filiallar, laboratoriyalar, texnoparklar və digər) yaratmaq hüququna malikdir.

ICCROM-la tanışlıq və əməkdaşlıq istiqaməti Əlyazmalar İnstitutunun beynəlxalq elmi-mədəni əlaqələrində yeni mərhələdir. Amma elə beynəlxalq qurumlar var ki, onlarla əməkdaşlıq əlaqələri artıq müəyyən tarixçəyə malikdir. Belə təşkilatlardan biri Beynəlxalq Türk Mədəniyyəti Təşkilatıdır (TÜRKSOY). İnstitutun TÜRKSOY-la əlaqələri hələ ötən əsrin 90-cı illərindən başlansa da, bu əməkdaşlıq 2000-ci illərdə daha da inkişaf etmişdir. TÜRKSOY təşkilatı 2014-cü ili "Türkmən şairi Məhdimqulu ili" elan etmiş və bu münasibətlə Bakıda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu ilə birgə "Dostluq və qardaşlıq carçısı Məhtimqulu Fəraqi" mövzusunda konfrans keçirmişdir. Konfrans çərçivəsində Fəraqi əsərlərinin Əlyazmalar İnstitutunda mühafizə olunan əlyazmaları, xüsusən, 1950-ci illərdən fondda olmasına baxmayaraq, çox sonralar aşkarlanmış "Divan"ının əlyazması ətrafında da müzakirələr aparılmış, əlyazmalara baxış keçirilmişdir.

İqtisadi və sosial-mədəni inkişaf əhalinin həyat səviyyəsinin yüksəldilməsi və insanların məskunlaşması üçün zəruri şəraitin mövcud olduğu yaşayış məntəqələrinin inkişafıdır. Şəhər və kənd yaşayış məntəqələrinin formalaşmasına və inkişafına təbii-coğrafi, iqtisadi, sosial-mədəni və tarixi-coğrafi amillər böyük təsir göstərir. Əhalinin həyat səviyyəsinin yüksəldilməsinə mühüm təsir göstərən sahələrdən biri də pullu sosial xidmətlərin göstərilməsi, ticarət və ictimai iaşə xidmətləridir. Ümumiyyətlə, "yüksək həyat səviyyəsi, əhalinin əksəriyyətinin sığınacaq, qida və suya malik olması prinsipi ilə bağlıdır" (13). Regionlarda məşğulluğun məhdudluğu, əhalinin gəlirlərinin aşağı olması, ticarət və iaşə müəssisələri şəbəkəsinin seyrək olması da bu sahədə xidmətlərin aşağı səviyyədə olmasına səbəb olur.

Ölkə regionlarının iqtisadiyyatının strukturunda kənd təsərrüfatı mühüm yer tutur. Lənkəran-Astara iqtisadi rayonu respublikanın mühüm kənd təsərrüfatı rayonlarından biri olsa da, kənd yaşayış məntəqələrinin iqtisadi bazası funksiyasını tam yerinə yetirmir. Rayonda, xüsusən də inzibati rayon mərkəzlərində yaşayış məntəqələrinin inkişafına xidmət sahəsi ciddi təsir göstərmir. Bir çox kənd yaşayış məntəqələrində əhali az olduğundan sosial xidmət obyektlərinin yaradılması səmərəsizdir, yalnız məişət ehtiyacları üçün mağazalar işləyir. Son illər ölkə iqtisadiyyatında inkişaf edən və böyük tibbi-coğrafi, tarixi-mədəni, antropogen-arxeoloji və infrastruktur potensialına malik turizm sənayesi böyük əhəmiyyət kəsb edir. "Əlverişli coğrafi mövqe, relyef və iqlim şəraiti, o cümlədən mənzərəli dağ landşaft kompleksləri və Xəzər dənizinin qumlu sahili burada turizmin inkişafı üçün böyük imkanlar yaradır" [11, s.176].

Lənkəran-Astara iqtisadi rayonunda sənayenin inkişafı ilk növbədə kənd təsərrüfatı məhsullarının emalına əsaslanmalıdır. Rayonda sənaye əhəmiyyətli faydalı qazıntı yataqları olmadığından şəhər və qəsəbələrin iqtisadi potensialını yüngül və yeyinti sənayesinin yaradılması hesabına gücləndirmək olar. "Astara, Cəlilabad, Masallı və Lənkəran rayonlarında kənd təsərrüfatı istehsalında bitkiçilik əhəmiyyətli şəkildə üstünlük təşkil edir. Lerik və Yardımlı rayonlarının iqtisadiyyatının əsasını isə heyvandarlıq təşkil edir" [6, s.19].

Lənkəran-Astara iqtisadi rayonunda, xüsusilə inzibati rayon mərkəzlərində yaşayış məntəqələrinin inkişafına xidmət sahəsi ciddi təsir göstərmir. Xidmət sektoruna aid obyektlər şəbəkəsi regionda qeyri-bərabər paylanmışdır. Bir çox kənd yaşayış məntəqələrində əhali az olduğundan sosial xidmət obyektlərinin yaradılması səmərəsizdir, yalnız məişət ehtiyacları üçün mağazalar işləyir.

"Davamlı sosial-iqtisadi inkişafı təmin etmək üçün dövlət siyasətinin prioritetlərindən biri sağlam həyat tərzinin formalaşdırılması, tibbi xidmətin əlçatanlığının və keyfiyyətinin artırılması yolu ilə əhalinin sağlamlığının qorunması və möhkəmləndirilməsidir" [9, s. 198]. Tibbi yardımın yaxşılaşdırılması üçün ilk növbədə kənd yerlərində poliklinikaların tikilməsi, onların tibb kadrları ilə komplektləşdirilməsi vacibdir. İnzibati rayonlarda kənd əhalisinin üstünlük təşkil etməsi və əksər hallarda kəndlərin rayon mərkəzlərindən uzaqda yerləşməsi nəzərə alınaraq bu problem qısa zamanda öz həllini tapmalıdır. Əhalinin tibbi xidmət üçün rayon mərkəzlərinə müraciət etməsi çətin olduğundan ilkin tibbi yardımın əlçatanlığı aşağı səviyyədədir. 2021-ci ilin statistik məlumatlarına görə Cənub bölgəsində

"həkimlərin sayı 849 nəfər, orta tibb işçilərinin sayı 2755 nəfər, xəstəxanaların sayı 14, xəstəxana çarpayılarının sayı 1416, əhaliyə ambulator-poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı 176, ambulator-poliklinik müəssisələrinin gücü (bir növbədə gəlişlərin sayı) 6486 kimi müəyyən edilmişdir" [1, s.415].

Hazırda Lənkəran və Cəlilabad inzibati rayonlarında müalicə-diaqnostika mərkəzləri tikilib. Lakin onların maddi-texniki bazası, həkim və tibb bacılarının fəaliyyəti ilə bağlı problemlər həllini tapmamış qalır. "İqtisadi-coğrafi rayonda özəl sektorun (kiçik və orta klinikaların, stomatoloji obyektlərin, dərman təchizatı müəssisələrinin, müalicə vannaları təklif edən sağlamlıq obyektlərinin, sanatoriyaların və s.) inkişafı həvəsləndirilməlidir" [7, s.91].

Regionlarda sosial-mədəni xidmət sahəsində problemlər sırasında məktəbəqədər uşaq müəssisələrinin sayının azlığı, uşaqların belə müəssisələrlə təminatının aşağı səviyyədə olması da var. Əhalinin həyat səviyyəsinin yüksəldilməsinə mühüm təsir göstərən sahələrdən biri də əhaliyə pullu sosial xidmətlərin göstərilməsi, ticarət və ictimai iaşə xidmətlərinin göstərilməsidir. Lənkəran-Astara iqtisadi rayonunda "gələcək perspektivdə dayanıqlı inkişafa nail olmaq, ərzaq təhlükəsizliyinin qarşısını almaq, əhalinin məşğulluq problemini həll etmək, regionun rəqabətqabiliyyətliliyini yüksəltmək, iqtisadi dayanıqlılığa və kənd təsərrüfatının yenidən dirçəldilməsinə nail olmaqdan ötrü iqtisadi rayonda yeni formalı aqroparkların yaradılması sürətləndirilməli, pilot layihələrin tədqiqat işləri davam etdirilməlidir" [6, s.70].

Regionun inkişafında sosial məsələlərin həlli istiqamətində zəruri tədbirlər həyata keçirilib və daim insan amilinə diqqət yetirilib, bu sahəyə xidmət edən sosial infrastrukturun yaxşılaşdırılması istiqamətində xeyli işlər görülüb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə təhsil, səhiyyə, mədəniyyət və digər sosial sahələrdə həyata keçirilən layihələrin miqyası minlərlə insanın sosial şəraitinin yaxşılaşdırılması üçün yeni imkanlar yaradıb. Cənub bölgəsinin şəhər və rayonlarının davamlı inkişafının təmin edilməsi məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində şəhər, qəsəbə və kəndlərin siması köklü surətdə abadlaşıb. Dövlət proqramları çərçivəsində regionda infrastrukturun bərpası və inkişafı, əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz və su ilə təminatı, səhiyyə və təhsil müəssisələrinin tikintisi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilib. "Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastruktur sahələri zamanın tələblərinə uyğun olaraq modernləşdirilməli və yenidən qurulmalı, bu istiqamətdə dövlətin gördüyü işlər gələcəkdə də davam etdirilməlidir" [8, s.17].

## Nəticə

Qlobal səviyyədə elmi, siyasi və sosial birliklər tərəfindən təsdiq edilən davamlı inkişaf konsepsiyası respublikamız da, daxil olmaqla, əksər dövlətləri tərəqqi üçün hərtərəfli milli strategiyalar qəbul etməyə vadar etmişdir. Cənab Prezident İlham Əliyevin müdrikliyi, uzaqgörənliyi sayəsində Azərbaycanı daha təhlükəsiz, sabit və firavan gələcəyə doğru aparır və əsasını qoyduğu uzaqgörən inkişaf proqramları ilə uzlaşır. Regional inkişaf mərkəzləri vasitəsilə bölgələrdə tarazlı sosial-iqtisadi inkişafın təmin edilməsinin stimullaşdırılması, bu yolla regional bərabərsizliyin azaldılması, iqtisadi resursların əsasən mərkəzi şəhərlərdə təmərküzləşməsinin səngidilməsi zəruridir. Cənab Prezident İlham Əliyevin siyasətinin təməl daşı olan iqtisadi və sosial-mədəni tərəqqi həm şəhər, həm də kənd yaşayış məntəqələrində həyat şəraitinin yaxşılaşdırılmasının əsasını təşkil edir. İqtisadi rayonların ərazi strukturunun əsas komponentləri iqtisadi qovşaqlar, iqtisadi mərkəzlər və

iqtisadi məntəqələrdir. Bu komponentlər regional inkişafı əhəmiyyətli dərəcədə formalaşdırır. Lənkəran-Astara iqtisadi rayonunda sənayenin zəif inkişafı, sənaye istehsalında rayonun xüsusi çəkisinin az olması, bu sahədə əhalinin məşğulluğunun aşağı səviyyədə olması kimi problemlər Cənab Prezident İlham Əliyevin təşəbbüsü sayəsində fəal şəkildə həll edilir. Cənab Prezident İlham Əliyevin müəssisələrin texniki və texnoloji cəhətdən modernləşdirilməsi və işçi qüvvəsinin dirçəldilməsi yolu ilə keçid maneələrini aradan qaldırmaq təşəbbüsü təqdirəlayiqdir. Cənab Prezident İlham Əliyevin inkişaf proqramlarının bir hissəsi kimi, dövlət vəsaitlərinin davamlı şəkildə ayrılması dövlətin davamlı inkişafın həyata keçirilməsinə və vətəndaşların həyat keyfiyyətinin yaxşılaşdırılmasına sadiqliyini vurğulayır. Bu səylər xalqımızın davamlılığını və tərəqqiyə sadiqliyini əks etdirir.

**Ədəbiyyat:**


1. Azərbaycanın regionları (2022). Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı , "Narıncı Nəşriyyat Evi" MMC, 775 səh.
2. Ələkbərov U. (2017), Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. Ali məktəblər üçün dərslik. Bakı, "Təhsil", , 176 səh.
3. Hüseynov S. (2020). Davamlı inkişafın sosial-fəlsəfi mahiyyəti. Davamlı inkişafin sosial və fəlsəfi problemləri. Bakı, "Elm və təhsil", 312 səh.
4. Kərimov R. (2015). Lənkəran-Astara iqtisadi rayonunda kənd məskunlaşması və onun davamlı inkişafı problemləri. Coğrafiya və təbii resurslar, №1, səh.91-95.
5. Məmmədov Q.Ş, Xəlilov M.Y. (2005). Ekologiya və ətraf mühitin mühafizəsi. Bakı, "Elm" nəşriyyatı , 880 s.
6. Mirzəyev R. (2018) Lənkəran-Astara iqtisadi rayonunda aqroparkların yaradılma xüsusiyyətləri. Sumqayıt Dövlət Universiteti – "ELMİ XƏBƏRLƏR"– Sosial və humanitar elmlər bölməsi. Cild 14 № 4
7. Niftiyev F. (2016). Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda səhiyyə müəssisələrinin ərazi təşkili və onlarda göstərilən xidmət səviyyəsinin yüksəldilməsi. Coğrafiya və təbii resurslar, №1, səh.89-92.
8. Niftiyev F. (2017). Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastrukturun inkişafi və ərazi təşkilinin coğrafi problemləri. Coğrafiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 26 səh.
9. Rəcəbli H. (2022). Sosial sahələrin idarə edilməsi. Bakı, "Bakı mətbəəsi" ASC, 395 səh.
10. Какутич Е.Ю. (2010). Устойчивое развитие как концептуальная основа трансформации мировой экономики. Часть 1. Механізм регулювання економіки, No 1. 62-74 ст.
11. Мамедова С. З. (2019). Экологическая оценка почв Ленкоранской зоны. Бюллетень науки и практики / Bulletin of Science and Practice. Т. 5. №4. С. 175-183.
12. Pashaev N. A., Eyubov N. Kh., Eminov Z. N. (2010). Economic, social and political geography of the Republic of Azerbaijan. Baku: Pab. Chirag,. 416 p.
13. Rao, Narasimha D.; Min, Jihoon (July 2018). "Decent Living Standards: Material Prerequisites for Human Wellbeing". Social Indicators Research.138 (1): 225–244.
14. "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 13 fevral 2018-ci il. https://e-qanun.az/framework/37876
15. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatı. https://stat.gov.az/ 2022
16. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 aprel 2017-ci ildə "Azərbaycan Respublikasında şəkər çuğunduru istehsalının stimullaşdırılması haqqında" fərmanı. https://e-qanun.az/framework/35165


***Açar sözlər:*** *davamlı inkişaf konsepsiyası, Lənkəran-Astara iqtisadi rayonu, regionlarda məşğulluq, iqtisadi siyasət, həyat səviyyəsi*

**Fagan Tahirli**

*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Ph.D. Student*

# SUSTAINABLE DEVELOPMENT POLICY IN THE SOUTHERN REGION OF AZERBAIJAN

## ABSTRACT

Regions play a significant role in relevant processes as they contain the main elements of sustainable development. Therefore, the concept of sustainable development is related to the need to ensure a decent standard of living for people in all regions of the country. Clarification of the general goals of regional policy requires consideration of national characteristics.

The article reflects on the essential aspects of sustainable development policy in the Lankaran-Astara economic region located in the southern region of Azerbaijan. In general, ensuring the development of agriculture in the Lankaran-Astara economic region and increasing the incomes of the population and the volume of production are very important nowadays. This critical issue is related to the strengthening of production and the socio-cultural potential of the region. For this, it is necessary to increase the productivity of agricultural plants per local conditions, expand selection works for growing new varieties, comply with agrotechnical requirements, and expand the material and technical base of farms. Creating specialized enterprises and warehouses is necessary to increase the production and supply of cultivated products.

The tourism industry, which has been developing rapidly in recent years, has made an essential contribution to the country's economy, has great medical-geographical, historical-cultural, anthropogenic-archeological, and infrastructural potential, and is of particular importance for the socio-economic development of Azerbaijan. The traditions of the population, national-ethnic diversity, national cuisine, various fields of agriculture, and forests in mountainous areas are potential resources for developing various fields of tourism in the country. It is necessary to create a network of infrastructure facilities that meet modern requirements to use them.

***Keywords:*** *concept of sustainable development, Lankaran-Astara economic region, employment in the regions, economic policy, standard of living*

**Фаган Тахирли**

*Докторант кафедры "Планирования и управления устойчивым развитием"
Академии Государственного Управления
при Президенте Азербайджанской Республики*

# ПОЛИТИКА УСТОЙЧИВОГО РАЗВИТИЯ В ЮЖНОМ РЕГИОНЕ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

Регионы играют важную роль в соответствующих процессах, поскольку содержат в себе основные элементы концепции устойчивого развития. Поэтому концепция устойчивого развития связана с необходимостью обеспечения достойного уровня жизни людей во всех регионах страны. Уточнение общих целей региональной политики требует учета национальных особенностей. В данной статье отражены важные аспекты политики устойчивого развития в Ленкорань-Астаринском экономическом районе, расположенном в южном регионе Азербайджана. В целом обеспечение развития сельского хозяйства в Лянкяран-Астаринском экономическом районе, увеличение доходов населения и объёмов производства в настоящее время очень важно. Данный вопрос связан с укреплением производственного и социально-культурного потенциала региона. Для этого необходимо повысить продуктивность сельско-хозяйственных растений в соответствии с местными условиями, расширить селекционную работу по выращиванию новых сортов, соблюдать агротехнические требования, расширить материально-техническую базу хозяйств. Для увеличения производства и поставок выращиваемой продукции крайне необходимо создание специализированных предприятий и складов.Индустрия туризма, быстро развивающаяся в последние годы, внесла важный вклад в экономику страны, имеет большой медико-географический, историко-культурный, антропогенно-археологический и инфраструктурный потенциал, а также особое значение для социально-экономического развития Азербайджана. Традиции населения, национально-этническое многообразие, национальная кухня, наличие различных отраслей сельского хозяйства, лесов в горных районах являются потенциальными ресурсами для развития различных сфер туризма в стране. Для их использования необходимо создать сеть инфраструктурных объектов, отвечающих современным требованиям.

***Ключевые слова:*** *концепция устойчивого развития, Лянкяран-Астаринский экономический район, занятость в регионах, экономическая политика, уровень жизни*

DOI: 10.30546/2309-1347.83.2023.199

## G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
## Y O U N G R E S E A R C H E R S

## B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R
## I N T E R N A T I O N A L R E L A T I O N S

UOT 327

**NİSƏ PAŞAYEVA**
**Bakı Slavyan Universitetinin doktorantı**
*e-mail: nisa.pashayeva@mys.gov.az*

# AZƏRBAYCANDA GƏNCLƏR SİYASƏTİNİN FORMALAŞMASI VƏ BEYNƏLXALQ SƏVİYYƏDƏ ONUN PRİORİTETLƏRİ

Qədim dövrlərdən başlayaraq, Azərbaycanda əhalinin ən fəal sosial qrupu olan, cəmiyyətin və dövlətçilik ənənələrinin inkişafında öz sözünü deyən gənclər müxtəlif dövrlərdə baş verən hadisələrdə və cərəyan edən proseslərdə yaxından iştirak ediblər. Azərbaycan şifahi xalq ədəbiyyatında, nağıl və dastanlarda, klassik şair və yazıçıların əsərlərində çoxsaylı gənc qəhrəmanlardan, onların vətənpərvər, zəhmətsevər, sadiq və ədalətli olmalarından, xeyirlə şərin mübarizəsində birincinin yanında yer almalarından, vətənin müdafiəsində və düşmənlərə qarşı mübarizədə göstərdikləri igidlikdən bəhs olunur. Cavanşir, Babək, Şah I İsmayıl, Şah I Abbas və başqaları gənc yaşlarından nümayiş etdirdikləri dövlətçilik qabiliyyəti ilə öz adlarını əbədi olaraq tarixə həkk ediblər. XIX əsrin ilk onilliklərində tarixi Azərbaycan torpaqlarının Rusiya və Persiya arasında bölüşdürülməsindən sonra, istər cənubda, istərsə də şimalda azərbaycanlı əhali, xüsusilə də gənclər müstəqil dövlətçiliyin itirilməsi faktı ilə barışmamış, müxtəlif forma və vasitələrdən istifadə edərək, öz azadlığı uğrunda açıq və ya gizli şəkildə mübarizəsini davam etdirmişdir. Eyni zamanda, azərbaycanlı gənclərin bir hissəsi, mümkün olan imkanlardan istifadə edərək, öz elmi və yaradıcı potensialını üzə çıxarmağa çalışmış, Rusiya imperiyasının və xarici ölkələrin ali məktəblərində təhsil almış və sonradan müxtəlif sahələrdə göstərdikləri fəaliyyət ilə mənsub olduqları xalqı layiqincə təmsil etmiş, onun inkişafına, tərəqqisinə, milli-azadlıq hərəkatına öz töhfəsini vermişdir. Mirzə Kazım bəy, Mirzə Cəfər Topçubaşov, Əlimərdan bəy Topçubaşov, Həsən bəy Zərdabi, Nəsir Tağıyev, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Kərim bə Mehmandarov, Məmmədrza ağa Vəkilov, Yusif Vəzir Çəmənzəminli, Aslan bəy Səfikürdski, Üzeyir Hacıbəyov, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Teymur bəy Makinski və başqaları gənc yaşlarından öz istedad və bacarığı, milli və ictimai əhəmiyyətli fəaliyyəti ilə seçilən şəxslər sırasında yer almışdılar. Yeniyetmə yaşlarından həyatlarını hərbi işə həsr edən Kəlbalı xan, Hüseyn xan və Cəmşid xan Naxçıvanskilər, İsmayıl bəy Qutqaşınlı, Fərəc bəy Ağayev, Balakişi Ərəblinski, Cəfərqulu ağa, Həsən ağa və Abdulla xan Bakıxanovlar, Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov, Həsən bəy Ağalarov, İsrafil bəy Yadigarov, Mirkazım bəy və Əsədbəy Talışxanov, İbrahim ağa Vəkilov general rütbəsinə qədər yüksəlmiş və Rusiya imperiyasında, bəziləri həmçinin Azərbaycan Xalq Cümhuriyyətində və Azərbaycan SSR-də hərb sənətinin inkişafına öz töhfələrini vermişdilər.

Ümumilikdə, 1920-ci ilə qədər olan dövrdə 770 nəfərdən çox azərbaycanlı gənc müxtəlif ölkələrdə ali təhsil almışdı [1, s.23-56].

XIX əsrin 30-cu illərinə qədər Azərbaycanda gənclər əsasən mədrəsə və mollaxanalarda təhsil alırdılar. Qeyd olunan dövrdən başlayaraq isə, dövlət tərəfindən qəza məktəbləri açılmağa başladı. Şuşa, Gəncə, Nuxa, Şamaxı və Dərbənddə artıq belə məktəblər fəaliyyət göstərirdi. XIX əsrin son onilliklərində qəzalarda şəhər və kənd məktəbləri meydana gəldi. Məktəblərdə tədris rus dilində aparılırdı. 1879-cu ildə, 1871-ci ildən fəaliyyət göstərən və 16-19 yaşlı gənclərin qəbul olunduğu Qori Müəllimlər Seminariyasının nəzdində Azərbaycan şöbəsi yaradıldı və bu şöbə azərbaycanlı müəllim kadrların hazırlanmasında əhəmiyyətli rol oynamışdı [2, s. 213-220].

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Şimali Azərbaycanda kapitalizmin inkişafı milli burjuaziyasının formalaşması ilə müşayiət olunurdu. Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Musa Nağıyev, Murtuza Muxtarov və başqalarının Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafı yolunda atdıqları ciddi addımlar gənc azərbaycanlıların sonrakı taleyində müsbət rol oynamışdı. Məhz milli burjuaziyanın maliyyə dəstəyi ilə Azərbaycanda məktəb şəbəkəsi genişlənmiş, azərbaycanlı qızların bir hissəsi təhsilə cəlb olunmuş, qabiliyyətli gənclər ali təhsil almaq üçün Rusiya və xarici ölkələrə göndərilmiş, milli mətbuat və teatr inkişaf etmişdi.

Azərbaycanın milli-demokratik ruhlu ziyalıları da (M.F.Axundov, H.Zərdabi, S.Ə.Şirvani, N.Vəzirov, Ü.Hacıbəyov, C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov, M.Ə. Rəsulzadə, Ə.Topşubaşov, Ə.Ağayev, Ə.Hüseynzadə, Y.V.Çəmənzəminli, Ə.Haqverdiyev və başqaları) gənclərin təhsili, tərbiyəsi və formalaşması məsələlərini həmişə diqqət mərkəzində saxlayırdılar.

XX əsrin əvvəllərində siyasi fəaliyyətə qoşulan azərbaycanlı gənclər milli azadlıq və hüquqlar uğrunda mübarizə aparırdılar. 1902-ci ildə 18 yaşlı M.Ə.Rəsulzadə tərəfindən Bakıda yaradılan "Müsəlman Gənclik Təşkilatı"nın əsas tələbi ana dilində təhsil almaq imkanlarının yaradılması idi [3, s. 21]. Qeyd olunan dövrdə meydana gələn "Hümmət", "Müsəlman ittifaqı", "Müdafiə" təşkilatları, "Nəşri-Maarif", "Nicat", "Səfa", "Səadət" cəmiyyətləri, "Difai" və "Müsavat" partiyalarının sıralarında gənclərin xüsusi çəkisi kifayət qədər yüksək idi.

1918-1920-ci illərdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin gənclər siyasətinin əsasını gənc nəslin təhsil imkanlarının genişləndirilməsi, cəmiyyətdəki rolunun artırılması, dövlət və yerli idarəetmə orqanlarına cəlb olunması təşkil edirdi. 1918-ci ilin noyabrında Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin Qazaxa köçürülməsi, 1919-cu ildə Bakı Dövlət Universitetinin yaradılması AXC-nin gənclərin inkişafı istiqamətində atdığı mühüm addımlardan idi.

1919-cu ilin iyununda Azərbaycan tələbələrinin Bakıda təşkil olunan birinci qurultayında qonşu respublikalarda müsəlmanlara münasibət, Avropa ölkələrinin Qafqaz siyasəti, Cümhriyyət üçün şimaldan gələn təhlükə və s. aktual məsələlər müzakirə obyekti olmuşdu [4, s.15].

AXC dövründə 87 nəfər gənc ali təhsil almaq üçün Fransa, İtaliya, İngiltərə və Türkiyəyə göndərilmiş, onların maliyyə ehtiyaclarını ödəmək üçün 7 milyon manat ayrılmışdı [5, s.49-52].

Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalı nəticəsində AXC süquta uğradı, respublikada sovet hakimiyyəti quruldu və yeni quruluşun formalaşması gənclərin həyatına da təsirsiz qalmadı.

Sovet Azərbaycanında gənclər siyasəti kommunist ideologiyasının təsiri altında formalaşmağa başladı və respublikada kommunist gənclər təşkilatları meydana gəldi. 1920-ci ilin iyul ayında Azərbaycan Kommunist Gənclər İttifaqı (komsomol təşkilatı) təsis olundu. İttifaqın əsas məqsədi gəncləri kommunist ideologiyası ruhunda tərbiyə etməkdən və onları sosializm quruculuğu prosesinə səfərbər etməkdən ibarət idi.

Gənclər arasında aparılan sistemli iş nəticəsində, Azərbaycan komsomolunun sıraları ildən-ilə genişlənirdi. 1926-cı ildə bu təşkilat sıralarında 48 min nəfər gənci birləşdirirdisə, 1932-ci ildə bu rəqəm 162 min nəfərə bərabər olmuşdu [6, s.277-278].

XX əsrin 20-30-cu illərində Azərbaycanda savadsızlığın aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərdə gənclər fəal iştirak edirdilər. Respublikada müxtəlif səviyyələrdə yeni-yeni məktəblər meydana gəlir, şagirdlərin sayı ildən-ilə artırdı. 1940-cı ildə Azərbaycanda 1668 ibtidai məktəb, 1240 yeddiillik məktəb və 3575 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə, müvafiq olaraq, 406153, 192825 və 653071nəfər şagird təhsil alırdı [6, s.317]. Həmin ildə Azərbaycanda mövcud olan 16 ali məktəbdə və 91 orta ixtisas məktəbində təhsil alan gənclərin sayı, müvafiq olaraq, 14,6 min və 17,4 min nəfərə bərabər olmuşdu [6, s.335].

Qeyd etmək lazımdır ki, Stalin dövrünün repressiya siyasəti Azərbaycan gənclərindən də yan keçməmişdi və respublikada təxminən 18 min nəfər gənc repressiyaya məruz qalmışdı [6, s.378].

II dünya müharibəsi zamanı azərbaycanlı gənclər də faşizmə qarşı mübarizə aparanlar sırasında öz yerini tutmuşdu. Azərbaycandan 600 min nəfərdən çox gənc cəbhəyə yola salınmış, onların yarıdan çoxu həlak olmuşdur.

Gənclər müharibədən sonrakı dövrdə də ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatda əsas qüvvə olmuşdur. Onların əsas təşkilati strukturu komsomol olaraq qalırdı. 1960-cı ildə Azərbaycan komsomolunun üzvlərinin sayı 333 min nəfərə bərabər idi [7, s.157].

1969-cu ildə Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi ilə gənclərin həyatında da yeni mərhələ başlandı. Ümummilli Lider gənclərin həm fiziki, həm də mənəvi inkişafı üçün ciddi addımlar atmış, gənc nəsil onun qayğısını həmişə hiss etmişdir.

Heydər Əliyevin gənclər siyasətində elm və təhsil əsas istiqamətlərdən biri olmuşdur. Həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanda təhsil müəssisələrinin sayı artmış, onların maddi-texniki bazası möhkəmləndirilmişdir. Heydər Əliyev Azərbaycandan olan gənclərin respublikadan kənarda ali təhsil almasına müsbət yanaşırdı. Keçən əsrin 70-80-ci illərində Heydər Əliyevin təşəbbüsü ilə minlərlə azərbaycanlı gənc SSRİ-nin 170-dən çox ali təhsil ocağında təxminən 250 ixtisas üzrə təhsil almışdır [8, s.20-21]. Hər il 350-400 nəfər ali təhsil arxasınca respublikadan kənara göndərilirdi [9, s.117].

Heydər Əliyev gənclər arasında hərbi işə marağın artırılmasına da xüsusi diqqət yetirirdi. Onun təşəbbüsü ilə 1971-ci ildə Bakıda C.Naxçıvanski adına hərbi liseyin açılması məhz bu məqsədə xidmət edirdi.

Keçən əsrin 80-ci illərinin sonlarında SSRİ-də bütün sahələri əhatə edən böhran sonda sovet dövlətinin süqutu ilə nəticələndi. Böhran gənc nəslin həyatına da öz mənfi təsirini göstərmişdi. Gənclər işsizlikdən, təhsil sahəsindəki geriləmələrdən, mənəvi dəyərlərin aşınmasından, təhlükəsizlik sisteminin zəifləməsindən, ziyanlı vərdişlərin və təmayüllərin yayılmasından əziyyət çəkirdi. Yeni çağırışlara cavab vermək iqtidarında olmayan komsomol təşkilatı 1991-ci ildə tarix səhnəsini tərk etmək məcburiyyətində qalmışdı.

Müstəqil Azərbaycan Respublikasında 14 yaşdan 29 yaşadək olan insanlar gənc hesab olunur və bu, “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda [10] özünün rəsmi ifadəsini tapmışdır.

Hal-hazırda Azərbaycan əhalinin təxminən 22 %-ni gənclər təşkil edir. 2022-ci ildə respublikada əhalinin ümumi sayı 10156,4 nəfərə, gənclərin sayı isə 2245,1 nəfərə bərabər olmuşdu, yəni ümumi əhalinin 22,1 %-i gənclər kateqoriyasına daxil olan insanlar idi [11]. Onu da qeyd etmək lazımdır ki, 2008-ci ildən başlayaraq, Azərbaycanda əhalinin tərkibində gənclərin xüsusi çəkisinin azalması müşahidə olunur. Məsələn, 2000-ci ildə respublika əhalisinin 28,3%-i, 2008-ci ildə 31,7%-i gənclər idisə, 2016-cı ildə bu göstərici 27,1%-ə, 2022-ci ildə isə, yuxarıda qeyd olunduğu kimi, 22,1%-ə qədər azalmışdı [11]. Əhalinin ümumi sayının artımı fonunda

gənclərin xüsusi çəkisinin azalmasını, bir tərəfdən, orta ömür müddətinin uzanması və bunun da nəticəsində yaşlı əhalinin sayının artması, digər tərəfdən isə, gənclərin müəyyən hissəsinin təhsil və iş arxasınca xarici ölkələrə üz tutması ilə izah etmək olar.

Azərbaycanda gənclər arasında kişilər və qadınların nisbətində nəzərəçarpacaq fərq yoxdur. 2000-ci ildə gənc kişilərin sayı 1144,1 nəfərə, gənc qadınların sayı isə 1125,3 nəfərə bərabər idisə, 2022-ci ildə bu göstəricilər, müvafiq olaraq, 1179,7 nəfər və 1085,4 nəfər təşkil edirdi. 2000-ci ildə respublika üzrə kişi əhalinin 29,0%-i, qadın əhalinin 27,4%-i gənclər kateqoriyasına daxil idi. 2022-ci ildə isə gənclərin xüsusi çəkisi kişi əhalinin tərkibində 23,2%-ə, qadın əhalinin tərkibində isə 21,0%-ə bərabər olmuşdu [11].

Gənclərin yaş qruplarına görə təsnifatına gəldikdə, 2022-ci ildə respublika əhalisinin 1,2%-ni 14 yaşlı, 6,1%-ni 15 yaşdan 19 yaşadək, 6,5%-ni 20 yaşdan 24 yaşadək, 8,3%-ni isə 25 yaşdan 30 yaşadək olan gənclər təşkil edirdi. Müqayisə üçün qeyd etmək olar ki, 2000-ci ildə bu göstəricilər, yaş qrupları üzrə müvafiq olaraq, 2,3%, 10,0%, 8,2% və 7,8% təşkil edirdi (11).

Müstəqil Azərbaycanda gənclər siyasəti dövlət tərəfindən həyata keçirilir. Bu siyasətin məqsədi, prinsipləri, həyata keçirilmə mexanizmi və bu sahədə dövlətin vəzifələri, Ümummilli Lider Heydər Əliyev tərəfindən 2002-ci il aprelin 9-da imzalanan "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda [10] öz əksini tapmışdır. Bu Qanuna əsasən "gənclər siyasətinin əsas məqsədi gənclərin fiziki, əqli və mənəvi inkişafına şərait yaratmaq, onların imkan və bacarıqlarının reallaşdırılmasına, sosial və iqtisadi problemlərinin həllinə və hüquqlarının müdafiəsinin təmin olunmasına kömək" etməkdən ibarətdir. Gənclər siyasətinin, Qanunla müəyyənləşdirilən prinsiplərinə gənclərin Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, cəmiyyət həyatında gənclərin fəal iştirakının təmin edilməsi, onların ümummilli problemlərin həlli üçün səfərbər olunması, qadın və kişilərin hüquq bərabərliyinə riayət edilməsi, qanunla müəyyənləşdirilən hallar istisna olmaqla, yaşa görə gənclərin hüquq və azadlıqlarının məhdudlaşdırılmasının yolverilməzliyi, gənclərin maraq və ehtiyaclarının nəzərə alınması, gənclər siyasətinin formalaşmasında, həyata keçirilməsində və qiymətləndirilməsində onların iştirakının təmin olunması və rəyinin nəzərə alınması, gənclərin təhsil və məşğulluğunun təmin olunması üçün şəraitin yaradılması daxildir [10].

Azərbaycanda gənclər siyasətinin həyata keçirilməsi sahəsində dövlət öz üzərinə geniş spektrdə vəzifələr götürmüşdür. Dövlət, özündə müxtəlif tədbirləri ehtiva edən proqramlar həyata keçirir, gənclər siyasəti ilə bağlı olan hüquqi və fiziki şəxslərin fəaliyyətini əlaqələndirir, gənclərin inkişafı, təhsili, tərbiyəsi, qorunması, potensialının üzə çıxarılması, məşğulluğu, sosial müdafiəsi, informasiya təminatı, beynəlxalq əlaqələrinin genişləndirilməsi, hərbi xidmətə hazırlanması sahəsində tədbirlər həyata keçirir, bu tədbirlərin maliyyələşdirilməsində əsas rol oynayır [10].

Respublikada gənclər siyasətinin reallaşdırılması ilə müxtəlif orqan və təşkilatlar məşğul olur. Bu sırada ilk növbədə, 1994-cü ildə yaradılan Gənclər və İdman Nazirliyini qeyd etmək lazımdır. 2001-ci ildə bu nazirlik və Turizm Nazirliyi birləşdirilərək, Gənclər, İdman və Turizm Nazirliyi yaradıldı. 2006-cı ildə bəzi nazirliklərin yenidən təşkil olunması nəticəsində, Gənclər və İdman Nazirliyi yenidən ayrı nazirliyə çevrildi [5]. Gənclərin tərbiyəsi, fiziki və mənəvi inkişafı, sağlamlığının qorunması, beynəlxalq əlaqələrinin genişləndirilməsi, onların cəmiyyətə inteqrasiyasının təmin olunması və s. bu nazirliyin əsas fəaliyyət dairəsini təşkil edir.

Gənclər və İdman Nazirliyi ilə yanaşı, digər nazirlik və komitələrin tərkibində də gənclərlə iş üzrə strukturlar mövcuddur. Fəaliyyəti gənclərlə daha çox bağlı olan Təhsil Nazirliyi və Müdafiə Nazirliyini xüsusi qeyd etmək lazımdır.

2011-ci ildə, Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə Gənclər və İdman Nazirliyinin nəzdində Gənclər Fondu təsis edildi. Bu Fondu yaratmaqda əsas məqsəd gənclərin elm və təhsilə marağını stimullaşdırmaqdan, onların məşğulluğunun təmin olunmasına və beynəlxalq tədbirlərdə iştirakına yardım göstərməkdən ibarətdir. Qeyd olunan məqsədlərə nail olmaq üçün qrant müsabiqələri keçirilir, gənclərlə bağlı proqramlar dəstəklənir və s. Gənclərə göstərilən maliyyə yardımlarına gəldikdə isə, Fond həm ayrı-ayrı gənclərin, həm də gənclər təşkilatlarının müxtəlif tədbir və proqramlarda iştirakını maliyyələşdirir. Bundan başqa, o, respublikada mövcud olan çoxsaylı Gənclər evlərinin fəaliyyətinə də öz yardımını göstərir [13].

Azərbaycanda yaradılan demokratik mühit, gənc nəslin təşəbbüskarlığı və təşkilatlanması üçün geniş imkanların mövcudluğu gənclər tərəfindən qeyri-hökumət təşkilatlarının yaradılmasını şərtləndirən amillərdəndir. Hal-hazırda respublikada onlarla belə təşkilat fəaliyyət göstərir. Azərbaycan Gənclər Təşkilatları Milli Şurası, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, Qərbi Azərbaycan İcması Gənclər Birliyi, Azərbaycan Diaspora Gəncləri və s. təşkilatlar gənclərin hərtərəfli inkişafı, bacarıq və potensialının üzə çıxarılması, respublika və beynəlxalq səviyyəli tədbirlərin təşkili və orada onların iştirakının təmin olunması istiqamətində əhəmiyyətli addımlar atırlar.

Ümummilli Lider Heydər Əliyevin gənclərə diqqətinin təzahürlərindən biri, 1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin I Forumunun keçirilməsi idi. İki min nəfərdən çox gəncin qatıldığı bu Forumda müzakirə olunan məsələləri 2 qrupa bölmək olar. Birinci qrupa gənclərin ehtiyacları və imkanları, ikinci qrupa isə, onların vəzifələri ilə bağlı məsələlər daxil idi. Tədbirdə Heydər Əliyevin və dövlət orqanları rəhbərlərinin iştirakı [23, s.52] Azərbaycanda gənclər siyasətinə nə dərəcədə diqqət və həssaslıqla yanaşıldığının təzahürüdür.

Respublika gənclərinin forumları sonrakı illərdə də təşkil olunmuş və bu vaxta qədər 9 belə tədbir keçirilmişdir.

Prezident Heydər Əliyevin 1997-ci ildə imzaladığı Sərəncama uyğun olaraq, hər il fevralın 2-si Azərbaycanda gənclər günü kimi qeyd edilir.

Rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi, yeni-yeni çağırışların meydana gəldiyi müasir dövrdə Azərbaycanda gənclərin cəmiyyətə inteqrasiyasını, idarəetmədə iştirakını və məşğulluğunu təmin etmək, sahibkarlıq təşəbbüsünü stimullaşdırmaq, beynəlxalq əlaqələrini genişləndirmək məqsədilə dövlət proqramları həyata keçirilir. 2005-ci il avqustun 30-da Prezident İlham Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan gəncliyi dövlət proqramı (2005-2009-cu illər)" [15] yuxarıda qeyd olunan məqsədlərə nail olmaq üçün həyata keçirilən ilk proqram idi. Bundan başqa, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" (16), "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" [17, s.2-3] dövlət proqramları reallaşdırılmışdır.

Azərbaycanda dövlət gənclər siyasətinin məqsəd və hədəfləri, həyata keçirilmə mexanizmi, 2015-ci il yanvarın 28-da Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilən "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nda [18] öz əksini tapmışdır. Gənclərin təşəbbüskarlıq və peşəkarlığının artırılması, problemlərinin həll edilməsi, elm və təhsil sahəsində iştirakının inkişaf etdirilməsi, beynəlxalq əməkdaşlığının dərinləşdirilməsi, xarici ölkələrdəki azərbaycanlılarla əlaqələrin genişləndirilməsi qeyd olunan Strategiya ilə müəyyənləşdirilən əsas vəzifələr idi.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan gənclər siyasətinin əsas istiqamətlərindən biri azərbaycanlı gənclərin beynəlxalq arenada təmsil olunmasına, beynəlxalq gənclər siyasətinin fəal iştirakçısına çevrilməsinə və bu yolla elmdə, təhsildə, sahibkarlıqda və başqa sahələrdə onların inkişaf imkanlarının genişləndirilməsinə yönəlmişdir. Müasir dövrdə bütövlükdə dünyada və ayrı-ayrı regionlarda inteqrasiya meyllərinin getdikcə genişlənməsi, qloballaşma, mövcud çağırış və təhlükələrə birlikdə cavab vermək cəhdləri, müxtəlif

ölkələrin iş standartları və həyat tərzi arasındakı fərqlərin sürətlə aradan qalxması Azərbaycana da təsirsiz qalmamış, gənclərin beynəlxalq tədbirlərdə iştirakını zərurət olaraq ortaya çıxarmışdır.

Azərbaycanda, ümumilikdə gənclər siyasətində olduğu kimi, onun bir modulunu təşkil edən beynəlxalq gənclər siyasətinin həyata keçirilməsində də dövlət əsas missiyanı öz üzərinə götürmüşdür. "Gənclər siyasəti haqqında" Qanunda gənclərin beynəlxalq səviyyəli tədbirlərdə iştirakı və xaricdəki azərbaycanlı gənclərlə qarşılıqlı əlaqələrin qurulması üçün imkanların yaradılması Azərbaycan dövlətinin vəzifələri sırasında yer almışdır [10].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən 1999-cu ildə təsdiq edilən "Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı"nda, gənclərin beynəlxalq fəaliyyətinə yardım göstərmək məqsədilə müəyyən tədbirlər nəzərdə tutulmuşdur. Bura beynəlxalq tədbirlərdə iştirak etmək məqsədilə ölkə xaricinə gedən gənclərin güzəştli təyyarə biletləri ilə təmin olunması, gənc nəslin nümayəndələrinin xaricdə təhsil alması üçün şəraitin yaradılması, gənclərin təsis etdikləri beynəlxalq qurumların Azərbaycanda nümayəndəliklərinin açılması və s. daxildir [19].

Gəncləri beynəlxalq əlaqələri genişləndirməyə təşviq etmək və bu istiqamətdə konkret addımların atılması üçün şərait yaratmaq "Azərbaycan gəncliyi" dövlət proqramlarında [15; 16; 17] və Azərbaycan gənclərinin İnkişaf Strategiyasında [18] da əsas vəzifələr sırasında yer almışdır.

Azərbaycanda beynəlxalq gənclər siyasətinin inkişafına öz töhfəsini verən strukturlar sırasında Gənclər Fondunu xüsusi qeyd etmək lazımdır. Fond Azərbaycandan olan gənclərin beynəlxalq tədbirlərdə və təcrübə proqramlarında iştirakına maliyyə dəstəyi verir, gənclərlə bağlı beynəlxalq layihələrin reallaşdırılması üçün qrantlar ayırır və s. [13].

Respublikada beynəlxalq gənclər siyasəti konkret prioritet istiqamətlər üzrə həyata keçirilir. Bu prioritetlər sırasında elm və təhsil sahəsində əlaqələrin genişləndirilməsi, gənclərin beynəlxalq idman yarışlarında, beynəlxalq könüllülük hərəkatında iştirakı üçün şəraitin yaradılması xüsusi əhəmiyyət kəsb edir.

Müasir dövrdə elm və təhsil sahəsində beynəlxalq inteqrasiya proseslərində fəal iştirak etmək təkcə gənclərin deyil, ümumilikdə bu sahə ilə məşğul olan hər bir fərdin və təşkilatın qarşısında duran vəzifəyə çevrilmişdir və bu istiqamətdə sistemli fəaliyyət göstərmədən ciddi uğur əldə etmək qeyri-mümkündür. Beynəlxalq elmi əlaqələrin genişləndirilməsi, xarici ölkələrin müvafiq elm və təhsil müəssisələri ilə birgə elmi layihələrin reallaşdırılması, müəllim və tələbə mübadiləsinin həyata keçirilməsi ümumilikdə ölkənin inkişafı baxımından da böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda gənclərin bilik və bacarıqlarını, təhsilini və elmi tədqiqat sahəsindəki fəaliyyətini inkişaf etdirmək məqsədilə dövlət siyasəti həyata keçirilir. Respublikanın yüksək ixtisaslı kadrlara olan ehtiyacını ödəmək üçün istifadə olunan yollardan biri gəncləri təhsil almaq üçün xarici ölkələrin nüfuzlu ali məktəblərinə göndərmək praktikasıdır. Azərbaycanda bu praktikadan, yuxarıda qeyd olunduğu kimi, ümummilli lider Heydər Əliyev hələ keçən əsrin 70-80-ci illərində istifadə etmişdir. O zaman onun təşəbbüsü ilə minlərlə azərbaycanlı gənc keçmiş sovet respublikalarının aparıcı ali təhsil ocaqlarına göndərilmiş və müsbət nəticələr əldə olunmuşdur. Müasir mərhələdə bu səmərəli işi davam etdirən Prezident İlham Əliyevin 16 aprel 2007-ci ildə təsdiq etdiyi "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na uyğun olaraq, qeyd olunan illər ərzində 3558 nəfər azərbaycanlı gənc 32 ölkənin təxminən 350 ali məktəbində müxtəlif ixtisaslar üzrə təhsil almışdır. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nda Azərbaycan ali məktəblərinin xaricdəki tərəfdaş ali təhsil müəssisələri ilə birlikdə ikili diplom layihələrini həyata keçirilməsi barədə müddəa yer almışdır [20]. Bu proqramın reallaşdırılmasının

real nəticəsi olaraq, hal-hazırda “ADA” Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan-Fransız Universitetində məzunlara iki diplom verilir.

Azərbaycan Prezidentinin 28 fevral 2022-ci ildə təsdiq etdiyi növbəti proqramda, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”nda 2000 nəfər gəncin xarici ölkələrdə bakalavr və ya magistr təhsili alması nəzərdə tutulur [21, s.4]. Dövlət proqramları əsasında kadr hazırlığı informasiya texnologiyaları, mühəndislik, iqtisadiyyat, energetika, maliyyə və s. prioritet sahələri əhatə edir.

Beynəlxalq idman yarışlarında Azərbaycan gənclərinin iştirakını təmin etmək sahəsində respublikada davamlı işlər həyata keçirilir. Müasir dünyada idmandan “yumşaq güc” vasitəsi kimi istifadə olunduğu nəzərə alınsa, onda bu sahəyə yetirilən diqqətin nə dərəcədə əhəmiyyətli olduğu aydın olar.

Müstəqil Azərbaycanda bədən tərbiyəsini, idmanı və Olimpiya hərəkatını inkişaf etdirmək məqsədilə kompleks tədbirlər həyata keçirilmiş, beynəlxalq standartlar səviyyəsində infrastruktur yaradılmışdır.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra respublika idmançıları ilk dəfə 1996-cı ildə Olimpiya oyunlarında, Atlantada (ABŞ) keçirilən XXVI Yay Olimpiya Oyunlarında iştirak etmişdilər. Ölkə idmançıları sonrakı illərdə keçirilən Olimpiya oyunlarında da iştirak etmiş və uğurlar qazanmışlar.

Respublikanın beynəlxalq idman siyasətinin təzahürlərindən biri dünya miqyaslı idman yarışlarına ev sahibliyi etməsidir. 2015-ci ildə Bakıda Birinci Avropa oyunları, 2017-ci ildə isə IV İslam Həmrəyliyi Oyunları yüksək səviyyədə keçirilmişdi.

Azərbaycanın idmançılarının beynəlxalq yarışlardakı uğurlarına münasibət bildirən Prezident İlham Əliyev 2022-ci ilin idman yekunlarının müzakirəsi zamanı bildirmişdi ki, respublika təmsilçiləri, 300-ü qızıl medal olmaqla, 800-dən çox medal qazanıblar [22, s.1].

Könüllülük hərəkatının inkişaf etdirilməsi də Azərbaycanın beynəlxalq gənclər siyasətinin prioritetlərindəndir. Respublikada bu sahədəki fəaliyyət 2009-cu ildə qəbul edilən “Könüllü fəaliyyət haqqında” Qanunla tənzimlənir [23]. Hal-hazırda Azərbaycanda ondan çox könüllü təşkilatı mövcuddur. Azərbaycan könüllüləri Birləşmiş Millətlər Könüllüləri Proqramı, Avropa Birliyi Yardım Könüllüləri Avropa Gənclik Forumu, Asiya İnkişaf Bankının Təcrübə Proqramı, Beynəlxalq Könüllülük Proqramları Dərnəyi və s. beynəlxalq proqram və strukturlarda iştirak edirlər [24, s.40-50].

Bakıda keçirilən “Avroviziya” mahnı müsabiqəsinin, Birinci Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, “Formula 1” yarışlarının təşkili prosesində könüllülərin iştirakı Azərbaycanın beynəlxalq gənclər siyasətinin uğuru kimi qiymətləndirilməlidir. Azərbaycan könüllüləri bu ilin fevralında Türkiyədə baş verən zəlzələnin nəticələrinin aradan qaldırılmasında da yaxından iştirak etmişdilər.

Yuxarıda qeyd olunanlardan belə bir nəticə hasil olur ki, tarix boyu gənclər Azərbaycanda cəmiyyətin diqqət mərkəzində olmuş və dövlətçilik ənənələrinin inkişafında fəal rol oynamışlar. XX əsrin əvvəllərində Azərbaycanda gənclərin təşkilatlanması prosesi baş vermiş, onlar ictimai-siyasi həyatda fəal rol oynamağa başlamış, Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan SSR dövründə, hakimiyyətin mahiyyətinə uyğun olaraq, gənclər siyasəti həyata keçirilmişdir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra reallaşdırılan və əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti gənc nəslin inkişafı, fiziki və mənəvi tərbiyəsi və sağlamlığının qorunması, cəmiyyətə inteqrasiyası, idarəetməyə cəlb olunması, beynəlxalq əlaqələrinin genişlənməsi üçün imkanların yaradılmasına istiqamətlənmişdir. Azərbaycanın beynəlxalq gənclər siyasətində isə elm və təhsil, idman və könüllülük sahəsində əlaqələrin inkişafına daha çox diqqət yetirilir.

**Ədəbiyyat:**


1. Tahirzadə Ə. Tahirli O. Azərbaycan Cümhuriyyəti tələbələri (tarixi arayış, bəlgələr, yaşamlar). Bakı, Teas Press, 2016, 1222 s.
2. Talıbov Y.R., Sadıqov F.B., Quliyev C.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı, Ünsiyyət, 2000, 516 s.
3. Yaqublu N. Azərbaycan milli-istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. Bakı, "TS" firmasının mətbəəsi, 2001, 154 s.
4. İsmayılov K. Azərbaycan Xalq Cümhuriyyətinin gənclər siyasəti. // Hərbi and, 2018, 15 noyabr, № 44, s. 15
5. Mərdanov M.C., Quliyev Ə.Q. Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində (1918-1920). Bakı, Çaşıoğlu, 2003, 240 s.
6. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 – iyun 1941). Bakı, Elm, 2000, 568 s.
7. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (iyun 1941 – 2002-ci il). Bakı, Elm, 2003, 676 s.
8. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi. Bakı, Qapp-Poliqraf, 2003, 368s.
9. Zeynalov İ.X. Heydər Əliyev və Azərbaycan gəncləri. // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, № 2, 2008, s. 116-121
10. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu. // https://e-qanun.az/framework/1619
11. Azərbaycam Dövlət Statistika Komitəsi. Əhali. Statisti məcmuələr. Azərbaycan gəncləri // https://www.stat.gov.az/source/demoqraphy/ay/
12. Gənclər və İdman Nazirliyi // https://www.mys.gov.az/nazirlik/nazirlik-haqqinda
13. Azərbaycan Gənclər Fondu // https://youthfoundation.az/
14. Джафаров Х. Гейдар Алиев и государственная молодежная политика. // Известия высших учебных заведений. Поволжский регион. Общественные науки. Политика и право. № 2 (26), 2013, s. 50-57
15. Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər) // https://e-qanun.az/framework/10692
16. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı // https://e-qanun.az/framework/21898
17. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı // Azərbaycan qəzeti, 2017, 17 sentyabr, s. 2-3.
18. 2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası // https://e-qanun.az/framework/29206
19. Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı // https://e-qanun.az/framework/4825
20. 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sesteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı. // https://e-qanun.az/framework/40711
21. Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı. // Azərbaycan qəzeti, 2022, 1 mart, s.4
22. Keçən il də Azərbaycan idmanı üçün uğurlu il olmuşdur. // Azərbaycan qəzeti, 2023, 10 yanvar, s. 1-2
23. Könüllü fəaliyyət haqqında Azərbaycan Respublikasının Qanunu // https://e-qanun.az/framework/18159
24. Adilov N., Paşayev E. Könüllülük: uğur formulu. Bakı, Adventa MMC, 2017, 100 s.


***Açar sözlər:*** *gənclər siyasəti, komsomol, forum, könüllülər, dövlət proqramları*

**Nisa Pashayeva**

*Baku Slavic University,*
*Ph.D. Student*

# PROGRESSIVE DEVELOPMENT OF YOUTH POLICY IN AZERBAIJAN AND ITS PRIORITIES AT THE INTERNATIONAL LEVEL

## ABSTRACT

The young generation and the related issues have always been in the spotlight of public attention in Azerbaijan. Over centuries, many personalities etched their names into the history of Azerbaijan at a young age. The formation of capitalist relations in Azerbaijan opened up new opportunities for the development and organization of youngsters. The main objectives of the youth policy, implemented by the government of the Azerbaijan Democratic Republic, were to improve the educational level of the younger generation and optimize its role in society. On the contrary, during the years of Soviet power, the activities of young people united in Komsomol organizations were carried out under the auspices of communist ideology.

The national leader, Heydar Aliyev, determined the fundamental youth policy strategies in independent Azerbaijan and reflected them in the Law on Youth Policy. The Ministry of Youth and Sports plays a vital role in the implementation of this policy. Activities related to the development of the young generation youth forums addressing the needs and tasks of youngsters are organized and supported by the Youth Foundation. Carefully thought-out measures are being implemented within the framework of state programs. In addition, Azerbaijan is implementing an international youth policy, the priorities of which are the development of external relations in the fields of science, education, sports and volunteering.

***Keywords:*** *youth policy, Komsomol, forum, volunteers, state programs*

**Ниса Пашаева**
*Докторант Бакинского Славянского Университета*

# ФОРМИРОВАНИЕ МОЛОДЕЖНОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНЕ И ЕЁ ПРИОРИТЕТЫ НА МЕЖДУНАРОДНОМ УРОВНЕ

## РЕЗЮМЕ

В Азербайджане молодежь и связанные с ней вопросы всегда были в центре внимания общества. В древности и средневековье немало личностей вписали свои имена в историю Азербайджана в молодом возрасте. Становление капиталистических отношений в Азербайджане открыло новые возможности для развития и организации молодежи. В Азербайджанской Демократической Республике реализовалась молодежная политика, основной целью которой было повышение образовательного уровня молодого поколения и обеспечение его активной роли в жизни общества. В отличие этого, в годы советской власти деятельность молодежи, объединенной в комсомольские организации, осуществлялась под эгидой коммунистической идеологии.

Основы молодежной политики в независимой Азербайджанской Республике были заложены Общенациональным Лидером Гейдаром Алиевым и отражены в Законе «О молодежной политике». Ключевую роль в реализации этой политики играет Министерство Молодежи и Спорта, мероприятия, связанные с развитием молодого поколения, поддерживаются Фондом Молодежи, организуются молодежные форумы для обсуждения потребностей и задач молодежи, реализуются конкретные меры в рамках государственных программ. Кроме того, в Азербайджане реализуется международная молодежная политика, приоритетами которой являются развитие внешних связей в сферах науки, образования, спорта и волонтерства.

***Ключевые слова:*** *молодежная политика, комсомол, форум, волонтеры, государственные программы*

DOI: 10.30546/2309-1347.83.2023.209

**GƏNC TƏDQİQATÇILAR**
**YOUNG RESEARCHERS**

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**
**INTERNATIONAL RELATIONS**

UOT 327.5

**ÜZEYİR MUSTAFAYEV**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**"Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının doktorantı**

*e-mail: mustafayev.uzeyir.33@gmail.com*

# ZƏNGƏZUR DƏHLİZİNİN AZƏRBAYCAN RESPUBLİKASI VƏ CƏNUBİ QAFQAZ REGİONU ÜÇÜN ƏHƏMİYYƏTİ

## Giriş

2020-ci ildə İkinci Qarabağ Müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatması Cənubi Qafqaz regionunda qüvvələr balansının yenidən formalaşmasına səbəb oldu. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının həm Ermənistan Respublikası, həm də İran İslam Respublikası ilə olan dövlət sərhədi tam bərpa edilmiş, 30 illik işğal faktına son qoyulmuşdur. İkinci Qarabağ müharibəsindəki qələbə ilə Azərbaycan həm Ermənistanın hərbi təcavüzünü sonlandırmış, həm də regionda geosiyasi üstünlük əldə edərək mütləq maraqlarından çıxış edib onları təmin etməyə başlamışdır. 10 noyabr 2020-ci ildə Rusiyanın vasitəçiliyi ilə tərəflər arasında imzalanmış üçtərəfli bəyanatda Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin yaradılması nəzərdə tutulmuşdur.

Azərbaycanın qərb bölgələri ilə Naxçıvan arasında açılacaq yeni nəqliyyat əlaqəsi üçtərəfli bəyanatın ən mühüm maddələrindən biridir. Zəngəzur dəhlizi olaraq adlandırılan kommunikasiya xətti nəinki regional əlaqələri bərpa edir, habelə Mərkəzi Asiya ilə Avropanı birləşdirəcək beynəlxalq ticarət zəncirini özündə əks etdirir. Orta Dəhlizin ən vacib komponentinə çevriləcək olan Zəngəzur dəhlizi, bu yolla həyata keçiriləcək daşınmaları həm müddət, həm də xərc baxımdan azaldacaqdır.

Zəngəzur dəhlizi Cənubi Qafqaz regionunda təhlükəsizliyin təmin olunması və əməkdaşlıq imkanlarının artırılması baxımından da mühümdür. Belə ki, Azərbaycan müharibənin sona çatmasından dərhal sonra qalib ölkə kimi müharibədən çıxmasına baxmayaraq, Ermənistanla sülh müqaviləsinin imzalanması üçün çalışmağa hazır olduğunu elan etmişdir. Üçtərəfli bəyanatın maddələrinə müvafiq olaraq, yaranmış öhdəliklərin Zəngəzur dəhlizi daxil olmaqla, Ermənistan tərəfindən icra olunması sülh müqaviləsinin imzalanması prosesini sürətləndirməklə, regionda təhlükəsizliyin təmin olunmasına töhfə verə bilər.

## Əsas hissə

Qarabağda Ermənistan Respublikası tərəfindən dəstəklənən speratizm, tarixi Azərbaycan

torpaqlarında ikinci erməni dövlətinin yaradılması təşəbbüsü idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də dəfələrlə öz çıxışlarında bəyan etdiyi ki, Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına icazə verilmədi. Azərbaycan torpaqlarında yaradılmış ilk erməni dövləti isə indiki Ermənistan Respublikasıdır. Cənubi Qafqaza sonradan köçürülən ermənilər 1918-ci ildə İrəvanın güzəştə gedilməsi sayəsində Azərbaycan ərazisində dövlətlərini qurdular. 1920-ci ildə Sovet Sosialist Respublikaları İttifaqı (bundan sonra SSRİ) qurulduqdan sonra SSRİ rəhbərliyinin qərarı ilə Zəngəzur Azərbaycandan ayrılaraq, Ermənistana birləşdirildi. Bu hadisələr haqqında Prezident İlham Əliyev 24 dekabr 2022-ci il tarixində Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşərkən bildirmişdir ki, "Əgər kimsə hesab edirdi ki, İrəvanı orada yaşayan insanlardan xəbərsiz öz doğma diyarından məhrum etməklə Ermənistan və ermənilər kifayətlənəcək, böyük səhv edirdi və sonrakı tarix bunu bir daha göstərdi. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi [4]."

Zəngəzurun ermənilərə verilməsi nəticəsində 400-ə yaxın kənd boşaldılmışdır. Azərbaycanlıların məcburi qaydada çıxarıldığı evlərə ermənilər yerləşdirilmişdir. Qərbi Azərbaycanda yerləşən tarixi abidələr və mədəniyyət nümunələri ya dağıdılmış, ya da erməniləşdirilmişdir [16]. 1980-ci illərdə ermənilər tərəfindən keçmiş Dağlıq Qarabağ [Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 7 iyul 2021-ci il tarixli Fərmanı ilə Dağlı Qarabağ və ətraf rayonları yeni iqtisadi bölgüyə əsasən Qarabağ iqtisadi rayonuna (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonuna (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) aiddir [8].] ərazisində baş qaldırmış seperatizmin Ermənistan Respublikasının dəstəyi ilə genişlənməsi və açıq şəkildə Azərbaycana qarşı aparılan irredentist siyasət nəticəsində Birinci Qarabağ müharibəsi başladı. Müharibənin yekununda Qarabağ tamamilə erməni işğalına məruz qaldı. Eyni zamanda Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında quru yolla, birbaşa əlaqə tamamilə kəsildi. SSRİ zamanında Naxçıvanla Azərbaycanın qərb rayonları arasında Zəngəzurdan – Ermənistan ərazisindən keçməklə qurulmuş olan kommunikasiya və nəqliyyat xətləri artıq uzun illərdir ki, istifadə olunmur. Bu xətlərin istifadəsi üçün yenidən qurulması və ya əsaslı təmiri zəruridir.

2020-ci il 27 sentyabr tarixində başlanan İkinci Qarabağ Müharibəsində Azərbaycanın 44 gün ərzində qalib gəlməsi Cənubi Qafqazın siyasi mənzərəsini əsaslı şəkildə dəyişdi. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı aparmış olduğu təcavüzkar siyasət nəticəsində 30 ilə yaxın bir dövr ərzində işğalda saxlanılmış Qarabağ azad edildi. 10 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidenti tərəfindən imzalanmış üçtərəfli bəyanat Ermənistanın kapitulyasiya aktı, Azərbaycanın isə tarixi zəfəri idi. Doqquz bənddən ibarət olan bəyanatın altıncı bəndinə əsasən Ermənistan Respublikası 25 noyabr 2020-ci il tarixində Kəlbəcər rayonunu (bəyanatda 15 noyabr tarixinədək nəzərdə tutulsa da, çətin relyef nəzərə alınmaqla, Azərbaycan humanistlik göstərərək müddəti 25 noyabradək uzatmışdır), 20 noyabr 2020-ci il tarixində Ağdam rayonunu, 1 dekabr 2020-ci il tarixində isə Laçın rayonunu Azərbaycan Respublikasına qaytardı. Eyni bənddə Laçın dəhlizinin Laçın şəhərindən keçdiyi nəzərə alınmaqla üç il ərzində yeni yolun inşa olunması göstərilmişdir. Azərbaycan Respublikası yeni yol çəkilişini qısa müddət ərzində tamamlamışdır. Yeni yolun istifadəyə

verilməsi nəticəsində 26 avqust 2022-ci ildə Laçın şəhəri, habelə Zabux və Sus yaşayış məntəqələri Azərbaycana qaytarıldı [3].

Üçtərəfli sazişin dördüncü bəndində qeyd edilir ki, "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyətini Tərəflərdən hər hansı biri bəyan etməzsə, avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılır [3]." Öz üzərinə düşən öhdəliyi icra etməkdən daima boyun qaçırmış Ermənistan Respublikası bu bəndin də icrasını həyata keçirməmişdi. Hətta 2020-ci ilin 9 sentyabr tarixində Qarabağda qondarma "qurum" seçkilər keçirərək yeni "prezidentini" seçmişdir. Ermənistan Respublikası ərazi bütövlüyümüzü tanımasına baxmayaraq, keçirilmiş saxta "seçkilər"lə bağlı qondarma rejimi təbrik etmişdir. Digər tərəfdən mütəmadi olaraq Ermənistan silahlı qüvvələrinin Qarabağdakı qeyri-qanuni fəaliyyət göstərən qruplarının terror aktları törətməsi, müxtəlif yollarla silahlanması, humanitar məqsədlər üçün nəzərdə tutulmuş Laçın dəhlizi ilə Rusiya Federasiyasının sülhməramlı kontingentinin müşayiəti altında silah-sursat daşıması və davamlı mina terroru Azərbaycan Respublikasının beynəlxalq sferada tanınmış sərhədləri daxilində olan Qarabağ ərazisində antiterror əməliyyatlarının keçirilməsini labüd etdi. Azərbaycan Respublikasının silahlı qüvvələri tərəfindən 2023-cü il 19 sentyabr tarixində Qarabağda lokal antiterror əməliyyatlarına başlanıldı. Antiterror tədbirləri zamanı mülki əhalinin olduğu və ya olması təxmin edildiyi heç bir obyekt hədəfə alınmadı. Yalnız legitim hərbi hədəflərə endirilmiş dəqiq zərbələr nəticəsində 24 saat ərzində Ermənistan silahlı qüvvələrinin Qarabağda olan qeyri-qanuni qrupları təslim olmağa məcbur oldu. Azərbaycan Respublikası beynəlxalq hüququn müvafiq norma və prinsiplərinə tam əməl edərək təslim olmuş şəxslərin həyati təhlükəsizliyini, habelə onların Qarabağdan təhlükəsiz şəkildə çıxışını təmin etmişdir.

Üçtərəfli bəyanatın doqquzuncu bəndində qeyd edilir ki, "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir [3]." Məhz bu maddə Zəngəzur dəhlizinin Ermənistan Respublikasından keçməsinin hüquqi əsasını təşkil edir. Bəyanata bu bəndin daxil edilməsi böyük siyasi uğur idi. Ölkə başçısı 5 mart 2021-ci il tarixində Yeni Azərbaycan Partiyasının VII qurultayında videoformatda etdiyi çıxışı zamanı bildirmişdir ki, "Müharibənin nəticələrindən biri də əlbəttə ki, bu gün müzakirə mövzusu olan Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizi tarixi nailiyyətdir. Üçtərəfli Bəyanatda xüsusilə bu məsələnin əks olunması bizim, eyni zamanda, böyük siyasi qələbəmizdir. Hazırda Zəngəzur dəhlizinin fəaliyyəti istiqamətində fəal işlər aparılır, bir çox təkliflər var, artıq bir çox nəqliyyat-kommunikasiya layihələri masa üzərindədir, müzakirə edilir və bu, bizim növbəti tarixi uğurumuz olacaqdır [14]."

Azərbaycanın qərbi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat və dəmir yolu əlaqəsi olan Zəngəzur dəhlizi regionda təhlükəsizlik və əməkdaşlığa yol açmaqla, infrastrukturu canlandıracaqdır. Bu dəhliz açıldıqda Anadolu bölgəsi Naxçıvan-Azərbaycan və Xəzər dənizi vasitəsilə Orta Asiyaya birləşəcəkdir. Bu gün Azərbaycandan Naxçıvana İrandan keçməklə yalnız avtomobil və hava nəqliyyatı vardır [16]. Dəhlizin açılması məsafəni azaldacaq və gömrük rəsmiləşdirilməsi üçün əlverişli şərait yaradacaqdır. Dəhliz region ölkələri arasında əməkdaşlığa müsbət təsir göstərəcək və Türkiyə ilə Azərbaycan arasındakı quru yol məsafəsini 400 kilometrə qədər azaldacaqdır.

Azərbaycan Respublikası Cənubi Qafqazda uzunmüddətli sülhün təmin olunması və əməkdaşlığın qurulması üçün müharibədən dərhal sonra işlərə başlamışdır. İlk növbədə Ermənistanla münasibətlərin normallaşdırıl-

ması üçün müharibədən qalib çıxmasına baxmayaraq, Azərbaycan böyük təşəbbüskarlıq göstərmişdir. Dövlət başçıları səviyyəsində müxtəlif vaxtlarda keçirilmiş görüşlərin də gündəliyində duran məsələlər sülh müqaviləsinin bağlanması və əməkdaşlığın inkişafı üçün əlaqələrin bərpası olmuşdur. 11 yanvar 2021-ci il tarixində Moskva şəhərində Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyası Prezidentinin iştirakı ilə üçtərəfli görüş keçirilmişdir. İkinci Qarabağ müharibəsində sonra Azərbaycan və Ermənistan arasında ölkə rəhbərləri səviyyəsində keçirilmiş ilk görüş hesab olunan Moskva görüşünün gündəliyində əməkdaşlıq, sərhədlərin müəyyənləşdirilməsi və tərəflər arasında nəqliyyat xətlərinin açılması məsələləri dayanırdı. Görüş nəticəsində növbəti üçtərəfli bəyanat imzalandı. Həmin bəyanatın müddəaları aşağıdakılardır:

1. 2020-ci il 9 noyabr tarixli Bəyanatın 9-cu bəndinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı hissəsinin reallaşdırılması məqsədilə Rusiya Federasiyasının Prezidenti V.V.Putinin Azərbaycan Respublikasının, Ermənistan Respublikasının baş nazirləri müavinlərinin və Rusiya Federasiyası Hökumətinin sədr müavininin birgə həmsədrliyi ilə üçtərəfli İşçi qrupu yaradılması barədə təklifi dəstəklənir.
2. İşçi qrupu 2021-ci il yanvarın 30-dək ilk iclasını keçirəcək, bu iclasın nəticələrinə görə Bəyanatın 9-cu bəndinin reallaşdırılmasından irəli gələn işlərin əsas istiqamətlərinin siyahısını formalaşdıracaq, prioritet qismində dəmir yolu və avtomobil yollarını müəyyən edəcək, həmçinin bundan sonra Tərəflər adlanacaq Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası arasında razılaşma əsasında digər istiqamətləri müəyyən edəcəkdir.
3. Fəaliyyətin əsas istiqamətlərinin reallaşdırılması məqsədilə İşçi qrupunun həmsədrləri bu istiqamətlər üzrə Tərəflərin səlahiyyətli hakimiyyət orqanları və təşkilatlarının vəzifəli şəxslərindən ibarət ekspert yarımqruplarının tərkibini təsdiq edəcəklər. Ekspert yarımqrupları işçi qrupunun iclasından sonra bir ay müddətində layihələrin siyahısını təqdim edəcək, onların reallaşdırılması və Tərəflərin yüksək səviyyədə təsdiq etməsi üçün zəruri resursları və tədbirləri əsaslandıracaqlar.
4. İşçi qrupu 2021-ci il martın 1-dək Azərbaycan Respublikası və Ermənistan Respublikası ərazisindən həyata keçirilən beynəlxalq daşımaların, həmçinin Azərbaycan Respublikası və Ermənistan Respublikası tərəfindən həyata keçirilən, yerinə yetirilməsi zamanı Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazilərinin kəsişməsi tələb olunan daşımaların təşkili, yerinə yetirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan yeni nəqliyyat infrastrukturu obyektlərinin bərpasını və tikilməsini nəzərdə tutan tədbirlərin siyahısını və reallaşdırılması qrafikini Tərəflərin yüksək səviyyədə təsdiqləməsi üçün təqdim edəcək [21].

Azərbaycan Respublikasının beynəlxalq hüququnun norma və qanunlara uyğun olaraq sülh üçün 5 baza prinsipini təklif etmişdir. Həmin prinsiplər aşağıdakılardır:

– Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması;
– Dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi;
- Dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək;
– Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması;
– Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurul-

ması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması [7].

Göründüyü kimi Azərbaycan Respublikası sülhün təmin olunması üçün əsas kimi qəbul etdiyi baza prinsiplərdən biri də, məhz kommunikasiyaların açılması və əməkdaşlığın qurulmasıdır.

Azərbaycan Qarabağın bərpası və yenidən qurulmasına müharibədən dərhal sonra başlamışdır. Hazırda Qarabağ və Şərqi Zəngəzur ərazisində irimiqyaslı tikinti layihələri davam edir. İşğaldan azad olunmuş ərazilərdə böyük infrastruktur qurulur, əhalinin köçürülməsi ilə paralel olaraq yolların, kommunikasiya xətlərinin çəkilməsi həyata keçirilir. Hazırda icrası davam edən kommunikasiya və yol xətlərinin bəziləri Zəngəzur dəhlizinin Azərbaycan hissəsini təşkil edir. Bu kontekstdə xüsusilə qeyd etmək lazımdır ki, müharibənin sona çatmasından dərhal sonra 17 noyabr 2020-ci ildə Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzaladı. Sərəncamda yolun ümumi uzunluğu 101,5 metr göstərilmişdi [12]. Bu yolun inşası gələcək Zəngəzur dəhlizinin ilkin addım idi. Nəzərə almaq lazımdır ki, erməni vandalizminin qurbanı olmuş şəhər və rayonlarımızda bütün evlər, yollar və digər infrastruktur tamamilə dağıdılmışdır. Digər yandan ərazilərin mina çirklənməsinə məruz qalması tikinti işlərinin hansı ağır şəraitlərdə aparıldığını göstərir. Bütün əngəllərə baxmayaraq, dəhlizin reallaşdırılması istiqamətində işlər uğurla davam edir. 26 oktyabr 2021-ci ildə Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməli qoyuldu. Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu qovşaqla Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yoluna birləşəcəkdir. Ağbənddən sonra avtomobil yolu Ermənistan ərazisinə, daha sonra isə Naxçıvana daxil olacaqdır [5]. Zəngəzur dəhlizi çərçivəsində dəmir yolu əlaqəsinin Qars-Gümrü dəmir yolu xətti ilə həyata keçirilməsi planlaşdırılır. Bu layihəyə əsasən, Qars-Gümrü-Naxçıvan-Mehri-Bakı dəmir yolu xəttinin tikintisinin ümumi dəyəri 434 milyon ABŞ dollarıdır. Bu layihə reallaşarsa, 13 ildən sonra marşrut üzrə yükdaşıma qabiliyyəti 10 milyon tona çata bilər. Region ölkələri arasında münasibətlər yaxşılaşarsa, Ermənistanın Türkiyə ilə ticarət həcmi ümumi ticarətin 3%-dən 13%-ə qədər arta bilər [17].

Zəngəzur dəhlizi Azərbaycan, Çin, Mərkəzi Asiya, hətta Ermənistan və Avropanı daha asan birləşdirə biləcək sosial, iqtisadi, geosiyasi və geostrateji baxımdan mühüm layihə kimi xarakterizə edilir. Dəhliz Rusiya, Azərbaycan, Türkiyə, Ermənistan və İran arasında dəmir yolu xəttinin genişləndirilməsini sürətləndirəcək, eləcə də Qafqaz regionunda ticarət həcmini artıracaq bir çox ticarət yollarının açılmasına zəmin rolunu oynayacaqdır. Azərbaycanın Avrasiyanın nəqliyyat qovşağına çevrilməsi ilə Qafqaz regionunda avtomobil və dəmir yolları regionun tranzit təhlükəsizliyini artırmaqla yeni rəqabət və yeni imkanlar yaradacaqdır. Təbii ki, bu kontekstdə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin tikintisi və marşrutları, Xəzər dənizindən Avropaya uzanan neft-qaz kəməri sisteminin tikintisi yeni inkişaflar gətirəcəkdir. Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin əhəmiyyəti daha da artacaqdır. Tarixi İpək Yolunun üzərində yerləşən Azərbaycan Avropa ilə Asiya arasında logistika mərkəzi kimi çox əhatəli işlər görür. Şərq-Qərb dəhlizi Çinin Mərkəzi Asiya və Azərbaycan üzərindən Avropaya maneəsiz çıxışını təmin etdiyi üçün ölkələr arasında ticarət dövriyyəsi artacaqdır. Çin və Aİ arasında yeni investisiya sazişləri artıq Mərkəzi Dəhliz vasitəsilə ticarətdə müsbət tendensiyaları göstərir [17]. Misal olaraq, 2018-ci ildə Çinin Azərbaycanla ticarət həcmi 898,2 milyon ABŞ dolları təşkil etdiyi halda, 2019-cu ildə bu rəqəm 1,4 milyard dolları ötmüşdür. 2019-cu ildə Türkiyə ilə Çin arasında ticarət həcmi 21,8 milyard ABŞ dollarına, 2020-ci ildə isə pandemiya dövrünə

baxmayaraq, ticarət dövriyyəsi 24 milyard dollara çatıb və 2021-ci ilin ilk üç ayında bu rəqəm eyni ilə müqayisədə 44 faiz artmışdır. 2021-ci ilin birinci rübündə Bakı-Tbilisi-Qars və Mərkəzi Dəhlizdə yük daşımaları 2019-cu ilin ilk üç ayı ilə müqayisədə 104% artaraq 396 778 tona çatıb ki, bu da Mərkəzi Dəhlizdə tələbatın və tutumun hər il artdığını göstərir.

Müharibə başa çatdıqdan sonra Azərbaycan və Türkiyə rəhbərlərinin təşəbbüsü ilə Cənubi Qafqaz regionu və regiona qonşu dövlətlər arasında birgə əməkdaşlığın qurulması məqsədilə “3+3” modeli (Azərbaycan, Ermənistan, Gürcüstan + Türkiyə, İran, Rusiya) müzakirə edilir. “3+3” platformasının qurulması qısa dövr üçün Cənubi Qafqazı ziddiyyətlər regionundan ticari-iqtisadi əməkdaşlıq məkanına, uzun dövr üçün isə bu regionu Avrasiyanın nəqliyyat mərkəzinə çevirə bilər. Bu formatın reallaşdırılması regionun təhlükəsizliyi və yeni müharibələrin qarşısının alınması baxımından da vacib əhəmiyyət daşıyır. Ermənistanın Qarabağı işğalda saxlaması və heç bir konstruktiv danışıqlara getməməsi regionda bütün dövlətləri əhatə edəcək və uzun müddət davam edəcək əməkdaşlıqların qurulmasına, o cümlədən iqtisadi, nəqliyyat və logistika əlaqələrinin formalaşdırılmasına imkan verməmişdir. Lakin 3+3 platforması regiondakı mövcud vəziyyəti əsaslı şəkildə dəyişdirə bilər. Tarixi İpək Yolu marşrutu üzrə Şərq-Qərb Dəhlizi, Dəmir İpək Yolu və Avropa-Qafqaz Nəqliyyat Dəhlizi (TRASEKA) layihələri regionda layihələrin reallaşması üçün çox vacibdir. Zəngəzur dəhlizi Çin-Avropa Mərkəzi Dəhlizi boyunca Cənubi Qafqaz və Mərkəzi Asiyanın iqtisadiyyatına müsbət təsir göstərəcək [1].

Zəngəzur dəhlizinin açılması Azərbaycan üçün faydalı olduğu qədər, Ermənistan üçün də əlverişlidir. Bu baxımdan Ermənistan dəhlizin açılması üçün daha maraqlı olmalıdır. Təəssüf ki, indiyədək Ermənistanın atmış olduğu addımlar bunun əksini göstərir. Azərbaycan isə həm Zəngəzur dəhlizi, həm də onun alternativləri üzərində işlərin görülməsi üçün hazırdır. 2023-cü ilin 10 yanvar tarixində prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibə verərkən Zəngəzur dəhlizinin reallaşması haqqında bildirmişdir ki, “Əlbəttə ki, Zəngəzur dəhlizinin reallaşması tarixi zərurətdir. Ona görə mən dedim ki, Ermənistan istəsə də, istəməsə də bu, reallaşacaq. Yəni, bunu Ermənistanda yenə növbəti təhdid kimi qəbul edirlər, halbuki belə fikrim yox idi. Sadəcə olaraq, bu, qaçılmazdır. Bu, gec-tez olacaq. Əlbəttə, biz istəyirik ki, tez olsun və daha tez olsun [6].”

2023-cü ilin oktyabrında Türkiyə Cümhuriyyətinin Nəqliyyat və İnfrastruktur naziri Abdulkadir Uraloğlu “TRT” telekanalına müsahibə verərkən bildirib “Vacib sual Zəngəzur dəhlizinin Ermənistandan keçib-keçməyəcəyidir. Dəhliz real coğrafi şərait nöqteyi-nəzərindən keçdiyi ərazilərin hər hansı biri üçün faydalı olacaq. Düşünürük ki, Ermənistan bu məsələyə siyasi vasitəçilik etmədən qiymət verəcək. Əks halda, alternativ dəhliz İran sərhədlərindən keçməli olacaq” [19]. Bu açıqlamalar Zəngəzur dəhlizinin reallaşması ilə bağlı hər hansı sualın olmadığını göstərir. Dəhlizlə bağlı yeganə sual Ermənistanın bu tarixi imkanı düzgün qiymətləndirə bilib-bilməməsidir. Qarabağı işğal etməklə, 30 il ərzində özünü iqtisadi baxımdan kifayət qədər faydalı regional və beynəlxalq layihələrdən kənarlaşdıran Ermənistan üçün Zəngəzur dəhlizinin açılması tarixi imkandır. Dəhlizin açılmasına maneə törətməklə Ermənistan bir tərəfdən dəhlizin iqtisadi faydalarını, digər yandan Azərbaycan və Türkiyə ilə münasibətlərin yaxşılaşdırılması fürsətini, habelə dəhliz üzərindən yeni əməkdaşlıqların qurulması potensialını itirmiş olacaqdır.

Alternativ dəhlizin formalaşdırılması üçün isə hələ 2022-ci ilin mart ayında Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında razılıq əldə olunmuşdur. Belə ki, 2022-ci ilin 11 mart tarixində Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında İran İslam Respublikası ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi

Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında" Anlaşma Memorandumu imzalandı. Memorandumun məqsədi Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə İran ərazisindən keçməklə Naxçıvan MR arasında yeni dəmir yolu, avtomobil yolu əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılmasından ibarətdir. Memorandum özündə aşağıdakıları ehtiva edir:

- Bu məqsədə nail olmaq üçün Araz çayı üzərində iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur. Həmin körpülər Ermənistanın dövlət sərhədinə 5 km məsafədə keçəcək;
- Tərəflər ərazilərində gündə 500 ədəd giriş və 500 ədəd çıxış olmaqla, ən azı 1000 ədəd yük nəqliyyatı parkını (ixrac, idxal və tranzit malları) qəbul edə biləcək dövlət sərhədindən buraxılış məntəqəsinin tikilməsini öz öhdəsinə götürür;
- Tərəflərin qanunvericiliyi ilə müəyyənləşdiriləcək şirkət tərəfindən layihə sənədləri bir ay müddətində hazırlanacaq və qanunvericiliyin tələblərinə uyğun olaraq razılaşdırılacaq;
- Şərqi Zəngəzur iqtisadi rayonunu İranla birləşdirən avtomobil körpüsünün, eləcə də rabitə və enerji xətlərinin layihə sənədlərinin hazırlanması, tikintisi və bu tikintiyə nəzarət işləri üzrə bütün xərclər Azərbaycan tərəfindən ödəniləcək;
- İranı Naxçıvan MR-in Ordubad rayonu ilə birləşdirən avtomobil körpüsünün layihə sənədlərinin hazırlanması, tikintisi və tikintiyə nəzarət işləri üzrə bütün xərcləri İran tərəfi həyata keçirir;
- Körpülərin layihələndirilməsi və tikintisi üçün tərəflərin müvafiq qurumlarının nümayəndələrindən ibarət Birgə işçi qrup yaradılacaq;
- Avtomobil yolu körpülərinin tikintisi başa çatana qədər Tərəflər öz dövlətinin ərazisində avtomobil yollarının zəruri tikinti, genişləndirmə və yenidənqurma işlərini təmin edir, eyni zamanda avtomobil körpüsünə giriş yollarının tikintisini həyata keçirirlər;
- Avtomobil yoluna paralel olaraq tikiləcək dəmir yolunun maliyyələşdirilməsi və ödənilməsinə dair təkliflər 6 ay müddətinə hazırlanıb tərəflərin hökumətlərinə təqdim ediləcəkdir [18].

Memorandumun imzalanmasından sonra Azərbaycan və İran arasında diplomatik münasibətlərin pisləşməsinə baxmayaraq razılaşma qüvvədən düşməmişdir. 2023-cü ilin ikinci rübündən etibarən münasibətlərin yüksələn xətlə davam etməsi, bu anlaşma əsasında real işlərin təşkili üçün zəruri şəraiti təmin etmiş oldu. 2023-cü ilin yanvarında Azərbaycanla İran arasında yeni körpünün tikintisinə başlanıldı. 2023-cü ilin iyulunda Azərbaycan Respublikasının Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev ilə İran İslam Respublikasının yol və şəhərsalma naziri, İran ilə Azərbaycan arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyanın həmsədri Mehrdad Bəzirpaş arasında İranın Astara şəhərində görüş keçirildi. Görüşdə Anlaşma Memorandumunda nəzərdə tutulan məsələlərin icrasının sürətləndirilməsi və yeni infrastrukturun qurulması ilə bağlı bir sıra məsələlərdə razılıq əldə olundu. 2023-cü ilin 6 oktyabr tarixində Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında Azərbaycanla İran arasında əlaqəni təmin edəcək yeni körpünün təməli qoyuldu [20].

Göründüyü kimi Azərbaycan dəhlizi Ermənistandan deyil, İrandan keçirməyə də tam hazırdır. Ermənistanın qeyri-adekvat addımları ilə özünü iqtisadi blokada saxlaması ilk belə hal deyildir. Tarixi faktlara nəzər salaq. 2000-ci ildə Ulu Öndər Heydər Əliyev Davos İqtisadi forumu çərçivəsində keçirilən "Qafqazın və Mərkəzi Asiyanın Perspektivləri: İpək yolu və ya Böyük Oyun" mövzusunda sessiyada

iştirak etmişdir. Sessiyadakı çıxışından sonra Heydər Əliyev sessiya iştirakçılarının suallarını cavablandırmışdır. Ünvanlanmış suallardan biri "Əsrin Müqaviləsi"nə aid olan infrastrukturun Ermənistandan keçməsi ilə bağlı olmuşdur. Heydər Əliyev bu sualın cavablandırarkən bildirmişdir – "Biz bu neft kəmərinin Ermənistan, Türkiyə vasitəsilə Ceyhan limanına çəkilməsinin əleyhinə deyildik. Biz bu neft kəmərinin İran ərazisindən çəkilməsinin də əleyhinə deyildik. Lakin bu təkliflərimiz reallaşmadı. Əvvəla, ona görə ki, Ermənistan Azərbaycanla hərbi münaqişə vəziyyətindədir. Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini, bu neft kəmərinin keçməli olduğu ərazini işğal etmişlər və danışıqlarda erməni tərəfinə təkliflər vermişdik ki, münaqişəyə beynəlxalq hüquq əsasında son qoymaq və bu neft kəmərini çəkmək yaxşı olardı. Lakin onların cavabı bu oldu ki, biz torpağı neft kəmərinə dəyişmirik, halbuki, məsələ belə qoyulmamışdı [13, s.332]." Belə aydın olur ki, "Əsrin müqaviləsi"nin Ermənistandan keçirilməsi imkanını da, Ermənistan həmin dövrdəki irredentist siyasətinə görə itirmişdir. Azərbaycan isə Ermənistandan yan keçməklə "Əsrin müqaviləsi"ni layiqincə icra etdi. Nəticədə həm siyasi, həm hərbi, həm də iqtisadi baxımdan qalib tərəf oldu.

## Nəticə

Ümumilikdə, Zəngəzur dəhlizi Asiya ilə Avropanı Azərbaycan üzərindən birləşdirən bir çox tranzit daşıma layihələri üçün yeni imkandır. Bu, Azərbaycanın Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirəcəkdir. Zəngəzurun açılması bütün Avrasiya regionu üzrə ölkələrinin bir-biri ilə əlaqəsini asanlaşdıracaq, ticarət və logistika əlaqələrini gücləndirəcəkdir. Transxəzər Nəqliyyat Marşrutunun (CTN) və Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin (INSTC) inkişafı Avrasiyanın təchizat xətlərinin və tranzit mövqeyinin gücləndirilməsi deməkdir. Bu faydalara nail olmaq üçün regionun bütün ölkələri üçün faydaları vurğulayacaq bir diskurs inkişaf etdirmək lazımdır.

Zəngəzur dəhlizi region ölkələrinin, o cümlədən Ermənistanın iqtisadi inkişafına töhfə vermək potensialına malik olan dinc layihə kimi qiymətləndirilməlidir. Azərbaycan regionda sülhün təmin olunması üçün bütün mümkün vasitələrdən istifadə etmişdir və daima da sülh çağırışları etməkdədir. Zəngəzur dəhlizi Cənubi Qafqaz regionunun gələcək iqtisadi potensialıdır. Bu potensialın düzgün qiymətləndirilməsi regionu Avrasiyanın iqtisadi mərkəzlərindən birinə – tranzit qovşağına çevirə bilər.

Eyni zamanda Zəngəzur dəhlizinin reallaşdırılmasının təmini Ermənistan Respublikasının üçtərəfli bəyanata müvafiq olaraq götürmüş olduğu öhdəliklərdən biridir. Qeyd olunduğu kimi Ermənistan Respublikası əksər hallarda öz üzərinə götürmüş olduğu öhdəlikləri müxtəlif bəhanələr gətirərək icra etmir. Amma bu həmin öhdəliklərdən irəli gələn məsələlərin icra olunmaması demək deyil. Azərbaycan Respublikası Zəngəzur dəhlizinin reallaşdırılmasını İran İslam Respublikasından keçməklə də həyata keçirə bilər. Belə olduğu təqdirdə Ermənistan yenə də, nəqliyyat və logistika qovşaqlarından kənarda qalacaqdır. Göründüyü kimi Ermənistan öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirməsə belə, öhdəliyə müvafiq olan Zəngəzur dəhlizi layihəsi reallaşacaqdır.

**Ədəbiyyat:**


1. Zəngəzur dəhlizi Pekin-London xəttinin və Türkiyənin əhəmiyyətini artıracaq, Anadolu Agentliyi, 2021 (Elektron resurs https://www.aa.com.tr/tr/analiz/zengezur-koridoru-pekin-londra-hatti-ve-turkiye-nin-artan-onemi/2254505 Müraicət tarixi: 26.09.2023)
2. Ankara Böhran və Siyasət Araşdırmaları Mərkəzi (2021). Zəngəzur dəhlizinin strateji əhəmiyyəti. Alındı: https://www.ankasam.org/%D1%81%. Giriş tarixi: .09.2021.
3. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı, 10.11.2020 (Elektron resurs: https://president.az/articles/45923 Müraciət tarixi: 17.10.2023)
4. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub, 24.12.2022 (Elektron resurs: https://president.az/az/articles/view/58330 Müraciət tarixi: 18.10.2023)
5. Azərbaycan və Türkiyə prezidentləri Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməlini qoyublar, 26.10.2021 (Elektron resurs: https://president.az/az/articles/view/53736 Müraciət tarixi: 26.11.2023)
6. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib, 10.01.2023 (Elektron resurs: https://president.az/az/articles/view/58555 Müraciət tarixi: 26.11.2023)
7. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in sualını cavablandırır, 17.02.2022 (Elektron resurs: https://www.mfa.gov.az/az/news/no11722 Müraciət tarixi: 16.10.2023)
8. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 07.07.2021 (Elektron resurs: https://president.az/az/articles/view/52389, Müraciət tarixi: 16.10.2023)
9. Azərbaycan və "Bir kəmər, bir yol" təşəbbüsü: regional nəqliyyat qovşağına çevrilmək yolunda 13.06.2020 (Elektron resurs: https://politicon.co/en/analytics/33/azerbaijan-and-belt-and-road-initiative-on-the-way-of-becoming-a-regional-transport-center Müraicət tarixi: 30.09.2023)
10. Çin-AB investisiya sazişinin strateji nəticələri 04.01.2021 (Elektron resurs https://thediplomat.com/2021/01/the-strategic-implications-of-the-china-eu-investment-deal/ Müraciət tarixi: 26.09.2023)
11. BMT Comtrade verilənlər bazası, 2021 Elektron resurs: https://comtrade.un.org/data/ Müraciət tarixi: 28.09.2023
12. Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 17.11.2020 (Elektron resurs: https://president.az/az/articles/view/46989, Müraciət tarixi: 17.10.2023)
13. H.Ə.Əliyev "Müstəqilliyimiz Əbədidir", 24-cü kitab, səh.332-333, Bakı-AzərNəşr 2008
14. Yeni Azərbaycan Partiyasının VII qurultayı keçirilib 05.03.2021 (Elektron resurs: https://president.az/az/articles/view/50798, Müraciət tarixi: 26.11.2023)
15. https://report.az/ru/analitika/svet-v-konce-koridora-marshrut-cherez-zengezur-stanet-impulsom-razvitiya-economici-regiona/

16. https://www.trtavaz.com.tr/haber/tur/avrasyadan/kars-igdir-nahcivan-hatti-turk-dunyasini-bulusturacak/5fafc55a01a30a37d42655d0
17.https://www.trend.az/business/economy/3363202.html.
18. https://www.yeniazerbaycan.com/Arxiv_e66947_az.html
19. https://report.az/infrastruktur/turkiyeli-nazir-zengezur-dehlizi-irandan-kece-biler/
20.https://report.az/infrastruktur/zengilanda-azerbaycanla-iran-arasinda-avtomobil-korpusunun-temelqoyma-merasimi-kecirilib/
21. https://president.az/az/articles/view/50070

***Açar sözlər:*** *Zəngəzur dəhlizi, Azərbaycan, Ermənistan, nəqliyyat dəhlizləri, regional əməkdaşlıq*

**Uzeyir Mustafayev**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Department of International Relations and Foreign Policy, Ph.D Student*

# THE SIGNIFICANCE OF THE ZANGAZUR CORRIDOR FOR AZERBAIJAN AND THE SOUTH CAUCASUS REGION

## ABSTRACT

One of the most important diplomatic achievements of the tripartite statement signed on the initiative of Russia on November 10, 2020, for the Republic of Azerbaijan, was the inclusion of an article on the opening of all regional transport routes between the western regions of Azerbaijan and the Nakhchivan Autonomous Republic passing through Armenia. The opening of the Zangezur corridor will ensure the delivery of goods transported through the Middle Corridor in a shorter time and at a lower cost. This corridor means opening trade routes connecting Central Asia, the Caspian Sea, Azerbaijan, and Armenia from the Pacific Ocean to Turkey. It is also an opportunity to expand the railway network between Russia, Azerbaijan, Turkey, and Armenia to increase regional trade volume. This article discusses the importance of  Zangezur Corridor in achieving sustainable peace in the South Caucasus and accelerating local development.

***Keywords:*** *Zangezur corridor, Azerbaijan, Armenia, transport corridors, regional cooperation*

**Узеир Мустафаев**
*Докторант кафедры «Международные отношения и внешняя политика» Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

# ЗНАЧЕНИЕ ЗАНГЕЗУРСКОГО КОРИДОРА ДЛЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ЮЖНОГО КАВКАЗСКОГО РЕГИОНА

## РЕЗЮМЕ

Одним из важнейших дипломатических достижений Азербайджанской Республики стало включение в трехстороннее заявление, подписанного по инициативе России 10 ноября 2020 года статьи об открытии всех региональных транспортных маршрутов между западными регионами Азербайджана и Нахчываном. Открытие Зангезурского коридора обеспечит доставку грузов, транспортируемых по Среднему коридору, в более короткие сроки и с меньшими затратами. Этот коридор означает открытие торговых путей, соединяющих Центральную Азию, Каспийское море, Азербайджан и Армению, от Тихого океана до Турции. Это также возможность расширить железнодорожную сеть между Россией, Азербайджаном, Турцией и Арменией для увеличения объёмов региональной торговли. В данной статье обсуждается важность Зангезурского коридора с точки зрения достижения устойчивого мира на Южном Кавказе и ускорения местного развития.

***Ключевые слова:*** *Зангезурский коридор, Азербайджан, Армения, транспортные коридоры, региональное сотрудничество*

DOI: 10.30546/2309-1347.83.2023.221

**G Ə N C T Ə D Q İ Q A T Ç I L A R**
**Y O U N G R E S E A R C H E R S**

**B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R**
**I N T E R N A T I O N A L R E L A T I O N S**

UOT 327.5

**ЛАЛА ТАЛЫБОВА**

**Докторант кафедры «Международные отношения и внешняя политика» Академии Государственного Управления при Президенте Азербайджанской Республики**

*email: lala_dadasheva@yahoo.com*

# ГЕОПОЛИТИЧЕСКОЕ ВЛИЯНИЕ ЕВРОПЕЙСКОГО СОЮЗА НА ЮЖНЫЙ КАВКАЗ

С периода распада СССР одним из основных направлений Европейского Союза на Южном Кавказе являются обеспечение торгово-экономических, энергетических интересов, в том числе развитие транспортной инфраструктуры на Южном Кавказе. Между ЕС и государствами региона в разные годы заключались многочисленные торговые соглашения, что превратило ЕС в крупного торгового партнера для государств Кавказа.

Внешняя политика ЕС на Южном Кавказе проводится в первую очередь через региональные рамки Восточного партнерства, в которое входят шесть стран бывшего Советского Союза, в том числе Грузия, Армения и Азербайджан. С 2009 года Восточное партнерство, призванное обеспечить стабильность, процветание и хорошее управление в государствах на периферии Европы, предоставило странам Южного Кавказа новые возможности для развития отношений с ЕС. Армения, Азербайджан и Грузия имеют разные приоритеты внешней политики и процессы внутренних реформ, поэтому у них разные ожидания по отношению к ЕС [8].

В современных реалиях у США и ЕС несколько важнейших интересов в регионе. К первоочередным из них относятся поддержка стабильности в регионе, развитие торгово-экономических отношений. Среди этих интересов следует выделить заинтересованность западных государств в диверсификации энергетических источников.

Как и нефть, в XXI веке энергетическая безопасность, разнообразие поставок природного газа являются ключевым для энергетической безопасности государства. Природный газ приобретает еще более важное геостратегическое значение по сравнению с нефтяными источниками, так как государства все чаще используют этот ресурс в качестве инструмента внешней политики. Для ЕС каспийские энергоресурсы играют важную роль ввиду санкций введенных США и ЕС на импорт российских энергоресурсов. США и ЕС поддерживают развитие инфраструктуры для транспортировки каспийской нефти и газа на мировой рынок.

Начало Российско-Украинской войны в 2022 году, заставило Германию и другие государства-членов ЕС бороться за

альтернативы российскому природному газу, чтобы быть уверенными в поставках необходимых источников энергии, а также для сокращения прибыли, которые правительство России могло бы использовать для еще большего финансирования вооружения. С целью поиска дополнительных запасов газа Президент Комиссии ЕС Урсула фон дер Ляйен посетила Баку в июле 2022 года и подписала исторический Меморандум о взаимопонимании, где назвала Азербайджан надежным партнером ЕС и выступила с заявлением: «Хочу подчеркнуть несколько моментов нашего Меморандума о взаимопонимании. Первое, мы вдвое увеличим объем газа, поставляемого из Азербайджана в Европейский Союз. Этим Меморандумом мы берем на себя обязательство по расширению Южного Газового Коридора. Это уже очень важный маршрут поставок для Европейского Союза, по нему ежегодно транспортируются 8 миллиардов кубометров газа. В течение нескольких лет мы доведем его пропускную способность до 20 миллиардов кубометров, таким образом, сократим объем поставок газа из России и внесем серьезный вклад в безопасность снабжения Европы. Второй важный момент в Меморандуме связан с возобновляемой энергией. Азербайджан обладает гигантским потенциалом в области возобновляемой энергии. В частности, хочу отметить ветряную энергию моря и "зеленый" водород. Наряду с поставкой видов топлива, Азербайджан постепенно станет для Европейского Союза важным и надежным партнером, поставляющим возобновляемые виды энергии» [6].

Ныне, нефть и газ Каспийского моря обеспечивают Европу необходимым альтернативным источником, обеспечивающим на последующие годы растущий спрос на мировые энергоресурсы.

Несмотря на переориентацию большинства государств в направлении возобновляемых источников энергии, и ратификацию Парижского соглашения всеми государствами Южного Кавказа о сокращении выброса углекислого газа в рамках глобальных усилий по смягчению последствий изменения климата, для Армении, Азербайджана и Грузии выполнение Парижской повестки требует кардинальных изменений в энергетической политике. Замена углеводородов с высоким уровнем выбросов возобновляемыми источниками энергии будет иметь важное значение для достижения этой цели. Все три страны региона в основном зависят от нефтяных и газовых энергетических источников. Армения в первую очередь зависит от импорта энергии из Ирана и России, но получает значительную часть и от Мецаморской атомной электростанции. Как известно, все энергетические проекты прошлых лет обошли Армению. Армения оказалась вдали от всех грандиозных энергетических проектов, фактически в блокаде, виду агрессивной и неконструктивной оккупационной политики. Армения также не имеет дипломатических отношений с Турцией и, следовательно, из-за ее сложных отношений с двумя из ключевых игроков в транзитном коридоре не могла участвовать в процессе транспортировки каспийских энергоресурсов.

Азербайджан, обладающий благоприятными экологическими условиями – широким доступом как к солнечной, так и к ветровой энергии, может помочь транспортировке зеленой энергии по трубопроводам в Европу, тем самым помогая положить конец энергетическому кризису в Европе.

Таким образом, 17 декабря 2022 года Грузия, Азербайджан, Венгрия и Румыния подписали соглашение о построении стратегического партнерства в области зеленой энергетики. Согласно тексту документа, эти четыре страны будут работать вместе над прокладкой подводного кабеля Black Sea Cable длиной 1195 километров по дну Черного моря, тем самым эффективно создавая коридор передачи возобновляемой энергии из Азербайджана через Грузию в Румынию и Венгрию [2].

Вторым аспектом сотрудничества ЕС является вопрос региональной стабильности и мира на Южном Кавказе. ЕС поддерживают дипломатические усилия по разрешению территориальных споров, таких как конфликт в Карабахе, и поощряют диалог между вовлеченными странами. Важнейшей проблемой на Южном Кавказе остаются неразрешенные территориальные споры, затронувшие государства региона. Политика Соединенных Штатов и России на Кавказе включали в себя роль посредника в разрешении Нагорно-Карабахского и Абхазского, Южноосетинского конфликтов.

Важнейшей задачей повестки внешней политики Азербайджана является подписание мирного договора с Арменией, которое включало бы взаимное признание нерушимости границ двух государств, и принятие обязательств, не предъявлять такие претензии в будущем, делимитация и демаркация государственной границы; а также разблокирование транспортных и других коммуникаций, строительство других коммуникаций в случае необходимости и установление сотрудничества в других областях, представляющих взаимный интерес. В этом контексте следует упомянуть речь Президента Азербайджана во время встречи со специальным представителем ЕС по Восточному Партнерству Дирка Шубеля: «Мы были вынуждены решать конфликт сначала силовыми, а затем и политическими средствами. Это мы выступили с предложением начать переговоры о мирном соглашении сразу после окончания войны. И это был один из, пожалуй, уникальных случаев в мировой истории. Несмотря на все опустошения, разрушения, сотворенные армянами на нашей территории, и страдания азербайджанцев, мы предложили мир – знаменитые теперь пять принципов. Это мы выступали за создание комиссии по делимитации, мы пытались найти почву для нормализации отношений. Армения очень сопротивлялась на первых этапах процесса. Теперь они говорят о мире. Но что они подразумевают под миром? Много раз публично, а также в моих контактах с руководителями Еврокомиссии, США, России и стран, вовлеченных в процесс нормализации, озвучивалось, что нам нужно иметь два направления, процесс нормализации армяно-азербайджанских отношений, а также вопросы, касающиеся армянского меньшинства в Азербайджане, в Карабахе, касающиеся их прав и безопасности. А вот заявления из Армении очень спорные. Они говорят, что признают нашу территориальную целостность и суверенитет. Не только говорят, но и подписывались под этим в Праге и Сочи. Это означает суверенитет над всей нашей территорией. В то же время они хотят включить вопросы, касающиеся армянского меньшинства в Азербайджане, в наше мирное соглашение. Мы готовы говорить об этом с армянами, которые живут в Карабахе, и хотят там жить. Как я уже сказал, между Азербайджаном, ЕС, США и Россией существует консенсус. Это те страны и институты, которые Азербайджан видит в качестве тех, которые могут быть полезны» [4].

После подписания в ноябре 2020 года соглашения о прекращении огня между Азербайджаном и Арменией, гарантом которого выступила Москва, геополитическая ситуация изменилась, Россия еще больше укрепилась в регионе, ввиду размещения миротворческого контингента в Карабахе. Еще одной причиной усиления России в этом стратегически важном регионе можно считать неформальный отказ США в начале переговорного процесса от роли посредника и политика невмешательства в разрешение конфликта.

С момента окончания Второй Карабахской войны и подписания трехстороннего мирного заявления правительство Азербайджана выстроило несколько приоритетных направлений дальнейшей политики – разминирование освобожденных территорий,

возвращение беженцев на свои родные земли, мирное сосуществование с армянами, проживающими на территории Карабаха, гарантии стабильности, уважения территориальной целостности Азербайджана и установление мира в регионе.

Первостепенной задачей было восстановление и реконструкция освобожденных территорий, и возвращение сотен тысяч беженцев на свои земли. В ноябре 2022 года была принята государственная программа под названием "Большое возвращение на освобожденные территории". Первая группа азербайджанцев уже вернулась в село Агалы в Зангилане, а также в села Забух и Сус в Лачыне. Следующим приоритетным направлением в политике является разминирование территорий, которая усугубляется отказом Армении обеспечить Азербайджан картами минных полей. Кроме этого, серьезнейшим нарушением трехстороннего заявления явились найденные новые мины, произведенные в Армении уже в 2021 году. В этом контексте неоднократно выступало правительство Азербайджана в лице Президента, а также министра иностранных дел. Армения продолжала закапывать новые мины, которые перевозили через Лачинский коридор, что являлось грубым нарушением трехстороннего соглашения. В связи этим Азербайджан был вынужден установить контрольно-пропускной пункт в Лачинском коридоре чтоб предотвратить дальнейшую незаконную перевозку живой военной силы, оружия и мин из Армении в Нагорный Карабах [1].

Желание армянского правительства положить конец региональной изоляции Армении может увеличить шансы на подписание мирного договора между Арменией и Азербайджаном. В этом направлении были также начаты переговоры под эгидой председателя Европейского совета Шарля Мишеля [9]. Но дальнейшие развитие геополитических событий – в какой-то мере ослабило позицию России. Все более заметная роль США и Европейского союза в урегулировании конфликта является следствием российского вторжения в Украину, поскольку деятельность Минской группы ОБСЕ, которая находится в упадке после конфликта 2020 года, полностью завершена из-за разрыва отношений между Соединенными Штатами и Россией.

Поэтому процесс нормализации армяно-азербайджанских отношений осуществляется благодаря посредничеству и России и ЕС. Франция и Соединенные Штаты также увеличили свою дипломатическую поддержку в этом контексте. При посредничестве России было проведено четыре встречи на высшем уровне (11 января 2021 г., 26 ноября 2021 г., 31 октября 2022 г. и 26 мая 2023 г.), и пять встреч на высшем уровне были организованы под эгидой Председателя Совета ЕС Шарля Мишеля (14 декабря 2021 г., 6 апреля 2022 г., 22 мая 2022 г., 31 августа 2022 г. и 14 мая 2023 г.). Кроме того, Алиев и Пашинян встретились в разовом четырехстороннем формате с Шарлем Мишелем и президентом Франции Эммануэлем Макроном в Праге 6 октября 2022 года на полях первого саммита Европейского политического сообщества. Согласованный протокол этой встречи показал, что Армения и Азербайджан подтвердили свою приверженность Уставу Организации Объединенных Наций и Алма-Атинской декларации 1991 года, в соответствии с которыми обе стороны признают территориальную целостность и суверенитет друг друга [11]. Кроме того, на встрече с президентом России Владимиром Путиным 31 октября 2022 года в Сочи Алиев и Пашинян условились воздерживаться от применения силы или угрозы ее применения, обсуждать и решать все проблемные вопросы исключительно на основе взаимного признания суверенитета, территориальной целостности и нерушимости границ в соответствии с Уставом ООН и Алма-Атинской декларацией 1991 года [3].

Баланс сил в регионе, изменившийся после Второй Карабахской войны, ввел Армению в еще более сильную зависимость от внешних акторов. Прозападная политика Армении как части региональной и глобальной политики заставляет Армению попасть в геополитическую ловушку. Некоторые государства Европейского блока, в частности Франция, вместо поддержания мирного процесса, еще более усиливают реваншистские идеи армянского правительства. Сразу после окончания Второй Карабахской войны и подписания совместного заявления в ноябре 2020 года, правительством Франции были приняты анти-азербайджанские резолюции, призывающие признать легитимным марионеточный сепаратистский режим в Карабахе, что вызвало резкую негативную реакцию официального Баку. После этих событий предложенная Пашиняном четырехсторонняя встреча с участием президента Франции Макрона в Брюсселе в декабре 2022 года была отклонена Баку.

Как было указано выше, после переговоров в Праге под председательством ЕС в октябре 2022 года и взаимного признания обоими государствами их территориальной целостности, было достигнуто соглашение о пребывании наблюдательной миссии ЕС на границе между Арменией и Азербайджаном до конца 2022 года. Очередное резкое недовольство Баку вызвало возобновление наблюдательной миссии ЕС еще на два года с еще более широким составом наблюдателей без согласия на это правительства Азербайджана. Президент Алиев в своем интервью телеканалу Euronews четко высказал свою позицию: «ЕС не участвовал в посредническом процессе в период оккупации. Мы же вели переговоры с 1992 года. Это была инициатива президента Европейского совета Шарля Мишеля, который пригласил нас, и мы это поддержали, так как, учитывая уровень сотрудничества между Азербайджаном и ЕС, и Арменией и ЕС, мы считаем естественной активизацию Евросоюза, особенно когда после Второй Карабахской войны Минская группа перестала функционировать. Вообще-то, она и сейчас не функционирует. Должен был появиться какой-то международный институт. Я подумал, что ЕС может стать лучшим, потому что наши отношения основаны на взаимном уважении, взаимном доверии и взаимных интересах. Так что сейчас эта инициатива превращается в очень активную форму диалога, поскольку мы встречаемся не только в Брюсселе, но и, например, на полях формата Европейского политического сообщества. Потому что в случае стагнации, если снова произойдет разрыв с ними, то мы не будем застрахованы от любого опасного сценария» [5].

После многочисленных переговоров на высоком уровне, не принесших никакого продвижения в переговорном процессе, а также грубые нарушения заявления 2020 года со стороны Армении привели к тому, что Азербайджан был вынужден провести антитеррористическую операцию в сентябре 2023 года. Азербайджан вернул полный контроль над Нагорным Карабахом, и переговоры с оставшимися карабахскими армянами продолжаются. Процесс разоружения местных сил обороны в Нагорном Карабахе прошел без серьезных инцидентов при содействии российских миротворцев. Россия заинтересовано в сохранении некоторых карабахских армян в регионе, чтобы оправдать присутствие российских миротворцев. Переговоры между Баку и карабахскими армянами продолжаются, несмотря на поражение Армении в Нагорном Карабахе.

После отказа Баку присоединиться к саммиту в Гранаде в октябре 2023 года, который, тем не менее, состоялся с участием Пашиняна вместе с президентом Франции Эммануэлем Макроном, канцлером Германии Олафом Шольцем и президентом Европейского совета Шарлем Мишелем без участия Алиева, следовало ожидать провалы европейской политики

направленной на разрешение армяно-азербайджанского мирного процесса.

Эти события демонстрируют, что предвзятая политика, проводимая Францией и некоторыми другими странами Запада, имеют крайне негативные последствия для общей роли ЕС на Южном Кавказе. Причины этой тенденции неразрывно связаны с разочарованием Баку военными поставками Франции в Армению, тем самым теряя нейтралитет в переговорном процессе. Как упомянул Хикмет Гаджиев, советник президента Алиева по внешней политике 5 октября 2023 года касательно отказа Азербайджана присоединиться к саммиту в Гранаде: «Предвзятые действия Франции и политика милитаризации серьезно подрывают региональный мир и стабильность на Южном Кавказе и ставят под угрозу общую политику Европейского Союза в отношении региона» [7]. К сожалению, визит министра иностранных дел Германии Анналены Бербок в Баку 5 ноября 2023 года и использование ею неполиткорректных высказываний также негативно повлиял на развитие и укрепление позиции ЕС в этом вопросе [10].

Поддержка ЕС и содействие переговорам по мирному договору между двумя странами остается критически важным для этого процесса. Стоит напомнить, что именно благодаря переговорам при посредничестве ЕС Армения и Азербайджан в октябре 2022 года признали территориальную целостность друг друга и открыли путь к миру и примирению.

Поддержка ЕС важна также для содействия региональной интеграции на Южном Кавказе и развития платформы сотрудничества между тремя странами. Более тесные связи между тремя странами региона, помимо многих других преимуществ, раскроют их потенциал в качестве экономического партнера и узла связи, что приведет к экономической выгоде для ЕС. Тем не менее, возобновление брюссельского формата и активизация конструктивной роли ЕС на Южном Кавказе должны произойти как можно раньше. Для достижения этой цели крайне необходим сбалансированный подход ЕС и его ведущих государств-членов по отношению к странам региона.

Во всех трех форматах повестка переговоров одинакова и сформирована по инициативе Азербайджана. Международное присутствие в Карабахе должно быть ограничено контингентом российских миротворцев до 2025 года, совместным российско-турецким мониторинговым центром и временными миссиями ООН с четкой повесткой дня. Запад должен осознать, что только сам Азербайджан может предоставить гарантии карабахским армянам. Вашингтон и Брюссель могут повторить свою ошибку, но на этот раз ошибочные шаги слишком дорого обойдутся Западу – они рискуют потерять Пашиняна в Армении. Односторонняя политика США и ЕС уже создала условия для усиления позиций России в регионе [12].

Брюссельский формат армяно-азербайджанских мирных переговоров в случае сбалансированного подхода к обоим государствам региона, играет особенную роль для достижения переговорных решений по остающимся нерешенным вопросам между двумя государствами.

В регионе остается сложный геополитический ландшафт, в котором множество игроков борются за влияние и преследуют свои интересы. Важно отметить, что геополитические интересы западных стран и России на Южном Кавказе могут пересекаться или конфликтовать друг с другом. Ошибочным являлось видение государств региона о том, что Южный Кавказ является зоной стратегического интереса Запада. Но из-за войны России на Украине Запад увеличивает свое влияние во всех регионах, где политика России доминировала, особенно на Южном Кавказе и в Средней Азии. Этим Запад старается еще больше ослабить Россию и обеспечить свою

энергетическую независимость. США старается уделять первоочередное внимание поддержанию проводимых реформ, предотвращению эскалации конфликтов на Кавказе, не входить в зону жизненно важных интересов России, и не подпитывать надеждой государства региона в их усилиях по противодействию российскому влиянию. Но и в то же время, полностью отказ от региона означал бы предоставление больше рычагов влияния к проведению более настойчивой политики. Если России будет предоставлен контроль над постсоветским пространством, в частности, над Южным Кавказом, скорее всего, она воздержится от стремления иметь в зоне своего влияния страны Восточной Европы. США следовало бы пойти на уступки и не проникать в сферу жизненно важных интересов России, в особенности в отношении Грузии и Украины. В этом случае можно было бы избежать эскалации конфликта.

Весьма вероятным сценарием в этом случае будет рост российского влияния на Южный Кавказ, сопровождаемый уменьшением интереса США. Москва считает важным усилить свое военное и политическое присутствие в Грузии, поскольку эта ключевая черноморская страна, через территорию которой проходят нефтегазовые трубопроводы, это государство граничит с Турцией, которая также стремится удерживать влияние на Южном Кавказе. Сегодня фундамент прочного двустороннего партнерства между Азербайджаном и Грузией, двух стран с очень разными доминирующими этническими и религиозными группами является примером того, что сильное региональное партнерство возможно и то, что оно, безусловно, отвечает интересам обеих сторон. Партнерство между Азербайджаном и Грузией заставило мир взглянуть на Кавказ по-новому.

Брюссельский формат мирных армяно-азербайджанских переговоров, также важны для достижения переговорного решения остающихся нерешенных вопросов между Баку и Ереваном. Поддержка ЕС и содействие переговорам по мирному договору между двумя странами остается критически важной для этого процесса. Стоит напомнить, что именно благодаря переговорам при посредничестве ЕС Армения и Азербайджан в октябре 2022 года признали территориальную целостность друг друга и открыли путь к миру и примирению.

Поддержка ЕС важна также для содействия региональной интеграции на Южном Кавказе и развития платформы сотрудничества между тремя странами. Без всякого сомнения, ЕС, в отличие от некоторых других стран, соседних с Южным Кавказом, намерен поддержать эту интеграцию и получить от нее выгоду. Более тесные связи между тремя странами региона, помимо многих других преимуществ, раскроют их потенциал в качестве экономического партнера и узла связи для ЕС. Тем не менее, возобновление брюссельского формата переговоров и активизация конструктивной роли ЕС на Южном Кавказе нужны. Для достижения этой цели крайне необходим сбалансированный подход ЕС и его ведущих государств-членов по отношению к странам региона.

Следует также подчеркнуть, что сегодня появилась беспрецедентная возможность установления мира в регионе посредством экономической интеграции и сотрудничества в области возобновляемых источников энергии. С уменьшением энергетической блокады Армении больше не нужно будет полагаться на Россию и Иран в отношении энергетических источников. Результатом заключения мира может быть подключение Армении к азербайджанским газовым и электрическим проектам. Более того, долгосрочные планы Азербайджана и Армении в отношении возобновляемых источников энергии обещают новые промышленные возможности и устойчивый экономический рост, а также превращение многолетней вражды в плодотворное и долгосрочное партнерство соседних государств.

**Литература:**


1. Азербайджан установил КПП в Лачинском коридоре. Армения призвала вмешаться Россию и ООН [Электронный ресурс] / - Лондон, 23.04.2023 URL: https://www.bbc.com/russian/news-65368507
2. В Бухаресте подписано Соглашение о стратегическом партнерстве в области зеленой энергии между правительствами Азербайджана, Грузии, Румынии и Венгрии [Электронный ресурс] / - Баку, 17.12.2022 URL: https://azertag.az/ru/xeber/v_buhareste_podpisano_soglashenie_o_strategicheskom_partnerstve_v_oblasti_zelenoi_energii_mezhdu_pravitelstvami_azerbaidzhana_gruzii_rumynii_i_vengrii_video-2413895
3. Заявление Президента Азербайджанской Республики, премьер-министра Республики Армения и Президента Российской Федерации// Официальный сайт президента Азербайджанской Республики – 31.10.2022 URL: https://president.az/ru/articles/view/57744
4. Ильхам Алиев принял делегацию во главе со специальным посланником Европейского Союза по Восточному партнерству // Официальный сайт президента Азербайджанской Республики – 17.11.2022 URL: https://president.az/ru/articles/view/57891
5. Интервью Ильхама Алиева телеканалу «Евроньюс» // Официальный сайт президента Азербайджанской Республики – 02.08.2023 URL: https://president.az/ru/articles/view/6072
6. Президент Азербайджана Ильхам Алиев и президент Европейской комиссии выступили с заявлениями для печати // Официальный сайт президента Азербайджанской Республики – 18.07.2022 URL: https://president.az/ru/articles/view/56690
7. Хикмет Гаджиев: Азербайджан стремится к нормализации отношений с Арменией, [Электронный ресурс] / - Баку, 16.11.2023 URL:https://ru.apa.az/vneshnyaya-politika/xikmet-gadziev-azerbaidzan-stremitsya-k-normalizacii-otnosenii-s-armeniei-541372
8. Commission proposes new policy objectives for beyond 2020: [Electronic resource] / Eastern Partnership Press release. – Brussels, 18 March 2020. URL: https://ec.europa.eu/commission/presscorner/detail/en/IP_20_452
9. Glantz M., Higgins N. Russia’s Ukraine War could offer chance to resolve South Caucasus Conflicts. Washington: USIP - 2022. URL: https://www.usip.org/publications/2022/05/russias-ukraine-war-could-offer-chance-resolve-south-caucasus-conflicts
10. Huseynov V. Opinion: EU-Azerbaijan relations are important for both sides. Hague:Commonspace -2023 URL:https://www.commonspace.eu/opinion/opinion-eu-azerbaijan-relations-are-important-both-sides
11. Statement following quadrilateral meeting between President Aliyev, Prime Minister Pashinyan, President Macron and President Michel // Official website of European Council – 07.10.2022 URL:https://www.consilium.europa.eu/en/press/press-releases/2022/10/07/statement-following-quadrilateral-meeting-between-president-aliyev-prime-minister-pashinyan-president-macron-and-president-michel-6-october-2022/
12. Will the West repeat its mistakes?" Opinion from Baku [Electronic resource] / -JAMnews, 20.10.2023 URL: https://jam-news.net/cssc-about-the-meeting-in-brussels/


***Ключевые слова:*** *ЕС, Карабах, газ, энергетика, интересы, влияние*

**Lala Talıbova**

*PhD student at the Department of International Relations and Foreign Policy of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

# GEOPOLITICAL INFLUENCE OF THE EUROPEAN UNION IN THE SOUTH CAUCASUS

## ABSTRACT

The article speaks about the policy of the European Union in the South Caucasus, focusing on several main directions of this activity. This includes achieving economic benefits and securing energy and trade interests in the region through economic governance, development of infrastructure projects, and mediating a peace agreement between Armenia and Azerbaijan. The EU has expanded trade relations with all three countries in the region, increasing its focus on Azerbaijan, especially in terms of energy links to meet the energy needs of European states. Territorial disputes and geopolitical interests are significant in the South Caucasus region. Unresolved territorial conflicts in the South Caucasus, in particular the Karabakh conflict between Azerbaijan and Armenia, have led to instability in the region. The role of mediators, resolving regional conflicts, is played by the United States and Russia. Russia, Turkey and Iran are competing for regional influence in the South Caucasus, with Russia considering the region critical to its strategic interests. Another reason for the political activation of the EU in the South Caucasus is the current geopolitical situation and the policy of containment and reduction of Russian influence in the region.

***Keywords:*** *EU, Karabakh, gas, energy, interests, influence*

**Lalə Talıbova**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının doktorantı*

# AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZA GEOSİYASİ TƏSİRİ

## XÜLASƏ

Məqalədə Avropa İttifaqının Cənubi Qafqaz siyasətindən bəhs edilir, xüsusilə bu fəaliyyətin bir neçə əsas istiqamətləri işıqlandırılır. Bura iqtisadi mənfəətin əldə edilməsi və regionda enerji, ticarət maraqlarının təmin edilməsi məqsədi ilə iqtisadi idarəetməyə dəstək göstərilməsi, infrastruktur layihələri inkişaf etdirilməsi, eləcə də Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanması daxildir. Aİ regionun hər üç ölkəsi ilə ticarət əlaqələrini genişləndirib, xüsusilə də Avropa bloku dövlətlərinin enerji ehtiyaclarını ödəmək üçün enerji əlaqələrini gücləndirmək baxımından Azərbaycana diqqətini artırıb. Cənubi Qafqaz regionunda ərazi mübahisələri və geosiyasi maraqlar mühüm rol oynayır. Cənubi Qafqazda həll olunmamış ərazi münaqişələri, xüsusilə Azərbaycan və Ermənistan arasında Qarabağ münaqişəsi regionda qeyri-sabitliyə səbəb olub. ABŞ və Rusiya regionda münaqişələrin həllində vasitəçi rolunu oynayır. Rusiya, Türkiyə və İran Cənubi Qafqazda regional təsir uğrunda yarışır, Rusiya isə regionu özünün strateji maraqları baxımından vacib hesab edir. Aİ-nin Cənubi Qafqazda siyasi fəallaşmasının digər səbəbi hazırkı geosiyasi vəziyyət və Rusiyanın regionda təsirini zəiflətmək və azaltmaq siyasətidir.

***Açar sözlər:*** *Aİ, Qarabağ, qaz, enerji, maraqlar, təsir dairəsi*

DOI: 10.30546/2309-1347.83.2023.231

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R T A R İ X İ
H I S T O R Y O F I N T E R N A T I O N A L R E L A T I O N S

UOT 355:327

**GÜLARƏ BAĞIROVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının doktorantı**

*e-mail: doktorantura-dia@mail.ru*

# POSTMÜHARİBƏ DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ HƏRBİ SAHƏDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİNİN İNKİŞAFI

*"Postmüharibə dövrü çox böyük çağırışlarla doludur və biz bunu məharətlə keçirik. Deyə bilərəm ki, postmüharibə dövrünün gündəliyini böyük dərəcədə biz tərtib edirik. Əlbəttə, qonşu ölkələrlə daim təmasda olmaq şərti ilə və onların narahatlığını nəzərə almaq şərti ilə"*

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

44 günlük Vətən müharibəsində Ordumuz tərəfindən döyüş meydanında əldə edilmiş şanlı qələbə Azərbaycan Respublikasının xarici siyasətinin, eyni zamanda hərbi-siyasi diplomatiyasının da qələbəsidir. 1993-cü ilin yayında xalqın təkidli istəyi ilə ikinci dəfə hakimiyyətə gələn ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi daxili islahatlarla yanaşı, mövcud istiqamətdə region və regiondan kənar dövlətlərlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq nəticəsində Azərbaycanda nizami ordu yaradıldı. Peşəkar zabit korpusunun yetişdirilməsi, hərbi təhsil sisteminin müasir standartlara uyğunlaşdırılması, hərbi-sənaye kompleksinin yaradılması, ordunun ən müasir silah, texnika və yüksək texnologiyalarla təchizi Azərbaycan Respublikasının xarici dövlətlərlə hərbi sahədə əməkdaşlığının əsas istiqamətlərini təşkil etdi. Müstəqil Azərbaycanın beynəlxalq hərbi əməkdaşlıq münasibətləri dinamik inkişaf edərək ildən-ilə genişləndi. Postmüharibə dövründə bu əlaqələr uğurla inkişaf edərək yeni mərhələyə qədəm qoydu.

Ən yüksək səviyyədə inkişaf edən Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı postmüharibə dövründə daha da genişləndi. 2020-ci il sentyabrın 27-dən Azərbaycan Ordusunun başladığı əks-hücum əməliyyatı zamanı Türkiyə Respublikası tərəfindən Azərbaycana göstərilən siyasi və mənəvi dəstək, əməliyyatların davam etdiyi günlərdə Türkiyənin xarici işlər, müdafiə naziri və digər rəsmilərinin ölkəmizə mütəmadi səfərləri və ən əsası 2021-ci il iyunun 15-də iki ölkə arasında Şuşa Bəyannaməsinin [17] imzalanması Türkiyənin Azərbaycanın hərbi-strateji müttəfiqi olduğunu bir daha təsdiqlədi. Beləliklə də, Şuşa

Bəyannaməsinin imzalanması ilə iki ölkə arasında hərbi müttəfiqlik rəsmiləşdirildi.

Postmüharibə dövründə Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin müxtəlif qoşun növləri arasında keçirilən birgə hərbi təlimlərin sayı artırıldı. Belə ki, təkcə 2021-ci ildə həm Türkiyədə, həm də Azərbaycanda ondan artıq birgə təlim keçirildi. Artıq Azərbaycan-Türkiyə birgə təlimləri işğaldan azad edilmiş ərazilərdə də keçirilir. Buna misal olaraq 2021-ci ilin aprel ayında Laçın rayonunda Azərbaycan və Türkiyə hərbçilərinin döyüş atışlı taktiki təlimini göstərmək olar [32]. 2022-ci ilin dekabr ayında Azərbaycanın Astara, Cəbrayıl və İmişli rayonlarında iki ölkənin orduları arasında keçirilmiş "Qardaş yumruğu" təlimi Azərbaycanın Müdafiə naziri tərəfindən yüksək qiymətləndirilmiş, eyni zamanda xüsusi əhəmiyyətə malik olduğu və regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunmasına töhfə verdiyi vurğulanmışdır [33].

İşğaldan azad edilmiş ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsində də iki ölkənin hərbi istehkamçıları birgə fəaliyyət göstərir [3].

Postmüharibə dövründə iki ölkə arasında hərbi-texniki sahədə də əməkdaşlıq davam etdirilmişdir. 2021-ci ilin aprel ayında Türkiyə Müdafiə Sənayesi Komitəsi, "ASELSAN", "HAVELSAN" və "Baykar" şirkətlərinin rəhbər heyətinin Azərbaycana səfəri zamanı iki ölkə arasında hərbi-texniki əməkdaşlığın perspektivləri geniş müzakirə edilmişdir [6]. Aprelin 1-də "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edən Prezident İlham Əliyev torpaqlarımızın azad olunması zamanı həmin şirkətin düşmən texnikasının məhv edilməsindəki rolunu xüsusi qeyd edərək, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin təmin olunması istiqamətindəki haqq işinə verdiyi töhfəyə görə onu "Qarabağ" ordeni ilə təltif etmişdir [24]. Aprelin 30-da Azərbaycanın Müdafiə naziri ilə Türkiyə Müdafiə Sənayesi Komitəsinin sədri, "STM", "ROKETSAN", "HAVELSAN" şirkətlərinin və "ASELSAN-Bakı" ofisinin rəhbər heyəti arasında baş tutmuş görüşdə Vətən müharibəsində əldə edilən döyüş təcrübəsi nəzərə alınmaqla, iki ölkə arasında yeni birgə layihələrin həyata keçirilməsi yolları müəyyənləşdirilmişdir [10]. Prezident İlham Əliyev 2021-ci il fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında demişdir: "Türkiyə istehsalı olan müdafiə sistemlərindən Azərbaycan məharətlə istifadə edib və müharibədə bu, bizə böyük üstünlük təmin etmişdir. Müharibədən sonra da bu təmaslar davam edir... Türkiyədə istehsal olunan ən müasir silah növlərinin Azərbaycana gətirilməsi üçün razılaşma əldə edilib. Yeni kontraktlar imzalanıb və bu, bizim hərbi gücümüzü böyük dərəcədə gücləndirəcək" [25].

Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalı "Teknofest"in 2022-ci il may ayının 26-dan 29-dək Azərbaycanda keçirilməsi iki ölkə arasında müdafiə sənayesi, ümumiyyətlə hərbi sahədə əməkdaşlıq əlaqələrinin nə qədər sıx olduğunu bir daha nümayiş etdirdi. Qeyd etmək lazımdır ki, 2021-ci ilin sentyabr ayında Türkiyədə keçirilmiş "Teknofest"də Azərbaycan öz texnoloji avadanlıqlarını və hərbi texnikasını ("MiQ-29" təyyarəsi, "İti qovan", "Orbiter 2", "Orbiter 3" və "Orbiter 4" pilotsuz hava vasitələri) nümayiş etdirmişdi. 2023-cü ilin aprel ayının sonunda Türkiyədə keçirilən növbəti "Teknofest" festivalında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında ölkəmizdə "Bayraktar" mərkəzinin yaradılacağını, orada təhsil, xidmət, istehsalın da olacağını qeyd etmişdi. Eyni zamanda, Azərbaycanın dövlət başçısı Türkiyənin güclü sənayesinin həm Türkiyəni, həm də onun müttəfiqlərini gücləndirdiyi vurğulamışdı: "Türkiyənin müdafiə sənayesi bu gün bütün dünya tərəfindən qəbul edilir. Ən inkişaf etmiş, ən çağdaş, ən modern müdafiə sənayesi həm Türkiyəni, həm bizi gücləndirir..." [30].

Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, İkinci Qarabağ müharibəsinin qazilərinin müalicəsində Türkiyə Azərbaycana böyük dəstək göstərmişdir. Şəhid ailələrinə və qazilərə xidmət göstərmək məqsədilə yaradılmış

“YAŞAT” Fondunun xətti ilə Türkiyənin İstanbul, Kocaeli, Bursa şəhərlərində yerləşən müvafiq xəstəxanalarda yaralı əsgər və zabitlərimiz müalicə olunmuş və hal-hazırda da olunurlar. Qeyd etmək lazımdır ki, “YAŞAT” Fondu ilə Türkiyə Silahlı Qüvvələrinin nəzdində fəaliyyət göstərən fondlar arasında da əməkdaşlıq əlaqələri yaradılmış və bu əlaqələr uğurla davam etdirilir.

Şuşa Bəyannaməsinin imzalanması ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən “Biz rəsmi olaraq Müttəfiqlik Bəyannaməsinə imza ataraq müttəfiqə çevrildik. ...bu, reallığın rəsmiləşdirilməsi idi, çünki uzun illər ərzində Azərbaycan və Türkiyə müttəfiq kimi addımlar atırdılar. Biz əməkdaşlığın, tərəfdaşlığın və qardaşlığın bu səviyyəsini yüksək dəyərləndiririk. Tamamilə əminəm ki, əməkdaşlığımız bütün sahələrdə yalnız güclənəcək və bu, regional sabitliyin mühüm meyarıdı” [27] söyləməsi iki ölkə arasında yaxın gələcəkdə müdafiə sahəsində əməkdaşlıq əlaqələrinin daha da dərinləşməsinə əminlik yaradır.

Postmüharibə dövründə Azərbaycan-Rusiya hərbi əməkdaşlıq əlaqələrinə gəldikdə onu demək lazımdır ki, bu dövrdə iki ölkə arasında danışıqların əsas mövzularından biri İkinci Qarabağ müharibəsi zamanı istifadə edilmiş hərbi sursatların əvəzinə yenilərinin alınması ilə bağlı məsələlər olmuşdur. Prezident İlham Əliyev Rusiya Federasiyası ilə gələcək hərbi-texniki əməkdaşlıq məsələlərinə toxunaraq demişdir: “Biz hərbi əməliyyatlar başa çatandan sonra bu mövzunu da Rusiya rəhbərliyi ilə müzakirə etmişik. Ona görə ki, bizim resurslarımız da, döyüş sursatımız da sərf edilib və təbii ki, bu arsenalı müharibədən əvvəlki həddə qədər tamamlamaq zəruridir. Bu istiqamətdə iş aparılır. Bizim əsas hərbi texnikamız Rusiya istehsalı olan texnikadır... Rusiyanın hərbi texnikası bəzi göstəricilər üzrə dünyada ən yaxşı texnika və bütövlükdə dünyada ən yaxşı texnikalardan biridir” [25].

2022-ci il fevralın 22-də Azərbaycan ilə Rusiya arasında müttəfiqlik haqqında Bəyannamənin [16] imzalanması və həmin sənədin qırx üç maddəsi içərisində iki ölkə arasında hərbi, hərbi-siyasi və hərbi-texniki əməkdaşlığa dair müddəaların yer alması mövcud sahədə əməkdaşlıq əlaqələrinin daha da genişlənməsi üçün yaxşı zəmin yaradır.

Regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə töhfə verəcək çoxtərəfli əməkdaşlıq formatlarından biri də Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli hərbi əlaqələridir. Postmüharibə dövründə mövcud format çərçivəsində münasibətlər uğurla davam etmişdir. 2022-ci il dekabrın 21-də Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin Türkiyədə keçirilən növbəti 9-cu görüşündə [18] regionda cərəyan edən hərbi-siyasi vəziyyət, üçtərəfli birgə təlimlərin keçirilməsinin vacibliyi, eləcə də regional layihələrin təhlükəsizliyinin təmin olunması barədə məsələlərin müzakirəsi bir daha üçtərəfli əməkdaşlığın uğurlu bir format olduğunu göstərir və bu əlaqələrin yaxın gələcəkdə dinamik inkişafı regionda sülhün və sabitliyin təmin edilməsində mühüm rol oynayacağına əminlik yaradır.

Məlum olduğu kimi, ABŞ-ın Oklahoma Milli Qvardiyasının Azərbaycanın Müdafiə Nazirliyi ilə 20 ildən artıq davam edən əməkdaşlığı uğurla inkişaf edərək genişlənməkdədir. 2021-ci ilin iyul ayında Oklahoma ştatının qubernatorunun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycan Prezidenti İlham Əliyevlə Bakıda baş tutmuş görüşündə də bu əməkdaşlığın daha geniş tərəfdaşlıq formatına çevrildiyi vurğulanmışdır [26]. Səfər çərçivəsində Milli Qvardiyanın komandanı general-mayor M.Tompsonun Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsindəki görüşü zamanı Azərbaycan ilə ABŞ arasında təsdiq olunmuş “Ştatla tərəfdaşlıq” proqramı əsasında Azərbaycan Ordusunun və Oklahoma ştatının Milli Qvardiyasının müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığının yeni istiqamətləri müəyyənləşdirilmiş, birgə layihələr müzakirə edilmişdir [2]. Qeyd etmək lazımdır ki, 2022-ci il martın 28-dən aprelin 2-dək Müdafiə Nazirliyinin beş zabiti Oklahoma Ştatında “Yaralıların toplama məntəqəsindən tibbi təxliyəsi” mövzusunda keçirilmiş tədbirdə iştirak etmişdilər [1].

Eyni zamanda, Azərbaycan ABŞ-dan hərbi məhsullar almaqda maraqlıdır. Bunu Prezident İlham Əliyev N.Gəncəvi Beynəlxalq Mərkəzinin 2021-ci ilin may ayında "Cənubi Qafqaz: regional inkişaf və əməkdaşlıq perspektivləri" mövzusunda keçirilən müzakirələr zamanı qeyd etmişdir: "...biz ABŞ hərbi avadanlığına çıxış əldə etmək istəyirik. Bu günədək təəssüf ki, bizim belə bir imkanımız yoxdur. Bu, yəqin ki, Ermənistanla münaqişə ilə bağlı idi. Ancaq artıq münaqişə öz həllini tapıb və beləliklə, ABŞ-la müdafiə sənayesi sahəsində əməkdaşlıq etməmək üçün səbəb görmürəm" [23]. Beləliklə, iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlıq üçün geniş imkanların mövcudluğu gələcək illərdə bu istiqamətdə real addımların atılmasına əminlik yaradır.

Postmüharibə dövründə Azərbaycan Respublikasının Avropa ölkələri ilə də hərbi əməkdaşlıq münasibətləri uğurla inkişaf etmişdir. Böyük Britaniya işğaldan azad edilmiş ərazilərin mina və partlamamış sursatlardan təmizlənməsi sahəsində Azərbaycana böyük dəstək göstərmişdir. Bu məqsədlə UNİCEF və ANAMA-ya maliyyə yardımı ayrılmışdır. Böyük Britaniya hökumətinin maliyyə dəstəyi ilə minalanmış ərazilərdə mina təhlükəsini göstərən müxtəlif nişanlar qoyulmuş, ANAMA ekspertləri üçün britaniyalı texniki ekspertlər tərəfindən təlimlər təşkil edilmiş, həmçinin minaaxtaran itlər və dronlardan istifadə edilərək mütəxəssislərə bu işlərdə köməklik göstərilmişdir [21]. İki ölkənin müdafiə nazirlikləri arasında imzalanmış əməkdaşlıq planına əsasən cari ilin 23 yanvar-2 fevral tarixlərində Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində, eləcə də "Qaraheybət" Təlim Mərkəzində Böyük Britaniyanın Təhlükəsizlik və Partlayıcı maddələrin Tədrisi Beynəlxalq Məktəbinin mütəxəssisləri tərəfindən "Partlayış təhlükələri haqqında məlumatlandırma" üzrə təlim kursu keçirilmişdir. Təlimin keçirilməsində əsas məqsəd partlayıcı sursatların qalıqları ilə tanışlıq, onlarla davranış qaydaları, minalanmış ərazinin işarələnməsi və yaralıların həmin ərazilərdən təxliyəsi, həmçinin gələcəkdə bu təlimin öz mütəxəssislərimiz tərəfindən keçirilməsinin metodlarını tədris etməkdən ibarət olmuşdur [12].

Avropa ölkələri ilə hərbi təhsil sahəsində əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi Azərbaycanın hərbi təhsil sisteminin modernləşdirilməsində, ordunun NATO standartlarına uyğunlaşdırılmasında mühüm rol oynayır. Bu baxımdan, 2021-ci il martın 11-də Sofiyada və mayın 19-da Bakı şəhərində Azərbaycan ilə Bolqarıstan arasında mövcud sahədə əməkdaşlığa dair sazişin [19] imzalanması mühüm əhəmiyyət kəsb edir. İki ölkənin hərbi təhsil müəssisələri arasında birgə konfrans və digər elmi tədbirlərin keçirilməsi də öz növbəsində əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə mühüm töhfə verir. Buna misal olaraq 2022-ci ilin aprel ayında Silahlı Qüvvələrin Hərbi Akademiyasının nümayəndə heyətinin Bolqarıstan Respublikasının G.S.Rakovski adına Hərbi Akademiyasının 110 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konfransda iştirakını göstərmək olar. Konfransın plenar iclasında Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyevin "İkinci Qarabağ müharibəsi yeni nəsil müharibə kimi" mövzusunda etdiyi çıxış konfrans iştirakçıları tərəfindən maraqla dinlənilmişdir [11].

Təlim və təhsil sahəsində əməkdaşlığa dair niyyət protokolu İtaliya Respublikası ilə də imzalanmışdır. İmzalanma mərasimi İtaliyanın Müdafiə naziri Quido Krosettonun cari ilin yanvar ayında Azərbaycana səfəri zamanı baş tutmuşdur [7]. Qeyd etmək lazımdır ki, Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin tərkibində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunda italyan dili kursunun tədris olunması da [31], öz növbəsində iki ölkə arasında hərbi əməkdaşlıq əlaqələrinin genişləndirilməsində mühüm rol oynayacağına əminlik yaradır.

2022-ci ilin iyun ayında "Azərkosmos"la İspaniyanın aerokosmik, müdafiə və təhlükəsizlik sahələri üzrə fəaliyyət göstərən "GTD Ingenieria de Sistemas" şirkəti arasında Niyyət Protokolunun imzalanması kosmik sahə üzrə qarşılıqlı fayda gətirəcək layihələrdə əməkdaşlıq, Azərbaycanda peyk sistemlərinin inkişafı,

təhsil proqramları çərçivəsində təcrübə mübadiləsi üçün geniş imkanlar açır [8]. Eyni zamanda, mövcud sənədin imzalanması iki ölkə arasında hərbi-texniki əməkdaşlıq üçün də imkanlar açacağına əminlik yaradır.

Postmüharibə dövründə respublikamızın Baltikyanı ölkələr ilə də hərbi sahədə əməkdaşlıq əlaqələrinin intensivləşdiyini müşahidə etmək mümkündür. Belə ki, uzun illər NATO çərçivəsində Azərbaycanın vacib tərəfdaşlarından olan Latviya Respublikası ilə müdafiə sahəsində əməkdaşlığa dair Saziş məhz müharibədən sonrakı dövrdə - 2022-ci ilin aprel ayında imzalanmışdır [9]. Sazişin imzalanmasından bir neçə ay sonra – iyun ayında Azərbaycan Müdafiə Nazirliyinin nümayəndələri ilə Latviya Respublikasının Müdafiə Nazirliyinin Mühəndis Təlim Mərkəzinin mütəxəssisləri arasında keçirilən görüşdə postmüharibə dövrü üçün aktual olan minaların və əldəqayırma partlayıcı qurğuların zərərləşdirilməsinə dair məsələlər ətrafında müzakirələr aparılmışdır [4]. Həmin dövrdə Azərbaycan və Litva Müdafiə nazirliklərinin nümayəndə heyətləri arasında da ikitərəfli əməkdaşlıq danışıqları üzrə keçirilən görüşdə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, eyni zamanda regional təhlükəsizlik məsələləri barədə müzakirələr aparılmışdır [5].

Azərbaycan Respublikasının hərbi sahədə uğurla əməkdaşlıq etdiyi dövlətlərdən biri də Pakistan İslam Respublikasıdır. Məlum olduğu kimi, Pakistan 1991-ci ildə Türkiyədən sonra Azərbaycanın müstəqilliyini tanıyan və hərtərəfli dəstək verən ikinci ölkə olub. O dövrdən iki ölkə arasında başlanan əməkdaşlıq ildən-ilə inkişaf edərək genişlənməkdədir. İkinci Qarabağ müharibəsi zamanı Pakistanın Xarici İşlər Nazirliyi bir daha bəyanat verərək, Azərbaycan xalqının yanında olduğunu və ölkəmizin ərazi bütövlüyünü dəstəklədiyini bildirmişdi. Beləliklə, tədqiqatçıların da qeyd etdiyi kimi, Pakistanı tam əminliklə Azərbaycanın hərbi-strateji müttəfiqi adlandırmaq olar [22, s.390].

Postmüharibə dövründə Azərbaycan və Pakistan dövlət rəsmiləri və hərbi qurum nümayəndələri arasında aparılan danışıqların əsas mövzularından biri birgə təlimlərin keçirilməsi məsələsi olmuşdur. Belə ki, Azərbaycan Ordusu ilə Pakistan və Türkiyə Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərinin, o cümlədən xüsusi təyinatlı qüvvələrin cəlb edilməsi ilə birgə hərbi təlimlərin keçirilməsi məsələsi 2021-ci il yanvar ayının 15-də Azərbaycanın Müdafiə naziri ilə Pakistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri arasındakı görüşdə müzakirə edilmişdir [15]. Azərbaycan-Pakistan birgə hərbi təlimlərin keçirilməsi məsələsi Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsi sədrinin martın 3-də Prezident İlham Əliyevlə görüşünün də əsas müzakirə mövzularından biri olmuşdur. Görüşdə bununla bağlı Azərbaycanın dövlət başçısı söyləmişdir: "...biz birgə hərbi təlimlər üzərində düşünürük. Hesab edirik ki, artıq bunun vaxtı çatıb" [29]. Aparılan danışıqların nəticəsi olaraq, sentyabrın 12-dən 20-dək Azərbaycan, Türkiyə və Pakistan xüsusi təyinatlı qüvvələri nümayəndələrinin iştirakı ilə "Üç qardaş-2021" beynəlxalq təlimi keçirilmişdir [35].

İki ölkə arasında hərbi təhsil sahəsində də əməkdaşlıq əlaqələri uğurla davam etdirilməkdədir. 2022-ci ilin iyun ayında Milli Müdafiə Universitetində olan Pakistan İslam Respublikası Milli Müdafiə Universitetinin rəhbər heyəti və "Milli təhlükəsizlik və müharibə kursu"nun dinləyicilərinə Azərbaycanın hərbi təhsil sistemi haqqında geniş brifinq təqdim olunmuşdur [34].

İyun ayının 29-da Azərbaycanda səfərdə olan Pakistan Hərbi Hava Qüvvələri (HHQ) komandanı aviasiya marşalı Zahir Ahmed Baber Sidhunun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycan Respublikasının müdafiə naziri, Ordunun Baş Qərargah rəisi və Azərbaycan Hərbi Hava Qüvvələrinin komandanı ilə keçirilən görüşlərində iki ölkə arasında təhlükəsizlik, müdafiə, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsinin, ekspert qrupları səviyyəsində qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacibliyi bildirilmişdir. Keçirilən

müzakirələr zamanı hərbi aviasiya sahəsində əməkdaşlığın davam etdirilməsinin iki ölkənin ordularının döyüş qabiliyyətinin daha da güclənməsinə mühüm töhfə verəcəyi vurğulanmışdır. Qeyd etmək lazımdır ki, Pakistan HHQ Akademiyasında Azərbaycan üçün hərbi pilotlar hazırlanır, eyni zamanda Pakistan HHQ-nin helikopter heyətləri Azərbaycanın aviasiya təlim mərkəzlərində hazırlıq keçirlər [5e]. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, iki ölkə arasında hərbi əməkdaşlıq üçün böyük potensialın mövcudluğu gələcək illərdə də bu əlaqələrin yüksələn xətlə inkişaf edəcəyinə əminlik yaradır.

Məlum olduğu kimi, Azərbaycan Asiya qitəsinin digər ölkəsi – İsrail dövləti ilə də etibarlı hərbi tərəfdaşlıq münasibətlərinə malikdir. Ölkəmizin müdafiə sənayesinin formalaşmasında və ordunun müasir silahlarla təchiz edilməsində qabaqcıl texnologiyalara malik İsrail əhəmiyyətli müttəfiq kimi mühüm rol oynayır. 2022-ci il oktyabrın 3-də İsrailin Müdafiə naziri B.Qansın Azərbaycana səfəri [28] çərçivəsində ölkə başçısı İlham Əliyev və müdafiə naziri Zakir Həsənovla görüşləri zamanı ikitərəfli hərbi əməkdaşlıq əlaqələrinin prioritet istiqamətləri ətrafında müzakirələrin aparılması yaxın gələcəkdə mövcud istiqamətdə münasibətlərin dərinləşməsi üçün yaxşı zəmin yaradır. Cari ilin mart ayında İsraildə Azərbaycan səfirliyinin açılması da öz növbəsində, iki ölkə arasında hərbi əməkdaşlıq əlaqələrinin genişləndirilməsində mühüm rol oynayacağına əminlik yaradır.

2022-ci ilin iyun ayında Prezident İlham Əliyevin Özbəkistan Respublikasına rəsmi səfəri zamanı iki ölkə arasında hərbi və hərbi-texniki əməkdaşlıq haqqında Sazişlərin imzalanması mövcud sahələrdə ölkələrarası əməkdaşlıq əlaqələrinin gələcək illərdə uğurla inkişaf etməsi üçün geniş imkanlar açır [13]. Qeyd etmək lazımdır ki, 2023-cü ilin yanvar ayında Özbəkistan Silahlı Qüvvələrinin Hərbi Akademiyasında keçirilən görüşdə Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin rektoru Heydər Piriyevin "44 günlük Vətən müharibəsinin gələcəkdə çoxsaylı araşdırmaları" mövzusunda çıxışı akademiyanın professor-müəllim heyəti, təkmilləşdirmə kursunun dinləyiciləri tərəfindən maraqla qarşılanmışdır. Eyni zamanda, keçirilən görüşdə iki ölkə arasında hərbi təhsil, hərbi kadrların və ali hərbi təhsil müəssisələrində professor heyətinin hazırlanması sahəsində təcrübə mübadiləsi də aparılmışdır [14].

Beləliklə, göründüyü kimi, postmüharibə dövründə Azərbaycan Respublikasının beynəlxalq hərbi əməkdaşlıq əlaqələri uğurla inkişaf edərək, yeni mərhələyə qədəm qoymuşdur. Hərbi, hərbi-texniki, hərbi təhsil sahəsində əməkdaşlığa dair xarici dövlətlərlə yeni müqavilələrin imzalanması, Azərbaycan-Türkiyə birgə hərbi təlimlərin sayının artırılması, Azərbaycan, Türkiyə və Pakistan xüsusi təyinatlı qüvvələrinin birgə təliminə start verilməsi, işğaldan azad edilmiş ərazilərdə minaların aşkarlanması və zərərləşdirilməsi sahəsində xarici dövlətlərlə əməkdaşlıq bir daha bunu söyləməyə əsas verir.

**Ədəbiyyat:**


1. ABŞ-ın Oklahoma ştatı ilə əməkdaşlığın 20 illiyi qeyd edilir // Xalq qəzeti. – 2022, 05 aprel. – s. 6
2. ABŞ-ın Oklahoma ştatının Milli Qvardiyasının nümayəndə heyətinin ölkəmizə səfəri davam edir // Respublika. – 2021, 30 iyul
3. Azad edilən ərazilərdə bölmələrimizin hərtərəfli mühəndis təminatı üzrə tədbirlər davam etdirilir // Azərbaycan Ordusu. – 2021, 25 sentyabr. – s. 8
4. Azərbaycan ilə Latviya arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub // Azərbaycan Ordusu. – 2022, - 02 iyul. – s. 4
5. Azərbaycan ilə Litva arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub // Azərbaycan Ordusu. – 2022, 18 iyun. – s.2
6. Azərbaycan ilə Türkiyə arasında hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub // Azərbaycan Ordusu. – 2021, 03 aprel. – s. 3
7. Azərbaycan-İtaliya hərbi əməkdaşlığı yeni inkişaf mərhələsinə yüksəlib // Azərbaycan Ordusu. – 2023, 14 yanvar. – s. 2
8. "Azərkosmos" İspaniya şirkəti ilə əməkdaşlığa başlayır: [Elektron resurs] /- 03 iyun, 2022. URL: https://poliqon.az/azerkosmos-ispaniya-sirketi-ile-emekdasliga-baslayir/
9. Azərbaycan-Latviya hərbi əlaqələrinin genişləndirilməsi məsələləri müzakirə edilib // Azərbaycan Ordusu. – 2022, 27 aprel. – s. 2
Böyük Britaniyada klassik majoritar sistemlə yanaşı digər sistemlər də tətbiq edilir. Bunlardan: majoritar-preferensial sistemi (İngiltərədə, Uelsdə ikidən çox namizəd irəli sürdükdə merlərin seçkiləri), vahid ötürülə bilən səs sistemi (Şotlandiya və Şimali İrlandiyada bir sıra yerli seçkilər), qarışıq majoritar-proporsional sistem (Şotlandiya Parlamentinə, Uels Milli Assambleyasına, London Assambleyasına seçkilər), qapalı partiya siyahısı sistemi (Şimali İrlandiya istisna olmaqla, Avropa Parlamentinin deputatlarının seçkiləri) [7, s.237].

Britaniya sisteminin xüsusiyyətləri arasında (Almaniyada olduğu kimi) "seçkiqabağı sükut gününün" olmamasını qeyd etmək lazımdır. Qeyd edək ki, hətta parlament seçkiləri günü də (seçki məntəqələrində təbliğat-təşviqat kampaniyası istisna olmaqla) siyasi təşviqat aparılmasına icazə verilir. Britaniya seçki sisteminin digər paradoksal xüsusiyyəti ondan ibarətdir ki, ölkədə seçki kampaniyası zamanı bülleten qəbul edilərkən seçicinin şəxsiyyətini təsdiq edən heç bir sənəd tələb olunmur (Şimali İrlandiya istisna olmaqla). Bir sıra ekspertlərin fikrincə, bu hal səslərin hesablanmasında və seçkilərin nəticələrinin elan edilməsində sui-istifadə hallarına gətirib çıxara bilər, habelə bəzi seçki məntəqələrində seçkilərin nəticələrinin saxtalaşdırılması ehtimalını istisna edilmir [5, s.53].

Britaniya modelindən fərqli olaraq, Fransa seçki sistemi yalnız iki səviyyəyə bölünür:

- milli səviyyə (prezident və parlament seçkiləri);
- yerli səviyyədə (bələdiyyə, regional seçkilər, ölkənin idarələrinə seçkilər).

Böyük Britaniyada Parlamentin iki palatasından yalnız birinin (aşağı) seçildiyi halda, Fransada hər iki palata seçilir. Parlamentin aşağı palatasının – Milli Assambleyanın 577 deputatı qarışıq majoritar sistemə uyğun olaraq ümumi gizli səsvermə yolu ilə beş il müddətinə seçilir. Birinci turda seçilmək üçün namizəd səslərin mütləq əksəriyyətinin (eyni zamanda siyahılara daxil edilmiş seçicilərin sayının ən azı dörddə birinin) dəstəyini təmin etməlidir. Belə nəticələrə nail olmaq mümkün olmadıqda, qeydə alınmış bütün seçicilərin ən azı 1/8 səsini toplayan namizədlərin iştirak etdiyi seçkilərin ikinci turu keçirilir və bu mərhələdə "nisbi çoxluq" qaydası işləyir. İkinci tura keçmək üçün mövcud maneə iki dominant siyasi qüvvəni saxlamaqla məhdud sayda güclü, orta və böyük partiyaların saxlanmasına kömək edir [3,s.17; 4,s.137].

Azərbaycan Respublikasının seçki sistemində seçkilərin keçirilməsində mövcud dünya təcrübəsi nəzərə alınıb, 5 milyondan çox insanın səsvermə hüququ var, 55 siyasi partiya rəsmi qeydiyyatdan keçib. Hazırda Azərbaycan majoritar sistemdən istifadə edir, baxmayaraq ki, 2002-ci ilə qədər həm proporsional, həm də majoritar seçki sistemlərindən istifadə edilib. Azərbaycan seçki qanunvericiliyini təkmilləşdirməkdə davam edir ki, bu da bir çox beynəlxalq strukturlar tərəfindən qeyd olunur. Son zamanlar bir sıra siyasətçilər, deputatlar, bu sahədə ixtisaslaşmış ekspertlər parlament seçkilərində partiyaların cəmiyyətdəki rolunu artıra, ölkə siyasətində ətaləti aradan qaldıra biləcək proporsional sistemin bərpasının zəruriliyindən danışırlar. Müqayisə üçün qeyd edək ki, Cənubi Qafqazda həm Gürcüstanda, həm Ermənistanda proporsional seçki sistemi tətbiq edilir. Təbii ki, seçki sisteminin dəyişdirilməsi üçün Konstitusiyaya dəyişikliklər tələb olunacaq və bunun üçün referendum keçirilməlidir.

Qarabağda hərbi qələbə hakimiyyətin ictimai-siyasi nüfuzunu gücləndirdi. Ölkə ictimaiyyəti Prezident İlham Əliyevin milli-siyasi harmoniyaya xidmət edən təşəbbüslərini görür.

2020-ci il martın 10-da Milli Məclisdə çıxış edən Prezident İlham Əliyev deyib: "Hesab edirəm ki, indiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz. Bir partiya – hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəf-müqabillər lazımdır və ilkin təəssürat müsbətdir. Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Hesab edirəm ki, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq. Hazırda siyasi partiyanı yaratmaq üçün heç bir ciddi meyar tələb olunmur. Hesab edirəm ki, bu praktikaya son qoyulmalıdır. Əgər biz doğrudan da istəyirik ki, Azərbaycanda çoxpartiyalı sistem inkişaf etsin, – biz bunu istəyirik və iqtidar partiyası kimi bunu təqdim edirik, – onda, əlbəttə, siyasi partiyaların fəaliyyəti üçün lazım olan bütün alətlər spektri mövcud olmalıdır. Bu, hesab edirəm ki, Milli Məclisin gündəliyində duran məsələlərdən biri olacaqdır" [1].

**Ədəbiyyat:**


1. Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında İlham Əliyevin nitqi // [10.03.2020] https://president.az/az/articles/view/36133
2. Варлен М.В. О достоинствах и недостатках избирательных систем / Конституционализм и правовая система России. Итоги и перспективы. Сборник докладов. – М.: Проспект, – 2014. – 104 с.
3. Избирательная система во Франции и система партий. Аналитическая записка. – М. – 2013. – с.17-21.
4. Лейпхарт А. Конституционные альтернативы для новых демократии // Полис. – 1995. – №2. – с.137.
5. Никитенко А.И. Особенности современных избирательных систем стран Западной Европы (на примере Великобритании, Франции, Германии) //Central Russian Journal of Social Sciences, 2015, Volume 10, Issue 5, p.50-59
6. Халил-заде Ф.А. Пропорциональная избирательная система – международный опыт и Азербайджан // Известия высших учебных заведений. Социология. Экономика. Политика. – 2016. – №3. – с.57-59.
7. Alder J. Constitutional and Administrative Law. – London: Palgrave. – 2015. – 632 p.
8. Ethridge M., Hendelman E. Politics in a Changing World: A Comparative Introduction to Political Science. Milwaukee: Cengage Learning. – 2014. – 576 p.
9. Gallagher M., Mitchell P. The Politics of Electoral Systems. Oxford University Press. – 2008. – 662 p.
10. Reynolds A., Reilly B., Ellis A. Electoral System Design: The New International IDEA Handbook. – Stockholm. – 2005. – 237 p.


***Açar sözlər:*** *majoritar sistem, proporsional sistem, seçki, Konstitusiya, siyasi partiyalar, səsvermə, dövlət hakimiyyəti*

**Tacira Abdullayeva**
*Ph.D. candidate, Department of Political Science and Sociology,*
*Baku State University*

# TYPES AND FEATURES OF THE ELECTORAL SYSTEM: INTERNATIONAL EXPERIENCE

## ABSTRACT

The present article attempts to study comprehensively the types and features of electoral systems in relation to their essential features. The article provides a comparative analysis of electoral systems in leading states. The author considers the electoral systems existing in the world practice and notes that their existence in their pure form is limited to only a few countries. At the same time, states use mixed, "combined" models of electoral systems, introducing them to special, unique elements. The article emphasizes the analysis of each system's strengths and weaknesses; the conclusion is made about the possibility of using the best world experience in electoral technologies in relation to domestic practice and the socio-political realities of Azerbaijan. In this regard, a deep study of the influence of electoral systems on the formation of representative bodies seems to be relevant.

***Keywords:*** *majority system, proportional system, elections, Constitution, political parties, vote, government*

**Таджира Абдуллаева**
*Докторант кафедры Политологии и социологии*
*Бакинского Государственного Университета*

# ТИПЫ И ОСОБЕННОСТИ ИЗБИРАТЕЛЬНЫХ СИСТЕМ: МЕЖДУНАРОДНЫЙ ОПЫТ

## РЕЗЮМЕ

В представленной статье предпринята попытка комплексного изучения видов и особенностей избирательных систем в контексте их существенных признаков. Дается сравнительный анализ избирательных систем в ведущих государствах. Автор рассматривает существующие в мировой практике избирательные системы, отмечает, что их существование в чистом виде ограничивается лишь немногими странами; при этом государства применяют смешанные, «комбинированные» модели избирательных систем, привнося в них особенные, свойственные только им элементы. Акцент в статье дается на анализ сильных и слабых сторон каждой системы, делается вывод о возможности использования передового мирового опыта использования избирательных технологий применительно к отечественной практике и общественно-политическим реалиям Азербайджана. В этом плане глубокое изучение влияния избирательных систем на формирование представительных органов выглядит актуальным.

***Ключевые слова:*** *мажоритарная система, пропорциональная система, выборы, Конституция, политические партии, голосование, государственная власть*

DOI: 10.30546/2309-1347.83.2023.257

## DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

### *Dövlət İdarəçilik Akademiyası "ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün təlim keçirib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün "Dövlət idarəçiliyində Heydər Əliyev fenomeni və müasir Azərbaycanın davamlı inklüziv inkişafı" mövzusunda təlimlər keçirilib. "ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün DİA-nın rektoru akademik Urxan Ələkbərov mövzu üzrə məruzə edib. Rektor dahi şəxsiyyət Heydər Əliyevin müstəsna tarixi xidmətlərindən danışıb, Ulu Öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətçiliyinin böyük təhlükələrdən xilas olduğunu, ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında əsaslı dönüşün yarandığını qeyd edib. O, ölkəmizdə qazanılan uğurların dahi rəhbər Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu vurğulayıb. Rektor U.Ələkbərov Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. O, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanın davamlı inklüziv inkişafı naminə resurslardan səmərəli istifadə sahəsində regional və qlobal liderə çevrilməsinə gətirib çıxardığını xüsusi vurğulayıb. Qeyd edib ki, inklüziv inkişaf sahəsində ölkəmizin yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri var. U.Ələkbərov müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu qeyd edərək, inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğunu söyləyib. O, beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni dövrdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. DİA-nın rektoru işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq tədbirlərindən bəhs edib.

### *Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar tədbir keçirilib*

"Heydər Əliyev İli" çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) və Dövlət Gömrük Komitəsinin birgə təşkilatçılığı ilə tədbir keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsinin əməkdaşları iştirak ediblər. Tədbirdə Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov çıxış edərək, Ulu Öndər Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən, Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətlərindən danışıb. Sonra DİA-nın rektoru akademik Urxan Ələkbərovun "Dövlət idarəçiliyində Heydər Əliyev fenomeni və müasir Azərbaycanın davamlı inklüziv inkişafı" mövzusunda təqdimatı olub. U.Ələkbərov Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. O, Prezident İlham Əliyev



tərəfindən işlənərək tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanı davamlı inklüziv inkişaf naminə resurslardan səmərəli istifadə üzrə regional və qlobal liderə çevrilməsinə gətirib çıxardığını xüsusi vurğulayıb. Eyni zamanda, Azərbaycanda tətbiq edilən innovativ idarəçilik texnologiyaları kompleksinin yüksək səmərəliliyinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin uğurla yerinə yetirilməsində və Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan ərazilərin azad edilməsində təsdiqini tapdığını bildirib. Zəfərin cəmi 44 günə qazanılmasını və Azərbaycanın ərazi bütövlüyünün tam bərpasını dövlətimizin başçısının innovativ inkişaf strategiyasının təntənəli yekunu kimi dəyərləndirib. Rektor Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran dünya lideri olduğunu diqqətə çatdırıb. Vurğulanıb ki, inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsində və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri var. Respublikanın hazırkı davamlı inkişafı dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində reallaşdırılan ardıcıl islahatlar və dəyişikliklərin nəticəsidir. Rektor təlimlər zamanı müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu qeyd edərək, inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğunu söyləyib. O, beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq, ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni mərhələdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarəedilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. Akademik U.Ələkbərov məruzəsini işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri, müstəqillik dövründə qazanılan siyasi, iqtisadi, hərbi uğurlar, inklüziv inkişafın idarə olunması sahəsində ölkənin əldə etdiyi nailiyyətlər barədə geniş elmi təhlilə əsaslanan məlumatlarla yekunlaşdırıb. Sonra dinləyicilərin sualları cavablandırıldı.

### *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Davamlı inkişafın planlaşdırılması və idarəedilməsi" kafedrası professorunun məqaləsi "Scopus" elmi bazasında yerləşən impakt faktorlu "İqtisadiyyat və maliyyə icmalı" jurnalında dərc edilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Davamlı inkişafın planlaşdırılması və idarəedilməsi" kafedrası professoru, iqtisad elmlər doktoru Vüsal Qasımlının məqaləsi Scopus" elmi bazasında yerləşən impakt faktorlu "İqtisadiyyat və maliyyə icmalı" jurnalında dərc edilib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlının "Scopus" elmi bazasında indeksləşən Böyük Britaniyanın "İqtisadiyyat və maliyyə icmalı" (Review of Economics and Finance) beynəlxalq jurnalında "Monetar Şərait İndeksi Monetar siyasətin izahedicisi kimi. Gürcüstan nümunəsində" (Monetary Conditions Index (MCİ) as an Explanatory of Monetary Policy. Case for Georgia) adlı məqaləsi dərc olunub. Qeyd edək ki, "İqtisadiyyat və maliyyə icmalı" jurnalı impakt faktora malikdir və onun redaksiya şurasının üzvləri Böyük Britaniya, Yaponiya, Çin, Yeni Zelandiya, İspaniya və s. ölkələrin nüfuzlu universitetlərinin professorlarıdır. Məqalənin həmmüəllifləri İİTKM-in şöbə müdiri Günay Quliyeva və baş məsləhətçisi Coşqun Cəfərovdur. Məqalədə əsas diqqət Monetar Şərait İndeksi istifadə etməklə pul siyasətinin effektivliyini araşdırmağa yönəlib. Araşdırmada qeyd olunur ki, bu indeks faiz dərəcələrini və valyuta məzənnələrini vahid ölçüdə birləşdirir və monetar siyasətin real sektora təsirini qiymətləndirmək üçün istifadə edilə bilər. Müəlliflər MCI hesablanmasını rüblük əsasda 2011-2021-ci illərin iqtisadi göstəriciləri nəzərə alınmaqla həyata keçiriblər. Məqalədə ekonometrik modelləşdirmədən yararlanaraq, Monetar Şərait İndeksindən monetar siyasətin izahedicisi kimi istifadənin mümkünlüyü nəticəsinə gəlinir. Elmi məqalə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında müvafiq ixtisas üzrə təhsil alan tələbə və magistrlar üçün faydalı mənbədir. Məqalə ilə təqdim olunan link vasitəsi ilə tanış olmaq mümkündür: https://refpress.org/ref-vol21-a135/

### *Dövlət İdarəçilik Akademiyasında Bilik Günü qeyd edilib*

Sentyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Bilik Günü və yeni dərs ilinin başlanması münasibətilə tədbir keçirilib. Əvvəlcə tələbələr və onların valideynlərinin akademiya ilə tanışlığı təşkil edilib. Onlara Dövlət İdarəçilik Akademiyasının Heydər Əliyev Dövlət İdarəçilik Məktəbi barədə ətraflı məlumat verilib. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. DİA-nın rektoru akademik Urxan Ələkbərov tələbələri və müəllimləri yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb. O, Ümummilli Lider Heydər Əliyevin diqqət və qayğısı ilə yaradılmış bu təhsil ocağının əldə etdiyi nailiyyətlərdən, respublikamız üçün idarəçilik sahəsində mütəxəssislər hazırlanması işində mühüm rolundan danışıb. Ulu Öndər Heydər Əliyevin elmə, təhsilə göstərdiyi qayğı və diqqətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdıran rektor akademiyanın ənənələrinə sadiq qalan tələbələrin biliyi, bacarığı ilə idarəçilik sahəsinə töhfə verəcəklərinə ümidvar olduğunu deyib.





Qeyd edib ki, müasir dövrdə ölkənin gücü onun təbii sərvətləri ilə yanaşı, həm də insan potensialı ilə müəyyən edilir. Rektor 2023-2024-cü tədris ilində Dövlət İdarəçilik Akademiyasına qəbul olunanların əksəriyyətinin yüksək bal topladıqlarını diqqətə

çatdırıb. Bildirib ki, onlardan 200 nəfər Siyasi idarəetmə, 238-si isə İnzibati idarəetmə fakültəsində təhsil alacaq. Magistratura pilləsində isə 170 nəfər təhsilini davam etdirəcək. Urxan Ələkbərov yüksək nəticələr göstərmiş gənclərin Dövlət İdarəçilik Akademiyasını seçməsini, bununla yanaşı, Azərbaycan Respublikası Prezidenti Administrasiyası, Nazirlər Kabineti, Milli Məclis, Naxçıvan Muxtar Respublikası, mərkəzi icra hakimiyyəti orqanları, müxtəlif nazirliklər, şəhər və rayon icra hakimiyyətləri və digər dövlət orqanlarında çalışan dövlət qulluqçularının da rəhbər kadr kimi akademiyada magistratura təhsili almasının olduqca əhəmiyyətli hesab edildiyini diqqətə çatdırıb. Siyasi idarəetmə fakültəsinin dekanı dosent Murtəza Həsənov və İnzibati idarəetmə fakültəsinin dekanı dosent Elnur Əliyev təbriklərini çatdırıb, gələcəkdə ölkəmizin uğurlar qazanmasında DİA məzunlarının imzasının daha da çox olacağına inamlarını ifadə ediblər. Daha sonra yüksəl bal toplayan tələbələr və onların valideynləri Dövlət İdarəçilik Akademiyasına qəbul olması ilə fəxr etdiyini bildirib, kollektivə yeni dərs ilində uğurlar arzulayıb.

## *Elmi tədqiqatların səmərəliliyinin artırılması məqsədi ilə “Akademik yazı bacarıqları” adlı seminar keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında elmi tədqiqatların səmərəliliyinin artırılması, elmi nəticələrin yüksək təsir əmsallı (impact factor) jurnalların tələblərinə uyğun tərtib olunması məqsədi ilə seminar keçirilib. Seminar “İntellektual sistemlərin idarə olunması” kafedrasının müdiri, dosent Elvin Əzizbəyov tərəfindən aparılıb. Məqsəd elmi tədqiqatların səmərəliliyinin artırılması, elmi nəticələrin yüksək təsir əmsallı (impact factor) jurnalların tələblərinə uyğun tərtib olunması və



DİA-nın əməkdaşlarının elmi məqalələrinin Web of Science, Scopus, Springer və s. kimi elmmetrik bazalarda indekslənən jurnallarda nəşr olunması məsələləri ilə əlaqədardır. Seminarda DİA-nın rektoru akademik Urxan Ələkbərov dahi şəxsiyyət Heydər Əliyevin elmə və təhsilə verdiyi müstəsna tarixi xidmətlərindən danışıb, Ulu Öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycan elmində əsaslı dönüşün yarandığını qeyd edib. O, ölkəmizdə qazanılan uğurların dahi rəhbər Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu deyib. Rektor Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. Əldə edilən uğurların əsasında elmi əsaslandırma və yanaşmanın dayandığını qeyd edib. "Akademik yazı bacarıqları" adlı seminarda DİA-nın professor-müəllim heyəti, doktorantlar və magistrlar iştirak edib. Sonda iştirakçıların sualları cavablandırılıb.

## *Dövlət İdarəçilik Akademiyasında "ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün növbəti təlim*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün "Dövlət idarəçiliyində Heydər Əliyev fenomeni və müasir Azərbaycanın davamlı inklüziv inkişafı" mövzusunda təlim keçirilib. Təlim zamanı DİA-nın rektoru, akademik Urxan Ələkbərov "ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün mövzu üzrə məruzə edib. U.Ələkbərov dahi şəxsiyyət Heydər Əliyevin müstəsna tarixi xidmətlərindən danışıb, Ulu Öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətçiliyinin böyük təhlükələrdən xilas olduğunu, ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında əsaslı dönüşün yarandığını qeyd edib. O, ölkəmizdə qazanılan uğurların dahi rəhbər Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu deyib. Rektor Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. O, Prezident İlham Əliyev tərəfindən işlənərək tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanın davamlı inklüziv inkişafı naminə resurslardan səmərəli istifadə sahəsində regional və qlobal liderə çevrilməsinə gətirib çıxardığını xüsusi vurğulayıb. U.Ələkbərov bildirib ki, inklüziv inkişaf sahəsində ölkəmizin yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri var. Rektor müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu qeyd edərək, inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğunu söyləyib. O, beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni strateji dövrdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. U.Ələkbərov işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq tədbirlərindən bəhs edib. Xatırladaq ki, Prezident İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"lə bağlı 2021-ci il 2 fevral tarixli Sərəncamına əsasən Dövlət İdarəçilik Akademiyası Azərbaycan Respublikasının

Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (“ASAN xidmət” mərkəzi) ilə əməkdaşlıq memorandumu çərçivəsində fəaliyyətini davam etdirir. Bununla əlaqədar Dövlət İdarəçilik Akademiyasında təsdiq edilən tədbirlər planına uyğun olaraq dövlət qulluqçuları üçün xüsusi təlimlər keçirilir.

***DİA-nın kollektivi 27 sentyabr şəhidlərin Anım günü münasibətilə Zəfər parkında olan abidəni ziyarət ediblər***



Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kollektivi 27 sentyabr şəhidlərin Anım günü münasibətilə Zəfər parkında olan abidəni ziyarət ediblər.

## *DİA-da Rusiya Prezidenti yanında Akademiyanın nümayəndə heyəti ilə görüş keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Rusiya Federasiyası Prezidenti yanında Xalq Təsərrüfatının İdarəedilməsi və Dövlət Qulluğu Akademiyasının nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə DİA-nın rektoru akademik Urxan Ələkbərov Dövlət İdarəçilik Akademiyasının fəaliyyəti, tədrisin təşkili, təhsil müəssisəsində kadr hazırlığı barədə geniş təqdimatla çıxış edib. Rektor U.Ələkbərov Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin müasir müstəqil dövlətimizin qurulmasında, möhkəmlənməsində müstəsna xidmətlərindən, onun zəngin siyasi irsinin, dövlət idarəçilik təcrübəsinin əhəmiyyətindən danışıb. Akademik deyib: "Azərbaycan Respublikası son illərdə iqtisadi, sosial və humanitar inkişaf, həmçinin ölkənin təhlükəsizliyinin təmin edilməsi sahələrində öz tarixində ən yüksək nailiyyətlər qazanıb. Bu nailiyyətlər Azərbaycan Respublikasında tətbiq edilən innovativ dövlət idarəçilik texnologiyaları, uğurla həyata keçirilən insan inkişafı siyasəti, ardıcıl və məqsədyönlü islahatlar, dövlət qulluğu sistemi üçün yüksək səviyyəli kadr potensialının formalaşdırılması və səfərbər olunmasının məntiqi nəticəsidir. Bütün bu proseslərin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub, Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla inkişaf etdirilərək yeni səviyyəyə qaldırılıb". DİA-nın rektoru akademik Urxan Ələkbərov davamlı inkişaf, inklüziv cəmiyyətin formalaşması üçün dövlət idarəçiliyinin yeni texnologiyaları sahəsində ölkənin əldə etdiyi uğurları da qeyd edib. Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası qlobal miqyasda prioritet kimi qəbul edilən inklüziv inkişafın səmərəli planlaşdırılması və idarə edilməsi üzrə dünya lideridir. İnklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə



çevrilməsinin təməlində Prezident İlham Əliyevin innovativ dövlət idarəçiliyi strategiyası dayanır. Qazanılan uğurların 44 günlük Vətən müharibəsindəki parlaq Qələbədə böyük rolu olub. Bildirilib ki, Azərbaycanın hazırkı davamlı inkişafı dövlət idarəçiliyi sahəsində reallaşdırılan ardıcıl uğurlu islahatların nəticəsidir. U.Ələkbərov, həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən fəaliyyətin uğurlarını qeyd edib. Rusiya Federasiyası Prezidenti yanında Xalq Təsərrüfatının İdarəedilməsi və Dövlət Qulluğu Akademiyasının Dövlət Qulluğu və İdarəedilməsi İnstitutunun direktoru Ruslan Korçaqin təmsil etdiyi təhsil müəssisəsi haqqında ətraflı məlumat verib. O, təhsil müəssisəsinin bakalavr və magistratura proqramları, doktoranturaya qəbul qaydaları, dövlət qulluqçularının ixtisasları barədə danışıb. Görüşdə, eyni zamanda, iki təhsil müəssisəsi arasında əməkdaşlıq, birgə konfransların, seminarların keçirilməsi barədə razılıq əldə olunub.

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası............7**
DOI: 10.30546/2309-1347.83.2023.7

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları............................13**
DOI: 10.30546/2309-1347.83.2023.13

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri........................................29**
DOI: 10.30546/2309-1347.83.2023.29

Belçika Krallığına işgüzar səfər ..........................................................................29
Cəlilabad, Xocalı və Şuşaya səfər .......................................................................29
Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfər ............................................48
Macarıstana işgüzar səfər .....................................................................................53
Füzuli və Şuşaya səfər ..........................................................................................54
Kəlbəcər və Laçın rayonlarına səfər.....................................................................58
Tacikistana səfər ...................................................................................................70
Naxçıvana səfər ....................................................................................................72
Cəbrayıl və Zəngilan rayonlarına səfər ...............................................................76

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri,**
**çıxışları və müsahibələri ..................................................................................................81**
DOI: 10.30546/2309-1347.83.2023.81

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi ...................................................81
DOI: 10.30546/2309-1347.83.2023.81

2023-cü ilin altı ayının yekunlarına həsr olunan müşavirədə
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi....................................................84
DOI: 10.30546/2309-1347.83.2023.84

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin
Çinin "China Media Group" media korporasiyasına müsahibəsi ................................................89
DOI: 10.30546/2309-1347.83.2023.89

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin
"Euronews" televiziyasına müsahibəsi .......................................................................................97
DOI: 10.30546/2309-1347.83.2023.97

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti.................................101
DOI: 10.30546/2309-1347.83.2023.101

Zəngilanda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunda
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi ..................................................104
DOI: 10.30546/2309-1347.83.2023.104

**KULTUROLOGİYA**

**Фуад Мамедов.** О смыслах и преобразовательных возможностях науки о культуре .......109
DOI: 10.30546/2309-1347.83.2023.109

**TARİX**

**Байболот Абытов.** Неординарная и креативная личность советского и постсоветского Азербайджана: Гейдар Алиев ....................................................................................123
DOI: 10.30546/2309-1347.83.2023.123

**Arzu Xəlilzadə.** IV sənaye inqilabının çağırışları və Azərbaycan ...........................................133
DOI: 10.30546/2309-1347.83.2023.123

**HÜQUQ**

**Hafiz Musayev.** Cinayət yolu ilə əldə edilmiş pulların leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin əsasları .....................................................................143
DOI: 10.30546/2309-1347.83.2023.143

**Rahib Əkbərov.** Dövlət quruculuğunun inkişafı və möhkəmləndirilməsində referendum aktlarının rolu .........................................................................................................................151
DOI: 10.30546/2309-1347.83.2023.151

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ**

**Aqil Əhmədov**. Azərbaycan-Türkiyə miqrasiya əməkdaşlığında Şuşa Bəyannaməsi: təhlükəsizlik və inkişaf.............................................................................................................159
DOI: 10.30546/2309-1347.83.2023.159

**Nigar Babaxanova.** Əlyazmaların tədqiqi və təbliği sahəsində beynəlxalq inteqrasiyanın müqavilə-hüquqi bazası və elmi-təşkilati aspektləri ..................................................................171
DOI: 10.30546/2309-1347.83.2023.171

**İQTİSADİYYAT**

**Səidə Qurbanova.** Müəssisə rəhbərliyi və işçilərinin qarşılıqlı əlaqə mexanizmlərinin qurulmasının bəzi aspektləri ..........................................................................................183
DOI: 10.30546/2309-1347.83.2023.183

## G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R


**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**

**Fəqan Tahirli.** Azərbaycanın cənub regionunda davamlı inkişaf siyasəti ................................189
DOI: 10.30546/2309-1347.83.2023.189

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Nisə Paşayeva.** Azərbaycanda gənclər siyasətinin formalaşması və beynəlxalq səviyyədə onun prioritetləri ................................................................................................................199
DOI: 10.30546/2309-1347.83.2023.199

**Üzeyir Mustafayev.** Zəngəzur dəhlizinin Azərbaycan Respublikası və Cənubi Qafqaz regionu üçün əhəmiyyəti ..........................................................................................209
DOI: 10.30546/2309-1347.83.2023.209

**Лала Талыбова.** Геополитическое влияние Европейского Союза на Южный Кавказ .....221
DOI: 10.30546/2309-1347.83.2023.221

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ**

**Gülarə Bağırova.** Postmüharibə dövründə Azərbaycan Respublikasının hərbi sahədə beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişafı ......................................................................231
DOI: 10.30546/2309-1347.83.2023.231

**İQTİSADİYYAT**

**Гюльзар Исмаилзаде.** Роль человеческого капитала в модернизации экономики и его основные характеристики ............................................................................................241
DOI: 10.30546/2309-1347.83.2023.241

**SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR**

**Tacirə Abdullayeva.** Seçki sisteminin tipləri və xüsusiyyətləri: beynəlxalq təcrübə ...............249
DOI: 10.30546/2309-1347.83.2023.249

**Dövlət İdarəçilik Akademiyasında** ..........................................................................................257
DOI: 10.30546/2309-1347.83.2023.257

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal «Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author’s (s’) academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

## Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2023, №3(83)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və baş müəllim *F.Şammədov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *filologiya üzrə fəlsəfə foktoru,*
*dosent Ülkər Şəfiyeva* tərəfindən redaktə edilmişdir.

Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhmәzova*

*Elmi jurnalın Rəqəmsal Obyekt İdentifikatorları (DOI)*
*"Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi " İB-yi tərəfindən təmin edilir.*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Sifariş 58. Tiraj 500.

# Journal of Public Administration:
# Theory and Practice

***Scientific and theoretical journal***

**2023, №3(83)**

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, Associate professor*
and *F.Shammedov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Ulker Shafiyeva, Ph.D., Associate professor*

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*

*The Digital Object Identifiers (DOIs) of the scientific journal are provided by the "Center for Global Cooperation and Analytical Research"*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed from ready made diapositives at the printing house of the
**«Aspoliqraf LTD»**
Order 58. Number of copies printed 500